# *Aforizmlər:*

# *seçilmişlərdən seçilmişlər*

**Prof. Dr. Səlahəddin Xəlilovun təqdimatında**

**Bakı - 2012**

Müəllif-tərtibçi: ***Səlahəddin Xəlilov***

**Aforizmlər: seçilmişlərdən seçilmişlər.**
***Prof. Dr. Səlahəddin Xəlilovun təqdimatında,* Bakı, Çaşıoğlu, 2012, 560 səh.**

Kitaba Şərqin və Qərbin tanınmış mütəfəkkirlərinin dərin fəlsəfi məna kəsb edən aforizm və kəlamları daxil edilmişdir. Aforizmlərin böyük əksəriyyəti oxucuya ilk dəfədir ki, təqdim olunur.

Kitab geniş oxucu auditoriyası üçün nəzərdə tutulmuşdur.

**ISBN: 978-9952-8147-2-9**

**©Xəlilov S., 2012**

# Ön söz

Adətən kitablar ön sözlə başlayır. Hikmət kitabının özəlliyi isə bundan ibarətdir ki, hər bir aforizm özü bir ön söz, sirli-sehirli düşüncə dünyasına açılan fərqli bir qapıdır. Bu dünyaya məhz hansı qapıdan girməyimizdən çox şey asılıdır. Çünki gözlərimiz önündə hər dəfə yeni bir aləm açılacaqdır. Söz sözü gətirir və onların hər düzülüşündən bir naxış yaranır.

"*Fikrin düyün nöqtələri xalçanın ilmələri kimidir*" (Əbu Turxan). Lakin xalçada ilmələr vahid bir ahəngin ifadəsinə xidmət etdiyi halda, fikir düyünlərini eyni bir ahənglə düzmək daha çətin bir məsələdir. Ona görə də fikirlərin düzülüşündən, neçə birləşməsindən asılı olaraq, çox müxtəlif ahənglər yaranır.

Fikrin bu tipli ümumiləşmiş, universallaşmış, yığcam, lakonik deyilişləri əslində fəlsəfi təfəkkürdən ciddi surətdə fərqlənir. Belə ki, bütün bu deyimlər hansı isə məqamın önə çəkilməsi, vurğulanması, bəzən hətta mütləqləşdirilməsi hesabına yaranır. Yəni burada təhlil yoxdur və konkret situasiyanın doğurduğu əlahiddə şərtlərdən sərf-nəzər edilir.

Riyaziyyat, təbiət elmləri ona görə dəqiqdirlər ki, burada fikir ilkin vəziyyətin, *verilənlərin* kafi əsas olması şərti ilə yürüdülür. İlkin vəziyyətdən asılı olmadan, bütün zamanlarda və məkanlarda hamı üçün eyni, universal prinsiplər fəlsəfənin pre-

roqativinə aiddir. Amma müdrik fikirlər də həmin bu statusa iddialıdır. Bir fərqlə ki, fəlsəfə həqiqətən ən ümumi anlayışlardan çıxış edir və hər hansı bir konkret həyati məsələdə bələdçi, məsləhətçi olmaq iddiasına düşmür. Amma müdriklik aşağılarda, gerçək həyatın özündə və bəzən hətta dibində baş verənləri ümumiləşdirir və insanlara həyat və fəaliyyətində yol göstərmək və ya bu yola çıraq tutmaq iddiası ilə çıxış edir.

Filosofun müdrikliyi fikrin daha yüksək məqamında və daha yüksək mücərrədləşdirmə səviyyəsində ortaya çıxır. Ona görə də onun dedikləri adi insanlar üçün həm anlaşılmaz, həm də gündəlik həyati məsələlərdən çox uzaq olur. Başqa sözlə desək, filosofun tutduğu çıraq yolun özünü, onun künc-bucağını, enişini-yoxuşunu yox, ancaq son məntəqəsini işıqlandırır. Amma bu məntəqəyə gedib çatmaq üçün hələ nə qədər müxtəlif həyati vəziyyətlərdən keçmək lazımdır?! Yəni müdrikliyin məkanı haradasa cari, gündəlik həyatla bu həyatın üfüqləri arasındadır. Burada fəlsəfədəki kimi mücərrəd insan ümumisinin dünya ilə münasibətləri yox, müəyyən ictimai mühitlə, milli-mədəni məkanla, konkret inkişaf səviyyəsi ilə bağlı olan əlamətlər, münasibətlər ehtiva olunur. Əslində sıravi insan bir mütəxəssis kimi yetişmək üçün müvafiq sahə üzrə ixtisaslaşmış təhsil alır. Amma bir insan kimi həyatını necə qurmaq, necə yaşamaq, nələrə üstünlük vermək, hansı vəziyyətlərdə hansı meyarlardan çıxış etmək və s. bu kimi suallarla təkbaşına qalar.

Bu kitab bir fəlsəfə tədqiqatçısı tərəfindən həm elmi-nəzəri müstəvidə, həm də praktik həyat müstəvisində saf-çürük edilməklə, hər bir mövzu üzrə minlərlə aforizmdən ancaq ən dəyərlilərini seçməklə hazırlanmışdır.

Əlamətdar haldır ki, kitabda imkan daxilində ancaq pozitiv yönlü aforizmlər toplanmış, ənənəvi “Atalar sözləri” və “Aforizm” kitablarında özünə yer etsə də, buna layiq olmayan,

habelə ikimənalı, neqativ yozumlu fikirlər mətnə daxil edilməmişdir.

Belə bir sual da ortaya çıxır ki, nəyə görə aforizmlər əsasən əvvəlki dövrlərdə yaşamış mütəfəkkirlər tərəfindən söylənmişdir? Niyə müasirlərimizin aforizm "yaradıcılığı" əksər hallarda ya təkrar olur, ya da çox bəsit görünür?

Müdriklik hansı isə xüsusi təhsilin, peşə və ya ixtisas fəaliyyətinin nəticəsi olmayıb, hamının yaşadığı həyat həqiqətlərini müşahidə etmək, onların ümumiləşdirilmiş ifadəsini vermək qabiliyyətidir. İxtisaslaşmış bilik bizi gündəlik həyatımıza, insani mahiyyətimizə nəinki yaxınlaşdırmır, əksinə, ondan uzaqlaşdırır. İnsan özgələşir. Ona görə də böyük alimlər, ixtiraçılar və s. adi həyatın, insani mahiyyətin biliciləri olmaqdan daha çox, ancaq müəyyən mütəxəssislər dairəsində anlaşıla bilən fikir fəzasında yeni söz deyə bilirlər. Gündəlik həyatda isə onlar çox vaxt sıradan biri olurlar. Müasir dövrdə sələflər təkrar etmədən məhz müasir həyat üçün spesifik olan və hamımızın yaşadığımız, yəni həyati mahiyyətə daxil olan yeni elementlər, yeni çalarlar daha çox dərəcədə sivilizasiyanın təsiri ilə əlaqədardır. "İkinci təbiətlə" ünsiyyət əsl təbiətin yerini verə bilmir, sosiallaşmış, siyasiləşmiş, intellektuallaşmış bir həyatın özəlliklərindən bəhs edən və bu yeni həyat mənzərəsinin dərin mənəvi qatlarını üzə çıxaran hikmətamiz sözlər, təəssüflər olsun ki, az-az yaranır. Bu baxımdan, Xudu Məmmədovun elm və sənətin həyatımıza gətirdiyi yeniliklər və onların qarşılıqlı əlaqəsindən irəli gələn cəhətlər xüsusilə əlamətdardır. Məsələn, elmi məqalənin publisistik bir əsərdən fərqini göstərmək üçün Xudu Məmmədov yazır ki, istənilən bir elmi məqaləni ilkin hazırlıq olmadan oxumaq təşəbbüsü söhbətə ortasından qoşulmaq kimi bir şeydir. Söhbətin əvvəlini bilmədiyindən o, heç nə başa düşməyəcək. Sonradan söhbətə qatılmaq təşəbbüsü el arasında *"bilmir, qazanda nə bişir, de-*

*yir, bir çömçə də mənə tök”* sözləri ilə də ifadə olunur. Bu hikmətin elmi fəaliyyət sferasına transformasiyası təbii ki, ancaq alimlər üçün anlaşılandır. Əslində onların da belə hikmətlərə ehtiyacı var, çünki elmi fəaliyyət bir çox adamlar üçün artıq həyat tərzinə çevrilmişdir.

Bir sözlə, bu kitab həm də klassika ilə müasirlik arasında bir körpü, hikmət dünyasına müasir baxışdır.

Aforizmlərin toplanmasında, seçilməsində, tərcüməsində yardımlarına görə Şərq-Qərb tədqiqat mərkəzinin əməkdaşları fəlsəfə elmləri doktoru Könül Bünyadzadəyə və fəlsəfə doktoru Lətafət Hümmətovaya öz dərin minnətdarlığımı bildirirəm.

Onu da qeyd edək ki, kitaba daxil edilmiş aforizmlərin çoxu Azərbaycan oxucusuna ilk dəfədir ki, təqdim olunur. Ona görə də, gələcək nəşrlərdə seçim meyarını daha da təkmilləşdirmək üçün oxucu rəyinə böyük ehtiyac vardır.

ssx@azun.baku.az

*Giriş əvəzi:*

# *Dildə yatan fəlsəfə*

*Aforizmlər iki cür olur. Bir qisim aforizmlər fikirlərdən nəticə kimi hasil olur. Başqa bir qism isə fikrin hələ açılmamış, şaxələnməmiş ilkin variantıdır.* O açıla-açıla gedir, böyük fəlsəfi sistemlər yaranır. Və böyük fəlsəfələr insana qayıtmaq üçün yenidən hansı isə aforizmlərdə konsentrasiya olunur. Kantın fikrinə görə, aforizm, hikmət ancaq o zaman həqiqəti daha yüksək səviyyədə ifadə edə bilir ki, elmi kontekstə salınmış olsun: *"Elmsiz müdriklik (hikmət) kamilliyin ancaq kölgəsidir"*[1]. Belə ki, fikirlər zəncirindən qoparılmış ayrıca bir halqa özlüyündə nə qədər dəyərli olsa da, hara getdiyini bilmir, istiqamətdən, yöndən məhrumdur. Ona görə də müdrik fikirlər bir neçə səmtə yozula bilər. Onları düzgün yoza bilmək və yerində işlədə bilmək üçün adamın özündən müdriklik tələb olunur. Necə deyərlər, gərək xəmirin hikmətlə yoğrulmuş olsun. Bu isə ancaq o zaman mümkündür ki, adamın dil açdığı dilin özü də hikmətli olsun.

Dildə yatan fəlsəfə! Dilin hikmət potensialı!

İnsanın həyat yoluna işıq salan müdrik fikirlər ilk öncə şifahi xalq ədəbiyyatından qaynaqlanır. Həyatın hikməti öz ifadəsini fəlsəfədən daha çox, mifik təfəkkürdə, dastanlarda və əsatirlərdə tapır. Xalq hikməti kimi, aforizmlər də insanların həyat təcrübəsinin məntiqi ümumiləşdirilməsindən daha çox, hissi

---

[1] *Кант И.* Собрание сочинений в восьми томах / Под общей ред. проф. А.В.Гулыги. М., Изд-во «Чоро», 1994. Т.8. с.91.

yaşantıların obrazlı ifadəsinə uyğun gəlir.

Aforizmdə fikir qapanır. Fikrin gözəlliyi ilə deyilişin gözəlliyi bir-birini tamamlayır. Lakin çoxlu gözəl ifadələr var ki, özlüyündə müəyyən bir fikrin ifadəsinə xidmət etsə də, açıq qalır. Bunlara bəzən "qanadlı ifadələr" də deyirlər.

Hələ bitməmiş fikirlər təxəyyül üçün geniş meydan açır. Fikrin hansı istiqamətdə tamamlanması, hansı səmtə yönəldilməsi hər bir adamın öz intellektual və mənəvi səviyyəsindən asılı olur. Lakin dil də buna imkan verməlidir. Oturuşmuş "qanadlı sözlər", klassik ifadələr də dilin zənginliyindən xəbər verir. Maraqlıdır ki, təbii işlək dil kimi sıradan çıxmasına baxmayaraq, latın dili indi də bir hikmət dili kimi işlənməkdədir. Amma təxəyyül üçün ən böyük meydan ənənəvi təşbehlərin, bədii rəmzlərin zənginliyi sayəsində açılır.

Bütün poeziya açıq fikirlər əsasında qurulmuşdur.

Poeziya əsasən təsvir və tərənnüm edir; ya ruhu təbiətin rəngində, ya təbiəti ruhun dilində! Düşünməyi və fəlsəfi nəticələr çıxarmağı isə oxucunun öz öhdəsinə buraxır. Lakin bütün məharət də elə bundan ibarətdir ki, həyatın, təbiətin elə səhnələrini və elə təsvir edə biləsən ki, o, duyğuları canlandırsın, zəka çırağını alışdıra bilsin.

Aforizmdə fikrin başlanğıcı və sonu bir yerdədir. Fəlsəfə isə başlanğıcdan sona qədər böyük bir səyahətdir. Amma bu səyahət bir düşüncə prosesidir, – filosofluqdur (rusca "философствование"). Səyahətin özü də müstəqil dəyər hesab oluna bilər, amma necə ki, hər səfərdən bir xatirə ilə, suvenirlə qayıdırlar, eləcə də uzaq məsafəli düşüncələrdən arabir qısa, yetkin, bitkin fikirlər də hasil olur. Bizə qalan da, hamının istifadəsinə verilən də elə bu "suvenirlər"dir.

Çox vaxt aforizmləri ayrıca bir ədəbi janr kimi dəyərləndirirlər. Lakin ədəbi-fəlsəfi fikir tarixində oturub məhz aforizm

yazmaqla məşğul olan çox az ədiblər göstərmək olar. Bunların ən parlaq nümayəndələri Monten və Lixtenberq hesab olunur. Blez Paskalın da məhz aforizm janrına uyğun gələn müdrik fikirləri çoxdur. Şərq ədəbi-fəlsəfi fikrində yaradıcılığı əsasən nəsihətlər kimi səslənən mütəfəkkirlər, məsələn, Mövlana və Sədi Şirazi də kiçik hekayətlər yazmış və onların xülasəsi olaraq bir və ya iki beytdə öz fikirlərini ifadə etmişlər. Lakin sufilərin yaradıcılıq üslubuna uyğun gələn və ola bilsin ki, hədislərdən qaynaqlanan bu yaradıcılıq növü aforizm janrına aid edilə bilməz. Sadəcə olaraq daha çox həyata yaxın olan, məsələn, Sədi Şirazi kimi, gəzib-gördüklərini qələmə alan insanların müşahidələrinin və ibrətamiz həyat təcrübəsinin yığcam hekayətlər şəklində qələmə alınması doğrudan da ayrıca bir ədəbi janr hesab oluna bilər. Amma təkrar edirik ki, bu janrın aforizmlərə birbaşa aidiyyəti yoxdur. Məsələn, başdan ayağa bu cür nəsihətlərdən ibarət olan *Kəlilə və Dimnə, Qabusnamə,* habelə Sədinin *Bustan və Gülüstan* əsərlərindən sözün klassik mənasında aforizm seçmək cəhdlərimiz elə də uğurlu nəticə vermədi. Götenin, Tolstoyun əsərlərindən seçilən yüzlərlə aforizmlə müqayisədə Şərqin nəsihət abidələrindən çox az sayda aforizm seçə bildik.

Araşdırma göstərir ki, Şərqdə konkret hadisələrin təsvirindən ayrıla bilməyən, ümumiləşmə dərəcəsi aşağı olan fikirlərin gücü, daha çox onların ədəbi-bədii dəyərindədir. Yəni, ya hekayətin bədii koloriti, ya şeirin ahəngi önə çıxır və fikir yenə də arxa planda qalır. Onlar bədiilikdən azad edildikdə, "çılpaq halda", yəni məhz bir fikir kimi ayrılıqda yaşamaq və nəsildən-nəslə ötürülmək qüdrətində olmur.

Maraqlıdır ki, əslində Qərbdə də aforizmlər böyük alimlərdən və filosoflardan daha çox, ədiblər tərəfindən söylənmişdir. Lakin diqqəti önəmli bir cəhətə yönəltmək istərdik. Biz "ədiblər" dedik, amma bunu konkretləşdirsək, məlum olur ki,

fikrin müstəqil dəyər kəsb etməsi üçün məhz epik təfəkkür daha vacib şərtdir.

Şərq üçün səciyyəvi olan poetik üslub və sözün "bəzənməsi" xeyli dərəcədə Qərb poeziyasına da aiddir. Görünür, ona görədir ki, Qərbdə ən gözəl aforizmlərin müəllifləri əsasən nasirlər və qarışıq janrlarda yazan mütəfəkkir ədiblərdir. Göte də yəqin ki, şair olduğu üçün yox, öz poetik vüsətini nəsr dilində və elmi-fəlsəfi üslubda ifadə etmək təcrübəsi olan bir sənətkar kimi bu qədər gözəl aforizmlərin müəllifi ola bilmişdir.

Başqa bir cəhəti də vurğulamaq istərdik. Böyük yazıçılar çox vaxt məqsədyönlü surətdə müdrik fikirlər "düşünüb tapmır" ki, bunu əlavə bir detal kimi öz romanına daxil etsin. Əksinə, əsl nasir çalışır ki, hər hansı bir fikir bədii kontekstdən ayrılaraq ahəngi pozmasın. Bəs onda onların "aforizm yaradıcılığı" necə baş tutur? Məsələ burasındadır ki, onlar nəinki məxsusi olaraq aforizm yazmırlar, çox vaxt heç öz aforizmlərindən xəbərləri də olmur. Bu aforizmləri böyük-böyük romanların təhkiyəsindən ayırıb müstəqil fikir kimi toplayanlar tamamilə başqa adamlardır. Bu fikri daha əyani çatdırmaq üçün biz Maksim Qorkinin Lev Tolstoyla görüşündən bir fraqmenti yada salmaq istəyirik. Qorki özünün "Öküz" əsərini Tolstoya göstərir və onun iradlarından biri də bu olur ki, nəyə görə əsərin qəhrəmanları sanki aforizmlərlə danışırlar. Və bunun təbii səslənmədiyini deyir. M. Qorki sonralar xatirələrini yazarkən belə bir cəhəti də vurğulayır ki, axı Tolstoyun öz əsərlərində də aforizm çoxdur, lakin o bunu məhz qüsur hesab edir.

Yeri gəlmişkən, Maksim Qorki doğrudan da dünya ədəbiyyat klassikləri içərisində müdrik fikirlər ustası kimi də seçilir. Lakin, görünür, əsl sənətkarlıq bu fikirləri bədii təhkiyədə məharətlə əritməkdən ibarətdir. Bununla belə, diqqətlə oxuduqda Hüqoda da, Balzakda da, Tolstoyda da, Dostoyevskidə də ya

obrazların dili ilə, ya da müəllifin öz "izahlarında" müstəqil surətdə yaşamaq haqqı olan fikirlər tapmaq çətin deyil. Biz ancaq bir neçə yazıçının adını çəkdik. Ümumiyyətlə isə bədii əsərlərin ifadə etdiyi fikirlər yazıçının özü tərəfindən aşkar şəkildə formulə olunmaya da bilər; bu iş daha çox dərəcədə tənqidçilərin öhdəsinə düşür. Ona görə də böyük tənqidçilər həm də böyük mütəfəkkir və gözəl aforizm müəllifləri olurlar. Lakin bu zaman kimin əsl müəllif olduğunu müəyyənləşdirmək çətindir. Yazıçı və tənqidçi bu cür aforizmlərin sanki həmmüəllifləridir.

Müasir aforizm yaradıcılığı təcrübəsindən çıxış edərək bir çox Şərq mütəfəkkirlərinin, o cümlədən, Nizaminin, Füzulinin əsərlərindəki ideyaları ümumiləşmiş şəkildə ifadə etmək, aforizm halına salmaq. Lakin böyük klassiklərin fikirlərini başqa formada ifadə etmək məsuliyyətini üzərinə götürmək çox böyük yükdür. Belə bir addımı biz ancaq Əbu Turxanın ideyalarını öz üslubumuzda təqdim etməklə atmışıq. Onun Şərq düşüncəsinin dərinliklərindən gələn fikirləri öncədən bədii örtüklərə bürünmədiyindən və daha çox xalis fikir şəklində, elmi-fəlsəfi əsərlərdə ifadə olunduğundan, biz onları toplamaqda çətinlik çəkmədik.

Təkcə yazıçıların deyil, alimlərin, filosofların, siyasətçilərin yazılarında və şifahi nitqində bədahətən deyilmiş çox gözəl müdrik fikirlər olur. Məsələn, dövrümüzün böyük siyasətçisi Heydər Əliyevin çıxışlarında, şifahi nitqində belə fikirlərin olduğuna diqqət verərək biz o vaxt onun aforizmlərini ayrıca kitab halında toplamaq qərarına gəldik (Bax: Aforizmlər. "Azərbaycan Universiteti" nəşriyyatı, 1997). Əlbəttə, Heydər Əliyev onları məxsusi olaraq bir aforizm kimi deməmişdi. Amma onun çıxışlarının ideya yükü o qədər böyük idi ki, ayrı-ayrı məsələlərə münasibət universal bir hikmət səviyyəsinə qaldırılırdı.

Mişel Monteni, Lixtenberqi, Vovenarqı məşhurlaşdıran

onların siyasi nitqləri, yaxud hansı isə bir fəlsəfi və ya bədii əsəri yox, məhz aforizmlər toplusudur. Düzdür, bu aforizmlərin böyük əksəriyyəti mənim xoşuma gəlmir, çünki daha böyük bir ideyanın canlı, təbii bir fikir axınına daxil olmayıb, ayrılıqda, müstəqil şəkildə quraşdırılmışdır.

Atalar sözləri də müstəqil fikir halında olur. Lakin bizə elə gəlir ki, onlar nə vaxtsa hansı isə daha sürəkli bir fikir kontekstində deyilmiş və sonralar başqa kontekstlərə də şamil edilmək üçün ayrılaraq müstəqil surətdə nəsildən-nəslə ötürülmüşdür. Bu mənada hansı sözün hansı fikir axarına aid olduğunu aydınlaşdırmaq üçün bir çox hallarda xüsusi fəlsəfi təhlilə ehtiyac yaranır.

Eləcə də aforizmlər iki cür olur: özlüyündə aydın olan tam yetkin aforizmlər və bir də şərhə, yozuma ehtiyacı olanlar. Daha doğrusu, əslində söhbət atalar sözünün və ya aforizmin yetkinliyindən daha çox, oxucuların, ictimai şüurun düzgün yönləndirilməsindən gedir. Yəni kütləvi şüur bəzi dərin fikirlər üçün yetərincə hazırlıqlı olmadığından, belə bir körpüyə ehtiyac yaranır. Bəzən də elə olur ki, fikrin üst qatı hamı tərəfindən anlaşıldığı halda, ikinci, daha dərin məna ancaq seçilmişlər (türklər demişkən, "aydınlar") üçün aydın olur.

***«Könül sevən gözəl olar».*** Bu məlum atalar sözü gözəlliyin nisbiliyinə və subyektivliyinə dair yazılmış cild-cild monoqrafiyaların ən konkret və həm də ən tutumlu ifadəsidir. Həmin fikir neqativdə də atalar sözü kimi yayılmışdır: *"Zorla gözəllik olmaz"*. "Zorla", yəni könül sevmirsə, – insanın iradəsinə rəğmən gözəllik ola bilməz. Həm də bu, daha kəskin bir deyilişdir. Belə ki, birinci halda könlün sevməsi gözəlliyi şərtləndirən amillərdən biri kimi də dəyərləndirilə bilərdi. Yəni, gözəlliyin obyektiv meyarları da ola bilər, amma bununla yanaşı, hətta bu meyarlara uyğun gəlməsə belə, könlün sevməsi nəyinsə, kimin-

sə gözəl görünməsi üçün şərtdir. Amma ikinci – inkar üzərində, neqativ planda qurulmuş atalar sözü hər hansı bir kənar amilin, hətta bu obyektiv meyar olsa belə, könülə hökm etməsini və ya, tutaq ki, rasional metodlarla gözəlliyin isbat olunmasını mümkün saymır. Burada subyektiv amil yeganə amildir; fikrin ağırlıq mərkəzi gözəlliyin üzərinə deyil, zorun üzərinə düşür. (Biz həmin ifadədə "gözəllik" məfhumunu məhəbbət, dostluq, sədaqət və s. anlayışlarla əvəz edə bilərik). Yəni, bunların heç biri zorla olmur və ancaq könlün hökmü, səlahiyyəti daxilindədir.

Amma bu fikrin güzgü əksi də eyni dərəcədə mənalı olub, kənardakı gözəlliyə deyil, könülün özünün gözəlliyinə həsr edilmişdir. Əbu Turxan deyir: ***«Sevən könül gözəl olar».*** Göründüyü kimi, bu aforizm səslənməsinə görə nəzərdən keçiriləndə, atalar sözünə çox bənzəyir. Amma fikir tamamilə fərqli müstəvidədir. Burada sevilənin gözəl görünməsindən deyil, sevənin gözəlləşməsindən bəhs olunur.

Əslində bu mövzu hələ orta əsrlərdə şifahi ədəbiyyatdan yazılı ədəbiyyata keçmiş, təsəvvüf fəlsəfəsində də yer almışdır və bu günümüzə qədər müzakirə predmeti olaraq qalır.

Çox dərin ideya və məna tutumuna malik olan atalar sözlərindən biri ***"Ağla gələn başa gələr"*** fikridir. Bu xalq hikməti böyük alman filosofu Hegelin *"ağlabatan hər şey gerçək, gerçək olan hər şey ağlabatandır"* fikrini, kim bilir, neçə yüz il qabaqlamışdır. Sadəcə biz bu ideyanın fəlsəfi yozumunu verməkdə, onun əvvəlini və sonunu da nəzərə almaqla daha böyük bir ideyanın tərkib hissəsi kimi təqdimatında gecikmişik.

Qərb filosoflarının hikmət kimi, aforizm kimi məşhurlaşmış bir çox fikirləri bizim rəsmi filosoflar tərəfindən sonradan mənimsənildiyi halda, bu fikirlərin çoxu bizim milli şüurda, el hikmətində çox-çox qədimlərdən məlumdur. Məsələn, F.Bekon deyir: *"Çoxlu qüsurları olan insanlar qüsurları ilk növbədə*

*başqalarında görürlər”.* Həmin fikir daha gözəl şəkildə bizim atalar sözündə ifadə olunmuşdur*: “Öz gözündə tiri görmür, başqasının gözündə qıl axtarır”.* Sadəcə olaraq biz öz dilimizin əsrlərin sınağından keçirərək bu günə daşıdığı ideyaları yenidən, fəlsəfi kontekstdə dəyərləndirməliyik.

Yeni Dövr Qərb elminin əsas metodlarından biri *“sınaq-səhv”* metodudur. El hikmətində bu ideya ***“sınamağı qurd yeməyib”, “tutar – qatıq, tutmaz – ayran”*** sözləri ilə ifadə olunur. Yəni fərziyyə yürütməkdənsə, praktikada yoxlamaq, sınamaq lazımdır. İdeya təsdiqini taparsa, lap yaxşı, tapmazsa, – yenə də müəyyən qənaət əldə edilmiş olur. Necə deyərlər, “mənfi nəticənin özü də bir nəticədir”. Beləliklə, Qərb dünyasında təməli Qalileylə qoyulmuş olan eksperimental elmi düşüncənin ideya əsasları hələ bizim folklorda, ola bilsin ki, Qalileydən daha əvvəl mövcud idi.

Xalq hikməti ilə fəlsəfə arasında qarşılıqlı keçidlərin olması çox vacibdir. Bizim folklorumuz, dilimiz hikmətlə nə qədər zəngin olsa da, bu zəngin təməldən fəlsəfəyə keçid istiqamətində addımlar atılmamışdır.

Fikirlər ilk baxışda nə qədər müstəqil görünsə də, əslində bir fikir başqa bir fikrin rüşeyimi olmalı və ayrı-ayrı halqalar birləşərək zəncirvarı proses yaratmalıdır. Lakin universal ifadə vasitələri heç də həmişə bitmiş fikir şəklində olmur. Bir çox hallarda ifadələr, deyimlər, söz birləşmələri, simvolik məna kəsb edərək müstəqilləşir və ancaq hansı isə bir fikri gücləndirmək, vurğulamaq üçün istifadə olunur. Bəzən də bir ifadə özündə elə böyük bir potensial saxlayır ki, müxtəlif fikir zəncirlərinin düyün nöqtəsi kimi çıxış edir. Məsələn, ***“getdim onu tutmağa, o məni tutmuş idi!”*** Bu “hekayətin” əslində ən müasir fəlsəfi təlimlər, o cümlədən fenomenologiya və sinergetik təfəkkür üçün bir ip ucu olduğunu dərk etmək elə də asan məsələ deyil.

Lakin bununla belə, Azərbaycan folklorunun özündə necə böyük bir fikir potensialı saxladığına əmin olmaq üçün onu fəlsəfi kontekstdə yenidən nəzərdən keçirək.

İnsan dünyanı mənimsəməyə, onu öz düşüncə toruna salmağa çalışır. O (əslində o-nun cismani varlığı – bədəni), ətraf mühitlə qarşılıqlı əlaqəyə girir və bu əlaqə sayəsində mühit haqqında müəyyən informasiya alır. İnsan öz diqqətini mühitin müəyyən bir hissəsinə və ya rakursuna yönəldir, müəyyən lokal hadisəni öz tədqiqat predmetinə çevirir. Bu zaman o – subyekt, həmin predmet isə obyekt rolunda çıxış edir. Yəni fəal tərəf – "tutmağa gedən"dir. Lakin insan istəsə də, istəməsə də mühitlə müəyyən qarşılıqlı əlaqədədir, ona təsir edərkən həm də ondan təsirlənir (qeyri-aşkar informasiya alır). İnsanın məqsədyönlü (şüurlu) surətdə əldə etmədiyi kortəbii informasiya (qeyri-şüuri proseslər) onun özünə bəlli olmur. Belə hallarda insan subyekt rolunda çıxış etmir, əksinə, mühitin təsirinə məruz qalmaqla obyekt vəziyyətinə (tora) düşür" – "tutulmuş olur".

Eləcə də rübailər, yekun beytlər, lirik ricətlər və s. Yaxşı natiqlər öz çıxışlarını klassik deyimlər və beytlərlə bəzədikdə, dinləyicilərin qəlbinə daha tez yol tapırlar.

Yaxud yazılı mətnlərdə uğurlu seçilmiş bir epiqraf oxucunu öncədən yönləndirməklə, müəllifin işini xeyli asanlaşdırır. Qərb dünyasında millətindən asılı olmayaraq, bütün xalqlar bu məqsədlə bir çox latın frazalarını orijinalda olduğu kimi istifadə edirlər. Bunlar aforizm sayılmasa da, yəni özlüyündə bitkin fikir olmasa da, mətnə daxil edildikdə bəzən aforizmdən daha çox səmərə verir.

Qərb düşüncəsi lirik olmaqdan daha çox, epik səciyyə daşıdığına görə, fikirlər də çox vaxt nəsrlə, bər-bəzəksiz ifadə olunur. Amma fəlsəfi mətnlərdə fikirlər bir-biri ilə elə çulğalaşır ki, onların hər hansı birini ayırdıqda müəllifin nə demək istədiyini

müəyyənləşdirmək çətin olur. Yəni fikirlər sadə yox, mürəkkəb olduğundan, onların aforizm halına salınması mümkün olmur. Məhz bunun nəticəsidir ki, dünyanın ən böyük mütəfəkkirlərinin, böyük filosofların yazdıqlarını aforizm şəklinə salmaq elə də asan məsələ deyil. Yəni onlar özləri bunu ediblərsə ediblər, etməyiblərsə, sonradan bu "əməliyyatı" aparanda, alınan aforizmin müəlliflik hüququ sual altında qalır.

Qərbdə ruhsuz dünyanı, «obyektiv reallığı» bir qayda olaraq elmi dillə, insan ilə dünya arasındakı münasibətləri isə fəlsəfi dillə ifadə edirlər. İnsan dünyasının ifadə olunmasına isə fəlsəfə ilə yanaşı, incəsənət, ilk növbədə poeziya iddialıdır. Lakin elmi-fəlsəfi yanaşma ilə poetik yanaşma arasında köklü fərqlər vardır. Qərb sivilizasiyasının siması, əlamətdar cəhəti kimi başa düşülən elmi düşüncə sadəcə bir alternativ təsvir üslubu olmayıb, əlahiddə bir keyfiyyətə malikdir ki, buna kumulyativlik deyilir. Yəni inkişaf müxtəlif şəxslərin gördükləri işlərin, əldə etdikləri yeni biliklərin toplanması hesabına gedir.

Şərq poeziyasında da ümumiləşdirmələr vardır. Yəni konkret hadisələrin təsvirindən sonra ümumiləşdirici bir fikir hasil olur ki, bu da Şərq müdrikliyi kimi məlumdur. Lakin bu ümumiləşdirici fikir bir qayda olaraq əxlaqi müstəvidə, nəsihət və ya davranış düsturu, resept kimi təqdim olunur.

Bu üslub Bibliya və Quran da daxil olmaqla bütün dini kitablarda da aparıcı üslubdur.

Bunu da nəzərə almaq lazımdır ki, atalar sözlərinin bir qismi neqativ planlı folklorla bağlıdır. Lakin istənilən halda dəyəri olmayan heç bir fikir şifahi xalq ədəbiyyatında yaşamır. Sadəcə olaraq belə fikirlərin düzgün yozuma, hermenevtik təhlilə ehtiyacı var. Bu mənada mübahisəli görünən bəzi atalar sözlərini təhlil etməyə çalışacağıq.

Məsələn: *“**El üçün ağlayan gözdən olar”.*** Bu söz sanki milli ruha, vətənpərvərliyə ziddir. Bəs onda necə “atalar sözü” ola bilibdir? Çox vaxt fikir anlaşılmazlıqları sözlərin, terminlərin mənasının dəqiq olmamasından irəli gəlir. Ona görə də, əvvəlcə “el” sözünün mənası müəyyənləşdirilməlidir. Dilçilərin sinonim kimi qəbul etdiyi bir çox sözlər var ki, fəlsəfi kontekstdə onlar fərqli məzmun daşıyırlar. “El”, “əhali”, “kütlə”, “camaat”, “xalq” və, nəhayət, “millət”, “cəmiyyət”, “bəşəriyyət” sözləri heç də sinonim olmayıb, özünəməxsus məna çalarına malikdirlər. *Kütlə* və *camaat* adətən hansı isə bir ideya ətrafında toplanmayan adamların kortəbii birliyidir. Burada birləşdirici amil sadəcə məkan, zaman və ya hansı isə təsadüfi hadisə ola bilər. Onu müəyyən məcraya yönəltmək, yönləndirmək, idarə etmək ona görə mümkün deyil ki, *“hər ağızdan bir avaz gəlir”. “Əhali”* sözü isə müəyyən bir ölkənin, ərazinin sakinlərini əhatə edir ki, burada da yeganə ümumi cəhət məhz sərhəddin, məkanın müəyyənliyidir. Kütlədən fərqli olaraq burada daimi yaşama şərtləri tələb olunur. Yəni müəyyən əraziyə müvəqqəti, təsadüfən gəlmiş adamlar oranın əhalisinə aid deyil. Bu mənada kütlə və camaat məkanca daha lokal, lakin müvəqqəti, əhali isə seyrək paylansa da, daha dayanıqlıdır. El sözü daha çox əhali sözünə yaxındır, daha doğrusu, əhali ilə xalq arasında qoyula bilər. Daha mütəşəkkil ictimai birlik forması isə cəmiyyətdir və onun da bütün siyasi-hüquqi, iqtisadi, mədəni-mənəvi parametrlərlə konkretləşmiş, dövlət maşını ilə tənzim və təcəssüm olunan forması – millətdir.

Beləliklə, *“kütlə üçün ağlamaq”, “el üçün ağlamaq”,* “*millət üçün ağlamaq*”, – əslində fərqli şeylərdir.

Milli mənafe və onun həyat amalına çevrilməsi ictimai inkişafın yüksək pilləsinə aiddir. Əlbəttə, bundan daha yüksək forma kimi ümumbəşəri mənafe və mücərrəd insan sevgisi, yəni

"ümumiyyətlə insan" üçün ağlamaq, yəni çalışmaq, yanmaq haqqında danışmaq olardı. Amma burada sanki dairə qapanır və son yenidən başlanğıca gəlir. Mücərrəd insan üçün ağlamaq əslində əsli-zatı bilinməyən, ideyası və amalı bəlli olmayan "kütlə", "camaat" üçün ağlamaq kimi bir şeydir. Yəni bir-birini öldürən iki düşmənin hər ikisi üçün ağlayırsan. Bu, bir növ *"imam üçün ağladıq, indi də gəlin yezid üçün ağlayaq"* məsəlini xatırladır. Düzdür, bu sonuncu məsəl bir qədər fərqlidir, yəni ola bilsin ki, qatilin də günahını məhz faciə kimi dəyərləndirərək onu da yazıqlamaqdan söhbət gedir.

Bax, "el" sözünü "camaat", "kütlə", "mücərrəd insan" mənasında başa düşəndə, "el üçün ağlayan gözdən olar" deyiminin mənası daha aydın başa düşülür. Amma "el" milliləşdiriləndə, dövlətləşdiriləndə, yəni ideyası, amalı bəlli olanda, başqa sözlə, konkretləşəndə, "hansı el" sualına cavab veriləndə, onda bu məsəlin yönü də dəyişir. *"Sən kimin üçün ağladığını de, mən sənin kim olduğunu deyim".*

İndi ağırlıq mərkəzini *"el"* sözündən *"ağlamaq"* sözünə keçirək. Yəni əslində sadəcə "ağlamaq" özü acizlik əlaməti hesab oluna bilər. Ağlamaq zəiflərin nəsibidir. Müəyyən kritik məqamlarda "ürəyi boşaltmaq" üçün qaçılmaz olsa da, geniş planda götürdükdə yüksək bir keyfiyyət hesab olunmur.

Əbu Turxan həmin atalar sözünü başqa yozumda verir:

*El üçün ağlayan gözdən də olar,*
*Küləş tək alışan közdən də olar,*
*Ağlayıb-sızlamaq nəyə gərəkdir,*
*Böyük iş əməldən, sözdən də olar.*

Yəni millətə heç də ağlamaq yox, gerçək iş, əməl, söz lazımdır. Amma "ağlamaq" sözünü məhz "yanmaq" mənasında işlətsək, iş, əməl, söz də yanmağın təzahürləri olacaqdır.

Yaxud: ***"Girdin şəhərə, hamı gözü qıpıq, sən də ol gözü qıpıq".*** Bu cür fikirlər o cəmiyyətlərdə olur ki, orada fərqlənən adamları, cəmiyyətdən uca dayananları sevmirlər. Hamının əyri olduğu cəmiyyətlərdə məhz düz adamlar əyri görünürlər. Bu cəmiyyətin öz məntiqi də vardır: *"Düz adamdır, bəs niyə əyri iş görmür?* Yaxud hamının sərxoş olduğu bir məclisdə ayıq adamı sevməzlər, çünki o başqalarının eyiblərini görə bilər. Dəlilər çoxluq təşkil edən yerdə ağıllı adam dəli kimi görünür. Bu kontekstdə belə bir hekayət yada düşür.

*Bir dəfə münəccim şaha deyir ki, elə bir yağış yağacaq ki, onun suyundan kim içsə, dəli olacaq. Şah vəziri-vəkili yığıb məşvərət eləyir. Belə ki, bütün içməli su hövzələri açıq olduğundan, yağışın suya qatışmasının qarşısını almaq qeyri-mümkün idi. Onda vəzir belə məsləhət görür ki, heç olmasa şah və onun yaxış adamları üçün qapalı yerdə su toplayaq, yağış ona qatışa bilməsin. Elə də edirlər. Yağış yağır, bütün əhali sudan içir, bircə saray əhlindən başqa. Amma bir neçə gün keçir, əhali arasında söz-söhbət yayılır ki, şahı dəyişmək lazımdır, çünki şah da, onun ətrafı da dəli olub. Şah vəziri çağırıb yenidən məsləhət istəyir. Vəzir isə deyir ki, şah sağ olsun, bircə çarə var; gərək biz də o sudan içək.*

Yəni "hamı kimi olmaq", fərqlənməmək tələbi bəzən qaçılmaz olur. Əbu Turxan deyir: *"Dəlilər çox olanda ağıllıları «müalicə etmək» daha rahat olur".* Roma imperatoru Qrasian da, görünür, bunu nəzərdə tutaraq deyirdi: *"Ağıllı olub tək qalmaqdansa, hamı ilə birlikdə dəli olmaq yaxşıdır".*

Əsasən neqativ təsiri bağışlayan başqa bir atalar sözünə də baxaq:***"Palaza bürün, elnən sürün".*** Nə qədər neqativ görünsə də, bu ideya universal bir qanunauyğunluğun xüsusiləşmiş halını ifadə edir. Heraklit *"təbiətə uyğunlaşmaq"* prinsipini irəli sürürdü. Nizami isə belə deyir:

*Bu dünya səsiylə səsləşənindir,*
*Dövranla düz gəlsən, dövran sənindir.*

Yəni həm təbiət, həm də cəmiyyətə (zəmanəyə, dövrana) uyğunlaşmaq tövsiyə olunur. *"Elnən sürünmək"* də həmin mənanı ifadə edir. Burada "el" sözü camaat, kütlə kimi başa düşülürsə, fikir doğrudan da neqativdir. Yəni göz önündə öz siması, mövqeyi olmayan, buqələmun kimi düşdüyü mühitə uyğunlaşan, hər çalınan havaya oynayan bir adamın obrazı canlanır. Görünür, Mark Avreli məhz belə bir həyat tərzinə qarşı çıxaraq deyir: *"Əsas vəzifə əksəriyyətin yaşadığı kimi yox, öz daxili mənəvi tələbatına uyğun yaşamaqdır".* Bu iki əks fikir ayrı-ayrılıqda yarımçıq və naqisdir. Amma əsl hikmət məqamı düzgün seçə bilmək, nə vaxt hamı ilə bir olmaq, nə vaxt fərqlənmək lazım olduğunu düzgün müəyyənləşdirməkdir. Əslində Mark Avrelinin fikri bir məqsəd olaraq düzdür. Amma adamı özbaşına qoyan kimdir?! *"Sən saydığını say, gör fələk nə sayır?"* deyimini cəmiyyətə transformasiya etsək, yəni mühiti fələk kimi götürsək, tək öz istəyimizdən çıxış etməyin mümkün olmadığı, cəmiyyətin, ictimai mühitin də nəzərə alınmasının labüdlüyü vurğulanmış olur. Yəni insan nə vaxtsa məhz öz istədiyi kimi, öz daxili mənəvi tələblərinə uyğun yaşaya bilmək üçün hələ uzun müddət cəmiyyətin, mühitin istəkləri ilə hesablaşmalıdır. Fələyə qarşı getmək mümkün olmadığı kimi, cəmiyyətə, ictimai rəyə qarşı getmək də çətindir. Çətindir, amma qeyri-mümkün deyil. "*Oğul odur ki, din içində din bəsləyə!*" Burada söhbət mühitin dini ilə konfliktə girmədən öz dinini qorumaq qabiliyyətindən gedir.

Lakin "el" sözü başqa mənada – millət kimi, milli ruhun timsalı kimi götürüldükdə, bu məsəlin ideya yönü dəyişir. Elin çətin günündə də ondan ayrılmamaq, lazım gələndə hamı ilə birlikdə sürünmək və hər əzaba qatlaşmaq mənası da üzə çıxır.

Yəni anlayışların mənalarından asılı olaraq yozumlar da dəyişir. Yozumçu rolunu isə adətən kontekst, mətn oynayır. Yəni hər kontekstdə məsəlin bir fərqli mənası ortaya çıxır. Obrazlı desək, bu cür çoxmənalı məsəllər özü də buqələmun kimi rəngdən rəngə girir.

Belə bir ifadə var: ***"İstedadlıya kömək edin, istedadsız onsuz da özünə yol tapacaq".*** Bu cür fikirlər hansı isə ictimai mühitin gerçəkliyindən intixab edilmişdir. Əslində doğrudan da istedadlının köməyə ehtiyacı var, təkcə ona görə yox ki, geri qalmış cəmiyyət ona doğmalıq göstərmir, həm də ona görə ki, istedadlı adamlar özü haqqında düşünmürlər. Və *"özünə yol açmaq", "öz başına çarə qılmaq"* üzrə mütəxəssis deyillər. Normal cəmiyyət o cəmiyyətdir ki, orada hərə məhz öz yerini tapa bilir, daha *"Əlinin papağı Vəlinin, Vəlinin papağı Əlinin başına" qoyulmur.* Məhz hərə öz yerində olanda, boş qalan yerlər özü mütəxəssisi, istedadı səsləyir və istedad üçün yer açılmış olur. Vay o gündən ki, *"yağla şorun qiyməti eyni olsun".* Onda bu rəqabətdə məhz şor qalib gələcək, çünki onun maya dəyəri daha aşağıdır. Necə ki, belə cəmiyyətlərdə istedadlılar rəqabətə dözə bilmirlər; onlar mütəxəssis kimi yetişmək üçün öz üzərində çalışdığı vaxtda, o birilər cəmiyyətdə əlaqələr yaradır, tanışlar tapır, zəmanənin nəbzini tutmuş olurlar.

Əbu Turxan da görünür, məhz bu cür cəmiyyətlər üçün demişdir:

*Kol kola söykənibdir,*
*Gülsə tikan üstədir.*
*Yaxşılar ayrı düşüb,*
*Yamanlarsa dəstədir.*

İstedadlılar təklənirlər. Onlar kütlənin fövqündə olduğundan, bir-birindən ciddi surətdə fərqləndiyindən kütlə ilə onların

arasında bir uyğunsuzluq, bəzən hətta ziddiyyət yaranır.

Beləliklə, *"İstedadlıya kömək edin, istedadsız onsuz da özünə yol tapacaq"* ifadəsinin haradan və nədən yarandığı bəlli olur. Və bu, bir növ ironik ifadədir və aforizm kimi qəbul oluna bilməz, çünki ancaq bəlli ictimai mühitlərə aiddir.

***"Bir dəfə görmək yüz dəfə eşitməkdən yaxşıdır".*** Deməli, bizim ənənəvi düşüncə tərzinə görə, daha çox informasiya almaq, həqiqətə daha çox yaxınlaşmaq eşitmək deyil, görmək sayəsində mümkün olur. Koqnitiv psixologiya da belə hesab edir ki, ən böyük informasiya məhz görmə duyğusu sayəsində əldə edilir. Burada "eşitmək" dedikdə başqalarının təcrübəsi nəzərdə tutulur. Vurğu bunadır ki, başqasının görüb danışması bir şeydir, özünün görməyin isə başqa şey.

"Öz"-ün vurğulanması yaxşıdır, amma "öz" məhduddur.

Sivilizasiya isə məhz başqalarının mənimsədiklərini də mənimsəmək sayəsində mümkün olmuşdur. Belə ki, "eşitmək" həm də "oxumaq" anlayışını əhatə edir. Oxuduqlarımız isə başqalarının gördüklərinin sadəcə nəqli yox, nəzəri bilik səviyyəsinə yüksəlmiş və sınaqdan çıxmış biliklər də ola bilər. Bu mənada gördüklərimiz, yəni hissi idrak səviyyəsində mənimsədiklərimiz deyil, kitabdan oxuduqlarımız, yəni elmi-nəzəri fikir və təcrübə süzgəcindən keçmiş biliklər həqiqətə daha yaxındır və deməli, daha yaxşıdır.

Burada ancaq yaradıcı adamlar istisna təşkil edirlər. Belə ki, onlar da təhsil yolu ilə həmin dövrün ümumi bir səviyyəsinə, postamentə, məlumata, metodika və texnikaya yiyələndikdən sonra, şəxsi yaradıcılıq üçün gərək öz təcrübələrinə, öz "mən"lərinə istinad etsinlər. Lakin burada da rəssam üçün görmək, bəstəkar üçün eşitmək daha önəmli olur. Şair üçün həm görmək, həm eşitmək önəmlidir. Yaradıcılığın daha yüksək səviyyəsində isə bəsirət gözü açılır ki, bu da qəlbin səsini eşitmək deməkdir.

Yəni bu yüksək məqamda, sezgi qatında görmək və eşitmək eyniləşir.

Kim isə deyib ki, ***"gözəllik ondur, doqquzu dondur".*** Əbu Turxan isə əlavə edir ki, *"birini saxla, doqquzunu yandır".* Yəni gözəlliyin əsl siqləti məhz donlarsız, zahiri cəhətlərdən təmizləndikdən sonra yerdə qalan o "bir"dədir. Bunu anladıqdan sonra qayıdıb yenə həmin atalar sözünə nəzər salsaq, qarşımızda tamamilə başqa bir yozum açılacaqdır. Yəni məqsəd diqqəti dona, geyimə, bəzəyə yönəltməkdən, donun vacibliyini qeyd etməkdən ibarət deyilmiş. Məqsəd insanları diqqətli olmağa, doqquz qat donla pərdələnmiş həqiqi gözəlliyi axtarmağa yönəltmək imiş.

Belə bir deyim də var: ***"Çox oxuyan çox bilməz, çox gəzən çox bilər".*** Lakin çox gəzənlərin çoxu könül evindən bixəbər qalıblar. Gəzdikləri və gördükləri dünya yox, dünyanın görüntüsü olub. Əsl dünya, mahiyyət isə kənarda yox, içəridə, qəlb aləminin, ruhani dünyanın dərinliklərində imiş!

Mütləqi də, mahiyyəti də, sonsuzluğu və əbədiyyəti də insan ancaq ruhununənginliyində tapa bilər.

Səbəbi isə budur ki, kənara getdikcə dünya genişlənir və seyrəlir. Sıxlıq azalır, məsafə artır. Sən getdikcə o səndən daha böyük sürətlə uzaqlaşır. L.Tolstoy təsadüfən demirdi ki, xoşbəxtliyi birinci növbədə öz evində axtar.

***"Pul əl çirkidir".*** Bəlkə də heç bir millətdə pula bu dərəcədə həqarətli və saymazyana münasibət tapmaq mümkün deyil. Pulu əl çirki saymaq, onun heç vaxt məqsəd olmalı olmadığını vurğulamaq, pulun fövqündə durmaq əslində mənəviyyatı yüksəltməyin, *"insan mənəviyyat üçün yaşamalıdır"* (Heydər Əliyev) hikmətini təsbit etməyin bir formasıdır. Məhz Şərqdə nəfsə qarşı çıxmaq, tamahkarlığı, xəsisliyi məsxərəyə qoymaq ənənəsi geniş yayılmışdır. Əksinə, əliaçıqlıq, səxavət həmişə kişinin ən

yüksək məziyyətlərindən biri sayılmışdır.

İzaha ehtiyacı olan fikirlər təkcə atalar sözlərində deyil. Müəllifi olan müdrik fikirlərin – aforizmlərin də bir qismi ya izah olunmalı, ya da aforizmlər sırasından çıxarılmalıdır.

Məsələn, Monten deyir: "***Müdrikliyin ən gözəl sübutu əhval-ruhiyyənin həmişə yaxşı olmasıdır***" və bu fikri əksər aforizm kitablarına daxil edirlər. Amma əslində bu, müdrikliyin deyil, səfehliyin ən gözəl sübutudur. Yada salmaq istərdik ki, estetikanın kateqoriyaları baxımından yanaşsaq, gülüş və komiklik əslində eybəcərliklə, naqisliklə bağlıdır. Gözəllik isə daha çox dərəcədə faciəvilikdə üzə çıxır. İnsanın əhvalının yaxşı olması sadəcə bir mimika məsələsi olmayıb onun daxili aləminin dramatizmindən bir nəticə kimi hasil olmalıdır.

Yaxud Pliniy deyir: "***Qaçan yıxılar; sürünən yıxılmaz.***" Burada nə təbliğ olunur? Böyük mütəfəkkirlər adətən sürünməyi pislədiyi halda, Pliniy sürünməkdə bir kəramətmi tapmışdır? Sürünən ona görə yıxılmaz ki, o zatən yıxılmış vəziyyətdədir. Qaçan isə hələ nə vaxtsa yıxılana qədər ayaq üstə olacaqdır.

Sofokl deyir: ***"Xoşbəxtliyin birinci şərti ağıllı olmaqdır".*** Düzdür, ağıllı adam problemlərin həllini daha tez tapa bilir. Amma ağıllılar həm də iddialı olarlarsa, onda necə? Bəzən ağıllı olmayanlar problemləri sadəcə olaraq görə bilmirlər və buna görə də heç narahat da olmurlar. Bu baxımdan, kimin daha xoşbəxt olması sual altında qalır.

Yaxud Platon deyir: ***"Hər yerdə yeganə bir ədalət prinsipi vardır: güclünün marağı".*** Heç şübhəsiz, Platon bu fikri pozitiv mənada yox, tənqidi-satirik mənada deyir. Yəni öz dövründəki sosial ədalətsizliyi tənqid edir. Amma təəssüf ki, bir çox aforizm kitablarına bu, məhz Platonun mövqeyi kimi daxil edilir.

Belə bir fransız "hikməti" var: ***"Dosta pul verməklə həm***

***pulunu, həm də dostunu itirirsən".*** Dostluğu pulla bir tərəziyə qoymaq, "dostu itirməmək üçün" ona əl uzatmamaq əlbəttə, absurddur. Ehtiyacı olan dostun pulu qaytarıb-qaytarmayacağı haqqında düşünmək özü bu "dostluğun" saxta olduğunu göstərir.

Təəssüf ki, dostluğa belə dırnağarası münasibətə Şərq "hikmətində" də rast gəlmək mümkündür. Məsələn, Sədi Şirazi deyir: "*Sirrini heç dostunla da bölüşmə; vaxt gələr, bu sirr səni dostunla düşmən edər".* Deməli, bəri başdan dostun həqiqiliyi şübhə altına alınmış olur.

Yaxud F.Nitsşenin belə bir fikrini aforizmlər sırasına daxil edirlər: ***"Azadlıq özündən utanmaqdan azad olmaqdır".*** Amma unutmaq olmaz ki, "*nəzarətin ən etibarlısı daxili nəzarətdir".* İnsan öz hərəkətlərini daxili mənəvi meyar süzgəcindən keçirə bilsə və burada utanılası bir şey görməsə, başqalarından da utanmasına gərək qalmır. Başqa sözlə desək, insan ancaq o zaman utanır ki, öz əməllərinin düzlüyünə əmin olmur və başqalarının buna necə qiymət verəcəyindən narahatlıq keçirir.

Nitsşenin belə bir "aforizmi" də var: ***"Görüb inanmamaq dərk edənin ən böyük məziyyətidir; görünüş onun ən böyük düşmənidir".*** Əslində bu fikir min illərdən bəri məlum olan skeptisizmin prinsiplərindən biridir. Yəni hər gördüyün şeyə, zahiriliyə, görüntüyə inanma – şübhə ilə yanaş. Əvvəlcə yoxla, "*yüz ölç, bir biç"* və s. Bu mövqeyin klassik ifadələrindən biri Sekst Empirikə məxsusdur: *"Bilmədiklərimi onsuz da bilmirəm, bildiklərimə də şübhə ilə yanaşıram".* Amma Nitsşe bu məlum fikri ifrata vardırmaqla əslində ona neqativ bir don geyindirmişdir. Əgər sağlam şüur, ruslar demişkən, *"etibar et, amma yoxla!"* deyirsə, Nitsşe sadəcə etibarsızlığı, inamsızlığı mütləqləşdirməklə nihilizm əhvalını təlqin edir. Ən böyük məziyyət əslində inana bilmək qabiliyyətidir, amma əlbəttə, həm təcrübə,

həm də rasional planda yoxlamaq şərti ilə. Bu məsələdə biz Albert Şveyserin mövqeyini bölüşürük: *"Mənim biliklərim bədbin, inamım – nikbindir".*

Yanılmaqdan, səhv etməkdən qorxmaq lazım deyil. Elmin universal metodlarından biri "sınaq-səhv" metodudur. Vacib olan budur ki, on variantdan doqquzu səhv çıxsa belə, bir dənə düzgün olan variantı tapa biləsən. Əbu Turxanın dediyi kimi, *"alim səhv etməkdən qorxsa, elm inkişaf etməz".* A.Frans da "*Elm qüsursuzdur, amma alimlər həmişə səhv edirlər"* deyərkən, bunu nəzərdə tuturdu ki, səhvlər zamanın sınağından, süzgəcindən onsuz da keçə bilməyəcək, elm məbədində ancaq həqiqətlər saxlanacaqdır.

Bir çox hallarda A.Eynşteynin kontekstdən götürülmüş belə bir fikrini də aforizm kitablarına daxil edirlər: ***"Əsl elm və əsl musiqi eyni fikri prosesi tələb edir".*** Halbuki elmdə fikri proses aşkar, şüurlu olduğu halda, incəsənətin müxtəlif növlərində, xüsusilə musiqidə yalnız qeyri-aşkar və qeyri-şüuri proseslərdən danışmaq mümkündür. Burada elm ilə musiqinin ümumi yox, fərqli mahiyyəti ifadə olunur. Lakin belə bir qüsurlu fikrin aforizm kimi yayılması, görünür, ancaq Eynşteynin böyük nüfuzu ilə izah oluna bilər. Yəni əgər Eynşteyn belə deyibsə, deməli belədir. Bəs Eynşteyn bu fikir hansı kontekstdə söyləmişdir? O kontekstdə ki, söhbət elmi yaradıcılığın quru məntiqi mühakimələrlə məhdudlaşmadığından, burada bədiilik komponentlərinin olmasından gedir.

Beləliklə, ənənəvi "Aforizm" kitablarında bəzən elə böyük adamların elə bəsit, zəif fikirləri verilir ki, təəccüblənməyə bilmirsən. Sonra səbəbi aydın olur. Axı, hər şey təkcə fikrin müəllifindən yox, həm də onu seçənin səviyyəsindən asılıdır. Böyük şəxslərin əsərlərindən də bəzən kontekstdən ayıraraq elə cümlələri seçib yazırlar ki, onlar əslində hansı isə mürəkkəb bir

fikrin və ya təhkiyənin hissələridir və müstəqil dəyər kəsb etmirlər; müəllif o fikrin aforizm kimi, yaxud ayrılıqda verilməsinə heç vaxt razı olmazdı. Amma nə etmək olar... Və bu zəif aforizmləri görüb hər yetən də öz "aforizmlər"ini yazır.

Eləcə də atalar sözləri. Onları yığıb təsnif etmək, qruplaşdırmaq ilk baxışda sadə görünsə də, olduqca böyük mənəvi məsuliyyət tələb edir. Təəssüf ki, ölkəmizdə "Atalar sözləri" adı ilə çap etdirilmiş əsərlərə haradan nə tapılıbsa, ağına-bozuna baxmadan, əslində nəinki "atalara", heç oğul-uşağa da rəva bilinməyən sözlər hamısı daxil edilir. Bu irad hətta akademik nəşr kimi nüfuz qazanmış kitablara da aiddir[1].

Məsələn:

*"Əhd-peymanı sındırmazlar"* (s.110);

*"Xəstəyə naz eləmək həkimə yaraşmaz"* (s.111);

*"Yuxuya inanmazlar"* (s.126);

*"Yola körpü sal"* (s.141);

*"Zərərə tərəf getməzlər"* (s.146) və s.

Bu cür təsadüfi sözlər təbii ki, *atalar sözü* sayıla bilməz; onlar heç truizm də deyillər. Bəs seçim, bəs meyar? Bəs müzakirələr, fəlsəfi təhlil? Sanki bunlara heç ehtiyac yoxmuş; əsas məsələ daha çox "fikir" toplamaq, daha qalın kitab buraxmaq imiş.

Həm də nöqsanlar təkcə hikmətsiz, səviyyəsiz sözlərin kitaba daxil edilməsi ilə bitmir. Buna bəlkə də, göz yummaq olar, amma bəzən neqativ təsirli sözlər də kimlərinsə *yüngül əli* ilə "atalar sözü" statusu qazanmağa cəhd edir. Məsələn: ***"Kitab verənin bir əlini kəsərlər, qaytaranın iki əlini!".*** Bu məsəl *"kitab oğrusu oğru deyil"* məsəlinin daha pis variantıdır. Əslində kitabı sevən, onun qədrini bilən, ona qiymət qoyan adam aldığı kitabı qaytarar ki, başqaları da oxuya bilsin.

---

[1] Məs.: Atalar sözü (Toplayanı Ə.Hüseynzadə). Bakı, "Yazıçı", 1981.

Necə ki, atalar sözləri içərisində universal səciyyə daşımayan və ancaq müəyyən kontekstdə və müəyyən tip hadisələr üçün dəyərli olan nümunələr vardır, eləcə də bədii ədəbiyyatda kontekst böyük önəm daşıyır. Məsələn, kimsə Nizaminin, M.F.Axundovun, Hüseyn Cavidin əsərlərində işlənən ayrı-ayrı məsəlləri, deyimləri, ifadələri seçərək "aforizmlər" adı altında çap etdirir və bu zaman hansısa obrazın dili ilə deyilmiş fikir müəllifin adına yazılır.

Məsələn:

*"Bir günün zövqünə dəyməz dünya"*;

*"Mərhəmət zəiflikdir";*

*"Məhəbbət fəlakətdir";*

*"Yox kimsədə mərhəmət və vicdan,*
*İnsanlığı həp unutdu insan";*

*"Əmin olunuz ki, dünyanın bütün izzəti – bütün səadəti ancaq pul ilə əldə edilə bilir"* və s.

Dünyanın dəyərsizliyinin vurğulanması, bir günün zövqünün dünyadan üstün tutulması, insanlığın unudulması, mərhəmətin, məhəbbətin neqativ müstəviyə keçirilməsi, – bütün bunlar Cavidin əslində ittiham etdiyi cəhətlərdir. Bu deyimlər *"bu dünya beş günlükdür"* fəlsəfəsizliyini yada salır. Amma hikmət dünyasında söhbət həqiqi dünyanın, ruhun, mənəvi meyarların bir günün zövqünə qurban verilməsinin yolverilməzliyindən, mərhəmətin, məhəbbətin isə ülviyyətindən, aliliyindən gedir.

Bu kimi ifadələrin, əslində onlar ironiya ilə, ya da mənfi obrazların dili ilə deyildiyi halda, H.Cavidin seçmə aforizmləri kimi təqdim edilməsi[1] yolverilməzdir. Belə ki, hansı fikrin müəllifə, hansının obraza aid olduğunu və ya müəllifin hansı obrazları dəstəklədiyini və hansıları öz dili ilə ifşa etdiyini saf-çürük etmədən və bu zaman hikmətin yüksək meyarlarından çıxış

[1] Bax: Cavid hikməti. Seçmə aforizmlər. Bakı, Elm, 2008.

etmədən, belə bir işin məsuliyyətini boynuna götürmək məqsədəuyğun deyil.

Ümumiyyətlə, H.Cavidin bu sahədə bəxti gətirməmişdir; onun fikirlərinin seçilməsi zamanı müəllif mövqeyi çox tez-tez antimövqe ilə qarışıq salınır. “Müdriklik əlifbası” adı ilə çap olunmuş 2 cildlik kitabda[1] da H.Cavidin “aforizmləri” kimi aşağıdakı misallar gətirilir: *“Ən silinməz ləkədir yoxsulluq”(s.329).* Yaxud: *”Ən son nəticə heçlikdir”(s.330).* Bu kitabda müdriklik bir yana qalsın, heç adi şüur səviyyəsində də dəyəri olmayan fikirlər çoxluq təşkil edir. Məsələn, kontekstdən çox uğursuz çıxarılmış *“açıq-aşkar nankordan biridir insan”* sözlərini Qurana istinadla bir aforizm olaraq kitaba daxil etmək ən azı Qurani-Kərimin ümumi ruhuna zidd getməkdir. Yaxud Şekspirin konkret bir zaman və ictimai mühit üçün dediyi tənqidi-satirik fikir aforizmlər sırasına daxil edilir: *“Axmaqlıq sayılır düzlük, həqiqət” (s.34).* Yaxud A.Blok deyir: *“Ayır bu dünyadan məni bir anda”(s.71).* – Axı, bunun nəyi aforizmdir?

Təəssüf ki, meyarsızlıq bu sahədə çap olunan əksər kitablara aiddir. Bu isə oxucuları həqiqət və hikmət axtarışında düzgün yönləndirmək əvəzinə, onları çaşdırır və nəticədə haqqın nahaqla, düzün əyri ilə qarışıq salınmasına xidmət edir.

Lakin qeydlərimizi tənqidi notlarla bitirmək istəməzdik, çünki Əbu Turxan demişkən, *“pisi söyməkdənsə, yaxşını öymək yaxşıdır”.*Ona görə də nisbətən uğurlu seçimləri də yada salmaq istərdik. Bizcə, hələ sovet dövründə bakılı fəlsəfə tədqiqatçıları P.Landesman və Y.Soqomonovun hazırladıqları “Fikirlər və aforizmlər”[2] hələ də ən sağlam seçimlərdən biri olaraq qalmaqdadır.

---

[1] Müdriklik əlifbası (I kitab).Bakı, Şirvannəşr, 2010.

[2] Мысли и афоризмы (Составители: П.Ландесман,Ю.Согомонов). Баку, Азернешр, 1962.

Son illərdə Cəlal Bəydilinin hazırladığı "Dəyişən dəyərlər dünyası" kitabı da bu sahədə uğurlu təşəbbüs kimi dəyərləndirilə bilər[1].

Bizcə, ölkəmizdə folklora və klassiklərin dünyagörüşünə, hikmət aləminə münasibət məsələsi yenidən nəzərdən keçirilməlidir. Müdrik fikirlərin, aforizmlərin, atalar sözlərinin toplanması zamanı çox ciddi meyarlardan çıxış olunmasına böyük ehtiyac vardır. Necə deyərlər, *"az olsun, yaxşı olsun"*.

[1] Bəydili C. Dəyişən dəyərlər dünyası. B., "Mütərcim", 2011.

# *İnsan*

*Bəşərsiz kainat bir viranədir!*

***S.Vurğun***

Ən böyük qələbə insanın öz üzərindəki qələbəsidir.

***Hz.Məhəmməd***

Kamil insan gözəl söz söyləyə bilən insan deyil, söylədiyini edən və edə bildiyini söyləyən insandır.

***Konfutsi***

İnsan yan almaq üçün hansı limana getdiyini bilməyəndə heç bir külək onun üçün sərfəli olmayacaqdır.

***Seneka***

Hər kəsin dəyəri nəyə can atmasındadır.

***Mark Avreli***

İnsanın mahiyyəti
onun arzularında təzahür edir.

***Spinoza***

İnsanın ölçüsü onun
imkanlarının sərhəddi ilə müəyyən olunur.

***Əbu Turxan***

Özünü arzularının
mahiyyətindən tanıya bilərsən.

***Məhəmməd İqbal***

Hər bir insan öz sevgisi qədərdir.

***Əbu Turxan***

Heç kimi sevməyəni sevməzlər.

***Demokrit***

İnsanın gözü nəyi görürsə, dəyəri də o qədərdir.

***Mövlana***

Hər şeyin meyarı insandır.

***Protaqor***

Ən böyük fəziləti ağıl olan
adamın dünyası ağılla dərk edilə bilən
şeylərlə məhdudlaşır.

***Mövlana***

Biz elə bir məxluqlarıq ki,
bəzən mələklər insan olmadıqlarına görə üzülür,
bəzən də şeytanlar insan olmadıqlarına görə
şükür edirlər.

***Mövlana***

Təbiətinə görə insanlar bir-birinə yaxın,
vərdişlərinə görə isə bir-birindən uzaqdırlar.

***Konfutsi***

İnsan var dərya kimidir, baş vurdunsa,
çıxmaq çətindir; insan var ki, divar kimidir, qarşında durur
və heç nə görə bilmirsən; insan var ki, şüşə kimidir –
dünyanı sənə göstərməyə çalışır; insan var ki, ayna
kimidir, səni özünə göstərməyə çalışır.

***Əbu Turxan***

Oxunacaq ən böyük kitab insandır.

***Hacı Bəktaş Vəli***

İnsandan insana fərq var: bir dəmirdən
həm nal, həm də qılınc düzəldirlər.

***Nizami***

Sıfıra bənzər insanlar vardır. Onlar hər
zaman qarşılarında bir rəqəmə ehtiyac duyurlar.

***Balzak***

Hər insan bir ulduzu,
bəşəriyyət – kəhkəşanı xatırladır.

***Əbu Turxan***

Sakit görünən dənizin təlatümü dərin qatdadır.

***Əbu Turxan***

İnsan yaratdıqca
ucalır, ucaldıqca daha yaxşı yaradır.

***Əbu Turxan***

İnsan yarımçıqdır;
onun digər yarısı bütün yerdə qalan dünyadır.

***Əbu Turxan***

Özünü tanımaq heç də hamıya sərf etmir.

***Əbu Turxan***

«Mən»dən uzaqlaşdıqca
dünya genişlənir və genişləndikcə yadlaşır.

***Əbu Turxan***

İnsanın ən böyük səyahəti öz daxili
aləminə səyahətidir.

***Əbu Turxan***

Biz adətən özümüzü yox,
başqalarını görürük. Özünü görməyin yolu isə özünə
başqalarının gözü ilə baxmaqdır.

***Əbu Turxan***

Özünü tanımayan
insanlar öz həyatlarını yaşamırlar.

***Əbu Turxan***

İnsanı yaxşı tanıtmaq
istəsən, heç kəsi inandıra bilməzsən, yox, əgər
pisləsən, hər kəsi inandırarsan.

***C.Dreper***

İnsan fikirləşmədən
öz içində yaşayanları aşkar edə bilməz.

***Hegel***

Ancaq insan öz mənasını
varlıqda tapır, varlıq da öz bütövlüyünü və
mənasını insanda tapır.

***Haydegger***

İnsan öz fərdiliyini nə qədər çox
biruzə verirsə, o qədər də bütün mövcudatla
birləşməyə can atır.

***R.Taqor***

Odu sevənlər müxtəlif olur;
kimi istisinə, kimi tüstüsünə, kimi işığına görə;
kimi öz "canını oda yaxmaq" üçün, kimi başqalarını
yandırmaq üçün.

***Əbu Turxan***

Təhlükənin də öz gözəlliyi var,
o, insanda mübarizlik ruhunu, ona qarşı getmək
istəyini oyadır.

***Göte***

Özünü sevənlərin çoxu əslində özünü
deyil, özləri haqqında uydurduqları obrazı sevirlər.

***Əbu Turxan***

Ən sərt adamın da içində bir uşaq yatır.

***Əbu Turxan***

İnsanlar daim pis
oyuncaqların dalınca qaçan uşaq kimidir.

***Cəmil Meriç***

Nura qovuşa bilməyənlərin qisməti nardır.

***Əbu Turxan***

Bizim şəxsiyyətimiz
bağ, iradəmiz isə bağbandır.

***Şekspir***

İnsan nəzərləri aləmə tuşlanaraq
onu ancaq öz baxış bucağında işıqlandırır.
Həmin anda insanın özü də məhz öz baxış
bucağına bərabər olur.

***Əbu Turxan***

İnsanın meymun mənşəyini Qərbdə,
İnsanın Tanrı mənşəyini Şərqdə kəşf ediblər.

***Yaşar Qarayev***

İnsan kərpic kimidir; yanaraq bərkiyir.

***B.Şou***

İnsana danışmağı öyrənmək
üçün iki il, dilini dinc qoymağı öyrənmək üçün isə
altmış il lazım gəlir.

***Feyxtvanqer***

İnsanlar təcrübələri nisbətində deyil,
təcrübələrindən aldıqları dərslər nisbətində yetkindir.

***B.Şou***

Xarakter insanın öz üzərində,
istedad isə – başqaları üzərində hakim olmasıdır.

***V.O. Klüçevski***

İnsanı tanımaq üçün onu sevmək lazımdır.

***Feyerbax***

Fizikada olduğu kimi,
psixologiyada da bizi əvvəlki zəminimizə
bağlayan cazibə qanunu var.

***A.Frans***

Heç bir linza özünə baxıb
həzz alan insanın gözləri qədər böyütmür.

***Aleksandr Pop***

Bilikdən daha zəngin xəzinə, pis xasiyyətdən
daha rəzil düşmən ola bilməz.

***Sokrat***

Taleyiniz xarakterinizdədir.

***R.Akutaqava***

Dünyanın həqiqətləri elm dilində,
insanın həqiqəti isə fəlsəfə dilində yazılmışdır.

***Əbu Turxan***

İnsan özünü ancaq
fəlsəfə tərəzisində ölçə bilər.

***Əbu Turxan***

Şüurlu varlıq olduğu üçün
insan yer üzünün əşrəfi sayılır. Göy üzünə isə o yalnız
şüurundan azad olarkən yüksələ bilər.

***Əbu Turxan***

İnsanın işığı artdıqca
bu fani dünya ona daha qaranlıq görünür.

***Əbu Turxan***

İnsan cismən məhdud olsa da, mənən tükənməzdir.

***Əbu Turxan***

Yolların ən mübarəki
insanı özünə çatdıran yoldur.

***Əbu Turxan***

Alın yazısı bir dəfə yazılır,
amma insana onun üzərində hər dəfə yenidən
yazmaq şansı verilir.

***Əbu Turxan***

Hamı üçün açıq olan qəlbdə darısqallıq olar.

***Əbu Turxan***

Qəlb o zaman geniş
olur ki, orada hər yetənə yer olmasın.

***Əbu Turxan***

Səndə olmayanlar səndə
olandan qat-qat çoxdur. Amma səndə olanın qədrini
bilsən, o, səndə olmayanların hamısını
əvəz edəcək qədərdir.

***Əbu Turxan***

Qapımıza deyil, qəlbimizə vuran buyursun!

***Şəms Təbrizi***

İnsan hər an özünü yenidən yaradır.

***Əbu Turxan***

Göydə quş kimi uçmağı, suda balıq
kimi üzməyi öyrəndik, qalıb yerdə insan kimi
yaşamağı öyrənmək.

***B.Şou***

Günümüzün insanı köklərindən qopmuş
bir ağacdır. Həm özünə yad olubdu, həm təbiətə.

***Cəmil Meriç***

Bizi təbiətlə doğmalaşdıran
ilkin təbii başlanğıcımızdır. Təbiətsə hərdən öz gözəlliyini
göstərməklə aramızda ruhani bir bağlantı da
olduğunu yada salır.

***Əbu Turxan***

Təbiətin öz dünyası var
və vaxtilə insan da onun bir hissəsi olmuşdur.
Amma indi o, təbiəti özünün bir hissəsi
etməyə çalışır.

***Tur Xander***

Əmək bölgüsü insanın tamlığını əlindən alır
və onun özünün də bölünməsinə gətirib çıxarır.

***Tur Xander***

Alimin tanınması üçün onun öz kəşfləri
kifayət deyil, gərək onun özünü də kəşf edənlər olsun.

***Əbu Turxan***

Alim olmaq asandır, insan olmaq – çətin.

***Atalar sözü***

# *Xoşbəxtlik*

*Xoşbəxt adam özünü*
*xoşbəxt hesab edən adamdır.*
***Fildinq***

Xoşbəxtliyi daxilində tapmaq
çətindir, kənarda isə o sadəcə olaraq yoxdur.

***N. de Şamfor***

Yalnız o adam həmişə xoşbəxt ola
bilər ki, onun bəxtinin sükanı öz əlində olsun.

***Əbu Turxan***

Xoşbəxt adamın bədbəxtə
ağıl verməsindən asan nə ola bilər.

***Esxil***

Məsləhətlərimizlə yardım etdiyimiz
insanların xoşbəxtliyi bizi o qədər də
maraqlandırmır.

***Vovenarq***

Ən böyük bədbəxtlik
hər şeydən narazı olmaqdır.

***Lao-szı***

O kəs də xoşbəxtdir ki, hörmət
etdiyi kəs haqqında xatirə belə onu özünü
təkmilləşdirməyə sövq edir.

***Seneka***

Xoşbəxt adamlar üçün ən uzun ömür
də bir gün qədər qısadır, bədbəxtlər üçünsə bir gün də
ömür qədər uzundur.

***Lukian***

İnsan yalnız xarici
səbəblərdən bədbəxt olmur.

***Seneka***

Canıyananlıq başqasının
bədbəxtliyinə yanmaq, paxıllıq isə başqasının
xoşbəxtliyinə yanmaqdır.

***Platon***

Hər kəs özünü bədbəxt
hesab etdiyi qədər bədbəxtdir.

***Seneka***

Hər kəs öz səviyyəsində xoşbəxtdir.
Kimin üçünsə çox adi olan bir hadisə başqasını
xoşbəxt edə bilər.

***Əbu Turxan***

Xoşbəxtlik hissini
yalnız müdriklər keçirə bilər.

***Plavt***

Başqalarının xoşbəxtliyi
üçün çalışmaqla biz öz xoşbəxtliyimizi tapırıq.

***Platon***

Bədbəxt o adamdır ki, xeyirlə şəri qarışıq salır.

***"Bibliya"(İsaiya, 5.20)***

Kinli adam xoşbəxt ola bilməz.

***Yuvenal***

Ağ gün adamı ağardır, qara gün qaraldır.

***Atalar sözü***

Bədbəxt insan
başqalarının ağrı-acısı ilə rahatlıq tapan şəxsdir.

***Sədi Şirazi***

Başqalarının həyatından
dərs almağı bacaran insan xoşbəxtdir.

***T.Fontane***

Xoşbəxtlik ən azı bir dəfə hər qapını döyür.

***Uilyam Hezlitt***

İstək reallıqdan uzaq
olanda xoşbəxtliyin qapıları bağlanır.

***Əbu Turxan***

İnsanın xoşbəxtliyi üçün
içindəki işıq yetərli deyil; yaşadığı mühit də
işıqlı olmalıdır.

***Əbu Turxan***

Xoşbəxtliyə də azadlıq vermək lazımdır.

***Əbu Turxan***

Xoşbəxtlikdən ikiəlli yapışsan,
fürsət düşən kimi səni tərk edəcək.

***Əbu Turxan***

İnsanın özünü xoşbəxt hesab
etməsi ilə xoşbəxt olması düz, bilikli hesab etməsi ilə
bilikli olması isə tərs mütənasibdir.

***Əbu Turxan***

Kiminsə xoşbəxtliyinin
arxasında kiminsə fədakarlığı durur.

***Əbu Turxan***

Xoşbəxtliyi dadmağın
ən yaxşı yolu onu paylaşmaqdır.

***Bayron***

Hər şey, hər şey, hətta dərdlər də köhnəlir.

***Flober***

İnsanın təriflənəsi bir şeyi
olmayanda öz bədbəxtliyi ilə öyünməyə başlayır.

***A.Qraf***

Ağıllı öz uğursuzluqlarının
səbəbini özündə, nadan isə başqalarında axtarır.

***Konfutsi***

Nadan xoşbəxtliyi uzaqlarda axtarır,
müdrik isə onu öz yanında yetişdirir.

***C.Oppenheym***

Dərdin də öz lirikası,
öz ahəngi var; dərddən ancaq onun ahəngini
kompensasiya edən başqa ahənglərin təsiri ilə çıxmaq olar.

***Tur Xander***

Bir var, şəxsi həyatın kortəbiiliyi,
bir də var ictimai həyatın, cəmiyyətin kortəbii olması.
Hər ikisi dərk olunmasa işıqlı həyat
yaşamaq mümkün deyil.

***Əbu Turxan***

İnsan ancaq öz "Mən"i ilə
həmahəng mühitdə xoşbəxt ola bilər.

***Əbu Turxan***

Xoşbəxt o adamdır ki,
xoşbəxtlik axtarmağa ehtiyacı yoxdur.

***Əbu Turxan***

Xoşbəxtlik indiki gerçəyin
keçmişin arzularına uyğun gəlməsidir.

***Əbu Turxan***

Əksər insanlar var-dövlət yığmaqla
dərdlərinə son qoymamış, əksinə, onları daha
da çoxaltmışdır.

***Epikür***

O şəxs bədbəxtdir ki, onun özəl hissi dünyası
özgələşir; yəni ağıl və fikri həyatla, inamla, məhəbbət və
etimadla birləşdirən ilməklər qırılır!

***Hegel***

Xoşbəxt öz evində xoşbəxt olandır.

***L.N.Tolstoy***

Xəyalda elə tərəf var ki,
o, gerçəklikdən yaxşıdır; gerçəklikdə elə tərəf var ki, xəyaldan yaxşıdır. Tam xoşbəxtlik bunların ikisinin bir araya gətirilməsidir.

***L.N.Tolstoy***

Kədəri bölüşəndə azalır, sevinci bölüşəndə – artır.

***Atalar sözü***

Yalan ilə qurulan yuvanın səadəti də yalandır.

***Füzuli***

Qəlb bədbəxtliyi bəlkə də
gizlədə bilər, amma xoşbəxtliyi gizlədə bilmir.

***Göte***

Tamahkarlıqla xoşbəxtliyin
bir-birini tanımadığına təəccüblənməyin, çünki onlar heç vaxt rastlaşmayıblar.

***B.Franklin***

Sevinc və kədər böyüyəndə bütün dünya kiçilir.

***Cübran***

Sevinclə iztirab – aydınlıqla
qaranlıq kimi bir-birlərini təqib edir.

***L.Ştern***

Həyat səhnələri, həqiqi yaşantılar
və onların iztirab və sevinc xatirələri ruhla
birlikdə «uçub gedir».

***Əbu Turxan***

Yüngül iztirablar danışa
bilər, amma dərin iztirablar dilsizdir.

***Seneka***

Dərd gələndə batmanla gəlir.

***Atalar sözü***

Həqiqətdə siz tərəzinin oxu kimisiniz
– öz kədəriniz və sevinciniz arasında. Yalnız boş olanda
sakitləşir, tarazda olursunuz.

***Cübran***

Dərdi verən dərmanını da verir.

***Atalar sözü***

Bu dünyada xoş şeylər azdır,
xoş olan da çox vaxt ancaq başlanğıcdadır.

***Yusif Balasaqunlu***

Xoşbəxtlik peşmanlığa gətirməyən həzzdir.

***L.N. Tolstoy***

Müdrik adamın faciəsinə
şərik ol, nadan adamın xoşbəxtliyinə şərik olma.

***Əbu Turxan***

Ləyaqətli insanın ürəyi xoşbəxtlik
anlarında yumşaq, fəlakət anlarında sərtdir.

***Çin atalar sözü***

Dərdi biləndən soruş.

***Atalar sözü***

Öz xoşbəxtliyini başqasının
bədbəxtliyi üzərində qurmaq olmaz.

***El hikməti***

# *Mənəviyyat*

*Mən özümü bu dünyada, dünyanı məndə*
*Dərk eləyib məna dolu hər şey olaydım.*
***Səməd Vurğun***

Yerdəkilərə mərhəmət
edin ki, göydəki mərhəmət eləsin.

***Hz. Məhəmməd***

Ayaqlar baş
olanda, başlar ayaq altında qalar.

***Hz. Əli***

Pis fikirlərin
olmasa, pis əməllərin də olmaz.

***Konfutsi***

Mənəviyyat ürəyin ağlıdır.

***Heyne***

İnsan mənəviyyat üçün yaşamalıdır.

***Heydər Əliyev***

Xalqı həmişə mənəviyyat birləşdirmişdir.
Çünki başqa əsaslara nisbətən mənəvi əsaslar
daha üstündür.

***Heydər Əliyev***

Rüşvətxoru, oğrunu qəhrəmana
çevirmək öz xalqına xəyanət etməkdir.

***Heydər Əliyev***

Bəd əməllərin kökü bəd fikirlərdir.

***L.N.Tolstoy***

Başqalarının qüsurlarını görən
ağıllı adam özününkülərdən qurtulur.

***Publiliy Sir***

Başqalarına çox şeyi
bağışla, özünə isə heç nəyi bağışlama.

***Publiliy Sir***

Məhək daşıyla
qızılı yoxlayırlar, qızılla isə adamı.

***Xilon***

Bu gün qürurlana biləcəyi
heç nəyi olmayanlar dünənki xidmətləri ilə
lovğalanmağa başlayırlar.

***Siseron***

İnsanın günaha
batmaq istəməməsi ilə istəyib-bacarmaması
fərqli şeylərdir.

***Seneka***

Utanmağı öyrətmək
mümkün deyil, onunla doğulmaq gərəkdir.

***Publiliy Sir***

Başqalarından yox,
daha çox özündən utanmağı öyrən.

***Demokrit***

İtirəcəyi bir şey
olmayan insandan qorxmaq gərək.

***Göte***

Günahlar artdıqca həya azalır.

***Şiller***

Qorx qorxmazdan, utan – utanmazdan.

***Atalar sözü***

Üz üzdən utanar.

***Atalar sözü***

Əxlaq və qəbahət
tərəzinin iki müxtəlif gözündə yerləşir. Bunlardan biri qalxarsa, digəri enər.

***Platon***

Ağac bar verəndə başını aşağı dikər.

***Atalar sözü***

Yumşaq ipəyi iti qılınc da kəsmir.

***Mövlana***

İnsan özündə ən azı
rüşeym halında olmayanı başqasında görə bilməz.

***Əbu Turxan***

Bütün yollar qaranlıqdan işığa doğrudur.

***Əbu Turxan***

Hərə öz qəlbinin dərinliklərindəki
işığı üzə çıxara bilsə, dünya daha işıqlı olar.

***Əbu Turxan***

Yanıb işıq saça bilmirsənsə,
heç olmazsa işığın qabağını kəsmə.

***L.N.Tolstoy***

Savaşan iki kəsdən
ağıllı olanın təqsiri daha çoxdur.

***Göte***

Amal yüksək olduqca insan da yüksəlir.

***Şiller***

Əxlaq insanın xarakterində olmalıdır.

***Kant***

Əxlaqi davranışın keyfiyyəti
işin içində olan insanların sayına tərs mütənasib
olaraq dəyişir.

***Haksli***

Əxlaq gözəllik libasında meydana çıxmalıdır.

***Hegel***

İnsanı heyrətləndirən və heyran edən
iki şey var ki, bunlardan biri başımızın üstündəki ulduzlu səma, o biri isə daxilimizdəki əxlaqi qanundur.

***Kant***

Gözəl olan hər şey əxlaqidir.

***Flober***

Dəmiri aynatək parladan insan
Pası silməlidir öz vicdanından.

***Nizami***

Vərdişə çevrilmiş əməllərə görə
insan heç vaxt vicdan əzabı çəkmir.

***Volter***

İnsana ən böyük mükafatı da
vicdanı verir, ən böyük cəzanı da.

***Vovenarq***

Vicdan Allahın daxilimizdəki səsidir.

***Lamartin***

Yalnız elədiklərimizə yox,
eləmədiklərimizə görə də cavabdehlik daşıyırıq.

***Molyer***

Laqeydlikdən irəli gələn tolerantlıq fəzilət deyil.

***Əmin ər-Reyhani***

Tərifə laqeyd olanlar deyil,
tənqidə diqqətli olanlar təvazökardır.

***Jan Pol***

İnsan öz əqidəsini elan kimi divardan asmamalıdır.

***Balzak***

Ağlayan adama heç zaman
gülməyin. Amma bəzən gülən adamlara ağlayın.

***Nitsşe***

Ya olduğun kimi görün, ya da göründüyün kimi ol!

***Mövlana***

Yaramaz adam bir anda,
təmiz adam isə illər ötdükdən sonra tanınır.

***Demokrit***

Özün kimi ol: onda səni
istəyənlər səni tapacaq, istəməyənlər səndən qaçacaq.

***Əbu Turxan***

Bitməyən bir kitab ol!

***Əbu Turxan***

Kitab ol, hamıya açılma;
qoy səni ancaq anlayanlar oxusun!

***Əbu Turxan***

İnsanın mənəvi dünyası
əslində dünyadakı mənaların dünyasıdır.

***Əbu Turxan***

Mənəvi dünya "iç aləmi" sayılsa da,
onun da öz içi və çölü, əlçatmaz göyləri vardır.

***Əbu Turxan***

Mənəvi dəyər maddi meyarla ölçülə bilməz.

***Əbu Turxan***

Könül Allah evidir.

***Xudu Məmmədov***

İki işığın təmasından
daha böyük işıq da yarana bilər, qaranlıq da.

***Əbu Turxan***

İnsanı insan edən ağıl yox,
mənəvi qadağalar, əxlaqi sədlərdir. Lakin bu
sədlər özü də vaxtaşırı ağıl süzgəcindən
keçirilməlidir.

***Əbu Turxan***

İç dünyasının naməlum qatları
ancaq ilhamlı məqamlarda işıqlanır və sonra yenə
qaranlığa bürünür.

***Əbu Turxan***

Mən işığa çıxan zaman
bədənimin kölgəsi arxamca sürünür.

***Cübran***

Ağıl az və ya çox – hamıda olur,
amma sezginin yolu mənəvi saflaşmadan keçir.

***Əbu Turxan***

Sadəlik, xeyirxahlıq və dürüstlük
olmayan yerdə böyüklük yoxdur.

***L.N.Tolstoy***

İnsan özü nə qədər
xeyirxah və ağıllı olsa, insanlardakı xeyirxahlıqları
da bir o qədər çox görər.

***Paskal***

Bu aynada mən ancaq özümü
görürəm. Amma bu ayna məndən öncə
neçə-neçə sifətlər görüb.

***Əbu Turxan***

Səndən irəlidə nə qədər adamın
olduğunu görəndə, səndən arxada da nə qədər adam
olduğunu yada sal.

***Seneka***

Ürək təmiz olmayanda
dediklərini anlamaq olmur.

***Əbu Turxan***

İnsan sifətini güzgüdə gördüyü kimi,
qəlbini də ancaq könül güzgüsündə görə bilər.

***Əbu Turxan***

Könül aynası saf
olmalıdır ki, həqiqət sirlərini görsün.

***Mövlana***

Dumanın şərəfi dağla vüsaldır,
Başın şərafəti ağıl-kamaldır.
Yuxarı qalxdıqca dumanlanırsa,
Bil ki, yetişməyib, baş hələ kaldır.

***Əbu Turxan***

Kimsə deyib ki, "çox oxuyan çox bilməz,
çox gəzən çox bilər". Lakin çox gəzənlərin çoxu könül
evindən bixəbər qalıblar.

***Əbu Turxan***

“Gözü ayağının altını seçməyənlər”
gec-tez həyatın girdabına düşəcəklər.

***Əbu Turxan***

Arslanların saymazlığı
şikarı tülkülərə qapdırar.

***Cavid***

Şöhrətpərəstlik insanı
boşboğaz, qürur isə dinməz edir.

***Şopenhauer***

İnsanın öz yaxşı cəhətlərinə
görə xəcalət çəkməsi alicənablıqdır.

***Nitsşe***

Şöhrətpərəstin təkcə oturub-durduqları
yox, düşməni də tanınmış olmalıdır.

***Əbu Turxan***

Çox tez əldə olunmuş uğur
həmişə keçici olur, çünki o, istedadın yox,
təsadüfün bəhrəsidir.

***Vovenarq***

Elə insanlar var ki,
onların qüsurları olmasaydı, istedadları da
heç vaxt üzə çıxmazdı.

***Vovenarq***

Pisə yaxşılıqla, yaxşıya pislik
Mənaca bir şeydir, düşünsən əgər.

***Sədi Şirazi***

Yaxşı ol, qoy "pisdir" desinlər sənə,
Nə ki, pis olasan, "yaxşı" desinlər.

***Sədi Şirazi***

Birisi bəslərdi qurd balasını
Böyücək məhv etdi öz ağasını.

***Sədi Şirazi***

Quyuya salsan da yaxşılığı, bil
Yenə qayıdacaq, o itən deyil.

***Nizami***

Tez gələn şöhrət baş gicəlləndirər.

***Atalar sözü***

Nadan adamın yaxşılığı ilə pisliyi
arasında niyyət fərqi olar, nəticə fərqi olmaz.

***Əbu Turxan***

Ehtiyacı olanlara ən böyük pisliyi
yardım görüntüsü yaradanlar edir; onlar gerçək
yardımların qarşısını almış olurlar.

***Əbu Turxan***

Pis adamın biliklisi daha təhlükəlidir.

***Əbu Turxan***

Ziyankar adam düşünür ki,
hələ ziyan vurmadığı adamlar ona minnətdar
olmalıdırlar.

***Əbu Turxan***

Niyyətin hara, mənzilin də ora.

***Atalar sözü***

Başqasına quyu qazan özü düşər.

***Atalar sözü***

Sənə yardım edənlərə
yardım etməyi arzulama. Sən də sənə ehtiyacı
olanlara yardım et!

***Əbu Turxan***

Əl əli yuyar, əl də üzü.

***Atalar sözü***

Dünyada elə ac insanlar var ki,
Tanrı onlara ancaq çörək formasında görünə bilir.

***Dikkens***

Pulu, evi, əmlakı itirmək o qədər də
acınacaqlı deyil, çünki bütün bunlar insanınkı deyil.
Acınacaqlısı insanın öz həqiqi mülkünü –
ləyaqətini itirməsidir.

***Epiktet***

Əyri adam içindəki xəyanəti
gizlətmək üçün fürsətdən istifadə edib "sədaqətli"
olduğunu isbat edir.
Düz adam isə buna ehtiyac duymadığından həmişə
şübhəli qismində qalır.

***Əbu Turxan***

Ləyaqətsiz adamı
təhqir etmək mümkün deyil.

***Əbu Turxan***

Ləyaqətli adamlar – yaxşılığı,
naqislər isə – pisliyi unutmurlar.

***Əbu Turxan***

Əyri işıq yerə kölgə
saldığı kimi, əyri işlər də ürəyə kölgə salır.

***Əbu Turxan***

Bütün kölgələr
silinir, ürəyə düşən kölgədən başqa.

***Əbu Turxan***

"Yaxşılıq da, pislik də gec-tez adamın
özünə qayıdır". Sadəcə pisliyi kimə edibsənsə, ondan
gözlə, yaxşılığı - Haqqdan.

***Əbu Turxan***

Pisi söyməkdənsə, yaxşını öymək yaxşıdır.

***Əbu Turxan***

Pislər pisləri – pis olduğu üçün,
yaxşıları da – yaxşı olduğu üçün sevmirlər.

***Əbu Turxan***

Biz yaxşıları
mükafatlandırmaqla pisləri cəzalandırırıq.

***Didro***

Yaxşılığı yalnız yaxşılar, pisliyi isə hamı başa düşür.

***Cənab Şəhabəddin***

İnsanlar bəlkə də pisliyi
bağışlayar, amma təhqiri - heç vaxt!

***J.Nerval***

Pis adam üçün bəd xəbər
verməkdən xoş əyləncə yoxdur.

***Şota Rustaveli***

Bizim geyə biləcəyimiz
ən yaxşı maska öz üzümüzdür.

***Nitsşe***

Yalançının yaddaşı yaxşı olmalıdır.

***Kvintilian***

Aldadan aldanar.

***Mövlana***

Yalan ayaq tutar, yeriməz.

***Atalar sözü***

Yalanla dünyanı dolaşmaq
olar, amma geri dönmək olmaz.

***Atalar sözü***

Yalan qartopu kimidir, diyirləndikcə artıb böyüyür.

***M.Lüter***

Hər bir yalan daha məntiqli,
daha tutarlı ikinci bir yalanın arxasında gizlədilmişdir.

***Cəfər Cabbarlı***

Yalan ilə qurulan yuvanın səadəti də yalandır.

***Füzuli***

Yalan, ola bilsin, bir problemi
həll edə bilər, amma özü ilə daha yüz problem gətirər.

***Uilyam Porter***

Yalançının cəzası insanların
ona inanmaması deyil, onun heç kimə
inanmamasıdır.

***B.Şou***

Yalan meşə kimidir:
nə qədər uzağa getsən, çıxmaq da bir o qədər
çətin olacaqdır.

***A.P.Çexov***

Yer var ki, lal-dinməz olan yaxşıdı,
Yer var ki, doğru yox, yalan yaxşıdı,
Səxavət ölçüsü ismət olanda –
Hamıdan axırda qalan yaxşıdı.

***Əbu Turxan***

Özünə də yalan satan insan
bir müddətdən sonra doğru ilə yalanı
seçə bilməyəcək.

***F.M.Dostoyevski***

Onda ki, yalan taxta çıxır,
Saf almaz saxta çıxır.

***Əbu Turxan***

Yalanın üstü açılanda
insan utanırsa, deməli, o hələ tam yalançı deyil.

***Əbu Turxan***

Həqiqət dayağını itirəndə
yalan ayaq tapıb yeriyər.

***Əbu Turxan***

Elə adamlar var ki, özləri yalan
danışmaqdan qaçsalar da, yalançıların
xidmətindən məmnuniyyətlə istifadə edirlər.

***Əbu Turxan***

Dünyada insanı ən çox
utandıran şey yalanının üzə çıxmasıdır.

***F.Bekon***

Riyakarlıq zəiflərin silahıdır.

***Əbu Turxan***

Bir şey nə qədər cidd-cəhdlə
gizlədilsə, bir o qədər tez aşkar olar.

***Laroşfuko***

Simasızlıq əslində
simaların çoxluğundan irəli gəlir.

***Əbu Turxan***

Riyakar adamların
qiyafəti işıq, məzmunu kölgədir.

***Əbu Turxan***

Vəzifəli şəxslər öncə ətrafındakı
yaltaqların xoş yalanlarına birtəhər dözür,
sonra onlara vərdiş edir və tək-tük düz danışanlara birtəhər
dözür. Və nə vaxtsa daha buna da dözə bilmir.

***Əbu Turxan***

Eybəcər sifətə adət etmək
və uyğunlaşmaq olar, çünki o həmişə eyni cür
təzahür edir; eybəcər mənəviyyata isə uyğunlaşmaq
olmur, çünki o həmişə müxtəlif
formalarda təzahür edir.

***Əbu Turxan***

Qəlbini təmizləməmisənsə,
dəstəmaz almağın faydası yoxdur.

***Mövlana***

Əgər insan dünyanın ahəngini
duya bilməsə, təbii gözəllik qarşısında
heyrətlənməsə, öz daxili mənəvi güc qaynağını da
kəşf edə bilməz.

***Əbu Turxan***

Qəlb də ayna kimidir,
sındısa – yapışdırmaqla düzəlməz.

***Atalar sözü***

Ən böyük zəfər məğlub
etdiyin tərəfin həm də qəlbini fəth etməkdir.

***Əbu Turxan***

Nə pis adamlardan yaxşılıq
gözlə, nə də yaxşı adamlardan pislik.

***Xaqani***

Xeyirxah adamda paxıllıq hissi ola bilməz.

***Platon***

Şərə qalib gələn xeyir,
şərə rast gəlməyən xeyirdən qüdrətlidir.

***N.A.Berdyayev***

Öz yükünü sakit şəraitdə,
günəşli gündə çəkməyənlər qarda-boranda
tələm-tələsik çəkmək zorundadırlar.

***Əbu Turxan***

Məhəbbət teleskopdan,
paxıllıq isə mikroskopdan baxır.

***H.Şou***

Pas dəmiri yeyən kimi,
paxıllıq da insanın qəlbini yeyir.

***Periandr***

Paxıl adam bir dəfə ölmür: rəqibi
haqqında tərifli sözlər eşitdikcə hər dəfə ölür.

***Qrasian***

Min yeyənin olsun, bir deyənin olmasın.

***Atalar sözü***

Xeyirxahlıq təbiidir,
bədxahlıq isə sonradan özünə yer tapıb.

***L.N.Tolstoy***

Təmiz qalmaq üçün heç bir işə
qatışmayan adam unudur ki, o ən azı zəmanənin öz
çirkabına bulaşmış haldadır.

***Əbu Turxan***

Əgər su da təmiz deyilsə, yuyunmağın nə faydası?

***Əbu Turxan***

Çirkoy paltarda çirk bilinməz.

***Əbu Turxan***

Su hər şeyi təmizləyər, üz qaralığından başqa.

***Atalar sözü***

Tərbiyə xoşbəxt
günlərində insanın bəzəyi, bədbəxt günlərində
sığınacaq yeridir.

***Demokrit***

Axar çay murdarlıq götürməz.

***Atalar sözü***

Yaradılmışlardan ən gözəli
gözəl tərbiyə almış insandır.

***Epiktet***

Yavaş atın təpiyi bərk olar.

***Atalar sözü***

Yaxşı niyyət heç də həmişə
yaxşılığa gətirmir. Bunun üçün həm də bilik və
qabiliyyət lazımdır.

***Əbu Turxan***

Din və əxlaq inama əsaslanmaqla
vasitəsiz bilik olsalar da, hər halda yenə də
tərbiyə və təhsillə vasitələnirlər.

***Hegel***

Biliksizlikdən utancaqlıq
yaranır, çoxbilmişlikdən – utanmazlıq.

***Əbu Turxan***

Mərdliyi az olanın bicliyi çox olar.

***Bleyk***

Ən böyük biclik – düzlükdür.

***Atalar sözü***

Haqsız vasitələr
tələb edən məqsəd haqlı məqsəd deyil.

***K.Marks***

Suyun lal axanı, adamın yerə baxanı.

***Atalar sözü***

Saxtakarlıq əvvəlcə vərdişə, sonra xarakterə çevrilir.

***İbn Xəldun***

Dürüstlərin tənbəlliyi
saxtakarların hakimiyyətinə yol açar.

***Mövlana***

Hər şey incəlikdən, insan isə kobudluqdan qırılar.

***Mövlana***

Yarımçıqlıq bütün qüsurların
tərkib hissəsidir, kamillik isə tam və bölünməz olur.

***Vovenarq***

Biz bəzən istedadsızları
yazıqlaya-yazıqlaya yüksək mərtəbəyə
qaldırmaqla, istedadlılara qənim hazırlamış oluruq.

***Əbu Turxan***

Mənəvi gücün mənbəyi
ruhun ənginliyidir. Daxili mücadilə və
ziddiyyətlərdən məhrum olanda insan inkişaf
impulsunu itirir, durğunluq vəziyyətinə düşür.

***Tur Xander***

Millətin ən mühüm
kapitalı xalqın mənəvi keyfiyyətləridir.

***N.Q.Çernışevski***

Televiziya elə adamlardan
həzz almağa imkan verir ki, onları biz evin
kandarına da buraxmarıq.

***D.Frostalic'***

Dünyada iztirab qədər yaxşı tərbiyəçi yoxdur.

***Göte***

Neçə-neçə nəsillərdən bizə miras
qalmış mənəvi sərvətlərin, adət-ənənələrin, dini-əxlaqi
dəyərlərin intellektual inqilabın dağıdıcı təsirlərindən
qorunub saxlanması üçüncü minillikdə
ən böyük tarixi vəzifə olacaqdır.

***Əbu Turxan***

Televiziya indiki
halda xalq üçün tiryəkdir.

***Nikson***

Televiziya o dərəcədə
önəmlidir ki, onu ancaq televiziya işçilərinin
öhdəsinə buraxmaq olmaz.

***A.Benn***

Müasirlik mənəviyyatın zamana
uyğunlaşmış, amma hələ zamanın sınağından
çıxmamış üst qatıdır.

***Əbu Turxan***

Daha yüksək intellektli adamların
əqli enerjisi texnika vasitəsilə adi adamların həyatına
müdaxilə edir və mənəvi təcavüz baş verir.

***Tur Xander***

Güclünün zəifləri əzməsinə qanun da,
əxlaq da yol vermir. İntellektual gücün isə başqa
əraziyə müdaxiləsinin nə hüquq, nə də əxlaq
müstəvisində qarşısı alınmır.

***Tur Xander***

İçkinin başlanğıcı günah,
ortası sərxoşluq, sonu fəlakətdir.

***Xaqani***

Şərab insanı riyakar edir: ağlını alıb
ona ən ağıllı olduğunu, gücünü alıb ən güclü olduğunu
təlqin edir, sağlığını alıb sağlıq dedirdir.

***Əbu Turxan***

Sadəlik və sadəlövhlük çox vaxt
qarışıq salınır, halbuki biri ürəyin təmizliyindən, o biri
ağlın zəifliyindən irəli gəlir.

***Əbu Turxan***

Gözə soxulan sadəlik – niyyətli ikiüzlülükdür.

***Laroşfuko***

Sərxoşluq könüllü dəlilikdir.

***Seneka***

Öz məziyyətlərindən danışan
gülüncdür, öz məziyyətlərini bilməyən – sadəlövh.

***Çesterfild***

İçki məclisində ayıq adama
münasibət necədirsə, naqis mühitdə düz adama
münasibət də elədir.

***Əbu Turxan***

Ləyaqəti satmaqla varlanmaq olmaz.

***Vovenarq***

İnsanın ləyaqəti onun məqsədə
çatıb-çatmaması ilə yox, hansı məqsədə və hansı yolla
getməsi ilə müəyyən olunur.

***Abay***

Səxavət və bədxərclik zahirən nə
qədər bənzəsə də, fərqli mahiyyətlərin ifadəsidir.

***Əbu Turxan***

Qanun hamı üçün eynidir;
ləyaqət isə hər bir insanın özü üçün
könüllü qoyduğu əlavə qadağalarla
müəyyənləşir.

***Əbu Turxan***

Mənəviyyatca zəngin adamlar
– sadə, maddi imkan baxımından zəngin adamlar –
təkəbbürlü olurlar.

***Əbu Turxan***

Münasibətlər o zaman
dayanıqlı olur ki, səviyyələr uyğun gəlsin.
Kimsə münasibətinin kəsilməyini istəmirsə, gərək
üstünlüyünü biruzə verməsin.

***Əbu Turxan***

Xain xoflu olar.

***Atalar sözü***

Mən özümü bu dünyada, dünyanı məndə
Dərk eləyib məna dolu hər şey olaydım.

***Səməd Vurğun***

Qorxan gözə çöp düşər.

***Atalar sözü***

Zər qədrini zərgər bilər.

***Atalar sözü***

Bataqlıqda adam çapaladıqca daha tez batar.

***El hikməti***

Sən çomağını qaldır, suçlu suçunu bildirəcək.

***Atalar sözü***

# *Din, inam, iman*

*Məni məndə demə, məndə deyiləm,*
*Bir mən vardır məndə, məndən içəri.*

***Yunus Əmrə***

Kainat nə qədər böyük və onun müxtəlifliyi
nə qədər çox olsa da, o hər şeyi ehtiva edən ilahi bir
qüvvənin sayəsində vəhdətdədir. Onun sayəsində
bütün bu dünya ilahiləşir.

***Plotin***

Yeri yaradanın öz yeri olmaz.

***Nizami***

Allah mərkəzi hər yerdə,
çevrəsi isə heç yerdə olmayan dairədir.

***N.Kuzanlı***

Ateizm nazik buz qatıdır:
onun üstündən bir nəfər keçə bilər, amma xalq
guppultu ilə uçuruma düşəcəkdir.

***F.Bekon***

Tanrı insanlığın ən böyük kəşfidir.

***Cəmil Meriç***

Varlıqda varlığı yaradanın varlığı var.

***Mənsur Həllac***

Elm və din – hər ikisi idrak
müstəvisində dünya nizamına münasibətdir;
elmi düşüncə dünya nizamının ayrı-ayrı lokal
təzahürlərini aşkar etmək əzmindən, dini hiss
– sonsuz, əzəli-əbədi bir nizam qarşısında
heyrətdən qaynaqlanır.

***Əbu Turxan***

Allah təkcə nizamlı dünyada deyil,
xaosda, qaranlığın dərinliklərində də təzahür edir.

***Əbu Turxan***

Xalis, hüdudsuz zəka elə ilahiyyatın özüdür.

***Hegel***

Kainat Allahın fikridir.

***Şiller***

Hər şey ruhani sevinclə
doludur və ara-sıra onu şüalandırır.

***Uitmen***

Bəşəriyyət –
əzəliyyətdən əbədiyyətə axan nur çayıdır.

***Cübran***

Hər bir nurun daxilində özündən ali nura eşq var.

***Ş.Y. Sührəvərdi***

Gözəlliyin kamil olması
üçün daha ali bir element – ruhani element gərəkdir.

***Emerson***

Yaradana inanmağın ən mühüm
şərtlərindən biri insanın öz yaratdıqlarının da Yaradan
tərəfindən yaradıldığına inanmasıdır.

***Əbu Turxan***

Ruh dünyasının dərinliklərinə
ancaq dini hissin köməyi ilə girmək mümkün olur.

***Əbu Turxan***

Müqəddəslik duyğusu itən yerdə şər ağacı bitər.

***Əbu Turxan***

Nisbi müqəddəslik duyğuları
olmadan mütləq müqəddəslik duyula bilməz.

***Əbu Turxan***

İnam dünyanı müqəddəsləşdirir.
Sədaqət ona qovuşdurur.

***Teyar de Şarden***

Yolu ağıl seçir,
iradə hərəkətə gətirir, inam isə yola işıq salır.

***Əbu Turxan***

Xarici aləm əqllə,
daxili aləm imanla işıqlanır.

***Əbu Turxan***

Hər cür inamın mahiyyəti
onun həyata elə məna verə bilməsindədir ki, o
ölümdən yüksəyə qalxır.

***L.N.Tolstoy***

İman – ürəklərdəki oazisdir
ki, ora təfəkkürün karvanı heç vaxt çata bilməz.

***Cübran***

İnam yerlə göy arasında körpüdür.

***Göte***

Mənim biliklərim bədbin, inamım – nikbindir.

***A.Şveyser***

Allaha şübhə etmək
əslində ona inanmaq deməkdir.

***Balzak***

Adam var ki, inanmaq istəyir,
amma inana bilmir. Adam da var ki, inanmaq
istəməsə də inanır.

***Əbu Turxan***

Eşq və din aşağı səviyyədə
əks qütblər olsa da, ən yüksək məqamda hər ikisinin eyni
bir mahiyyəti ifadə etdiyi ortaya çıxır.

***Əbu Turxan***

Kimin inamı zəifdirsə,
o başqalarını da inandıra bilməz.

***Lao-Tszı***

Bizim yaradıcılığımız
dünyanın Allah tərəfindən yaradılması prosesində
kiçik variasiyalardan ibarətdir.

***R.Taqor***

Eşq ancaq əzəli-əbədi və sonsuz
olan böyük Yaradana ünvanlananda onun
həddi-hüdudu olmaya bilər.

***Əbu Turxan***

Özünə güvənməyən adama güvənmək olmaz.

***Əbu Turxan***

Ağ lövhə təkcə Allah-a məxsusdur;
biz hamımız yazılmışların üzərində yazırıq.

***Əbu Turxan***

Günahı ancaq savabla yumaq olar.

***Əbu Turxan***

Əgər insan Allahın iradəsinə
tabedirsə, onda o, təbiətlə həmahəngdir.

***Kant***

Allahı sevməyin yolu
onun yaratdıqlarını sevməkdən keçir.

***Əbu Turxan***

İnsan ömrü boyu
tamamlanmağa, bütövləşməyə, Vahidə can atır.

***Əbu Turxan***

Allahın ən gözəl əsəri könüldür.
Qalan hər şey ancaq əsərin əsəridir.

***Mövlana***

Gözlərə görmə qabiliyyəti
könüldən, könülə isə ilahidən verilir.

***Sanskrit aforizmi***

Allah sözünü yaratdıqlarının
təbii ahəngi və bir də istəkli bəndələrinin dili ilə deyir.

***Əbu Turxan***

Biz böyük Yaradan qarşısındakı
borcumuzu onun yaratdıqlarına ödəməliyik.

***Əbu Turxan***

Allahdan qorxmayan bu dünyanın
heybətlərindən qorxmağa məhkumdur.

***Əbu Turxan***

Sevgi hissindən
məhrum olan adam dindar ola bilməz.

***Əbu Turxan***

Dinə və məhəbbətə qəlbin
bir hissəsi lazım deyil, onlara bütün ruh lazımdır.

***A.İ.Gertsen***

İctimai hadisəyə çevrilmiş din artıq din deyil.

***Əbu Turxan***

İnsanın məqsədi Allaha
çatmaq yox, O-na səcdə etmək olmalıdır.

***Əbu Turxan***

Allah qarşısında əyilmək
bu dünyada əyilməzliyin təməl daşıdır.

***Əbu Turxan***

Din dövlət və cəmiyyət üçün yox,
insanlar üçündür.

***Əbu Turxan***

Həqiqi din əslində çox vaxt
insani keyfiyyət kimi təzahür edir.

***Əbu Turxan***

Fəlsəfi həqiqətlər səmanın
ənginliyindədir; ona ancaq fikrin qanadlarında çatmaq
olar. Dini həqiqətlər isə qəlbin dərinliyindədir.
Onlara çatmaq üçün özünə dalmaq, təlqin tələb olunur.

***Əbu Turxan***

Din o zaman elmə qarşı çıxır ki,
özünün bir inam hadisəsi olduğunu unudaraq idrak
hadisəsi kimi çıxış etməyə çalışır və dünyada gedən
proseslərin izahını vermək iddiasına düşür.

***Əbu Turxan***

Fəlsəfə seçilmişlər, din isə hamı üçündür.

***Əbu Turxan***

Fəlsəfənin gücü – fikrin dərinliyində,
dinin gücü – fikrin sadəliyindədir.

***Əbu Turxan***

Dinin fəlsəfədən bir fərqi
də odur ki, burada ideya iradə ilə vəhdətdədir.
Bu baxımdan din ideologiya ilə
eyni tərtibli hadisədir.

***Əbu Turxan***

Zirvədə – vəhy məqamında din elmlə birləşir.

***Əbu Turxan***

Elm – beyini, sənət – ürəyi,
din – ruhu qidalandırır.

***Əbu Turxan***

Dinsiz elm kor, elmsiz din də topaldır.

***Eynşteyn***

Gözəlliyin hüdudlarından
kənarda nə din var, nə elm.

***Cübran***

İdrak və inamın hər biri öz yerində
gözəldir. Başqasının sahəsinə keçdikdə isə
mürtəceləşirlər.

***Əbu Turxan***

Məntiqi ilahiləşdirənlər
ilahi hissdən məhrum olurlar.

***Əbu Turxan***

Elmlə din arasında ziddiyyət
o zaman yaranır ki, onlar təyinatını unudub bir-birini
əvəz etmək istəyir.

***Əbu Turxan***

Allah insana öz ruhundan
pay verərək onu şərəfləndirmişdir. İnsan da
cisimləri dərk edərkən onları ruhani enerji ilə işıqlandırır
və onlar ideya mərtəbəsinə yüksəlmiş olur.

***Əbu Turxan***

İnsan cismani aləmdəki
şeyləri, hadisələri mənimsəyərkən onları
şərəfləndirmiş olur.

***Əbu Turxan***

Daxili nəzarət cəmiyyətin
və dövlətin nəzarətindən daha etibarlıdır.

***Əbu Turxan***

İnsan özünü bir şeyə tamamilə
həsr etdikdə Allah da ona yardım edir.

***Göte***

Bir insan Allahdan başqa kimsəyə
ehtiyacı olmadığına inanırsa, Allah da onu
başqasına möhtac etməz.

***Şəms Təbrizi***

Ağlanacaq bir hal idi
Özümüzdə görürdük,
Dilimizin, dinimizin
Getməsinə gülürdük.

***Cavid***

İnsanın qəlbini göstərməz paltar,
Yazan özü bilər kağızda nə var.

***Sədi Şirazi***

Mənim gözüm Allahın təcəllisini təkbaşına istəmir; cəmiyyət olmadan Allahın təcəllisini görmək xətadır.

***Məhəmməd İqbal***

İman qarşısında zəkann bütün nailiyyətləri solur

***Avqustin***

Məni bir mən bilərəm, bir də Yaradan.
Mənə bir mən lazımam, bir də Anlayan...

***Mövlana***

Din və əxlaq inama əsaslanmaqla vasitəsiz bilik olsalar da, hər halda yenə də tərbiyə və təhsillə vasitələnirlər.

***Hegel***

Ölçülməzi ölçə bilməz ölçülər.

***Zəlimxan Yaqub***

Hər xeyirxah əməl
göylərə aparan nərdivanın bir pilləsidir.

***Henri Biqer***

Oğul odur, din içində din bəsləyə.

***Atalar sözü***

Sən saydığını say, gör fələk nə sayır.

***Atalar sözü***

# *Yer, göy, dünya*

*Yer üzünün nizamını pozmayın!*

***Quran 2/11***

Göylərin və yerin yaranışının,
gecə ilə gündüzün növbələşməsinin, şübhəsiz,
dəlilləri var düşünən başlar üçün.

***Quran 3/190***

Gündüzün yanında gecə olarmı?
Onları bir yerdə heç görən varmı?

***Nizami***

Kainat nə qədər böyük
və onun müxtəlifliyi nə qədər çox olsa da,
o hər şeyi ehtiva edən ilahi bir qüvvənin
sayəsində vəhdətdədir. Onun sayəsində
bütün bu dünya ilahiləşir.

***Plotin***

Bir hadisənin qarşısını almaq,
o hadisə baş verəndən sonra onun nəticələrini aradan
götürməkdən daha asandır.

***Heydər Əliyev***

Hər şeyin üç varlıq dərəcəsi olur;
ən aşağı səviyyədə şey özlüyündə mövcuddur,
nisbətən yüksək pillə onun insan şüurunda, ən ali pillə
isə Allahın dərgahındakı mövcudluğudur.

***Əbu Turxan***

Dünya nizamı özünün ölçüyəgəlməz
möhtəşəmliyi, hər yerdən parlayan sonsuz rəngarəngliyi
və gözəlliyi ilə bizi səssiz təəccübə gətirir.
Əbədi və ciddi nizama müvafiq olaraq vahid ümumi
qanundan necə gözəlliklərin, necə möhtəşəmliyin
çıxdığını görəndə isə ağıl bir başqa
cür heyrətlənir.

***Kant***

Dünya vahid bir ideyanın
təcəssümü olmasaydı, bu qədər bütöv və
ahəngdar olmazdı.

***Əbu Turxan***

Bir cizgi naxışdan çıxarsa kənar,
Başqa cizgilər də bütün pozular.

***Nizami***

Dünyaya nizamsız şəkildə nizamlı formalar səpilib.

***Pol Valeri***

Dünya eyni məzmunda, amma
müxtəlif dillərdə yazılmış üç kitabdan ibarətdir:
Müqəddəs kitab, təbiət və əql. Bunlar adətən
ayrı-ayrılıqda oxunur və onların eyni kitab
olduğunu çox az adam dərk edir.

***Əbu Turxan***

Günəş qüruba endikcə, kölgə böyüyür.

***Əbu Turxan***

Alovda nur yoxsa, nurda alov var.

***Əbu Turxan***

Qaranlıq işığın yoxluğundan,
kölgə işığın çoxluğundan törəyir.

***Əbu Turxan***

Yalnız işıq var, qaranlıq işığın yoxluğudur.

***Əbu Turxan***

Kölgəni yox edə bilmək
üçün Günəş öz zirvəsinə qalxmalıdır.

***Əbu Turxan***

Günəşin başı o tərəfdəki işıqlı
həyata qarışmasaydı, bu tərəfi qaranlıq
bürüyə bilməzdi.

***Əbu Turxan***

Yandırmasa idi,
atəşi daha parlaq nur zənn edərdilər.

***Əbu Turxan***

Bəşəriyyət
– əzəliyyətdən əbədiyyətə axan nur çayıdır.

***Cübran***

Bəşəriyyət eyni
mənşəyə və ümumi məqsədə malikdir.

***Yaspers***

Yaşadığımız dünya ona görə
fani və naqisdir ki, burada xalis heç nə yoxdur;
işıq qaranlıqla, əql nadanlıqla, xeyir şərlə, ideya
maddiyyatla qatışıq haldadır.

***Əbu Turxan***

Yer özü də göyün ənginliyindədir;
göydən yerə baxa bilsən.

***Əbu Turxan***

Dünya böyük bir teatr səhnəsidir.
Hər kəs öz rolunu oynayıb qurtarandan sonra bu
səhnəni tərk edir.

***Şekspir***

Bu dünya imkanla gerçəklik
arasında qərar tutur. Biz sonsuz imkan dünyasında
ancaq bir cığır seçib gedirik.

***Əbu Turxan***

Dünya dağdır, bizim etdiklərimiz səs.
Səslərin əks-sədası yenə bizim səmtimizə gəlir.

***Mövlana***

Bulud ağlamasa, çəmən gülməz.

***Nizami***

İnsan üçün gerçəklik
nə özlüyündə xarici dünya, nə də özlüyündə
daxili dünya olmayıb, bu ikisinin
təmasından yaranır.

***Əbu Turxan***

İnsan bu fani dünyada
daim yol gedir ki, nəhayət, onun cazibəsindən
kənara çıxsın. Amma bu ona ancaq ömrün sonunda
müyəssər olur.

***Əbu Turxan***

Bu dünya tələdir, yemi də istəklər.

***Mövlana***

Min bahar gəlsə də daş göyərməz.

***Mövlana***

Günəş batanda şamlar parıldayar.

***Mövlana***

Dünyada ancaq yaranmalı olanlar yaranır.

***Mark Avreli***

Bir fitil bir atəşdən alışır.
Amma o fitili alışdırmaqla atəşdən heç nə əskilmir.

***Ş.Y.Sührəvərdi***

Şey özündən daha şərafətlisini yarada bilməz.

***Ş.Y. Sührəvərdi***

İnsan ancaq yaranmaq
məqamı çatmış olan şeyi yarada bilər.

***Əbu Turxan***

Hər şeyin bir kölgəsi var, heçlikdən başqa.

***Əbu Turxan***

Hər şey həm yenidir, həm də köhnə.

***Göte***

Təbiətlə həmahəng ol.

***Heraklit***

Yeni yalnız heçdən yarana bilər.
Hər nə ki, nədənsə yaranır, artıq yeni deyil.

***Əbu Turxan***

Dərin dəniz daş atmaqla bulanmaz.

***Sədi Şirazi***

Göl suyu toplayır, bulaq paylayır.

***Bleyk***

Dünyanın ölməyən bir qanunu var.

***Səməd Vurğun***

Bütün gizlinlər gec-tez akarlanır.

***Sokrat***

Təbiət gizlənməyi xoşlayır.

***Heraklit***

Hər kiçik zərrənin öz aləmi var,
Dünya bir ahəngdə tutmuşdur qərar.

***Səməd Vurğun***

Kainatda boşluqlar yox,
gizlinlər var; nə vaxtsa işıqlansa,
xəzinələr bəlli olacaq.

***Əbu Turxan***

Mahiyyətlər heç vaxt itmir;
zaman keçdikcə müxtəlif libaslarda
yenidən üzə çıxır.

***Əbu Turxan***

Nizamın işıqlı və qaranlıq
tərəfləri olduğu kimi, xaosun da qaranlıqları
arxasında bir işıq vardır.

***Əbu Turxan***

Nizam öncə xaosun
bətnində olur və ancaq üzə çıxdıqdan sonra
biz onu görə bilirik.

***Əbu Turxan***

Hadisələr üçün müxtəliflik,
mahiyyətlər üçün eyniyyət və sabitlik səciyyəvidir.

***Əbu Turxan***

Təbiətdə hər şeyin öz yeri var;
nadir hallarda yerlər dəyişik düşəndə buna
möcüzə deyirlər.

***Əbu Turxan***

Təbiət ancaq qaydalardan
ibarət olsaydı, darıxdırıcı olardı. İnsanın hərdən bir
möcüzələrə də ehtiyacı vardır.

***Əbu Turxan***

Təbiətdə hər şey içəridən bağlıdır bir-birinə...

***Göte***

Dəniz dalğalar içərisində gizlidir.

***Əbdürrəhman Cami***

Varlıq dalğalar şəklində
qabaran bir dənizdir. Adi gözlə görünən
isə yalnız dalğalardır.

***Əbdürrəhman Cami***

Bəşərsiz kainat bir viranədir.

***Səməd Vurğun***

Təbiətin kitabı riyaziyyat dilində yazılmışdır.

***Qaliley***

Təbiət ancaq o adama
tabe olur ki, o təbiətin dili ilə danışır.

***F.Bekon***

İnsan həqiqəti öyrənmək
üçün təbiətin dilini öyrənir.

***Əbu Turxan***

Mürəkkəb hadisələr
dünyası yox, hadisələrin arxasında dayanan riyazi
qanunlar daha vacibdir.

***Heyzenberq***

Əbədiyyətə qovuşmaq
– onun dilini öyrənmək və hərdən bir
onu dinləməkdir.

***Əbu Turxan***

Zülmət çoxaldıqca ömrü qısalar.

***Əbu Turxan***

İdrakın zirvəsindən
dünya dəlixana kimi görünür.

***Göte***

Təbiət kitabı nağıl
dünyasını xatırladır; axırıncı otağa çatanda,
yenə qırx qapı açılır.

***Əbu Turxan***

Qaranlıq gecələr olmasaydı,
gözləri oxşayan ulduzlar bunca sevilməzdi.

***Cavid***

Mənə dayaq nöqtəsi verin, yeri yerindən oynadım.

***Arximed***

Mən haradayamsa, dünyanın mərkəzi də oradır.

***Molla Nəsrəddin***

Bütövləşmək əzmində olan
yarımçıq dağılmaq ərəfəsində olan bütövdən
daha dəyərlidir.

***Əbu Turxan***

Anbar nə qədər böyük
olursa-olsun, nizamsız yerdə heç nə yerləşmir.

***Əbu Turxan***

Nəyə isə əlavə etmək
mümkündürsə, kamil deyil,
nədənsə bir şeyi götürmək mümkündürsə,
əbədi deyil.

***Seneka***

Boşluq varsa, o mütləq dolmalıdır.

***Əbu Turxan***

Bir yandan boşalır, bir yandan dolur,
Sirrini verməyir sirdaşa dünya.

***Səməd Vurğun***

Bir fəsil başqa fəsil üçün bir fasilədir.

***Əbu Turxan***

Hər bağçadan bir çiçək
birləşəndə rəngarəng bir gül dəstəsi yaranır.

***Əbu Turxan***

Çiçək gah açıqdır, gah da pünhandır,
Ağac gah geyimli, gah da üryandır.

***Sədi Şirazi***

Cismin nəyə ehtiyacı varsa,
onu da götürür; bundan artığı da, əskiyi də ziyandır.

***Əbu Turxan***

İnsan özünü ancaq
dünyanı dərk etdiyi dərəcədə dərk edə bilər.

***Göte***

Dünyanı dərk edə bilmək üçün
insan əvvəlcə dünya ilə bir tam halına gəlməlidir.

***Əbu Turxan***

Dünya ancaq insan qəlbinin hənirtisi ilə canlanır.

***Əbu Turxan***

Dünyanı tam halında yaşamaq olmur;
o çiçək-çiçək, damla-damla yaşanır.

***Əbu Turxan***

Hər əqlə sığışan hünər, bilikdən
Bir məna çıxarır mənanı bilən.

***Nizami***

Özünüdərk dünyanın dərkindən keçir.

***Əbu Turxan***

Dünya onu anlayanlarındır.

***Əbu Turxan***

İnsan dünyanı necə
mənalandırırsa, elə də dərk edir.

***Əbu Turxan***

Dünyanın ancaq öz qəlbimizlə
işıqlandırdığımız hissəsi bizə məxsusdur.

***Əbu Turxan***

İnsan ilə onun dünyası
eyni tərbibli olur; hər bir məqamda insan özü nədirsə,
dünya da onun üçün elə odur.

***Əbu Turxan***

Dünyanı dərk etmək
üçün dünyadan kənara çıxmaq lazımdır.

***Əbu Turxan***

Dünya bildiyimizdən artıq bizim ola bilməz.

***Xudu Məmmədov***

İnsan idrakına daimi
bir daxili mübarizə xasdır, çünki o iki barışmaz
tələbat üzərində qurulmuşdur.
Birincisi, görmək ehtiyacı – amma biz ancaq
sürəkli olanı görürük, sürəklilik isə sonsuzdur.
İkincisi, anlamaq ehtiyacı, – biz ancaq sonlu
olanı anlaya bilərik.

***Puankare***

Sonlunun hüdudundan
çıxmadan sonsuzluğu duymaq olmaz.

***Əbu Turxan***

Kainatın insan dünyasında
tutduğu yer bəzən insanın kainatda tutduğu
yerdən də kiçik olur.

***Əbu Turxan***

Böyük dünya kiçik dünyadan böyük deyil.

***Əbu Turxan***

İnsanın öz dünyasını genişləndirməsi
təkcə öz şəxsi həyatı sayəsində deyil, həm də başqa
insanların yaşantılarını da öz dünyasına qatması
sayəsində mümkün olur.

***Əbu Turxan***

İnsanla uzlaşmayan dünyalar
insan üçün yoxdur və insan özü də həmin
dünyalarda yoxdur.

***Əbu Turxan***

İnsan dəyişdikcə dünya da onun üçün
dəyişmiş olur. Müxtəlif inkişaf səviyyələrində insan öz
dünyasını hər dəfə yenidən qurur.

***Əbu Turxan***

Dünya bizə məxsusdur.
Amma bəzən hansısa dünya malına aludə olanda,
bütövlükdə dünyanı qurban verdiyimizin
fərqində olmuruq.

***Əbu Turxan***

İnsan üçün iki dünya var:
birinin içində yaşayır, o birini öz içində qurur.
Birinci yad, ikinci – doğmadır.

***Əbu Turxan***

Ruhani və cismani dünya
həyatın özü yox, qütbləridir. İnsan bu iki qütb
arasında yaşayır.

***Əbu Turxan***

İnsan o vaxt xoşbəxt
olur ki, iç dünyası ilə içində yaşadığı
dünya uyğun gəlsin.

***Əbu Turxan***

Çətin olan
hər iki dünyada bəxtəvər olmaqdır.

***Əbu Turxan***

Dünyanın vəhdəti təbiətin
məntiqi ilə idrakın məntiqi arasındakı eyniyyətdə
daha aydın üzə çıxır.

***Əbu Turxan***

Ruhani dünyanın ülviyyətinə
qovuşanların cismani dünyada bəxti gətirmir.

***Əbu Turxan***

İnsan iki dünyanın övladıdır.

***Kant***

Dünyanın ali mənası onun
ayrı-ayrı hissələrinin mənasından hasil ola bilməz.

***Əbu Turxan***

Məntiq hamı üçün eyni
olmasaydı, vahid bəşəriyyətdən danışmaq
mümkün olmazdı.

***Əbu Turxan***

Məntiq sübut alətidir, intuisiya – kəşf aləti.

***Puankare***

Küləş tək alışıb yanmağın
adəti yandırmaqdırsa, aqibəti – kül olmaqdır.

***Əbu Turxan***

Kömürün küldən fərqi
canında hələ də yanmaq potensialının qalmasıdır.

***Tur Xander***

Heç bir təmas yoxdursa, alışan təkcə
özünü yandırar.

***Əbu Turxan***

Ocağın nə çəkdiyini
ancaq son qığılcımlar söyləyə bilər.

***Əbu Turxan***

Suyun rəngi qabının rəngidir.

***Bistami***

Bu dünya bir qızıl kuzəyə bənzər,
Suyu gah şirindir, gah da ki, zəhər.
Çox da öyünmə ki, uzundur ömrün,
Əcəl köhlənində hazırdır yəhər.

***Məhsəti***

İnsanlığın çatışmazlığı bizi təbiətdən ayırır.

***Levinas***

Təbiətlə insan qəlbi arasında
körpü rolunu oynayan birləşdirici bir aləm də
vardır. Bu, ədəbiyyat və incəsənətdir.

***Əbu Turxan***

Unutmayın ki, dünyanın sizə
heç bir borcu yoxdur, çünki o sizdən
əvvəl mövcuddur.

***R.Stil***

Qəlb narahat olanda – kəsrət,
qəlb rahat olanda – vəhdət yaranır.

***Aşvaqoşa***

Üzərində hər bir qələbəmizə görə
təbiət bizdən qisas alır.

***Engels***

Dünya duracaq yer deyil, ey can, səfər eylə!...

***Nəsimi***

Gülü bitməz tikənsiz dünyanın...

***Nəsimi***

Qoy gənclər dünyanı xəyal etdikləri
kimi görsünlər, böyüyəndə onsuz da necə
olduğunu görəcəklər.

***Volter***

Cahan ağıl, can sənin sərmayəndir,
Yerlə göylər hamısı bəzəyindir.

***Şəbüstəri***

Od olmasa, tüstü çıxmaz.

***Atalar sözü***

Yaş odun tüstüləyir.

***Atalar sözü***

Dünya bizdən öncə yazılmışdır.
Amma bəzən o bizə ağ vərəq kimi görünür və başlayırıq
onu yenidən yazmağa; neçə gözəlliklər bizim
cızma-qaranın altında qalır!

***Əbu Turxan***

Bu dünya gör-götür dünyasıdır.

***El hikməti***

# *Zaman-məkan*

*Həyat bir silsilədir;*
*Bir fəsil başqa fəsil üçün*
*bir fasilədir.*
**Əbu Turxan**

Heç kim əbədi qalib ola bilməz.

***Heydər Əliyev***

Heç nə nə gec olur, nə də tez...
Hər şey vaxtında olur.

***Konfutsi***

Gözləyə bilənə hər şey öz vaxtında gəlir.

***Balzak***

Zaman pula bənzəyir
– lazımsız yerə xərcləməsən hər şeyə çatar.

***Konfutsi***

Ən təhlükəli oğru vaxt oğrusudur.

***C.Kolenso***

Zaman gizli olan hər şeyin
üstünü açır, aydın olan hər şeyin üstünü örtür.

***Sofokl***

İnsanın itirdiyi
ən böyük şey zaman ola bilər.

***Teofrast***

Dua: Vaxtın bərəkətli olsun.

***Əbu Turxan***

Əgər lazımsız işlərə
vaxt qalırsa, deməli, hansı isə vacib işlərə
vaxt ayrılmamışdır.

***Əbu Turxan***

Vaxtı öldürmək özünü öldürməkdir.

***D.Pekk***

Hər bir qənaət
nəticə etibarı ilə vaxta qənaətdir.

***K.Marks***

Əgər asudəlik istəyirsənsə,
vaxtını hədər yerə itirmə.

***B.Franklin***

Vaxtsız çiçək açan arzular bar verməz.

***Əbu Turxan***

İnsan gələcəyini də bu gün yaşayır.

***Əbu Turxan***

İnsan gələcəyə öz keçmişinin çiynində gedir.

***Əbu Turxan***

Hər anın öz hökmü var.

***Atalar sözü***

Şərti şumda kəsərlər ki,
xırmanda dava düşməsin.

***Atalar sözü***

Daldan atılan daş topuğa dəyər.

***Atalar sözü***

Sonrakı peşmançılıq fayda verməz.

***Atalar sözü***

Hər dövranın bir hökmü var,
Hər zamanın bir qələmi...

***Səməd Vurğun***

Gec olsun, güc olsun.

***Atalar sözü***

Cücəni payızda sayarlar.

***Atalar sözü***

Dəmiri isti-isti döyərlər.

***Atalar sözü***

Keçmiş – xatirələrdə,
gələcək isə xəyallarda yaşayır.

***Əbu Turxan***

Keçmiş indinin virtual məkanıdır.

***Tur Xander***

Keçmiş ya ancaq salnamələrdə,
yaddaşlarda qalıb tarixə daxil olur, ya da
indinin strukturuna daxil olmaqla
yaşamaqda davam edir.

***Tur Xander***

«İndi» geniş planda xatirələrlə arzuların,
dar planda isə təəssüratla istəyin vəhdətidir.

***Tur Xander***

Gələcək o zaman
bizimkidir ki, keçmişimizin davamıdır.

***Əbu Turxan***

Keçmişi də, gələcəyi də
ancaq indinin işığında görmək olar.

***Əbu Turxan***

Keçmiş – insan nəfsinin vətənidir.

***Heyne***

Müasirlik zəmanəyə bənzəməkdir.

***Əbu Turxan***

Təxəyyül hadisələri zaman
və məkan məhdudiyyətindən azad edir.

***Əbu Turxan***

Mən heç vaxt gələcək
haqda düşünməyə macal tapmıram.
O, kifayət qədər tez gəlib çıxır.

***Eynşteyn***

İnsan oğlu hər gün çarmıxa çəkilir;
keçmiş ayaqları pərçimləyir, gələcək isə
əllərindən tutub dartır.

***Əbu Turxan***

Biz gələcəyə çatanda,
məlum olur ki, onun mənzərəsi
öncədən çəkilibmiş.

***Əbu Turxan***

Heç kəs keçmişini satın ala biləcək qədər
zəngin deyildir.

***Uayld***

Nəyisə unutmaq,
yaxud unutmamaq insan iradəsindən xaricdir.

***Korneli Tasit***

Biz gələcəyə getməsək də, gələcək
bizi çəkib aparır.

***Əbu Turxan***

Hər şey itirildikdən sonra
da hələ bir şey – gələcək qalır.

***Kristian Bovi***

Heç şey dəyişməz
saydığımız keçmiş qədər sürətlə dəyişmir.

***A.Koyre***

Dünən tarixdir, sabah müəmmadır,
bu gün isə bir hədiyyədir.

***Eleonora Ruzvelt***

Biz keçmişdən külü yox, odu götürməliyik.

***J.Jores***

Keçmişi dəyişmək olmaz, deyirlər;
amma biz dəyişdikcə keçmiş sanki dəyişir və
qarşımızda hər dəfə yeni
bir keçmiş canlanır.

***Əbu Turxan***

Gələcək keçmişə bənzəyir.

***İbn Xəldun***

Zəmanə ancaq dayazda
olanları dəyişir; dərin qatlara nüfuz edə bilmir.

***Əbu Turxan***

Keçmiş və gələcək yoxdur;
yalnız və yalnız bir sonsuz indi var.

***Çin atalar sözü***

Bir anlıq səadət bir qərinədir.

***Səməd Vurğun***

Ovu gərək bərədə vurasan.

***Atalar sözü***

Bizim mövcudluğumuz
fasiləsiz olaraq keçmişə doğru gedişdir.

***Nitsşe***

Yaxındakı köz
uzaqdakı Günəşdən daha betər yandıra bilər.

***Əbu Turxan***

Cahanda hər hökmü bir zaman verir,
Dünən fərman verən bu gün can verir.

***Səməd Vurğun***

Məkan zamanın bir anıdır.

***Əbu Turxan***

Vaxt atlı, biz piyada.

***Atalar sözü***

Əldən qalan əlli il qalar.

***Atalar sözü***

Vaxtsız açılan gül tez solar.

***Atalar sözü***

Bu günün işini sabaha qoyma.

***Atalar sözü***

Vaxtında görülməyən iş həmişə
yarımçıq qalar.

***Atalar sözü***

Vaxtını itirən baxtını itirər.

***Atalar sözü***

# *Tale, həyat və ölüm*

*Hər həyat səhifəsi ömürün ilk yazıdı,*
*Bu günün hər əməli sabah üçün yazıdı.*
***Əbu Turxan***

Bir qövm özünü dəyişdirməsə,
Allah da o qövmü dəyişdirməz.

***Quran 13/11***

Heç ölməyəcəksənmiş kimi dünya üçün,
Sabah öləcəksənmiş kimi axirət üçün çalış.

***Hz. Məhəmməd***

Ölmədən öncə ölmək lazımdır.

***Hz.Məhəmməd***

Hər bir insan ancaq
öz boyuna biçilmiş bir həyat yaşayanda
xoşbəxt ola bilər.

***Əbu Turxan***

Həyatın nə olduğunu bilmiriksə,
ölümün nə olduğunu necə bilərik?

***Konfutsi***

Həyatın hər üzü gözəldir.

***Göte***

Həyat hərəkət deməkdir,
su da axmayanda iylənir.

***Aristotel***

Həyat beşiklə məzar arasındakı
sınaq müddətidir.

***Balzak***

Həyat bir dağdır:
qalxanda yavaş-yavaş, düşəndə tez-tez düşürük.

***Mopassan***

Hər ötən günə
kiçik bir həyat kimi baxmaq lazımdır.

***M.Qorki***

Yeni cümlə başlamaq
üçün əvvəl nöqtə qoymaq lazımdır.

***Əbu Turxan***

Qocalıq fırtınalı həyatın limanıdır.
***K.Preston***

Əsl həyat doğulma və canlanma
proseslərinin bütöv bir silsiləsidir.

***Əbu Turxan***

Yaşamaq gərçi xoş əməl,
Yaşatmaq daha gözəl.

***Cavid***

Yaşamaq – sadəcə nəfəs almaq deyil,
həyatın nəfəsini duymaqdır.

***Əbu Turxan***

Ömür çoxölçülüdür
və hər ölçüdə fərqli bir həyat yaşanır.

***Əbu Turxan***

Həyat da, ölüm də eşqin təzahürləridir.
Bizim təbiətə sevgimiz həyat eşqidir.
Təbiətin bizə sevgisi bizi yenidən
əbədiyyətə qaytarmaq əzmidir.

***Əbu Turxan***

Bəzən yaşamadıqlarımız
bizi yaşadığımız həyatdan daha çox mühakimə edir.

***Əbu Turxan***

Həyat eşqi həyatdan
ikiəlli yapışmaq deyil, həyatı yüksək tutmaqdır.

***Əbu Turxan***

Həyat iki əbədiyyət arasında yarğan,
iki qara bulud arasında çaxan şimşəkdir.

***Əmin ər-Reyhani***

Həyat balaca bir əbədiyyətdir.

***Emerson***

O şey ki, verilir, o əlimizdən alına da bilər.

***Seneka***

Silgi istifadə etmədən
rəsm çəkmək sənətinə həyat deyilir.

***Hölderlin***

Bir şey ki, qaçılmazdır,
ondan qaçmaq axmaqlıq olardı.

***Publiliy Sir***

Əgər bəladan qaçmaq mümkündürsə,
onda nədən narazısan?
Yox, əgər o qaçılmazdırsa,
onda şikayətlənməkdən nə fayda?

***Sokrat***

Pis hadisədən sarsılmamaq
üçün düşünmək lazımdır ki, bundan da pis ola bilərdi.

***Epiktet***

Həyat öyrənildikcə şirinləşir.

***Xudu Məmmədov***

Həyat – ideyanın realizasiyasıdır.

***Tur Xander***

Elm “alın yazısını” qəbul etmədi,
amma “genetik proqram” adı altında onu
özü kəşf etdi.

***Tur Xander***

Ömür genetik proqramın mühitdə açılışıdır.

***Tur Xander***

Yaşamaq – ruhani potensialın
həyat enerjisinə çevrilməsidir.

***Tur Xander***

Düzlüyü çox sevər taleyi yazan,
Görmədim düz yolda yolunu azan.

***Sədi Şirazi***

Hərənin öz yolu var;
amma başqalarının saldığı yolla getmək
daha asan olur.

***Əbu Turxan***

Yalnız ölmək istəməyəni xilas etmək mümkündür.

***L.N.Tolstoy***

Həyatın açdığı bütün yollar
gec-tez ölümə aparıb çıxarır. Ölməzliyə isə insan
ancaq öz açdığı yolla çata bilər.

***Əbu Turxan***

Adam o zaman özünə yer tapa bilmir ki,
yerini başqa yerdə axtarır.

***Əbu Turxan***

Hər şey, nəyə layiqdirsə, ona dönür.

***Mövlana***

Yolu düzgün seçə bilsən,
düşmənin silahı özü üçün yükə çevrilər.

***Əbu Turxan***

Əzm nə qədər böyük olsa,
məqsədə aparan yol bir o qədər qısa olar.

***Əbu Turxan***

Bəzən biz yolu seçirik, bəzən də yol bizi.

***Əbu Turxan***

Ancaq özünü tapan adam
həyatını istədiyi kimi idarə edə bilər.

***Əbu Turxan***

Bu dünyada uğuru yalnız
bunun üçün lazım olan şəraiti axtaran tapır;
tapmasa, bu şəraiti o özü yaradır.

***B.Şou***

Özünə mühit yaratmayan insan
ömrü boyu başqa bir mühitdə – qərib kimi
yaşamağa məhkumdur.

***Əbu Turxan***

Bundan sonra hara gedəcəyini
bilmək üçün, buna qədər haradan
gəldiyini bilməlisən.

***Əbu Turxan***

İnsan ona bəxş edilmiş ömrü
heç vaxt tam yaşamır. Ömür qismətin
ancaq bir qismidir.

***Əbu Turxan***

Əgər danışsaydı,
ölümlə də "dil tapmaq" olardı.

***Əbu Turxan***

Haraya üzəcəyini bilmirsənsə,
üzməyi bilməyin faydası yoxdur.

***Əbu Turxan***

Fərq olmadıqda inkişaf da olmaz.
Kimsə irəli çıxmalı, sürünənlərə şahin zirvəsindən baxmalı, ürəyinin atəşi ilə qaranlıq meşədə azanların yoluna işıq saçmalıdır.

***Tur Xander***

Sürünmək üçün yarananlar uça bilmirlər!

***M.Qorki***

Uça bilməyənlər üçün dünyanın
başlanğıcı da, sonu da (bir) yerdədir.

***Əbu Turxan***

Ən çox batan yaxşı üzənlər olur.

***T.Fuller***

Uçmaq üçün yarananları sürünməyə,
sürünmək üçün yarananları uçmağa
təhrik etmək günahdır.

***Əbu Turxan***

Əbədiyyət insanın içindədir!

***Əbu Turxan***

Ömrün ən böyük qazancı
ömürdən sonrakı həyatın qazanılmasıdır.

***Əbu Turxan***

Ömür qısadır, şöhrət isə əbədi ola bilər.

***Siseron***

Heç bir şöhrətə çiçəkli yollarla gedilməz.

***Lafonten***

Fərdi cismani həyat başa çatanda
insan öz ideyalarında, ideyalar isə davamçıların
şəxsində yaşayır.

***Əbu Turxan***

Həyat naminə həyatın mənasını itirmək olmaz.

***Yuvenal***

Ölməzlik nə isə əbədi
bir şey üzərində işləməkdədir.

***J.Renan***

Tarix üçün yaşamaq bir şeydir,
əbədiyyət üçün yaşamaq başqa bir şey.

***M.Unamuno***

İnsanın ölüm anındakı sözləri çox qiymətlidir.

***Konfutsi***

Ölüm gələndə həyatdan dördəlli yapışma.

***Pifaqor***

Birinin məhvi
başqasının yaranması deməkdir.

***Aristotel***

Biri ölüb biri ölməsəydi, ölmək çox acı olardı.

***Labryuer***

Hələ ki, heç kim ölməz doğulmayıb.
Kiminsə başına bu iş gəlsəydi, o, heç də başqalarının
düşündüyü qədər xoşbəxt olmazdı.

***Platon***

Hər şeyin iki üzü var:
biri solanda o biri çiçəklənir.

***Nitsşe***

Əgər insan dünyada tək olsaydı,
ölüm haqqında heç bir təsəvvürü olmazdı.

***Kondilyak***

Ruh olan yerə ölüm girə bilməz.

***Əbu Turxan***

Fərd ölməyə
məhkumdur, bəşər övladı – olümsüzdür.

***Kant***

Dirilər ölülərə heç nəyi öyrədə bilməzlər,
amma ölülər dirilərə öyrədir.

***Şatobrian***

Yaşayanları yönəldən çox vaxt ölülərdir.
Deməli, öldürülməsi lazım olan ölülər də var.

***Cəmil Meriç***

Bir var, sən ölümdən qaçasan
(onda o, səni mütləq yaxalayacaq),
bir də var, üzərinə elə gedəsən ki,
ölüm səndən qaçsın.

***Əbu Turxan***

Ölümdən qorunmaqdansa,
ruhla dost ol ki, səni yalqız buraxmasın.

***Əbu Turxan***

Ancaq eşq ölümdən
qorxmur, çünki ruhdan yoğrulub.

***Əbu Turxan***

Həyat eşqi ilə ölüm qorxusu əkizdir.

***R.Rollan***

Həyata məna verən – anın dəyərləndirilməsidir.

***Əbu Turxan***

Həyatı sevməyənlər
ölümdən daha çox qorxurlar.

***Əbu Turxan***

Eşqsiz insan
tək ölümdən yox, həyatdan da qorxur.

***Əbu Turxan***

Meyvə çəyirdəyini
daşıdığı kimi, insan da ölümü öz içində daşıyır.

***Reyner Maria Rilke***

Çayın həyatı onun axmasındadır.
Dənizə çatmaq sanki bu həyata son qoyur,
amma əslində onun həyatı öz mənasını bu vüsal
məqamında tapır.

*Dua:* Qoy sənin vüsalın çayın dənizə qovuşması kimi
davamlı olsun!

***Əbu Turxan***

Bəzən mənliyi yaşatmağın yeganə yolu
ölüm olur.

***Əbu Turxan***

Adətən ölənləri ağlayırlar;
doğula bilməyənlər haqqında düşünən
də yoxdur.

***Əbu Turxan***

Özünü dərk edənlər
bu dünyanı rahat tərk edə bilirlər.

***Əbu Turxan***

Bu dünyada həyat
heçliklə varlıq arasında cərəyan edir.
Ölüm bu həyata yekun vurur və kimləri isə heçliyə,
kimləri isə varlığa qovuşdurur.

***Əbu Turxan***

Ölüm bir dəfə gəlir,
amma biz onu ömrü boyu gözləyirik: ölüm qorxusu
ölümün özündən də əzablıdır.

***Labryuer***

Sağlığında tərki-dünya
olanlar öləndə heç nə itirmirlər.

***Əbu Turxan***

Xoşbəxt adamlar üçün ən uzun
ömür də bir gün qədər qısadır, bədbəxtlər üçünsə
bir gün də əzablı ömür qədər uzundur.

***Lukian***

Ölüm var ki, həyat qədər dəyərli,
Həyat var ki, ölümdən də zəhərli.

***Cavid***

Bir insanın ölümü ölüm,
iki milyon insanın ölümü isə statistikadır.

***Remark***

Ölüm olmasaydı,
insanlar çətin ki filosofluq edərdilər.

***Şopenhauer***

Ölüm zamanın qırıldığı bir məqamdır.

***Cübran***

Ölüm gözləmir,
deməli, ömür də gözləməməlidir.

***İ.S.Turgenev***

Yaxşı yaşadığımız gün
bizə sakit yuxu gətirdiyi kimi, yaxşı yaşadığımız
ömür də bizə sakit ölüm gətirir.

***Leonardo da Vinçi***

Həyat balonla səyahət kimidir.
İp qırılanda ruh göydə uçur, bədən yerə düşür.

***Əbu Turxan***

Fəlakət anında
qərar verə bilmək qurtuluşun yarısıdır.

***Pestalotsi***

Yeni qərarlar
qəbul etməyəni yeni problemlər gözləyir.

***F.Bekon***

Ömrü vaxtla yox, əməllərlə ölçmək lazımdır.

***Seneka***

Müstəsna vəziyyətdən
çıxış yolu ancaq müstəsna qərarla tapıla bilər.

***Əbu Turxan***

Fəal adamlar bəzən məqsəddən
uzaqlaşdıqlarının fərqində olmurlar;
onlar üçün əsas olan hərəkətdir.

***Əbu Turxan***

Uşağın ağlaması ilə gülüşü
arasında məsafə çox kiçikdir. İnsan böyüdükcə
bu məsafə də böyüyür və birindən o birinə
keçid çətinləşir.

***Əbu Turxan***

Kim ki, heç vaxt uşaq
olmayıb, heç vaxt böyük də olmayacaq.

***Ç.Çaplin***

İnsanın bütün həyatı böyük
məqsədlərə yönəlməlidir. Amma hərdən bir nəfəsini
dərmək üçün tez bəhrə verən işlərə də vaxt
ayırmaq olar; bu şərtlə ki, yenidən
yoluna davam edəsən.

***Əbu Turxan***

Yaradıcı adamın
həyatı hüdud daxilində tükənməzlikdir.

***Əbu Turxan***

Ancaq yaradıcılıq
məqamları sözün həqiqi mənasında həyatdır.

***Əbu Turxan***

Qaranlıqda yeganə işıq mənbəyi
olmaq qürur verir, daha güclü işığın içərisinə
düşmək – sevinc.

***Əbu Turxan***

Heç vaxt
çıxdığın qapını bərk çırpma; ola bilər geri
dönmək istədin.

***Don Gerold***

Həyatın alovu görünməyən
aydınlığını göstərmək üçün özünü öz dumanı
ilə pərdələyir.

***Məhəmməd İqbal***

Qəhrəmanlıq üçün bircə
an belə kifayətdir, ləyaqətli insan olmaq üçün isə
bütöv bir ömür lazımdır.

***P.Bryula***

Sənə bircə dəfə gərək olacaq
silahı ömrün boyu gəzdirməlisən.

***Rəsul Həmzətov***

İşıq hər tərəfi bürüyəndə,
onun mənbəyi diqqəti cəlb etmir.

***Əbu Turxan***

Təzad həyatın ahəngidir.

***Cavid***

Ey könül quşu,
kor olsan da, unutma ki, qanadların var!

***R.Taqor***

Damlada itirdiyimiz
bir dəniz qədər önəmli ola bilər.

***Əbu Turxan***

Əgər həyatı gözləməklə keçirmək
lazım gələcəksə, onu yaşamağa dəyməz.

***Feyxtvanqer***

Həyat və mənəviyyat bölünməzdir.

***Tomas Mann***

Uğur qazanıb sevinmək üçün öncə
bir çox məhrumiyyətlərə dözmək lazımdır.

***Con Milton***

Həyatın ağrı-acısını
görən və dərk edən insan fəlsəfəni həyatın öz
kitabından da oxuya bilər.

***Əbu Turxan***

Ey müqəddəs həyat! Müqəddəs insan!
Sənə ilham verən yalnız ürəkdir.
Ayıl məclislərin sərxoşluğundan
Ömür röya kimi boş keçəcəkdir!

***Səməd Vurğun***

Bu qala bizim qala
Həmişə bizim qala
Tikmədim özüm qalam
Tikdim ki, izim qala.

***Xudu Məmmədov***

Həyatda insani başlanğıcı
tamamilə məhv etmək mümkün deyil.

***Əbu Turxan***

Gəlin, istədiyimiz kimi
düşünək və düşündüyümüz kimi yaşayaq.

***Əmin ər-Reyhani***

Düşüncələriniz necədirsə, həyatınız
da elədir. Həyatınızın gedişini dəyişdirmək
istəyirsinizsə, düşüncələrinizi dəyişdirin.

***Mark Avreli***

Düzənim pozular, həyatımın altı üstünə
gələr deyə əndişə etmə. Haradan bilə bilərsən
həyatın altının üstündən daha yaxşı
olmayacağını?

***Şəms Təbrizi***

Həyat hisslərlə yaşayanlar
üçün faciə, ağıl ilə yaşayanlar
üçün isə komediyadır.

***Şarl Lemel***

Düşüncəni dəyiş ki, həyatını dəyişəsən.

***Brayan Treysi***

Heç kim cavanlığının necə getdiyini
duymur, amma onun artıq getdiyini hamı duyur.

***Kiçik Seneka***

Cavanlıq artıq cavan
olmayan üçün böyük çatışmazlıqdır.

***Düma***

Gənclər yenilik sevir,
qocalar isə ənənələrə sadiq olurlar.

***Laroşfuko***

Qocalıq axmaq üçün yük,
nadan üçün – qış, alim üçün – biçin vaxtıdır.

***Volter***

Cavanlıqda biz sevmək üçün
yaşayırıq; yetkin dövrdə yaşamaq üçün sevirik.

***Sent Evremon***

Cavanlıqda intuisiya,
qocalıqda – düşüncə üstünlük təşkil edir:
buna görə də birincisi poeziya, ikincisi fəlsəfə
üçün əlverişlidir.

***Şopenhauer***

Cavanlar xəyal edirlər, qocalar xatırlayırlar.

***Lui Araqon***

Hamı çox yaşamağı
istəyir, lakin heç kəs qocalmaq istəmir.

***Molla Fənari***

Əgər nəyə isə təəccüblənə
bilirsinizsə, deməli, hələ cavansınız.

***Çörçill***

Qırx yaş cavanlığın
qocalığı, əlli yaş qocalığın cavanlığıdır.

***Hüqo***

Qocalığa cavanlıqdan hazırlıq görmək lazımdır.

***Marağalı Əvhədi***

Səhər axşamla qarşılaşmaq
istəmədiyi kimi, gənclik də solmuş qocalığı
görmək istəmir.

***Cübran***

Qocalığın aqibəti gəncliyin
nəyə sərf edilməsindən asılıdır.

***Stendal***

Elə xatirələr var ki, danışsan gözəlliyi gedər.

***J. Sand***

İsti xatirələri olmayanlar üçün qış soyuq keçər.

***J.Renan***

Həyat cavanların gözündə sonsuz
gələcək, qocaların gözündə – qısa keçmişdir.

***Şopenhauer***

Xəyal etdikləriniz sadəcə
sizin xəyallarınız deyil; bütün dünya da sizin
xəyal etdiklərinizi xəyal edər.

***Nüaymə***

Keçmişini unudan
onu təzədən yaşamağa məhkumdur.

***Santayana***

Unutmaq mümkün
olmasaydı, həyat işgəncəyə çevrilərdi.

***Konfutsi***

Bəzən uzaqlaşmaq
lazım gəlir, yaxınlaşmaq üçün;
bəzən xatırlamaq lazım gəlir, xatırlanmaq üçün;
bəzən ağlamaq lazım gəlir, açılmaq üçün;
bəzən anmaq lazım gəlir, anılmaq üçün;
bəzən de susmaq lazım gəlir, duymaq üçün.

***Şəms Təbrizi***

"Bir şərdən qaçsan, başqa şərə düşərsən".
Ona görə də şərdən qaçmaq yox, onu
dəf etmək lazımdır.

***Əbu Turxan***

Yumor bizi həyat
dalğalarında qoruyan halqadır.

***V.Raabe***

Xatirə görüşün bir növüdür.

***Cübran***

Ömrün gecəsi özü ilə öz çırağını gətirir.

***Jozef Juber***

Sübhə yalnız gecənin cığırı ilə gedərək çatmaq olar.

***Cübran***

Biz tez-tez gələcək günlərdən borc
götürürük ki, keçmiş günlərin borclarını qaytaraq.

***Cübran***

Şər deməsən, xeyir gəlməz.

***Atalar sözü***

Bu günün hər əməli sabah üçün alın yazısıdır.

***Əbu Turxan***

Uzaq planları olmayan
insanı yaxında fəlakətlər gözləyir.

***Konfutsi***

Toxumun cücərməsi üçün
münbit mühit tələb olunduğu kimi, "alın yazısı"nın da
yaşanması üçün müvafiq şərait olmalıdır.

***Əbu Turxan***

Üzməyi bilənlər gəmidə
özlərini daha rahat hiss edirlər; halbuki gəmi
dənizin ortasında batanda hamını eyni
aqibət gözləyir.

***Əbu Turxan***

Tale getmək istəyəni aparır, istəməyəni sürüyür.

***Kleanf***

Tale bəhanələr qəbul etmir.

***Freyd***

Tale vəd etdiyini baha satır.

***Helvetsi***

Müdriklik – məsləhətlərin,
tale – hadisələrin başında durur.

***Helvetsi***

Arzudan doğan arzular
ayağı gerçəkdən üzülmüş arzulardır.

***Əbu Turxan***

Arzular həyata məna verir.

***A.Frans***

İstək həyatın, laqeydlik isə ölümün yarısıdır.

***Cübran***

Ümid hətta
artıq heç nəyi qalmayanlarda da var.

***Plutarx***

Sahil ümiddir;
gözdən itəndə dənizdə ancaq vahimə qalır.

***Əbu Turxan***

Dənizdə məhəbbətin
hər iki qütbü ehtiva olunur; onun səma ilə görüşü ancaq üfüqdə baş tutur; buna platonik məhəbbət də deyirlər. Onun yerlə görüşdüyü yerlərdə isə məhəbbətin başqa formaları ortaya çıxır.

***Əbu Turxan***

Ətrafımda qaranlıq kölgələr
sıxlaşsa da, içimdəki işıq sönməmişdir.

***Göte***

Ümidini itirənin başqa itirəcək bir şeyi yoxdur.

***Buast***

Səbr insana ömrü boyu dözmək üçün yox,
məqamı düzgün seçmək üçün lazımdır.

***Əbu Turxan***

Dözümə əsaslanan səbr tükənə bilər,
ümidə əsaslanan səbr – tükənməz.

***Əbu Turxan***

Bədbinlik əhval-ruhiyyədir,
nikbinlik – iradə.

***Alen Emil Ogüst***

Pessimist hər imkanda çətinliklər görür,
optimist hər çətinlikdə imkanlar görür.

***Çörçill***

Bir yatmış başqa yatmışı
necə oyada bilər?!

***Sədi Şirazi***

Əgər içindəki işıq ətrafı
işıqlandıra bilmirsə, o da sönmüş kimidir.

***Əbu Turxan***

Möcüzələr normaya çevriləndə,
normal həyat möcüzə kimi görünür.

***Əbu Turxan***

Həyat suyun axarında üzmək,
ölüm isə – arada istirahətdir.

***Tzya İ***

Yüz bələnin başını bir bələn kəsər.

***Atalar sözü***

Gördüyünü qoyub görəcəyə getmə.

***Atalar sözü***

Qismətdən artıq yemək olmaz.

***Atalar sözü***

Başına gələn başmaqçı olar.

***Atalar sözü***

Çıxış yolu olmayanın çıxış yolu səbrdir.

***Ərəb atalar sözü***

# *Gözəllik*

*Allahdır yaratdığı hər şeyi gözəl yaradan.*

***Quran 32/7***

Gözəllik öz sahibinə ziyan,
başqalarına zövq verir.

***Sokrat***

Gözəllik hakimiyyəti
çox da uzun çəkməyən kraliçadır.

***Sokrat***

Hər hansı bir şeyin gözəlliyi
onun öz ideyasına uyğunluğu ilə ölçülür.

***Əbu Turxan***

Gözəllik duyğusu təbiətin
insanı yenidən öz ağuşuna almaq əzmidir.

***Əbu Turxan***

Gözəllik duyğusu aşılamadan
mükəmməl insan yetişdirmək olmaz.

***R.Taqor***

Hər bir insanın ilahi ruhdan payı
və deməli, özünəməxsus gözəlliyi var.
Sadəcə olaraq, cismani yetkinlik dövründəki
ideyadan sapmalar bu ilkin gözəlliyi pərdələdiyindən,
onu adi gözlə görmək mümkün olmur.

***Əbu Turxan***

Yer üzündə hər şey gözəl
olsaydı, onda gözəl heç nə olmazdı.

***Didro***

Yaradanın əlindən çıxan nə varsa gözəldir.
Hər şey insanın əlində pozulur.

***Russo***

Həyatın qəlbinə çatanda sən
gözəlliyi hər şeydə görəcəksən, hətta gözəlliyə
kor olan gözlərdə belə.

***Cübran***

Təbiətində gözəllik olmayan heç nə yoxdur.

***Əbu Turxan***

Gözəllik – Allahın fəzilət ayəsidir.
Hər bir təbii addım gözəldir.

***Emerson***

Mütləq gözəllik həm də
mütləq varlığın ifadəsidir, nisbi gözəllik varlığın da
nisbiliyinə dəlalət edir.

***Əbu Turxan***

Çiçəyi elə gözəl, elə incə edən
onun torpaqdan çıxanda çəkdiyi əzabdır.

***Könül Bünyadzadə***

Allahın ən gözəl əsəri könüldür.
Qalan hər şey ancaq əsərin əsərləridir.

***Mövlana***

Gözəllik özlüyündə
təbiətin gizlin qanunlarının təzahürüdür.

***Göte***

Gözəlliyin meyarı bütöv təbiətdir.

***Emerson***

Zahiri və daxili gözəllik
eyni vaxtda parlaya bilməz. Əvvəlcə birincinin
parıltısından ikinci gözə görünmür, amma elə ki,
göründü, onda birincini kölgədə qoyur.

***Əbu Turxan***

Daxili gözəllik
zahiri gözəlliyə bürünəndə daha tez üzə çıxır.

***Əbu Turxan***

Zahiri parıltı
göz qamaşdırır, daxili parıltı gözləri açır.

***Əbu Turxan***

Gözəl sifət səssiz tövsiyədir.

***F.Bekon***

Daxili gözəlliklə
canlandırılmayan xarici gözəllik tam ola bilməz.

***Hüqo***

Daxilən gözəl olmağın yolu
xaricdəki gözəllikləri duymaq, onlara heyran
olmaq və onlara qovuşmaqdır.

***Əbu Turxan***

Süni gözəlliyin yolu əzab-əziyyətdən keçir.
Parlamaq üçün öncə pardaqlanmaq, hamar olmaq
üçün öncə yonulmaq tələb olunur.

***Əbu Turxan***

Gözəllik varsa, onu qoruyan güc də olmalıdır.

***Əbu Turxan***

Gözəlliyə xidmət edən güc də nəcibləşir.

***Əbu Turxan***

Gözəlliyi görə bilənlərin
öz yaratdıqları da gözəl olur.

***Əbu Turxan***

Gözəllik görənin hissləri
ilə görünənin həqiqiliyi arasında dalğalanır.

***Cübran***

Kimlərsə yaşadığı yeri
gözəlləşdirmək üçün tər tökür, kimlərsə sadəcə
gözəl yerə köçür.

***Əbu Turxan***

Dünyada nə qədər gözəlliklər,
nə qədər dəyərlər düzgün baxış bucağı
seçilmədiyindən görünməzlikdə
qalır!

***Əbu Turxan***

Özünüdərk məqamında
insan təbiətin və dünyanın gözəlliyini də əxz edir.

***Əbu Turxan***

Hər rəngi gözəlləşdirən bir fon var.
Rəngin gözəlliyini üzə çıxarmaq üçün fonu düzgün
seçmək lazımdır.

***Əbu Turxan***

Hikmət və gözəllik qarşısında
diz çökməyənlər zor və hiylə qarşısında diz çökürlər.

***Əbu Turxan***

"Gözəllik ondur, doqquzu dondur".
Əsl qabiliyyət doqquzun kölgəsində qalan
biri görməkdir.

***Əbu Turxan***

Hər şey öz yerində və məqamında gözəldir.

***Əbu Turxan***

Dünyanı gözəllik xilas edəcək.

***F.M. Dostoyevski***

Hər kəs öz zövqünə görə görür.

***Ş.Y. Sührəvərdi***

Kin adamı kifirləşdirir.

***Əbu Turxan***

Estetik hissə malik olmadan
mənəvi cəhətdən inkişaf etmək mümkün deyil.

***Hegel***

Gözəllik əxlaqi xeyirin rəmzidir.

***Kant***

İnsanlar gözəlliyin
təsirindən daha xeyirxah olurlar.

***M.M.Prişvin***

Gözəllik əxlaqi ləyaqəti yüksəldir;
bunsuz gözəllik ürək üçün yox, ancaq göz üçündür.

***V.Q.Belinski***

Gözəllik bizim sevdiyimiz şeydir.
Yaxşı olduğuna görə sevmirik, sevirik deyə yaxşıdır.

***L.N.Tolstoy***

Gözəlliyi onu vəsf edənlər şöhrətləndirirlər.

***Cübran***

Sevginin səbəbi gözəllikdir.
… Zira gözəllik təbiətcə sevilən şeydir.

***İbn Ərəbi***

Solan çiçəklərin təravətini
Qönçə çiçəklərin hüsnü yaşadır.

***Şekspir***

Həqiqət və fayda
doğma tellərlə ancaq gözəllikdə birləşir.

***Hegel***

Gözəllik idraka sığmır.

***İbn Ərəbi***

Tovuz quşunun qanadı özünə düşməndir.

***Mövlana***

Yalnız həqiqət gözəldir;
sevilməyə də bir tək o layiqdir.

***Nikola Bualo***

Gözəllik qəlbimizlə duyduğumuz sirdir, qəlbimiz ona tabe olaraq şadlanır və genişlənir, ağlımız isə heyrət və təəccüb içində onu sözlə ifadə edə bilməyərək donub qalır. Bu, görənin hissləri ilə görünənin həqiqəti arasında gizli zərrəciklər axınıdır; bu, insanın zahirini nurlandıran müqəddəs ruhların ziyasıdır: həyat toxumun dərinliyindən gülün rayihə və rənglərinə belə çevrilir.

***Cübran***

Ərlərin eşqi
gözəlliyi təyin etməyin meyarıdır.
Gözəlliyin üzərindəki pərdəni parçalayan bu eşq,
eyni zamanda onu pərdələyər.

***Məhəmməd İqbal***

Mən gözəllərdə gözəl ruh araram,
Ruhu düşkünləri çirkin sanaram.

***Cavid***

Həqiqi gözəllik ali nəfsin saçdığı elə
bir nurdur ki, cismin zahirini işığa qərq edir.

***Cübran***

Gözəllik elə bir sirdir ki,
onun dilini yalnız ruhlarımız bilər.

***Cübran***

Bir şeirdir qadın bədəni də,
Yaranışın ən xoş anında
Yaradan özü bu poemanı,
Həkk etmiş tale kitabında.

***Heyne***

Gözəlliyin hüdudlarından kənarda
nə din var, nə elm.

***Cübran***

Gözəllik – ehtiyac deyil,
vəcddir, alovlanmış ürək və sehrlənmiş qəlbdir.

***Cübran***

Biz ancaq onun üçün yaşayırıq ki,
gözəlliyi kəşf edək. Qalan şeylər intizarın əlvanlığıdır.

***Cübran***

Analıq qadının gözəlliyini tamamlayır.

***Düma***

Könül sevən gözəl olar.

***Atalar sözü***

Sevən könül gözəl olar.

***Əbu Turxan***

Xeyirxahlıq fəaliyyətdə olan gözəllikdir.

***Russo***

Gözəlliyin isbata ehtiyacı yoxdur.

***Volter***

Həp sevgidir gözəlliyi insana sevdirən,
Məhrumi-eşq olunca gözəllik də can sıxar.

***Cavid***

Gözəllik gözdən könülə düşən közdür.

***Könül Bünyadzadə***

Zorla gözəllik olmaz.

***Atalar sözü***

# *Məhəbbət*

*Məhəbbət bütün ehtirasların*
*ən güclüsüdür, çünki o eyni zamanda başa,*
*ürəyə və bədənə hakim olur.*
***Volter***

Məhəbbət göz yaşı
kimidir: gözdən başlayıb ürəyə düşür.

***Publiliy Sir***

Məhəbbət bütövlük
yanğısı və ona cəhd etməkdir.

***Aristofan***

Məhəbbət – ölməzlik cəhdidir.

***Sokrat***

Məhəbbət – sevilmək arzusudur.

***Platon***

Sevənlər hamısı şairdirlər.

***Platon***

Məhəbbət sonlu varlıqda
əbədi başlanğıcın təzahürüdür.

***Platon***

Məhəbbət başqası ilə
birgə qocalmağa hazır olmaqdır.

***Kamyu***

Məhəbbət melodiyadır.

***A.S. Puşkin***

Məhəbbət incəsənətdir,
onu mənimsəmək lazımdır.

***Fromm***

Məhəbbət könül səslərinin
harmoniyası, ürəklərin bir-birini anlamasıdır.

***Bayron***

Məhəbbət
– ruhun tamamlanmaq əzmidir.

***Əbu Turxan***

Məhəbbət ruhun günəşidir.

***Əbu Turxan***

Məhəbbət iki sevən arasında örtükdür.

***Cübran***

Məhəbbət bir ruhun
başqa bədəni istila etməsidir.

***Əbu Turxan***

Eşq aşiqlər üçün həqiqət yolunu işıqlandırır.

***Füzuli***

Eşqdir hər iki dünyaya ziynət,
Eşq ilə dolanır bütün təbiət.

***Füzuli***

Məhəbbət insanın özünü başqasında itirməsidir.

***Sufi hikməti***

Məhəbbət kamillikdir, kamilliyin isə hüdudu olmur.

***Şekspir***

Məhəbbət insanın öz həyatının
bütün mənasını sevgilinin gözü ilə görməsidir.

***Sufi hikməti***

Bir nöqtəyə yönəlib
yandıran məhəbbətdənsə, bütün dünyaya səpələnib
işıqlandıran məhəbbət yaxşıdır.

***Əbu Turxan***

Məhəbbət insanın özünü başqasında tapmasıdır.

***Hegel***

Məhəbbət bir-biri üçün fərqli olmayan
iki tərəfin fərqidir. Bu eyniyyəti hiss etmək və anlamaq –
məhəbbətdir.

***Hegel***

Ağıl ayırır, məhəbbət birləşdirir.

***Əbu Turxan***

Qəlbin pünhanları ancaq eşq işığında görünür.

***Əbu Turxan***

Məhəbbət mənəvi kamilliyin
həm nəticəsi, həm də şərtidir.

***Əbu Turxan***

Alimin ömrü boyu güc-bəla ilə
öyrəndiyini məhəbbət bircə gündə öyrədir.

***Emerson***

Məhəbbət insanların
bir-birinə bağışladığı xoşbəxtlikdir.

***J.Sand***

Məhəbbət başqasının xoşbəxtliyini istəməkdir.

***D.Yum***

Aşiqin göz yaşı könül sirrinin sıza-sıza axmasıdır.

***Məhmət Rasim Mutlu***

Məhəbbət digər duyğularla yanaşı,
müstəqil şəkildə mövcud olan sadə duyğudur
– altıncı duyğu!
Kimdəsə var, kimdəsə – yox.

***Əbu Turxan***

Məşuq bir güzgüdür ki,
aşiqə öz içində yaratdığı idealı göstərir.

***Əbu Turxan***

Məhəbbət – aşiqin
mübhəm qəlb aləminə açılan işıq qapısıdır.

***Əbu Turxan***

Hər fəslin öz eşqi var.

***Əbu Turxan***

Hər eşqin dörd fəsli var.

***Əbu Turxan***

Qəlbdə məhəbbət işığı yananda qaranlıqlar əriyir.

***Əbu Turxan***

Sevgi ancaq işıqlı adamların
qismətidir. Qara qəlblər işıqdan qorxur.

***Əbu Turxan***

Ruhu bir nurdur aşiqin, təbiəti bir qaranlıq!

***İbn Ərəbi***

Sevgi daha çox qeyri-müəyyənliklə,
müəmma ilə, sirr və sehrlə əlaqədar olub,
əslində bir möcüzə axtarışıdır.

***Əbu Turxan***

Məhəbbət qəlbin şeiriyyətidir.

***Əbu Turxan***

Məhəbbətin uzunmüddətli tanışlıqdan
və davamlı yoldaşlıqdan doğduğunu iddia edən
insanlar necə də cahildirlər. Həqiqi məhəbbət ruhların
qarşılıqlı anlaşmasından doğulur.
Əgər o, ilk anda yaranmırsa, nə sonrakı, nə də daha
sonrakı anlarda yaranır.

***Cübran***

Din və məhəbbətə
qəlbin bir hissəsi lazım deyil, onlara
bütün ruh lazımdır.

***A.İ.Gertsen***

Məhəbbət ruhun canlanmasıdır.

***Əbu Turxan***

Sevinc və sevgi ruhun iki qanadıdır.

***Hilmi Ziya Ülkən***

Eşq – ruha təslim olmaqdır.

***Hilmi Ziya Ülkən***

Aləm eşq halında kamala gəlir.

***Hilmi Ziya Ülkən***

Məhəbbət – hisslərin poeziyasıdır.

***Balzak***

Məhəbbət – bizim ikinci doğuluşumuzdur.

***Balzak***

Məhəbbət müəyyən mənada konfliktdir.

***Jan-Pol Sartr***

Məhəbbət – arzunun zirvəsidir.

***Göte***

Məhəbbət həmişə başqasına doğru yoldur.

***N.A.Berdyayev***

Məhəbbət zaman ölçüsünü itirməkdir.

***M.Svetayeva***

Məhəbbət – həyat yaradır.

***L.N.Tolstoy***

Tumurcuq sevəndə çiçək olur, çiçək sevəndə – bar.

***R.Taqor***

Sev ki, görülməyəni görə biləsən,
İşıq saç ki, istədiyin yerə gedə biləsən.

***Nüaymə***

Eşqsiz olsaydı xilqətin canı,
Dirilik sarımazdı böyük cahanı.

***Nizami***

Sevmək öz xoşbəxtliyini
başqasının xoşbəxtliyində tapmaqdır.

***Leybnis***

Məhəbbət başqa insanın fəzilətindən,
kamilliyindən, xoşbəxtliyindən həzz almağa meyldir.

***Leybnis***

Eşqin daxili hərəkətverici qüvvəsi
tükəndikdən sonra da, məhəbbət qatarı hələ uzun müddət
yoluna davam edir.
Bu, – məhəbbətdə ətalət prinsipidir.

***Tur Xander***

İnsan təbiətinin başlıca mənəvi tələbi eşqdir.

***A.Bakıxanov***

Qəlblər silahla deyil, sevgi ilə fəth edilir.

***Spinoza***

İnsan qəlbinin dərin qatları
düşüncə ilə yox, sevgi ilə işıqlanır.

***Əbu Turxan***

Həqiqi məşuqun
surəti yoxdur; sevilən onun mənasıdır.

***Mövlana***

Sevən mənəm; sevdiyim də mən.

***İbn Ərəbi***

Mən sənin qarşında
təmiz güzgü kimi dayananda, sən mənə baxdın
və öz əksini gördün. Onda sən mənə dedin:
“Mən səni sevirəm”.
Əslində, sən məndə özünü sevdin.

***Cübran***

O adamı ki, sən məndə sevirsən,
əlbəttə, məndən yaxşıdır: mən belə deyiləm,
amma sən sev və mən çalışaram ki,
özümdən yaxşı olum.

***M.M.Prişvin***

Varlıq eşq üzərində qərar tutur.

***Nizami***

Birinin səni sən istəyən
kimi sevməməyi səni qəlbən sevməməyi
demək deyil.

***Qabriel Qarsia Markes***

Səni sən olduğunçün yox,
səninləykən kim olduğumçün sevirəm.

***Qabriel Qarsia Markes***

Məhəbbət ehtiraslıdır,
dostluq isə ruhun keyfiyyətidir.

***Aristotel***

Eşq ilə mən aşinayəm, əql ilən yad olmuşam.

***Nəsimi***

Dumanla doldurub dünya üzünü,
Yatırtdım eşq ilə ağlın gözünü.

***Nizami***

Göylər yaransaydı eşqdən azad,
Düşün, olardımı yer üzü abad?

***Nizami***

Eşq çadırının
qurulduğu yerdə məntiq axtarma.

***Sədi Şirazi***

Eşq meydana girəndə ağıl oranı tərk edir.

***M.Meterlink***

Aşiq eşqinin hökmü
altına əqlinin ölçüsündə girməlidir.

***İbn Ərəbi***

Əql ilə sərinləşdirilməyən
qızğın məhəbbət buxarlanıb uçacaq.

***Əbu Turxan***

Eşq ancaq əzəli-əbədi və sonsuz
olan böyük Yaradana ünvanlananda əql ilə
məhdudlaşdırıla bilməz.

***Əbu Turxan***

Bəzən şəxs öz iradəsini
könüllü olaraq təslim edir: buna səbəb ancaq
məhəbbət ola bilər.

***Əbu Turxan***

Məhəbbət könüllü köləlikdir.

***J.Sand***

Məhəbbət
qəlbin əql üzərində qələbə himnidir.

***Əbu Turxan***

Məhəbbət və intellekt
hər biri ayrı-ayrılıqda gözəldir,
amma yaxşı olar ki, qarşı-qarşıya durmaqdansa,
bir-birini tamamlasınlar.

***Əbu Turxan***

Şəhvət məhəbbət kontekstində,
məhəbbət isə həyat kontekstində dəyərlidir.

***Əbu Turxan***

Bütün sənət növləri
məhəbbət və ağlın bu və ya digər nisbətdə
birləşməsindən yaranır.

***Əbu Turxan***

Heç vaxt həqiqi ehtirasla sevməmiş
insan həyatının yarısını, həm də gözəl yarısını
yaşamamışdır.

***Stendal***

Məhəbbəti şəhvətdən
fərqləndirən daha bir cəhət onun kəsilməzliyidir.

***Əbu Turxan***

Cavanlıqda məhəbbət
daha çılğın olsa da, sonralar daha güclü və
daha qüdrətli olur.

***Heyne***

Məhəbbət ölümdən və ölüm
qorxusundan güclüdür. Həyat ancaq məhəbbət
üzərində dayanır və onunla hərəkətə gəlir.

***İ.S.Turgenev***

Ağıl da ruh məqamındadır;
amma ruhun ağıla sığmayan tərəfləri var ki, buna ya
divanəlik, ya eşq deyirlər.

***Əbu Turxan***

Məhəbbət çox vaxt ağlı
olanların ağlını alır və ağlı olmayanlara
ağıl verir.

***Didro***

Məhəbbət elə bir ehtirasdır
ki, nə keçmişi, nə də gələcəyi tanıyır.

***Balzak***

Məhəbbət ehtirasının şövqü
cismani ləzzət hissini kölgədə qoyur.

***Stendal***

Məhəbbət elə güclüdür ki,
bizim özümüzü də yenidən yaradır.

***F.M.Dostoyevski***

Çılğın məhəbbətdən qorxmaq
lazımdır, çünki o, hər an nifrətə çevrilə bilər.

***H.Toro***

Bütün aşiqlər divanədir.
Amma bütün divanələr aşiq deyil.

***Əbu Turxan***

Ağıllı sevgi – həyatın bir hissəsidir,
dəli sevgi – bütövlükdə həyatı zəbt edir.

***Əbu Turxan***

Məhəbbət axmağın müdrikliyi
və müdrikin axmaqlığıdır.

***S.Conson***

İlahi eşqin başlıca əlaməti pərəstiş duyğusudur.

***Əbu Turxan***

İlahi məhəbbət sevginin
müqəddəslik duyğusu ilə birləşməsindən doğulur.

***Əbu Turxan***

İlahi eşq ideyası getdikcə
solmuş, cırlaşmış və onun bədii tərənnümünü
fərdi məhəbbətdən seçmək çətinləşmişdir.

***Əbu Turxan***

Məhəbbət kimi desən
tutub gizli yollarla Allaha aparar.

***Mövlana***

Sevgi aşiqin ayağını
yerdən üzür və o, xəyal dünyasına köç edir.

***Əbu Turxan***

Məhəbbət dünyası xəyal ilə
gerçəkliyin birləşməsindən yaranır.

***Əbu Turxan***

Məhəbbət gerçəkliklə
arzu dünyası arasında sərhədi götürür.

***Əbu Turxan***

Fəqət hər gözəl olanı könül sevməz.

***Mövlana***

Kim isə demişdir:
«Ağılla idarə olunan məhəbbətdən yaxşılıq
gözləmək olmaz».

***İbn Ərəbi***

Könülün öz qanunları var; ağıl onları bilmir.

***Paskal***

Nə qədər insan varsa,
o qədər də fikir var. Nə qədər ürək varsa,
o qədər sevgi növü var.

***L.N.Tolstoy***

Fikrin gücündən də
üstün bir güc – sevginin gücüdür.

***Əmin ər-Reyhani***

Ürək ağlı artıra bilsə də,
ağıl ürəyə təsir edə bilməz.

***A.Frans***

İlahi, bir eşq ver mənə,
Hardayam heç bilməz olum.
Elə itirim özümü,
İstəsəm də bulmaz olum.

***Yunus İmrə***

Ağıl məhəbbətdən yaranır, ancaq
Məhəbbət dərk etmir ağlın sözünü.

***Şekspir***

Məhəbbət əzmi...
çox vaxt məhəbbətin özü kimi qəbul olunur;
maneələr onu ehtirasa çevirir,
vüsal isə yox edir.

***V.Q.Belinski***

Sevgi bir od ki, yandırır ürəyi;
Sevgi bir göz ki, yox onun bəbəyi.

***Cəfər Cabbarlı***

Sevgi bizi böyük işlərə
ruhlandırır və həm də bu işləri görməyə
mane olur.

***Düma***

Eşqdən başqa bir şey könlümə yaddır,
Ömrümün quşuna sevgi qanaddır.

***Nizami***

Məhəbbət elə bir şeydir ki,
o hər şeyi unutdurur, birgə sevgilinizdən başqa.

***Fəridəddin Əttar***

Maneənin tamamilə
aradan qaldırılması "qısa qapanma" yaradır
və son başlanğıcla bilavasitə
birləşmiş olur.

***Əbu Turxan***

Aşiq vüsalla ayrılıq
arasında bir fərq görməməlidir.

***İbn Ərəbi***

Məhəbbətin yolundakı hər
hansı bir maneə onu yalnız gücləndirə bilər.

***Şekspir***

Eşqin zirvəsini
duman örtəndə kədərə çevrilir.

***Əbu Turxan***

Kədər eşqin astarıdır.

***Əbu Turxan***

Sevgi nə qədər böyük olsa,
kədəri də bir o qədər böyük olacaq.

***Spinoza***

Əgər kim isə sevgilidən
başqa da nə haqda isə düşünə bilirsə, onun
sevgisi səmimi deyil.

***İbn Ərəbi***

Məhəbbət haqqında gözəl danışan əsl aşiq deyil.
***Petrarka***

Məhəbbətin dərinliyi və hüdudu
hətta təxəyyül üçün də əlçatmazdır.

***Şiller***

Səxavət – həddini keçəndə israfçılığa,
sevgi – həddini keçəndə məcnunluğa çevrilir.

***Əbu Turxan***

Sonsuz hissin sonlu varlığa
yönəldilməsi sözün müstəqim mənasında
məcnunluqdur.

***Əbu Turxan***

Məcnunlar yanmasa, dünya isinməz.
***Əbu Turxan***

Məhdud məhəbbət sevgiliyə
sahiblənməni tələb edir. Sonsuz məhəbbət isə
məhəbbətin özündən başqa heç nə istəmir.

***Cübran***

Ölçülməsi mümkün olan məhəbbət çox yoxsuldur.

***Şekspir***

Dərindən sevmək – özünü unutmaq deməkdir!

***Russo***

Qısqanclıq kişidə zəiflik,
qadında isə güc mənbəyidir.

***A.Frans***

Əgər ilk məhəbbət
qəlbin bütün guşələrini işıqlandıra bilməyibsə,
deməli, «ilk məhəbbətlər» hələ çox olacaq.

***Əbu Turxan***

İlk məhəbbətin mövhumi
obrazı aşiqin özü tərəfindən yaradılmış olur.
Yaradan yaratdığını sevməyə bilərmi!?

***Əbu Turxan***

Özünüzə aid olmayanı
qısqanmaq ayının meşədən küsməsinə bənzəyir.

***Əbu Turxan***

Biz həmişə inanırıq ki,
ilk məhəbbətimiz sonuncu, sonuncu məhəbbətimiz
isə ilk məhəbbətimizdir.

***Corc Uayt Melvil***

Qısqanclıq özünə aid olanı itirmək qorxusudur.

***Əbu Turxan***

Qısqanclıq sevgi ilə
bərabər yaranır, amma onunla birgə ölmür.

***Laroşfuko***

Qısqanclıqda sevgidən
daha çox özünü sevmək var.

***Laroşfuko***

Məhəbbətin ən yaxın
rəfiqəsi də, ən böyük düşməni də qısqanclıqdır.

***Cordano Bruno***

Qadının ləyaqətinin
ölçüsü sevdiyi kişi ola bilər.

***V.Q.Belinski***

Qadınlar qara-dinməz kişiləri
sevirlər. Onlar düşünürlər ki, kişilər susanda
onlara qulaq asırlar.

***S.Qitri***

Qızılı odla, qadını qızılla
və kişini qadınla sınaqdan çıxarırlar.

***Seneka***

Qadın sevəndə hamıdan zəif,
seviləndə hamıdan güclü olur.

***Erix Osterfeld***

Sevən qadının fədakarlığı ölçüyə gəlmir.

***Alfons Dode***

Qadın yalnız sevərkən yaşayır.

***L.Berne***

Bəzi qadınlar
ürəyinin açarını kişiyə verdikdən sonra,
ertəsi gün qıfılı dəyişdirir.

***Ş.Sent-Böv***

Qadının gözəl gözləri
yaşla dolanda kişi görmə qabiliyyətini itirir.

***Alber Turnye***

Bülbüldən çox da vəfa ummayın,
çünki hər dəm başqa bir gülün üzərində ötər.

***Sədi Şirazi***

Əsl kişinin məhəbbət ovu
qadın qəlbində sığınacaq tapmaq deyil,
bu qəlbi bütövlükdə fəth etməkdir.

***Əbu Turxan***

Sevginin ilk əlaməti
kişidə cəsarətsizlik, qadındasa cəsarətdir.

***Hüqo***

Qadın qəlbinə aparan
yolların ən miskini yazıqlıqdır.
Qadın qəlbində yerləşə bilmək üçün öz "Mən"lərini
istənilən qədər kiçiltməyə hazır olan kişilər
qadının məhəbbət deyil, mərhəmət telinə
toxunduqlarının fərqində olmurlar.

***Əbu Turxan***

Qadın özündən
aşağı zənn etdiyi kişini sevə bilməz.

***J.Sand***

Qadın məhəbbətində
mütləq analıq cizgiləri üzə çıxır.

***Nitsşe***

Qadın qəlbinə aparan
cığırların ən kəsəsi yazıqlıqdır.

***Bayron***

Zaman keçdikcə sevgi atəşi
səngisə də, xatirə qığılcımları onu hər dəfə
yenidən alovlandırır.

***Əbu Turxan***

Gözəl (ləyaqətli) qızlara
ən böyük pisliyi "sevirəm" deyə onların
peşinə düşən avara aşiqlər edirlər. Onlar nə vaxtsa
baş tuta biləcək həqiqi bir sevgiyə kölgə salır, onun
qarşısını almış olurlar.

***Əbu Turxan***

Məhəbbət qadının həyatında
bir tarix, kişinin həyatında isə epizoddur.

***Jan Pol***

Məhəbbət böyük hisslərlə
başlayıb xırda davalarla başa çatır.

***A.Morua***

Məhəbbət ayrılıq
saatınadək öz dərinliyini tanıya bilmir.

***Cübran***

Külək od üçün nədirsə,
ayrılıq da məhəbbət üçün odur: zəif hissləri
söndürür, güclü hissləri isə üfürüb
daha da alışdırır.

***A.İ.Kuprin***

Vüsal romantik məhəbbəti
göylərdən yerə endirir. Eniş uğursuz olanda
məhəbbət ölür. Eniş tədrici olanda məhəbbət yeni
formaya – ailə məhəbbətinə keçir.

***Əbu Turxan***

Zaman dostluğu
möhkəmləndirir, məhəbbəti zəiflədir.

***Labryuer***

Birinə məhəbbətimiz artıq
soyuyandan sonra onu ikinci dəfə sevə bilmərik.

***Laroşfuko***

Hər gün təzələnməyən məhəbbət
adətə çevrilir.

***Cübran***

Sevdiyin adamın həsrətini
çəkmək nifrət etdiyin adamla yaşamaqdan
qat-qat asandır.

***Labryuer***

Bir adamı unutmağa çalışmaq
daima onu xatırlamaq deməkdir.

***Labryuer***

Qürur qışqıran yerdə məhəbbət susur.

***F.Jerfo***

Ayrılıq böyük məhəbbətləri daha da
qüvvətləndirir, yarımçıq olanları isə məhv edir.

***R.N.Güntəkin***

Məhəbbət bütün günahları
bağışlaya bilər, məhəbbətin özünə qarşı
günahdan başqa.

***Uayld***

Qarşılıqsız eşq səhrada
yolunu azanın ilğımda təskinlik tapmasına bənzəyir.

***Əbu Turxan*.**

Qarşılıqsız eşq alovlanmaz.
Alovlansa da, sevənin ancaq özünü yandırar.

***Əbu Turxan***

Sevməyən sevgili aşiqin
qəlb işığını özünə qaytaran güzgü kimidir;
özü biganə olsa da, aşiqin qəlbini
daha da alovlandırır.

***Əbu Turxan***

Səndən qorxanı da,
sən qorxduğunu da sevə bilməzsən.

***Siseron***

Hörmətin müəyyən hüdudu
olur, məhəbbətin isə hüdudu yoxdur.

***M.Y.Lermontov***

Qarşılıqlı olmasa da, sevmək gözəldir.

***Balzak***

Hörmət hissindən məhrum
olan məhəbbət çox davam edə bilməz.

***Düma***

Bir-birinizi sevin, amma məhəbbəti
buxova çevirməyin. Qoy o, könüllərinizin sahilləri
arasında axan dəniz olsun.

***Cübran***

Bir-birinizin badələrinizi
doldurun, amma bir badədən içməyin.

***Cübran***

Məhəbbətin alçaldılması nifrət
hissi yaradır. Amma nifrət onu tamamilə silə
bilmədiyindən bir müddət onlar qoşa
yaşamalı olurlar.

***Əbu Turxan***

Həqiqi insani məhəbbət
ancaq hisslərin şıltaqlığına və ürəyin istəyinə
deyil, bir-birinin insani ləyaqətinə qarşılıqlı
hörmətə əsaslana bilər.

***V.Q.Belinski***

Sevdiyinə və saydığına heç vaxt yaltaqlıq eləmə.

***Molyer***

Yerə də enəndə yalnız
məhəbbətin qanadlarında enmək olar. Qanadlar
səni bataqlığa düşməkdən qoruyar.

***Əbu Turxan***

Kimə aşiq olmaq
adamın iradəsindən asılı deyil, amma
səviyyəsindən asılıdır.

***Əbu Turxan***

Başqa sahələrdə sevgi vərdişi
olmayan adamın məhəbbət dərdinə mübtəla olması,
immuniteti olmayanların xəstəliyə yoluxması kimi,
ağır nəticələrə gətirə bilər.

***Tur Xander***

Bütün sevənlər
Bacardıqlarından çox şey vəd edir, amma
bacardıqlarını da etmirlər.

***Şekspir***

İnsanlar yaxşıları sevməkdən
daha çox sevdiklərini yaxşı hesab edirlər.

***Əbu Turxan***

Sevgi – halından məmnun olmaqdır.

***Hilmi Ziya Ülkən***

Eşq ağlabatan və məqbul olarsa, əsl xoşbəxtlikdir.

***A.Bakıxanov***

Ancaq sevərkən yaşayırlar.

***Helvetsi***

Məhəbbət kəsirsiz
büdcədir: verdiyi qədər də götürür.

***V.Müller***

Ancaq məhəbbətlə yaşanan günlər ömürdəndir.

***Hafiz Xarəzmi***

Məhəbbətin gəlişi ilə qəlbdə xoşbəxtlik hissi, müqəddəs
bir duyğu baş qaldırır.

***Mopassan***

Aşiq ən gözəl anlarını
ancaq sevgilisi ilə bölüşmək istəyir.

***Əbu Turxan***

Ancaq xoşbəxtlik məhəbbət üçün ölçü ola bilər.

***V.Q.Belinski***

Sevgilinin gördüyü hər iş gözəldir.

***İbn Ərəbi***

Eşq şimşəyi çaxanda bütün dünya işıqlanır.

***Əbu Turxan***

Sanki bütün dünya
sevgililərin sevincinə şərik olur.

***Əbu Turxan***

Aşiqin ən böyük səadəti
onun gözlərində bütün dünyanın gözəlləşməsidir.

***Əbu Turxan***

Günəş çıxanda Yer
hansı hissi keçirirsə, sevgilisini görən aşiq də
həmin hissi keçirir.

***Əbu Turxan***

İnsan sevgilisinin
simasında bütün dünya harmoniyası ilə
vüsal tapmağa çalışır.

***Əbu Turxan***

Ancaq sevərək gözəlləşmək mümkündür.

***Əbu Turxan***

Aşiq sevgilisinin sevincinə sevinir.

***Əbu Turxan***

Məhəbbət həyatdan
əlini üzənləri də yenidən həyata qaytarır.

***Əbu Turxan***

Hər çiçək bir aləmdir;
sevəndə aləm özü də çiçək tək açılır.

***Əbu Turxan***

Sevmək sevilməkdən daha böyük fəzilətdir.

***Sufi hikməti***

Həm sevib,
həm də sevilmək ikiqat xoşbəxtlikdir.

***Əbu Turxan***

Əvvəl məhəbbət, sonra nikah:
əvvəl alov sonra tüstü.

***N.de Şamfor***

Bütün fəzilətlər
əslində məhəbbətin müxtəlif növləridir.

***Avqustin***

Sevməyənlər xoşbəxt ola bilməzlər.

***Əbu Turxan***

Eşq özünü fəda etməlidir.

***İbn Ərəbi***

Göylərdə süzən eşq var.
O, qəlbə od qoyur. Amma elə eşq var ki,
gündəlik işlərin mayasına qatılır.
Bu eşq ailəyə hərarət gətirir.

***R.Taqor***

Məhəbbətin çiçəklənə
bilməsi üçün münbit mühit lazımdır.

***Əbu Turxan***

Məhəbbət və nifrət bəslənməyəndə
ölürlər.

***Jan-Pol Sartr***

Eşqi başlamaq asan, bitirmək çətindir.

***M.Tven***

Sevgili aşiqin qəlbindədir.
Fəqət aşiq sevgilinin özündə olduğunu bilməz,
onu yenə kənardakı sevgili vasitəsi ilə tanıyar.

***İbn Ərəbi***

Böyük məhəbbət kiçik qığılcımlardan doğur.

***Stendal***

Sevgini sevgidən başqa
yolla duymaq mümkün deyil.

***Əbu Turxan***

Sevdiklərimiz kitab kimidir.
Oxuduğumuz müddətdə ayrılmaq istəmirik;
amma elə ki, oxuyub qurtardıq, yenidən oxumaq
maraqsız olur.

***Əbu Turxan***

Aşiq özünün aşiq olduğunu bilməməlidir.

***İbn Ərəbi***

Azad sevgi, azad vicdan – könlümün tanrısı.

***Cəfər Cabbarlı***

Əsl sevgi kitabı oxumaqla qurtarmır.
Hər dəfə yeni fəsillər, yeni səhifələr açılır.

***Əbu Turxan***

Hər bir musiqi
məhəbbətin hansı isə çalarlarını ifadə edir.

***Tur Xander***

Şərqdə idrakın işığı
eşq işığının kölgəsində qalır, Qərbdə – əksinə.

***Əbu Turxan***

Sevgi qocalmır.

***Ülvi Bünyadzadə***

Eşqin gözü kordur.

***Atalar sözü***

Göz görməsə könül sevməz.

***Atalar sözü***

Ürəyə hökm etmək olmaz.

***Atalar sözü***

Məhəbbət birdir, amma iki ürəkdə yaşayır.

***Assiriya hikməti***

Könül sevən göyçək olar.

***Atalar sözü***

# *Ailə, qadın, kişi*

*Hər bir cifti erkək və dişi*
*yaradan O-dur.*
***Quran 53/45***

Övladınızı öz zamanınıza görə yox,
gələcək zamana görə yetişdirin.

***Hz. Əli***

Ailəni dayanıqlı edən qadın ilə kişi
arasındakı eyniyyət yox, fərqdir. Məhəbbət özü də
bu fərqin sayəsində mümkün olur.

***Əbu Turxan***

Qadının əvvəlcə "ürəyi gedir",
dalınca da "ağlı başından çıxır".

***Əbu Turxan***

Əsl kişi hətta bu günün
cazibəsində olarkən də, sabahı düşünə bilir.

***Əbu Turxan***

Qadının qurduğu tələlər
kişinin tələlərindən daha uzun müddətə
hesablanmış olur.

***Əbu Turxan***

Qadınlar oxşarlığı eyniyyət kimi
qəbul etməyə daha çox meyllidirlər. Oxşar fikirlərin
əslində nə qədər fərqli olduğunu aşkara çıxarmaq
– kişi təfəkkürü üçün səciyyəvidir.

***Əbu Turxan***

Çox vaxt qadınlar
ağılın yoxluğundan yox, çoxluğundan
ağılsızlıq edirlər.

***Əbu Turxan***

Qadının ağlı ürəyinin yedəyində olur.

***Əbu Turxan***

Qadın üçün keçmişin xatirələri
və gələcək haqqında xəyallar önəmlidir; amma onu
hərəkətə gətirən bu günün duyğularıdır.

***Əbu Turxan***

Kişi özgəsinin sirrini
öz sirrindən yaxşı saxlayır, qadın isə yalnız
öz sirrini saxlaya bilir.

***Labryuer***

Sivilizasiyanın əsasında
əmək bölgüsü dayandığı kimi, ailəni də mümkün edən
kişi ilə qadın arasında əmək bölgüsüdür.

***Əbu Turxan***

Qadın bilməyənə nəfs, bilənə nəfəsdir.

***Şəms Təbrizi***

Bərabərlik iddiası ailəni sarsıdır.

***Əbu Turxan***

Qadın ictimailəşəndə ailə dağılır.

***Əbu Turxan***

Qadınların saxlaya bildikləri
yeganə sirr bilmədikləri sirdir.

***Seneka***

Yaxşı qadınla evlilik
həyat fırtınasında sığınacaqdırsa, pis qadınla evlilik
– sığınacaqda fırtınadır.

***D. Ptitsen***

Yaxşı qadın ərə gedəndə
xoşbəxtliyi vəd edir, pis qadın isə onu gözləyir.

***V.O.Klüçevski***

Qadınlar tərifi bir uduma,
acı həqiqəti isə – damcı-damcı içirlər.

***Didro***

Kişini maraqlandıran
başqalarının onun haqqında nə düşündükləri,
qadını maraqlandıran isə – başqalarının onun
haqqında nə söylədikləridir.

***Hippel***

Qadının ürəyini almaq
üçün bir yalan bəs edir, kişiyə xoş gəlmək üçün
isə hər dəfə yeni yalan lazım gəlir.

***Çesterfild***

Qadınlar sevmədikləri kişiyə zərrə qədər acımaz.

***Düma-oğul***

Kişi üçün hər şeyin
əslində necə olduğu önəmlidir. Qadın üçün isə
önəmli olan hər şeyin necə təqdim olunması və zahirən
uyğun gəlməsidir.

***U.Folkner***

Qadın üçün tam səmimi olmaq,
çılpaq gəzməyə bərabərdir.

***Stendal***

Klassik qadınlar
klassik poeziyaya, modern qadınlar isə modern
poeziyaya bənzəyirlər.

***Tur Xander***

Qadınların ən güclü silahı zəiflikdir.

***İ.A.Bunin***

Kişilər elmi, qadınlar poeziyanı xatırladır.

***Əbu Turxan***

Gözəl qadın gözlər üçün cənnət,
ürək üçün cəhənnəm, ciblər üçün təmizlikdir.

***Fontenel***

Qadınların kiçik qüsurlarını
bağışlamayan kişilər heç vaxt onların böyük
məziyyətlərindən zövq ala bilməzlər.

***Cübran***

Ər-arvad bir yerdə
yaşamasaydılar, uğurlu nikahlara daha tez-tez
rast gəlmək olardı.

***Nitsşe***

Bütün xoşbəxt ailələr
bir-birinə bənzəyir, bədbəxtlər ailələrin isə
hərəsi bir cür bədbəxtdir.

***L.N.Tolstoy***

Kişi də, qadın da
tək qanadla yaranır. Pərvazlanıb uçmaq üçün
qanadların qoşalaşması lazımdır.

***Əbu Turxan***

Qadın hökmranlıq edir, amma idarə etmir.

***D.Jirarden***

Əgər istəyirsənsə
izdivacın göyün yeddinci qatında olsun,
əvvəlcə uçmağı öyrən.

***Əbu Turxan***

Bütün dünyanı gəzib
səadət axtardım, – tapmayıb, kor-peşman evə döndüm.
Sən demə o, evdə məni gözləyirmiş.

***Əbu Turxan***

Eyni növlü bitkilər,
biri ala dağda, biri qara dağda olsa da,
bir ailənin üzvü hesab edilirlər. Qızılgüllə tikan isə
həmişə yanaşı olsalar da, başqa ailələrə aiddirlər və
onların izdivacı istisna olunur.

***Əbu Turxan***

Dostluq etməyi bacaran
evlənəndə də uğurlu evlənər; belə ki, nikah da
dostluq istedadına əsaslanır.

***Nitsşe***

Qadın instinkti
böyük insanların uzaqgörənliyinə bərabərdir.

***Balzak***

Kişi evin beyni, qadın isə ürəyidir.

***Volter***

Yalan ilə qurulan yuvanın səadəti də yalandır.

***Füzuli***

Gözəl qadın insanın gözlərinə,
gözəl xasiyyətli qadın isə ruhuna dinclik gətirir.

***Volter***

Qayıq iki avarın eyni anda
hərəkət etməsi ilə üzür, avarların hərəkəti bir-birinə
uyğun gəlməsə, dalğalar qayığı aşırar.
Evlilik də qayıq kimidir.

***E.Levi***

Evlənməzdən qabaq gözlərinizi
dörd açın, amma evləndikdən sonra –yumun.

***B.Franklin***

Evlənmək öz hüquqlarımızı
yarıbayarı azaltmaq, vəzifələrimizi isə ikiqat
artırmaq deməkdir.

***Şopenhauer***

Evlənmək çətin deyil, evli olmaq çətindir.

***M.Unamuno***

Qadın öz yaşını doğum
tarixindən deyil, evləndikdən sonra hesablayır.

***Lokk***

Yaxşı arvad ərinin xoşladığı şeyləri xoşlayır.

***Karneqi***

Ancaq böyük məhəbbət ailə
həyatındakı anlaşılmazlıqları aradan qaldıra bilər.

***Drayzer***

Nikahın qarşıya qoyduğu
ideal – cismani yaxınlıqdan başlayıb
mənəvi birliyə çatmaqdır.

***M.Qandi***

İnsan ağlını itirəndə
evlənir, səbrini itirəndə boşanır.

***D.Jirarden***

Qadınsız evdə hörümçəklər tor qurar.

***Atalar sözü***

Ərlə arvadın torpağı bir yerdən götürülər.

***Atalar sözü***

Atıcı atar, tayını tapar.

***Atalar sözü***

Su axar, çuxurunu tapar.

***Atalar sözü***

Dünya bir evdirsə, övlad işıqdır,
Oğul arxadırsa, qız yaraşıqdır.

***Səməd Vurğun***

Ev kiçik bir mədəniyyət ocağıdır.

***Dikkens***

Ata-ananın övlada məhəbbəti
sövq-təbii, övladların ata-anaya məhəbbəti isə
şüurludur.

***N.Tusi***

Ərin, yaxud arvadın tərbiyəsi
onların dava-dalaşı zamanı özünü daha
qabarıq göstərir.

***B.Şou***

Əvvəl evin içi, sonra çölü.

***Atalar sözü***

Uşağın tərbiyəsinə
onu tanımaqla başlamalıyıq.

***Russo***

Qırağına bax, bezini al, anasına bax, qızını al.

***Atalar sözü***

Qızını döyməyən, dizini döyər.

***Atalar sözü***

Hər bir ana ümid edir ki,
qızı ondan daha yaxşı ər tapacaq, oğlu isə atasının
tapdığı qədər yaxşı arvad tapmayacaq.

***M.Andersen-Nekse***

Qızım, sənə deyirəm, gəlinim, sən eşit.

***Atalar sözü***

Anası gəzən ağacı qızı budaq-budaq gəzər.

***Atalar sözü***

Döyülməyən düyüdən aş olmaz.

***Atalar sözü***

Əslində olan dırnağında bildirər.

***Atalar sözü***

Gərək təkcə gəlin
gəlin olmasın, gəlin gedən yer də gəlin olsun.

***Atalar sözü***

# *Dostluq*

*İnsanın pulu artdıqca düşməni,*
*elmi artdıqca dostu çoxalar.*
***Hz. Əli.***

Dostluq iki bədəndə yaşayan bir nəfsdir.

***Aristotel***

Yalnız yaxşı insanlar
arasında dostluq mümkündür.

***Siseron***

Hər kəs ancaq özünü sevir.
Dost da ona görə sevilir ki, o bizim ikinci
"Mən"imizdir.

***Siseron***

Biz dostun köməyindən çox,
bu köməyi ala bilmək inamına ehtiyac duyuruq.

***Sokrat***

Ancaq riyakarlar hamı ilə dostluq edə bilər.

***Əbu Turxan***

Bir olsa yoldaşın, dostun əməli
Daşdan su çıxarar onların əli.
Nifaq olan yerdə fəlakət də var,
Səadət günəşi birlikdə doğar.

***Nizami***

Başqaları ilə dost olmazdan öncə,
insan öz daxilində ruh ilə bədəninin
ittifaqına nail olmalıdır.

***Əbu Turxan***

Əgər dostun səndən aşağıdırsa,
sən həqiqi dost deyilsən; əgər yuxarıdırsa,
– o həqiqi dost deyil.

***Əbu Turxan***

Kim ki, yeni dostları
köhnələri itirmək hesabına qazanır, onun həqiqi
dostu heç vaxt olmayacaq.

***Əbu Turxan***

Doğma o adamdır ki,
onunla öz ruhunun dilində danışa bilirsən.

***Əbu Turxan***

Dostluq birgə keçirilən vaxtın səmərəsini artırır.

***Əbu Turxan***

Dostluq vaxt aparır, sevinc gətirir.

***Nərmin Xəlil***

Dostluq sevinci ikiqat edir, dərdi isə yarı bölür.

***F.Bekon***

Ancaq o adamlar həqiqi dost
ola bilərlər ki, kiçik çatışmazlıqları
bağışlaya bilsinlər.

***Labryuer***

Dostluq qanadsız məhəbbətdir.

***Bayron***

Məhəbbətin ömrünü dostluq uzadır.

***Əbu Turxan***

Məhəbbət ehtiraslıdır,
dostluq isə ruhani keyfiyyətdir.

***Aristotel***

Dostluq eyniyyətdən,
məhəbbət fərqdən yaranır.

***Əbu Turxan***

Məhəbbət fərqli tərəflərin dostluğudur.
Fərq itdikcə məhəbbət keçir, dostluq qalır.

***Əbu Turxan***

Qarşılıqlı olmayan
məhəbbətlər çox olur, qarşılıqlı olmayan
dostluq isə yoxdur.

***Əbu Turxan***

İnamsızlıq başlanan yerdə dostluq qurtarır.

***Seneka***

Heç kimlə dostluq etməyən
adam dostluğun nə olduğunu bilə bilməz.

***Mövlana***

Dostluq etməyi bacaran
evlənəndə də uğurlu evlənər; belə ki, nikah da
dostluq istedadına əsaslanır.

***Nitsşe***

Quş ancaq öz cinsindən olan quşlarla uçar.

***Mövlana***

Dost qazanmağın tək yolu dost ola bilməkdir.

***Emerson***

Qorxaq dost düşməndən qorxuludur,
çünki düşməndən ehtiyat edirsən, dostuna isə
arxayın olursan.

***L.N.Tolstoy***

Tədbirləri baş tutmayanda
düşmən dostluq fikrinə düşər və dostluqla elə işlər
görər ki, onu heç bir düşmən bacarmaz.

***Sədi Şirazi***

Bir düşmən çox, min dost azdır.

***Rudəki***

Düşməni bağışlamaq
dostu bağışlamaqdan asandır.

***Nitsşe***

Ləyaqətsiz adamdan dost olmaz.

***Əbu Turxan***

Düşməninə etinasız olma:
səhvlərini birinci o görür.

***Antisfen***

Düşmənlərinizi bağışlayın,
amma adlarını unutmayın.

***C.Kennedi***

Sizə sirr vermək istəyəndən
uzaq olun, çünki o, daşıya bilmədiyi ağır bir
yükü sizə daşıtmaq istəyir.

***Qottlib Leytner***

Sirrini bilməsin evdə divarlar,
Divar dalında da çünki qulaq var.

***Nizami***

Yadlar doğmalaşanda, doğmalar yadlaşır.

***Əbu Turxan***

İnsanlar bir-biri üçündürlər.

***Mark Avreli***

Ancaq ürəklərində öz sirri
olanlar bizim ürəklərin sirlərini anlamağa qadirdir.

***Cübran***

Yanıb-yaxılmayana kimsə acımaz.

***Jan Austin***

Bir qırıq qəlb
digər qırıq qəlbə təskinlik verə bilməz.

***Cübran***

Təxəyyülü olan özünü heç vaxt tək hiss etməz.

***Əbu Turxan***

Dar günün dostları gen gündə gendə durur.

***Əbu Turxan***

Dağ da tək olanda qəribsəyir.
Ona görə də çox vaxt silsilə şəklində olur.

***Əbu Turxan***

Boşboğaza sirr vermək
çatlaq qaba su tökmək kimi bir şeydir.

***El hikməti***

Təklikdə xoşbəxt ola bilməzsən:
xoşbəxtlik iki adamın qismətidir.

***Pifaqor***

Qardaş dost olmaya
da bilər, amma dost həmişə qardaşdır.

***B.Franklin***

Hamı ilə "dost" olanlar
heç kimin dostu ola bilməzlər.

***Əbu Turxan***

Dost dar gündə sınanar.

***Atalar sözü***

Dost dosta tən gərək, tən olmasa, gen gərək.

***Atalar sözü***

Səmimiyyət dostluğun məhək daşıdır.

***Əbu Turxan***

Hər şeyin təzəsi, dostun köhnəsi.

***Atalar sözü***

Atlı çapar, tayını tapar.

***Atalar sözü***

Dostunu göstər, sənin kim olduğunu deyim.

***Atalar sözü***

Bütün ləyaqətli adamları,
hətta heç vaxt yaxın münasibətdə olmasan da,
özünə dost hesab edə bilərsən.

***Əbu Turxan***

Su axar, çuxurunu tapar.

***Atalar sözü***

Dostun dostu da dostdur.

***Atalar sözü***

Uman yerdən küsərlər.

***Atalar sözü***

Soruşurlar: "qardaşını tanıyırsanmı",
deyir, "yoldaşlıq etməmişəm".

***Atalar sözü***

Qərib dostu olmayandır.

***Atalar sözü***

Dostun evini öz evin bil.

***Atalar sözü***

Neçə dostun varsa, o qədər də evin var.

***El hikməti***

Tənhalıq mənəvi
yolla gedənin ən yaxşı müəllimidir.

***Fəridəddin Əttar***

Arxalıya arxa olma ki,
sənə yamaq desinlər, arxasıza arxa ol ki,
sənə dayaq desinlər.

***El hikməti***

Sevilməyən bir insan
hər yerdə və hər şeydə yalnızdır.

***J.Sand***

İki qism  adamların dostu olmur:
Birincilər insanlığın elə yüksək mərtəbəsində olanlardır ki, bu mərtəbədə başqaları sadəcə yox dərəcəsindədir.
İkincilər insanlığın elə aşağı mərtəbəsində olanlardır ki, orada “dostluq” məfhumunun özü yoxdur.

***Əbu Turxan***

Yolları eyni olmayanlar
yoldaş ola bilmədikləri kimi, zövqləri, məqsədləri,
amalları eyni olmayanlar da
dost ola bilməzlər.

***Əbu Turxan***

İnsanlar körpü salmaq
əvəzinə hasar çəkdikləri üçün tənha qalırlar.

***Nyuton***

Əslində tənha ikən tənha olmuram.

***Şiller***

Tənhalıq təkcə kədərin yox,
bütün mənəvi halların həmdəmidir.

***Cübran***

Tək bir xətt məna kəsb edə bilməz,
ikincisi də olmalıdır ki, nəyi isə
ifadə etmək mümkün olsun.

***Delakrua***

Mən tək olan zaman fikirlərimin
Hər biri yanımda bir adam olur.

***B.Vahabzadə***

# *Tarix, cəmiyyət, şəxsiyyət*

*İnsanı yaşadan, irəli aparan arzulardır.*
*Amma hər bir insanın qəlbinin dərinliyində*
*bir tarixdə qalmaq arzusu da var.*
***Əbu Turxan***

Tarix həmişə hər şeyi öz yerinə qoyur.

***Heydər Əliyev***

Xalq gərək daim öz kökünü xatırlasın.

***Heydər Əliyev***

İnsanların tarixdən aldıqları
əsas dərs bundan ibarətdir ki, onlar ondan heç bir
dərs ala bilmirlər.

***Hegel***

Tarix hadisələr səviyyəsində
qərar tutur, elm hadisələrdən mahiyyətə gedir,
fəlsəfə isə mahiyyətdən başlayır.

***Əbu Turxan***

O xalqlar tarixdə daha düzgün
mövqe tuta bilir ki, onlar başqalarının tarixindən
də dərs almağı bacarırlar. Bu dərs isə təkcə
tarixi salnamələr vasitəsilə deyil, daha çox dərəcədə
bədii ədəbiyyat vasitəsilə mənimsənilir.

***Nüaymə***

Tarixşünaslar keçmişi,
ideoloqlar gələcəyi saxtalaşdırırlar.

***Jarko Petan***

Ən gediş-gəlişli hərəkət
çox vaxt tarixin dalanlıqlarında olur.

***Toynbi***

Tarixi olmayan ölkə ölü ölkədir.

***Sinkler Lyuis***

Keçmişi olmayan xalqın gələcəyi də yoxdur.

***Oljas Süleymenov***

Bu günü olmayan xalqın keçmişi də yoxdur.

***Əbu Turxan***

Çox böyük tarix
lazımdır ki, bir az ədəbiyyat alınsın.

***Henri Ceyms***

Əgər keçmişə atəş
açsan, gələcək səni topa tutacaqdır.

***Bismark***

Keçmişimizin izlərini
tarixin qaranlıqlarında deyil, bu günümüzün
iç qatında axtarmalıyıq.

***Əbu Turxan***

Tarix elə bir ortaq
sərvətdir ki, ondan hər xalq öz fərasətinə
görə pay götürür.

***Əbu Turxan***

Tarixçilər əvvəlki tarixçilərin
yazdıqlarını fakt kimi, onlara istinadla
yazdıqlarını isə artıq sübut olunmuş həqiqət kimi qəbul
edirlər. Bu isə elmin imitasiyasıdır.

***Tur Xander***

Tarix hadisələrin romanı,
roman isə duyğuların tarixidir.

***Helvetsi***

Tarix elm qiyafətinə girəndə yox,
ancaq özünə oxşayanda həqiqətə daha çox yaxınlaşır.

***Əbu Turxan***

Tarix – əsillərin az,
surətlərinsə çox olduğu rəsm qalereyasıdır.

***Tokvill***

Hərə öz zəmanəsində
oturub tarix yaza bilməz; bütün ruhu ilə
keçmişə köçmək, dövrün ab-havasına bələd olmaq və
indiyə keçmişlə birlikdə
qayıtmaq lazımdır.

***Əbu Turxan***

"Tarixə düşmək" özü də uğur
hesab edilir, amma ən böyük uğur tarixin qatarında bu
günə gəlib-çatmaq və gələcəyə getməkdir.

***Əbu Turxan***

Tarixi tədqiqatın birinci
şərti bu günlə keçmiş arasında mənəvi
körpü salmaqdır.

***Əbu Turxan***

Tarix fənninin tədrisində
xronoloji ardıcıllıq keçmişdən indiyə yox,
indidən keçmişə doğru olmalıdır.

***Tur Xander***

Biz nəyi qururuqsa,
öncə qurulmuşların üzərində qururuq.

***Əbu Turxan***

Tarix iki halda təkrarlanır:
ibrət götürəndə – yaxşı məqamlar,
götürməyəndə – pis məqamlar təkrar olunur.

***Əbu Turxan***

Qərb cəmiyyəti
*ürək çatışmazlığı*-ndan, Şərq cəmiyyəti
*ürək ifratı*-ndan əziyyət çəkir.

***Tur Xander***

Qərb dünyanı dəyişib
özünə uyğunlaşdırmaq, Şərq özünü
dəyişib dünyaya uyğunlaşmaq yolunu seçmişdir.

***Əbu Turxan***

Böyük tarixi hadisələrin
təməli durğunluq illərində qoyulur.

***Əbu Turxan***

Şərq təfəkkürü təəssüratçılıqla,
Qərb təfəkkürü təfərrüatçılıqla səciyyələnir.

***Əbu Turxan***

Şərqi geri qoyan
ətalət qüvvəsinin böyüklüyü yox,
hərəkətverici qüvvənin kiçikliyidir;
mənəvi sədlərin yüksəkliyi yox, intellektual
cəhdlərin zəifliyidir.

***Əbu Turxan***

Şərqdə cəmiyyət insanların toplusu,
Qərbdə insanlar cəmiyyətin hissələridir.

***Əbu Turxan***

O (Qərb), gül üzərində
uçsa da, onun yalnız balını götürən arı kimidir.

***Məhəmməd İqbal***

Şərqin mənəvi zənginliyi
və Qərbin maddiyyatı arasında körpü qurmaq
missiyası türklərin üzərinə düşür.

***Oqtay Sinanoğlu***

Şərq doğru danışanda
ona nadir hallarda inanırlar. Qərb isə yalan
danışanda ona nadir hallarda şübhə ilə yanaşırlar.
Birincinin sadəlövh doğruluğu heç bir məqsədə
yönəlməyib, o birisinin saxta səmimiliyi nadir
hallarda öz məqsədinə çata bilmir.

***Əmin ər-Reyhani***

Bir gün gələcək,
Günəş yenə də Şərqdən doğacaq.

***Əbu Turxan***

Ancaq bir sivilizasiya var;
sadəcə onun sükanı əldən ələ keçir.

***Tur Xander***

Zahiri günəş Şərqdə çıxır;
əvəzində Qərbdə özünüdərkin daxili günəşi çıxır
və daha yüksək səviyyədə şüalanır.

***Hegel***

Şərqlilər dağın arxasında
nə olduğunu görə bilirlər, lakin gözlərinin
önündə nə olduğunu görmürlər.

***Əmin ər-Reyhani***

Cəmiyyət məntiqin
universallığı sayəsində mümkün olmuşdur.

***Tur Xander***

Əgər bütün insanlar
eyni məntiqlə düşünməsəydilər,
nə cəmiyyət, nə dövlət, nə də sivilizasiya olardı.

***Tur Xander***

Bəşər dünyasının piramidası
tərsinə dayanmışdır: azlıq çoxluğun çiynində deyil,
çoxluq azlığın çiynində gedir.

***Əbu Turxan***

Bir tam halında fəaliyyət göstərə
bilməyən ictimai sistemin ayrı-ayrı daxili
qurumları nə qədər cəhd göstərsə də, cəmiyyətin
inersiyasından xilas ola bilmir.

***Tur Xander***

Bütün üzvləri eyni cür
düşünən cəmiyyət inkişaf edə bilməz.

***Əbu Turxan***

Fərdi mahiyyət ailə məhəbbətində,
ictimai mahiyyət vətən sevgisində üzə çıxır.

***Əbu Turxan***

İctimai ovqat yaxşı
olmayan yerdə fərdlərin ovqatı ancaq süni
vasitələrlə yüksələ bilər.

***Əbu Turxan***

“Ağac bar verəndə başını aşağı əyər”.
Amma hələ bar verənə qədər boy atmasına
imkan vermək lazımdır.

***Əbu Turxan***

İctimai həyatda
üzə çıxan ancaq zahiri mədəniyyətdir.

***Əbu Turxan***

Şərqin idealı – insanın kamilləşməsi,
Qərbin idealı – cəmiyyətin təkmilləşdirilməsidir.

***Əbu Turxan***

Qanunun qadağan etmədiyi
bəzi şeyləri tərbiyə hissi qadağan edir.

***Seneka***

Buyurmaqdan öncə itaət etməyi öyrən.

***Solon***

Tərbiyəçi qarşısındakını
öyrətməzdən əvvəl onu öyrənməlidir.

***Əbu Turxan***

Yaşlı nəsil gənclikdən
narazılıq söyləyəndə onları kimin
yetişdirdiyini unudur.

***Əbu Turxan***

Tərbiyəçinin özü də tərbiyəli olmalıdır.

***K.Marks***

Həqiqi tərbiyə
qaydalardan daha çox məşqlərdən ibarətdir.

***Russo***

Uşaqlara öyüd-nəsihət yox, nümunələr lazımdır.

***Jozef Juber***

Uşağın sevmədiyi adamın
uşağı cəzalandırmağa haqqı yoxdur.

***Lokk***

İnsanlar öyrədərək öyrənirlər.

***Seneka***

Hər bir adama verilən
səlahiyyət onun qabiliyyətlərinə uyğun
olmalıdır: səlahiyyət qabiliyyətdən məhdud
olanda adamın özü, yüksək olanda
– ətrafındakılar əziyyət çəkir.

***Əbu Turxan***

Pis tərbiyə almış adamı
yenidən tərbiyələndirməkdən çətin şey yoxdur.

***Y.Komenski***

Qocaların məsləhətləri
qış günəşi kimidir: işıqlandırır, amma isitmir.

***Vovenarq***

Məsləhətin nəticəsi üçün
məsuliyyət nəzərdə tutulsa idi, məsləhətçi
tapmaq çətin olardı.

***Əbu Turxan***

Öz təcrübəmizdən dərs
götürmürüksə, yaxşı məsləhətlərdən nə fayda?

***Vovenarq***

Ən çətini özünü dərk etmək,
ən asanı isə – başqalarına məsləhət verməkdir.

***Fales***

Adamları öyrətmək onları öyrənməkdən asandır.

***Laroşfuko***

Üzünü gəncliyə tut – səsin gələcəyə yetsin.

***Xudu Məmmədov***

Qayda və göstərişlər yolu uzun,
şəxsi nümunə yolu isə aydın və konkretdir.

***Seneka***

Çoxu azın səviyyəsinə
yüksəltmək, azı çoxun səviyyəsinə
salmaqdan qat-qat çətindir.

***Əbu Turxan***

Özümüzə münasibətdə kiçik
saydığımız xətanı başqalarına münasibətimizdəki
ən məkrli xəyanətdən daha amansızlıqla
mühakimə edirik.

***Laroşfuko***

Başqalarını tanıdıqca insan özünü də tanıyır.

***Əbu Turxan***

Əsl səhvlər düzəldilə bilməyən səhvlərdir.

***Konfutsi***

Başqasının xarakterini təsvir
edərkən insanın xarakteri daha yaxşı üzə çıxır.

***Jan Pol***

Başqasının çaldığına oynamaq
özü çalıb özü oynamaqdan daha asandır.

***Əbu Turxan***

Çoxlu qüsurları olan insanlar
qüsurları ilk növbədə başqalarında görürlər.

***F.Bekon***

Öz vəziyyətindən razı qalmaq üçün
onu daha pis vəziyyətlə müqayisə etmək lazımdır.

***B.Franklin***

Ayaqsız bir uşağa
rast gələnə qədər ayaqqabısız olduğum üçün
kədərlənirdim.

***A.Frans***

Qonşu qonşuya baxar, özünü oda yaxar.

***Atalar sözü***

Başqaları üçün qaydalar,
özümüz üçün istisnalar yaradırıq.

***Şarl Lemel***

Özümüz haqqında ideallarımıza
görə, başqaları haqqında - əməllərinə
görə fikir yürüdürük.

***Qarold Nikolson***

Kənardan qəbul etdirilən
bir əhval uzunömürlü ola bilməz. Əsas olan real
həyatın insana təlqin etdiyi əhvaldır.

***Əbu Turxan***

İnsan öz yaxın ətrafından,
digər insanlardan hətta zəhləsi də getsə,
onlarsız yaşaya bilməz.

***Kant***

İnsanların səni tanımadıqlarından
narahat olma, sən insanları tanımadığına
görə narahat ol.

***Konfutsi***

Adamın "iç üzü"
adam içinə çıxanda məlum olur.

***Əbu Turxan***

Dağ dağa rast gəlməz, adam adama rast gələr.

***Atalar sözü***

Sürüdən ayrı düşən qoyunu qurd yeyər.

***Atalar sözü***

Səhvi düzəltməmək ən böyük səhvdir.

***Konfutsi***

Kiçik nöqsanlar böyük səhvlərə aparır.

***Seneka***

Səhvə yol vermək
qorxusu adamı başqa səhvə sövq edər.

***Horatsi***

Heç nə etməyən səhvə yol
verməz; əslində bu, onun elə əsas səhvidir.

***L.Tolstoy***

Qardaşın qanını alma qardaşdan
Tamam ayrı şeydir çünki südlə qan.

***Nizami***

İntiqam hissi ilə
yaşayanların yaraları həmişə təzədir.

***B.Franklin***

Hətta sübutsuz dedi-qodu
da özündən sonra dərin izlər buraxır.

***A.S.Puşkin***

Kim əgər kömürçü yanından keçsə,
Qayıtmaz üst-başı batmadan hisə.
Ətirçi yanından keçərsə əgər,
Üstündən – başından tökülər ənbər.

***Firdovsi***

Eşşək başına yaraşmayır qızıl tac,
Eşşək üçün yaranmışdır palan, noxta və ağac.
Bir eşşəyin noxtası gər ola mirvarıdan,
Baxan deyər nə rəzildir bu heyvan.

***Xaqani***

Kim səndən qorxursa, qıl ondan həzər
Olsan da yüz elə şəxsə bərabər.

***Sədi Şirazi***

Ocaqdan ancaq işıq saçılmır. Yanğının iztirabları da alovla birlikdə çıxıb səpələnir.

***Əbu Turxan***

Eşşəyə min ata çatana qədər.

***Atalar sözü***

Su bir dəfə axan yerdən bir də axar.

***Atalar sözü***

Qurunun oduna yaş da yanar.

***Atalar sözü***

Alaq otu tez yetişər.

***Atalar sözü***

Meşə çaqqalsız olmaz.

***Atalar sözü***

Nəzakətlilik qədər ucuz başa gəlib
yüksək dəyərləndirilən heç bir şey yoxdur.

***Servantes***

Bir dana naxırın adını korlayır.

***Atalar sözü***

Dərə xəlvət, tülkü bəy.

***Atalar sözü***

İt hürər, karvan keçər.

***Atalar sözü***

Yel qayadan nə aparar!

***Atalar sözü***

Çağırılan yerə ar eləmə,
çağırılmayan yeri dar eləmə.

***Atalar sözü***

El ağzı faldır.

***Atalar sözü***

Toyuq ölür, bir cəngə tükdür.
Dəvə ölür, dərisi iki ulağa yükdür.

***Atalar sözü***

Elnən gələn toy-bayramdır.

***Atalar sözü***

Göz yediyi aşı tanımalıdır.

***Atalar sözü***

Zər əhlində kərəm yoxdur,
kərəm əhlində - zər.

***Atalar sözü***

# *Dövlət, millət, vətən*

*Dövlətçilik hər bir şəxsin qəlbində olmalıdır.*

***Heydər Əliyev***

Qövmlər layiq olduqları şəkildə idarə olunurlar.

***Hz.Məhəmməd***

Torpağı qorumasan, əkib-becərməyə dəyməz,
əkib-becərməyəcəksən – qorumağa dəyməz.

***"Dədə Qorqud"***

Hər xalq öz aqibətinə layiqdir.

***Monteskyö***

Hər xalq öz hökmdarına layiqdir.

***Hegel***

Dövlətçilik hər bir şəxsin qəlbində olmalıdır.

***Heydər Əliyev***

Rəhbərlik etmək
üçün gərək mənəvi haqqın olsun.

***Heydər Əliyev***

Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır.

***Heydər Əliyev***

Böyük siyasəti
kiçik hissələrə, xırda mənfəətlərə bağlamaq olmaz.

***Heydər Əliyev***

Demokratiya insanların şüurunda
dəyişiklik deməkdir. Bu dəyişiklik inqilabla olmur,
təkamül yolu ilə, tədricən gedir.

***Heydər Əliyev***

Sülh danışıqlarını cəsarətlə apara
bilmək üçün güclü orduya malik olmaq lazımdır.

***Heydər Əliyev***

Rüşvətxoru, oğrunu qəhrəman
etmək öz xalqına xəyanət etməkdir.

***Heydər Əliyev***

Vətənpərvərlik insanın
daxilindəki duyğulardır. Əgər bunlar yoxdursa,
o insan mənəviyyatsızdır.

***Heydər Əliyev***

Əgər hər hansı ölkənin xalqları öz hüquqlarını
anlayır və onları qoruya bilirsə, o zaman ən kiçik dövlət
belə ən böyük məmləkət qədər güclü olar.

***Heydər Əliyev***

Rüşvət bizi içimizdən yeyir.

***Heydər Əliyev***

Dövlət iki şeydən sarsıla bilər:
günahkar cəzasız qalanda və günahsıza cəza veriləndə.

***Heydər Əliyev***

İnam və səmimiyyətdən sui-istifadə
siyasətdə – məharət, mənəviyyatda – rəzalət sayılır.

***Əbu Turxan***

Xalqın içində olmaq hələ xalqla olmaq deyil.

***Əbu Turxan***

Talan və acgözlük
ancaq camaata riyakarlıq ənənəsi aşılamaq sayəsində
ayaq tutub yeriyə bilir.

***DüriNq***

Yaxşı planlaşdırılmış
sui-qəsdlər həmişə “təsadüfən” baş verir.

***Əbu Turxan***

Hökmdarlara xidmət etmək
dəniz səfəri kimidir, həm qorxusu var, həm faydası,
ya xəzinə taparsan, ya dənizdə batarsan.

***Sədi Şirazi***

Deyirlər siyasət ikinci qədim peşədir.
Ancaq mən bu nəticəyə gəlmişəm ki, birincidən
o, çox şeylər əxz eləyib.

***Reyqan***

Böyük siyasətçilər bəzən
aşkarda axın istiqamətində, alt qatda isə ikiqat sürətlə
axına qarşı üzməli olurlar.

***Əbu Turxan***

Bütün sosial orqanizmlərin canlı
məxluqlar kimi özünüqoruma instinkti var.

***Tur Xander***

Millət yalnız ruhun
emosional halından fəlsəfi özünüdərk məqamına
yüksəlirkən əsl böyük millət olur.

***Əbu Turxan***

Milləti sevmək odur ki,
onun hər üzvünün uğuruna öz uğurun kimi
sevinəsən və günahı üçün öz günahın kimi
xəcalət çəkəsən.

***Əbu Turxan***

Kim müsibət günü istər ona bir yar olsun
De ki, xoş gündə özü xalqa havadar olsun.

***Sədi Şirazi***

Ən böyük şəxslər özündən çox,
mənsub olduğu xalqı düşünən, onun xoşbəxtliyi
yolunda həyatını verən insanlardır.

***Atatürk***

Sayıqlığı itirmək silahı itirməkdən betərdir.

***Əbu Turxan***

Siyasətin ancaq başı var, ondan ürək istəməyin.

***Napoleon***

Dövlət adamının ürəyi başında olmalıdır.

***Napoleon***

Dövlətlər ancaq yaxşı ilə
yamanı bir-birindən seçə bilməyəndə məhv olur.

***Antisfen***

Dövlətlər də insanlar kimidir,
çünki onlar da insan xarakterindən yaranırlar.

***Platon***

Dövlət müəyyən ideologiya
əsasında fəaliyyət göstərir. Bu ideologiya
milli ruha uyğun gəlirsə, deməli, o, milli dövlətdir,
gəlmirsə, millətlə dövlət arasında
qarşıdurma labüddür.

***Tur Xander***

Bu gün şüurlarda əsən xəfif meh sabah
bütün cəmiyyəti sarsıdan qasırğaya çevrilə bilər.

***Əbu Turxan***

İdeya və iradə müəyyən
sosial bazaya yiyələnəndə siyasətə çevrilir.

***Tur Xander***

İdeologiya – haradasa fəlsəfə ilə siyasətin arasındadır.

***Tur Xander***

Silah cingildəyəndə qanunlar susur.

***Siseron***

Siyasət rol oynarkən, ədəbiyyat susur.

***Cavid***

Siyasət heç vaxt poeziyanın işi ola bilməz.

***Göte***

Adətlərə arxalanmayan qanunlar zəif olur.

***Siseron***

Siyasətdə meyar əxlaq və qanun deyil, qələbədir.

***Sveyq***

Nə qədər ki, siyasət mədəniyyətə
müxalifdir, yazıçı da siyasətə müxalif olacaq.

***M.A.Bulqakov***

Bir ölkədə şair nə qədər çoxdursa,
həmin ölkə düşüncə baxımından o qədər geridir.
İnsanlar və millətlər yaşlandıqca şerin
yerinə nəsr keçər.

***Cəmil Meriç***

Müharibədən fayda görənlər
olmasaydı, müharibələr olmazdı.

***Əbu Turxan***

Ya bəşəriyyət müharibələrə,
ya da müharibələr bəşəriyyətə son qoyacaqdır.

***Con Kennedi***

Müharibənin yaxşısı, sülhün də pisi yoxdur.

***B.Franklin***

Qocalar müharibəni
elan edir, ölməyə isə cavanlar gedir.

***Gerbert Quver***

Bugünkü müharibədə toplar,
tüfənglər deyil, hər məmləkətin ədəbiyyat və
fəlsəfəsi ilə bəslənən beyinlər də ayrıca
haizi-əhəmiyyətdir.

***Cavid***

Vətən sevgisi iki səviyyədə üzə çıxır:
biri kortəbii surətdə – doğmalıq hissi kimi,
o biri – dövlətin simasında şəxsləşən qarşı tərəfə
şüurlu münasibət kimi.

***Əbu Turxan***

Zəfər zəfər deyildir,
yenilən düşmən yenildiyini qəbul etməsə.

***M.Klaudius***

Səndə vuruşmaq əzmi hələ
qalırsa, deməli, düşmən vaxtından əvvəl sevinir.

***Əbu Turxan***

Vətəndən məhrum olmaq
yetimliyin başqa bir formasıdır.

***Əbu Turxan***

Dövlət Vətəni təcəssüm
etdirəndə vətəndaşla Vətən arasında əks
əlaqə münasibəti yaranır ki, bu da övlad-valideyn
münasibətini xatırladır.

***Əbu Turxan***

Vətən sevgisi üçün
hansı ölkədə doğulmaq yox, hansı ölkənin
doğma olması əsasdır.

***Əbu Turxan***

Vətən sevgisi fərdi sevgidən
ilahi sevgiyə yüksəliş yolunda bir məqam
kimi ortaya çıxır.

***Əbu Turxan***

Dünya tarixində ən böyük
hünər və qəhrəmanlıqlar vətən naminə edilib.

***Russo***

Vətəndaşlıq üçün Vətən sevgisi
hələ yetərli deyil; bunun üçün dövlətçilik
şüuru da tələb olunur.

***Tur Xander***

Öz vətəninə mənsub
olmayan bəşəriyyətə də mənsub deyil.

***V.Q.Belinski***

Xüsusi ümumidən hasil olduğu
kimi, Vətənə məhəbbət də bəşəriyyətə
məhəbbətdən hasil olmalıdır.

***V.Q.Belinski***

Bəşəri məhəbbətdən
kənarda vətən sevgisi yoxdur.

***A.Frans***

Valideynlərimiz, övladlarımız,
qohumlarımız bizə əzizdir; lakin məhəbbət
haqqında bütün təsəvvürlərimiz bir sözdə
– “Vətən” sözündə birləşmişdir.

***Siseron***

Vətənpərvərlik təkcə vətəni
sevmək deyil. Bu, daha dərin bir hadisədir...
Bu, özünün vətəndən ayrılmaz olduğunu dərk etmək
və xoşbəxt və bədbəxt günlərini onunla
birgə yaşamaqdır.

***L.N.Tolstoy***

Vətən yolunda ölməklə
xeyir gətirəcəyini bilən hər hansı bir vicdanlı insan
onun yolunda ölməyə tərəddüd edərmi?

***Siseron***

Öz ölkəsini sevməyən heç nəyi sevməz.

***Bayron***

Öz vətənini ləkələmək onu satmaq deməkdir.

***Hüqo***

Vətənində ölməyən insan iki dəfə ölər.

***İsmayıl Həbib Sevük***

Vətənin adını batırmaq – onu satmaq deməkdir.

***Hüqo***

Vətənə vurulan yaranı
hər birimiz ürəyimizin dərinliklərində hiss edirik.

***Hüqo***

Vətəni "sevdirməzdən"
öncə, onu tanıtmaq lazımdır.

***Xudu Məmmədov***

Torpağı itirənlər ən əvvəl torpaq
olub o torpağa qarışmaq haqqını itirirlər.

***Yakov Qolosovker***

İtə ataram, yada satmaram.

***Mir Cəlal***

Vətəndaşlıq milli
ruhla vətənin izdivacından doğulur.

***Əbu Turxan***

Ərazi o zaman vətənə
çevrilir ki, milli ruhla canlanmış olsun.

***Əbu Turxan***

Milli ruh bizim
ruhlarımızın toplanmasından yaranmır,
əksinə, o hər birimizin ruhunda yer tutanda
millət yaranmış olur.

***Əbu Turxan***

Əgər bircə şəxsin də qəlbində
milli ruh hələ yaşayırsa, deməli, bu millət üçün
ümidimizi kəsməməliyik.

***Əbu Turxan***

Müflisləşməyin ən ağır forması
ruhun çökməsidir.

***Əbu Turxan***

Ruhu olmayan bir millət
asket bir millətdən daha qorxunc, daha naqisdir.

***Əmin ər-Reyhani***

Fərd özünü tanıyanda
fərd olur. Millət də ancaq öz mənliyini
qazananda millət olur.

***Məhəmməd İqbal***

Milli həyatın kamilliyi millətin
bir fərd kimi mənlik hissini duyması ilə ölçülür.

***Məhəmməd İqbal***

Millətin əsasında ideya dayanır.

***Şpenqler***

Başqalarının fikir və
düşüncələrinin qurbanı olan millət özünü
məhv edib yadları faydalandırar.

***Məhəmməd İqbal***

Ancaq sağlam milli şüura
malik olan xalq öz haqqını qoruya bilər.

***Ştraus***

Bir millətin lisanı
mövcudiyyətinin ən parlaq bürhanıdır.

***Cavid***

İnsan öz təməlindən ayrılmamalıdır,
yoxsa zəmanənin müxtəlifliyində itib-batar.

***Tur Xander***

Millət dili olan cəmiyyətdir.

***Balzak***

Yalnız azad millətin milli xarakteri ola bilər.

***Jermena de Stal***

Yad elin istisinə
İsinən isti sinə,
Yananda külə dönər,
Kül nədir, istisi nə?

***Əbu Turxan***

İgid olan heç ayrılmaz elindən,
Tərlan olan sona verməz gölündən...

***”Koroğlu***”

Milli ruh məqamına
tək sevgi qanadında yüksəlmək mümkün deyil.
Bunun üçün sevginin ağılla birləşməsi lazımdır.

***Əbu Turxan***

Xalqı millətə çevirən dövlətçilik şüurudur.

***Əbu Turxan***

Kütləni yönəldən ideya
olmayanda onun inqilabçılığı dağıdıcı olur.

***Əbu Turxan***

Kütlənin istəkləri tez bir zamanda
həyata keçməyəndə inqilab öz ətaləti ilə yeni
hakimiyyətə gələnləri vurub yıxır.

***Tur Xander***

Kütlə əvvəl ayağa
qalxır, nə istədiyini sonra düşünür.

***Əbu Turxan***

Materialın xassəsi onda
olan elektronların sayı ilə təyin olunur.
Kütlənin səviyyəsi isə hər bir fərdin təfəkkür
səviyyəsindən asılıdır.

***Kafka***

Böyük siyasi liderlər
inqilab vasitəsilə islahatlar yox, islahatlar
vasitəsilə inqilab edirlər.

***Əbu Turxan***

Kütlə yalnız öz həqiqi
liderі ilə birləşəndə xalqa çevrilir.

***Əbu Turxan***

Qışqıranın səsi pis eşidilər.

***Konfutsi***

Dalğalar heç vaxt tək olmur.
İnqilab dalğasında hakimiyyətə gələnlər
adətən inqilabın ikinci dalğası ilə
hakimiyyətdən salınırlar.

***Əbu Turxan***

İnqilabçılıq özü də bir sənətdir.
Amma inqilabçılıq idarəçilikdən fərqlidir.
Ona görə də, ağıllı inqilabçılar öz işini görəndən sonra
hakimiyyəti idarəçilərə verirlər.

***Əbu Turxan***

Tarixi kəsilmələr dövründə
ənənəçilik millət məfhumunun mühafizə edilməsi üçün
ictihaddan daha əhəmiyyətlidir.

***Məhəmməd İqbal***

Çökən bir millət uçurumun tam
dibinə çatmasa, qalxmaq üçün təkan verə bilməz.

***Əbu Turxan***

Sürətlə öz siyasi süqutuna
yaxınlaşan xalqın taleyini yalnız dahi şəxs dəyişə bilər.

***Hegel***

Hər bir adama verilən səlahiyyət
onun qabiliyyətlərinə uyğun olmalıdır:
səlahiyyət qabiliyyətləri aşanda ətrafdakılar, məhdud
olanda – adamın özü əziyyət çəkir.

***Əbu Turxan***

Bir millətin tərəqqi və
tənəzzülünü bilmək üçün onun məktəblərini
görmək kifayət edər.

***Cavid***

Sivilizasiyanın əsl göstəricisi
sərvət və bilik, iri şəhərlər, məhsul bolluğu deyil,
ölkənin tərbiyələndirdiyi insanın simasıdır.

***Emerson***

Kollektiv öz rəhbərinə oxşayır.

***Karneqi***

Müxtəlif xalqlar eyni
prosesləri müxtəlif zamanlarda yaşayırlar.

***Tur Xander***

Hər bir xalq dünya sivilizasiyasına
nə qədər pay verirsə, ancaq o qədər də götürə bilər.

***Xudu Məmmədov***

Bədbəxt o millətdir ki,
tikmədiyini geyir, əkmədiyini yeyir!
Bədbəxt o millətdir ki, talançılarını qəhrəman
mərtəbəsinə yüksəldir, təkəbbürlü qəsbkarlarını
isə alicənab sayır!

***Cübran***

Dünyanı qanunsuzluqla idarə etmək olmaz.

***Cəfər Cabbarlı***

Böyük şəxsiyyətləri ancaq
böyük millətlər yetişdirə bilər.

***Əbu Turxan***

Dövlətin funksiyası pul
qazanmaq yox, pulun ədalətli bölgüsünü təmin
etməkdir. Vay o günə ki, dövlət də pul
qazanmağa aludə olsun.

***Tur Xander***

Dövləti maliyyə qıtlığı deyil,
istedadlı şəxsiyyətlərin azlığı zəif salır.

***Volter***

Dövlət xadiminin ən ali
vəzifələrindən biri xalqın maariflәndirilməsidir.

***Ruzvelt***

İnsan nə qədər savadlı
olsa, vətəninə də bir o qədər lazımlı olar.

***A.S.Qriboyedov***

Uca sarayların qapısı
heç də göründüyü kimi uca olmur. Onlardan
ancaq əyilərək keçmək mümkündür.

***Əbu Turxan***

Bir kərə yüksələn bayraq bir daha enməz.

***M.Rəsulzadə***

Bəzən bir insanı idarə etmək
bütöv bir xalqı idarə etməkdən çətin olur.

***Vovenarq***

Siyasətin ən yaxşı qaydası
həddindən çox idarə etməməkdir. Bu qayda
tərbiyəyə də aiddir.

***Jan Pol***

# *İdeya, hikmət, fəlsəfə*

İdeya ağlı artırmır, yönəldir.

***Əbu Turxan***

Ana ideya olmadıqda
ideyaların çoxluğu yoxluğundan betər olur.

***Əbu Turxan***

Həyatımız səyahət, ideya isə bələdçimizdir.

***Hüqo***

İdeya söz meşəsində az rast gəlinən ovdur.

***Hüqo***

İdeya sürtünmə nəticəsində alovlanır.

***K.Buniç***

İdeyaları yalnız
ideyalar zərərsizləşdirə bilər.

***Balzak***

İdeyalar öz ardıcıllarını
tapması müqabilində yaşayır.

***Qabriel Marsel***

Hər dövr deyə bildiyini deyir.

***Jil Delez***

İdeya zaman hüdudlarını
keçərək nə vaxtsa yeni bir iradə ilə birləşir və
keçmiş yenidən canlanır.

***Əbu Turxan***

Hər bir dövrün müvafiq
düşüncəli insanlara ehtiyacı olur.

***P.Kapitsa***

İdeya faktdan üstündür.

***Balzak***

İdeya iradə ilə birləşəndə gücə çevrilir.

***Əbu Turxan***

İdeya təkamülü olmayanda
ideya çevrilişlərinə ehtiyac yaranır və onun
da qarşısı alınanda, başsız inqilablar
– kütləvi iğtişaşlar başlayır.

***Əbu Turxan***

Yeni ideya vəhşi at kimidir;
sənə xidmət etməsi üçün gərək
əvvəlcə onu ram edəsən.

***Əbu Turxan***

Hər bir dövr yeni ideyaları
əldə etməklə yeni göz də əldə edir və insan ruhunun
qədim əsərlərində çoxlu yeni şeylər görür.

***Heyne***

İdeya heç vaxt ölmür;
ona yiyələnən hər bir yeni şəxsin simasında
o öz növbəti həyatını yaşayır.

***Əbu Turxan***

Bir ideya min bir hadisə libasında üzə çıxır.

***Əbu Turxan***

İdeyaya uyğun yaşamaq
onun uğrunda ölməkdən daha çətindir.

***A.Adler***

İdeya əbədi, iradə isə sonludur.

***Əbu Turxan***

İdeyanı yaşatmaq
onun uğrunda ölməkdən daha şərəflidir.

***Əbu Turxan***

Hər hansı yeniliyi sübuta
yetirmək çətindirsə, deməli, ona hələlik
ehtiyac yoxdur.

***Vovenarq***

Ədəbiyyatın vəzifəsi
hadisələri ideyaya çevirməkdir.

***Santayana***

Yalnız o ideyalar həqiqidir ki, daxilən yaşanıbdı.

***R.Rollan***

Düşüncələrimizə hakim olan
və əqidələrimizi tabe etdirən ideyalar elə bir
zəncirdir ki, ürəyimizi qırmadan onlardan
azad ola bilmərik.

***K.Marks***

İdeya – onu irəli sürən
adamdan daha çox, vaxtında ona yiyələnənlərə
xidmət edir.

***Əbu Turxan***

Hansısa yeni ideyanın
cücərə bilməsi üçün onu böyük ideyaların qızmar
günəşindən qorumaq lazımdır.

***Əbu Turxan***

İdeyanın öz yetkinliyi
hələ yetərli deyil; onun həyata keçməsi üçün
məqamın da yetişməsi lazımdır.

***Əbu Turxan***

Yeni doğulan ideyaların
yaşaya bilməsi üçün müsbət aura lazımdır.

***Əbu Turxan***

Böyük ideya axınları sel kimidir;
qarşısına çıxan bütün ufaq, zərif, yeni cücərən
pöhrələri yuyub aparır.

***Əbu Turxan***

Böyük kəşflər o qədər
işıqlı olur ki, yaxın ətrafdakı kiçik yeniliklər
onun kölgəsində qalır.

***Əbu Turxan***

Okeanda olduğu kimi,
hadisə və mahiyyət (ideya) dünyasında da qabarma və
çəkilmələr bir-birini növbə ilə əvəz edir.

***Tur Xander***

Dərin ideyaların şəffaflığı
özünün dərinliyi üzündən tutqunlaşan
təmiz sulara bənzəyir.

***Helvetsi***

Kəşf özü faydalı
olsa da, onun eyforiyası ziyan gətirir.

***Tur Xander***

Böyük ideyalar amansızdır.

***Anri de Monterlan***

Silahlı üsyandan
əvvəl ideyaların üsyanı baş verir.

***U.Fillips***

Qərbdə ideya binanın
ümumi strukturunu əks etdirir,
Şərqdə isə hər kərpicin öz ideyası vardır.

***Əbu Turxan***

Aforizmlər söz sədəfinə salınmış
həqiqət inciləridir.

***Əbu Turxan***

Aforizm – dəliliklə dahilik arasında
şimşək kimidir.

***Əbu Turxan***

Aforizm fikrin ən az sözlə dillənməsidir.

***Əbu Turxan***

İdeyalar kütləni ələ alanda gücə çevrilir.

***V.İ.Lenin***

Aforizmlər fikir dünyasının suvenirləridir.

***Tur Xander***

Aforizm universal həqiqətlərin
insan həyatına proyeksiyasıdır.

***Tur Xander***

Aforizmlər fəlsəfi mühakimələri
ifadə etməyin bəlkə də ən yaxşı formasıdır.

***L.N.Tolstoy***

Aforizm bir sətirlik romandır.

***Leonid Suxorukov***

Aforizm düşüncələrin cəbridir.

***Q.Aleksandrov***

Aforizm – fikrin
iki nöqtəsi arasında ən qısa məsafədir.

***Norbert Hinske***

Müdrik söz fikrin qönçəsidir.
Açılanda fəlsəfəyə çevrilir.

***Əbu Turxan***

Əgər aforizm izah
tələb edirsə, onda o, pis aforizmdir.

***Vovenarq***

Uzun yazmaq üçün – yazmağa
çox vaxt sərf edilir, qısa yazmaq üçün – düşünməyə.

***Əbu Turxan***

Qısa yazıda fikrin
variasiyaları oxucunun öz öhdəsinə buraxılır.

***Tur Xander***

Fəlsəfə heyrətdən başlayır.

***Platon***

Əlbəttə, fəlsəfə ağlın qüdrəti,
Bir də ürəklərin saf məhəbbəti!

***Səməd Vurğun***

Fəlsəfə mücərrədliyin elə yüksək səviyyəsində fikir yürüdür ki, burada canlı həyatın ürək çırpıntıları eşidilməz olur.

***Əbu Turxan***

Fəlsəfə öz dövrünün sinxron tərcüməçisi olmalıdır.

***Haydegger***

Xalqı fəlsəfəsiz qoymaq məbədi kahinsiz qoymaq kimi bir şeydir.

***Kamyu***

Fəlsəfə qütbləri ortaq məxrəcə gətirmək sənətidir.

***Əbu Turxan***

Filosofların nəzərində aləm üçdür: əqllər aləmi, nəfslər aləmi və cisimlər aləmi.

***Ş.Y. Sührəvərdi***

Tarix olanı, elm mümkün olanı,
fəlsəfə olmalı olanı öyrənir.

***Əbu Turxan***

Tarix hadisələr səviyyəsində
qərar tutur, elm hadisələrdən mahiyyətə gedir,
fəlsəfə isə mahiyyətdən başlayır.

***Əbu Turxan***

Elm insanın barışmalı
olduğu reallığı, fəlsəfə insanın yüksəlməli olduğu
idealı ifadə edir.

***Əbu Turxan***

Fəlsəfə insansızlaşmış dünya
ilə insan dünyasının əlaqəsini öyrənmək
ehtiyacından yaranmışdır.

***Əbu Turxan***

Fəlsəfədən ayrılıb çox uzaqlara
gedən elm özünü dərk etmək üçün gec-tez yenə
fəlsəfənin bətninə qayıtmağa möhtacdır.

***Əbu Turxan***

Filosofluq həyatdan sərf-nəzər
edir, müdriklik həyatla iç-içədir.

***Əbu Turxan***

Həqiqi fəlsəfi fikir heç vaxt
tarixə çevrilmir, o həmişə müasir qalır.

***Əbu Turxan***

Elm klassikləri keçmişdə qalmışdır,
fəlsəfə klassikləri isə bizim müasirlərimizdir.

***Əbu Turxan***

Filosoflar heç də həmişə
fəlsəfi yaradıcılıq məqamında olmurlar.
Lakin bircə dəfə də bu məqama yüksəlmiş adam ömrü
boyu filosof adlandırılmağa layiqdir.

***Əbu Turxan***

Böyük filosoflarla tanış olmaq
üçün keçmişə – tarixin dərinliyinə yox,
ideya dünyasının dərinliklərinə
baş vurmaq lazımdır.

***Əbu Turxan***

Atalar sözü – qədim fəlsəfənin
sağ qalmış parçasıdır.

***Aristotel***

Müxtəlif xalqların atalar sözləri
eyni bir hikmət toxumunun müxtəlif
torpaqlarda cücərməsidir.

***Əbu Turxan***

Gözəllik duyğusu ənənəvi olaraq
şairlər tərəfindən, mənəvi-əxlaqi duyğu – ruhanilər,
həqiqət duyğusu – alimlər tərəfindən
təcəssüm olunmuşdur.
Bu üçünün eyniyyətindən çıxış edənlərə isə
filosof deyilmişdir.

***Əbu Turxan***

Fəlsəfə ruhun əql məqamında açılışıdır.

***Əbu Turxan***

Alimin yaradıcılığı universal
zəkanın məhsuludur, filosofun yaradıcılığı isə onun
öz "mən"inin açılışıdır.

***Əbu Turxan***

Alimin yaradıcılığı özünü
istisna etmək, özündən uzaqlaşmaq,
filosofun yaradıcılığı – özünü təsdiq etmək,
özünə yaxınlaşmaq sayəsində mümkün olur.

***Əbu Turxan***

Fəlsəfi düşüncə "Mən"in xalis
mənəvi tərəf kimi yetişməsi, təmizlənməsi və bütün
dünyaya sığınacaq hazırlaması ilə başlanır.

***Əbu Turxan***

Elmdə biliklər "Mən"in müdaxiləsindən
qorunur, fəlsəfədə isə "Mən" özü bilik
mənbəyinə çevrilir.

***Əbu Turxan***

Duyğuların həqiqi siması
və əxlaqi-mənəvi yönü ancaq onların fəlsəfi
şərhi sayəsində açılır.

***Əbu Turxan***

Alim yaratdıqca özgələşir,
filosof – özünü tanımış olur.

***Əbu Turxan***

Tarix nasiranə,
elm soyuqqanlı, fəlsəfə poetikdir.

***Əbu Turxan***

Fəlsəfi vəcd ona görə uzun sürə
bilir ki, o, idrakla birləşir. Soyuq ağlın sərinliyi
ilham qığılcımını tez alışıb
tez sönməyə qoymur.

***Əbu Turxan***

Millətin fəlsəfi fikri onun
hər bir üzvünün fəlsəfi fikrindən toplanmayaraq,
milləti təmsil etməyə mənəvi səlahiyyəti olan,
milli ruhun daşıyıcısı olan tək-tək şəxsiyyətlərin
fəlsəfi konsepsiyalarından ibarət olur.

***Əbu Turxan***

Qədim fəlsəfələr bu gün də
elmin yoluna çıraq tutmaqda davam edir.

***Əbu Turxan***

Fəlsəfə əqlin gücü ilə
sonsuzluğu ehtiva etmək cəhdidir.

***Əbu Turxan***

Fəlsəfə uzağa getmək
istəyəndə elm qatarına əyləşir.

***Əbu Turxan***

Yaxşı filosof
düşündüklərini öncə öz həyatında yaşayır.

***Əbu Turxan***

Fəlsəfə – ruhun özünüdərkidir.

***Əbu Turxan***

Pis adamdan yaxşı alim
bəlkə də çıxar, amma yaxşı filosof çıxmaz.

***Əbu Turxan***

İnsan yaddan çıxan
yerdə fəlsəfədən danışmaq sadəlövhlükdür.

***Əbu Turxan***

Dünyanı dərk etmək üçün elm,
dünyanı duymaq üçün poeziya var. Fəlsəfə isə
duyğulu idrak və poetik səviyyəyə qalxmış elmdir.

***Əbu Turxan***

Milli ruh özünü milli fəlsəfi fikirdə tanıyır.

***Əbu Turxan***

Fəlsəfə ümumbəşəri ruhun milli ifadəsidir.

***Əbu Turxan***

Fəlsəfə – insanın dünyalaşması,
dünyanın insanilәşməsidir.

***Əbu Turxan***

Fəlsəfə kimin üçünsə dünya ilə görüş,
kimin üçün isə dünya ilə mübarizədir.

***Əbu Turxan***

Fəlsəfə dünyadan ayrılmış insanın
dünya ilə təmasıdır. Dünyadan ayrıla
bilməyənlərin fəlsəfəsi yoxdur.

***Əbu Turxan***

Fəlsəfənin məqsədi dünyanın
ahəngini duymaq, dərk etmək və bu ümumi
ahəngdən doğan həqiqət ziyası ilə hadisələr dünyasını
işıqlandırmaqdan ibarətdir.

***Əbu Turxan***

Bütün böyük sənətkarlar
həm də ona görə filosofdurlar ki, onların əsərlərində
mahiyyətlərin də təhkiyəsi var.

***Əbu Turxan***

Elm soyuq ağlın, tarix ılıq xatirələrin,
fəlsəfə yanar zəkanın məhsuludur.

***Əbu Turxan***

Fəlsəfi təfəkkür qadın və ya kişi
düşüncəsinin fövqündədir.

***Əbu Turxan***

Fəlsəfə düşüncənin zirvəsi
olduğuna görə qadın və kişi düşüncəsinə bölünmür.

***Əbu Turxan***

Fəlsəfə düşünən duyğu və qanad açan düşüncədir.

***Əbu Turxan***

Elm insanı dünya ilə vəhdətdən ayırır,
fəlsəfə itirilmiş vəhdəti bərpa edir.

***Əbu Turxan***

Fəlsəfi düşüncəni
elm və sənətdən fərqləndirən daha bir cəhət
fikrin ətaləti və ləngəridir.

***Əbu Turxan***

Alimlik səviyyəsi nə qədər
yüksək olursa olsun, bədii-estetik təfəkkürlə
birləşmədən filosofluq məqamına
çatmaq mümkün deyil.

***Əbu Turxan***

Bir sufidən Diogenə tövsiyə:
Həqiqi filosofun kənar təsirlərdən azad olmaq üçün
çəlləyə girməyə ehtiyacı yoxdur.

***Əbu Turxan***

Fəlsəfənin əli göylərdə, ayağı yerdə olmalıdır.

***Əbu Turxan***

Əgər geniş kütlə
fəlsəfi ideyaları mənimsəyə bilmirsə,
filosoflar kütlənin içinə getməyi və publisistik
üslubda yazmağı öyrənməlidirlər.

***Tur Xander***

Böyük fəlsəfə dünyası
elm məbədinə yerləşsəydi, alimlər filosoflara
yanlarında yer vermək üçün məmnuniyyətlə onun
qanadlarını kəsərdilər.

***Əbu Turxan***

Həqiqi jurnalist fəlsəfi fikirlə
kütləvi şüur arasında vasitəçi kimi
çıxış etməyi bacarmalıdır.

***Tur Xander***

Əbədi suallara adətən müvəqqəti cavablar verilir.

***Leşek Kumor***

Keçmiş nəsillər bizim üçün
sualların hazır həllini deyil, özünü qoyub gediblər.

***Seneka***

Ölüm olmasaydı,
insanlar çətin ki filosofluq edərdilər.

***Şopenhauer***

Fikirləşmək filosofun duasıdır.

***Əmin ər-Reyhani***

Fəlsəfə ilə xeyirxahlıq
bir-biri ilə ayrılmaz surətdə bağlıdır.

***Seneka***

Fəlsəfi təlimlərin dəyəri
filosofların dəyəri qədərdir. İnsan nə qədər
kamil olsa, onun fəlsəfəsində həqiqət də
bir o qədər çox olar.

***Kamyu***

Fikirləşmək faydalı hərəkət
doğurur, ağlı aydınlaşdırır və nəfsi təmizləyir.

***Əmin ər-Reyhani***

Təxəyyül! Bunsuz nə şair, nə filosof,
nə aqil insan, nə düşünən varlıq, nə də sadəcə
insan olmaq mümkün deyil.

***Didro***

Həyat onun qəlbini oxumağı
bacaran müğənni tapa bilməyəndə, onun
dərrakəsi ilə danışan filosof yaradır.

***Cübran***

Filosofun ruhu onun düşüncələrindədir,
şairin ruhu – ürəyində!...

***Cübran***

Fəlsəfə dünyaya yol göstərə bilməz.
O bunu etmək istədikdə gerçəklikdə proses
artıq başa çatmış olur.

***Hegel*.**

# *Ziyalılıq, müdriklik, dahilik*

Müdriklik sağlam
düşüncə çərçivəsində fəlsəfədir.

***Əbu Turxan***

Müdriklik *həyat elminin* mənimsənilməsidir.

***Əbu Turxan***

İldırım dağların başında çatlayır.

***Horatsi***

Müəyyən qədər dəliliyi
olmayan dahi dünyaya hələ gəlməmişdir.

***Seneka***

Bütün dahilər bir az dəlidir.

***Aristotel***

Hər dəliliyin öz məntiqi olur.

***Şekspir***

Dahinin hər yaratdığında
biz özümüzün gerçəkləşə bilməmiş
fikirlərimizi görürük.

***Emerson***

Uşaqla uşaqdır, böyüklə böyük.

***Atalar sözü***

Balıq olmayan yerdə xərçəng də balıqdır.

***Atalar sözü***

Böyük şəxsiyyətlər tarixin
sütunlarıdır. Onlar nə qədər möhkəm olsa, cəmiyyətin
inkişafı da bir o qədər dayanıqlı olar.

***Əbu Turxan***

Tarixdə iz qoymaq da
hər adama müyəssər olmur, tarixə imza atmaq
isə ancaq dahilərə nəsib olur.

***Əbu Turxan***

Tarix üçün yaşamaq bir şeydir,
əbədiyyət üçün yaşamaq başqa bir şey.

***M. Unamuno***

Gələcək fövqəlinsanların
xəyallarının gerçəkləşdirilməsi yolu ilə qurulur.

***Əbu Turxan***

Həyatın dibindən ideya səmasına
yüksəlmək üçün yetərli ruhani enerji olmalıdır.

***Əbu Turxan***

Başqalarına işıq saçmaq
üçün özündə günəş olmalıdır.

***R.Rollan***

İstək ilə nəticə arasında keçilməz
bir uçurum var ki, onu ancaq qüvvətli
simalar keçə bilirlər.

***Cəfər Cabbarlı***

Mənəvi güc özünü yaradıcılıqda
və xilaskarlıq missiyasında biruzə verir.

***Əbu Turxan***

Böyük yaradıcılıq potensialı olan
şəxslər öz mənəvi-intellektual enerjisini şüalandıra
bilməsələr, dəli olarlar.

***Tur Xander***

Dünyaya qatılanların həzzi
və qəzəbi, dünyanın fövqünə qalxanların
eşqi və kədəri olur.

***Əbu Turxan***

Dəlilər iki cür olur:
ağlın çatışmazlığından və ağlın artıqlığından.
Ağlın artıq hissəsi transfer edilə biləndə
– dahilik yaranır.

***Tur Xander***

Hər insanın öz dəyəri var,
amma dəyərsiz insanlar da var – bunlar
dahilər və səfillərdir.

***Krışka Frantişek***

Dağlar zirvədə tənha olsalar da, təməlləri birdir.

***Əbu Turxan***

Dahi insanlar yüksəklərdə
uçurlar və qartallar kimi əlyetməz ucalıqda
yuva qurub tənha yaşayırlar.

***Şopenhauer***

Yüksək təpələrdə
həm ilana, həm də quşa rast gələ bilərsiniz;
biri sürünərək, o biri isə uçaraq yüksəlmişdir.

***Cənab Şəhabəddin***

Böyük işlər görmək üçün
dahi olmaq, insanlardan yüksəkdə durmaq şərt
deyil; bunu onlarla bir yerdə də etmək olar.

***Monteskyö***

Uca dağların yamacları
da təpələrin zirvəsindən yüksəkdə durur.

***Əbu Turxan***

Daim yüksəlmək olmaz;
ən böyük məharət öz maksimal imkanına uyğun
məqama çatanda dayana bilməkdir.

***Əbu Turxan***

Dərində üzməyi bacaranlar
üçün dayazda üzmək darıxdırıcı olur.

***Əbu Turxan***

Qütblər zirvədə birləşir.

***Əbu Turxan***

Bütün dahilər bir-birinə doğmadırlar.

***Əbu Turxan***

Zirvədən o yana ancaq eniş var.

***Əbu Turxan***

Zirvəyə gedən yol
insan qəlbinin dərinliyindən keçir.

***Əbu Turxan***

Dahi şəxslər mühitini öz qəlbində gəzdirir.

***Əbu Turxan***

Zirvə zahirdə yox, batindədir.

***Əbu Turxan***

Mənim üçün böyük insan
öz beyni ilə ürəyi arasında rabitə yaradan insandır.

***Napoleon***

Dahilik fikrin
müəyyən səmtdə davamlılığıdır.

***Nyuton***

Əgər mən uzağı görə
bilmişəmsə, ancaq ona görə ki, dahilərin
çiynində dayanmışam.

***Nyuton***

Bütün sular ləpələnə bilər,
dalğa isə ancaq dəryada olur.

***Əbu Turxan***

Ziyalısız kütlə kordur.

***Əbu Turxan***

Ziyalı öz zəmanəsindən yüksəkdə durmalıdır.

***Əbu Turxan***

Hansısa bir əsəri ilə
zirvəni fəth edənlər sonra bütün əsərlərini
zirvəyə daşımağa çalışırlar.

***Əbu Turxan***

Qaydaların fövqünə qalxmaq
mümkün olmasaydı, dahilər və qəhrəmanlar
yetişə bilməzdi.

***Əbu Turxan***

Tək-tək insanların şablonları
aşıb keçməsi üçün təbiət özü də ara-sıra
istisnalar etməlidir.

***Tur Xander***

Zəmanə özündən müştəbeh olanda,
dahilərə dözə bilmir.

***Əbu Turxan***

Hər şeyin sistemə salındığı
və normativləşdirildiyi bir dövrdə dahilərə
yer nəzərdə tutulmayıb.

***Tur Xander***

Dahiliyin imitasiyası üçün də istedad lazımdır.

***Tur Xander***

Əgər hansı isə ölkədə
dahilik də imitasiya oluna bilirsə, deməli,
əsl dahilərə doğrudan da yer yoxdur.

***Tur Xander***

Həmişə orijinal olmaq istəyən
insan nadir hallarda sağlam bir fikir söyləyə bilir.

***Vovenarq***

Dahilərin uşaqlarında təbiət istirahət edir.

***El hikməti***

Qəhrəmanlar gedəndə səhnəyə təlxəklər çıxır.

***Heyne***

Elə xalqlar var ki,
müdrik adamlarını ancaq dəli
qismində yaşada bilir.

***Əbu Turxan***

Miskinlər öz həndəvərində
hansısa bir dahinin mövcudluğuna dözə bilmirlər.

***Əbu Turxan***

Adətən adamlar özündə
olanı başqasına bağışlayır; müdriklər isə səndə
olanı sənə ərməğan edir.

***Əbu Turxan***

Batan günəşin kölgəsində
ölçülərinə görə özünü böyük zənn etmə.

***Pifaqor***

Sənin şöhrətin sənin kölgən
kimidir – o gah səndən qabaqda, gah arxada gedir;
bəzən səndən böyük, bəzən kiçik olur.

***Hippel***

Çoxlarına şöhrəti düşmənləri gətirmişdir.

***Qrasian***

Təkəbbür istedad ağacında bitən göbələk kimidir.

***Əbu Turxan***

İnsan haqqında onun istedadına
görə yox, bu istedaddan necə faydalandığına görə
mühakimə yürütmək olar.

***Dekart***

Qeyri-adi istedadın qeyri-adi
zövqü olur. Bir müəllif digərini heç də həmişə
paxıllıqdan kiçiltmir.

***Vovenarq***

İstedadsız adam üçün dahinin
də ölməz olmaması ən böyük təskinlikdir.

***Göte***

İstedadlı adamlar hamısı
böyük iş görə bilərlər. Dahilik isə bu işlərin
yönəldilməsində üzə çıxır.

***Əbu Turxan***

Dahilik elə işlər görməkdir ki,
onları başqalarından öyrənmək və başqalarına
öyrətmək mümkün deyil.

***Kant***

Təbii istedad həmişə yaşıl qalar,
əgər öz içində yetişən təkəbbür onu qurutmasa.

***Əbu Turxan***

Şairlər və qəhrəmanlar arasındakı
fərq ideya və əməl arasındakı fərq kimidir.
Qəhrəmanlar şairlərin fəhm etdiklərini
həyata keçirirlər.

***Lamartin***

Təkmilləşmə yolları düzəldir;
əyri-üyrü yollar isə dahilər üçündür.

***Bleyk***

İstedadlı adam qoyulmuş məsələni
hamıdan yaxşı həll edəndir, dahi isə başqalarının heç
ağlına da gəlməyən məsələlər qoyur.

***Şopenhauer***

Yüksək yerlər yüksək insanları
daha da yüksək, alçaq insanları isə
daha da alçaq edir.

***Labryuer***

Axmaq yüksək vəzifədə
olanda hamı onu dahi zənn edir.

***Helvetsi***

Məmurun boyu
oturduğu kürsünün dərəcəsi ilə ölçülür.

***Əbu Turxan***

Vəzifə kiçikləri "böyüdür", böyükləri kiçildir.

***Əbu Turxan***

Kiminsə əllərində qalxmaq
hələ yüksəlmək deyil; əsl yüksəliş ayağı yerdən
üzülmədən yüksəlməkdir.

***Əbu Turxan***

Şöhrət dalğaları
yüngül adamları tez yerindən oynadır.

***Əbu Turxan***

Şöhrət küləyə bənzər;
hər zaman eyni istiqamətdə əsməz.

***Dante***

Əgər kimsə bütləşdirilirsə
və göylərə qaldırılırsa, onda digər adamlar
arasında fərq itir, çünki yeganə meyar həmin
bütə pərəstiş dərəcəsi olur.

***Kant***

İstedad da, şöhrət də
inkişaf üçün hərəkətverici qüvvədir;
sadəcə istedad insanı öz istədiyi səmtə aparır,
şöhrətin isə hara aparacağı bəlli olmur.

***Əbu Turxan***

Şöhrətpərəstlik verib istedad bəxş
etməmək taleyin insana etdiyi ən böyük pislikdir.

***Vovenarq***

Çox vaxt məşhur adamların
özünə yox, şöhrətinə pərəstiş edirlər.

***Əbu Turxan***

Şöhrət qabağa keçəndə
gerçək inkişafın qarşısını kəsir.

***Tur Xander***

Şöhrət çox ağır yükdür
və böyük insanlar bəzən bu yükə
tab gətirməyib sınırlar.

***Volter***

Yuxarı qalxanda dayana bilərsən,
amma düşəndə – yox.

***Napoleon***

Bəzi adamlar məşhurdurlar,
bəzi adamlar isə məşhur olmağa layiqdirlər.

***Lessinq***

Hər bir başçı qəlbinin
dərinliyində qürurla yanaşı, həm də bir
yetimlik duyğusu yaşayır: hamıya böyüklük etsə də,
özü böyüksüz qalır.

***Əbu Turxan***

Başqasının yarım-yarımçıq
təlimlərini öyrənməkdənsə, onları yenidən
yaratmaq daha rahatdır.

***Əbu Turxan***

Adi adamlardan uca duran şəxs
həmişə yalqızdır.

***L.N.Tolstoy***

Kütləni heyran etmək üçün
onu həmişə müəyyən məsafədə saxlamaq lazımdır.

***Q.Lebon***

Dahilər heç bir işi yarımçıq görmürlər.

***Viland***

Böyük insanlar həyatın mənasını
özündə, kiçik insanlar isə özgələrində axtarır.

***Konfutsi***

Kiçik işlər üçün kiçik adamlar var.

***Əbu Turxan***

Dahilərin şəxsi həyatını
onların ucaltdığı böyük abidələrin arakəsmələrində
axtarmaq lazımdır.

***Əbu Turxan***

Böyük şəxsiyyətlərin
xoşbəxtliyi adi, faciəsi böyük olur.

***Əbu Turxan***

Böyük insanın faciəsinin səbəbi
onun yaşadığı mühitin qəliblərinə sığmamasındadır.
Əslində bu, ictimai mühitin, cəmiyyətin
faciəsidir. Amma bu faciəni ancaq
duya bilənlər yaşayırlar.

***Əbu Turxan***

Böyük ruhlar
iztirablarına səssiz şəkildə dözürlər.

***Şiller***

Yenilik üzə çıxdıqdan
sonra onu yaradana ehtiyac qalmır.

***Əbu Turxan***

Bəşəriyyət üçün dahi olan
insan da öz ailəsinin adi üzvü
olmağı bacarmalıdır.

***Əbu Turxan***

Dahilərin bioqrafiyası qısa olur;
çünki onların bütün həyatı yaradıcılığındadır.

***Emerson***

Böyük adamların ömrü
onların ideyalarının ömrü ilə ölçülür.

***Əbu Turxan***

Taleyini millətin taleyi ilə bağlayan
insanların ömrü də millətin ömrü qədər olur.

***Əbu Turxan***

Dahi xırda işlərdə də dahi,
axmaq isə böyük işlərdə də kiçikdir.

***Buast***

Böyük adamlar kiçik
işlərdə çox vaxt səriştəsiz olurlar.

***Əbu Turxan***

Ən ali hikmət – özünü tanımaqdır.

***Qaliley***

İnsanlar bəzən öz peşələrində dahi,
adi işlərdə isə cahil olurlar.

***F.Araqo***

Axmaqlıq kiçiklik deyil;
axmağın da böyüyü-kiçiyi olur.

***Əbu Turxan***

Müdriklik ali məqsədi
cari məqsədlərdən fərqləndirmək qabiliyyətidir.

***Əbu Turxan***

Müdriklik öz maraqlarını
qarşı tərəfin maraqları üzərində qurmaqdır.

***Əbu Turxan***

Müdriklik çətin olanla
qeyri-mümkün olanı fərqləndirmək qabiliyyətidir.

***Napoleon***

Müdriklik insanın özünə
kənardan baxa bilmək qabiliyyətidir.

***Əbu Turxan***

Müdriklik həlledici məsələlərdə
israrlı ola bilmək üçün kiçik məsələlərdə
geri çəkilmək qabiliyyətidir.

***Əbu Turxan***

Hər gün yeni bir inci
tapmağın yolu öz içindəki hikmət
xəzinəsinə baş vurmaqdır.

***Əbu Turxan***

Axına düşənlər başqa yolların
mümkünlüyünü heç ağlına da gətirmir.
Müdrik adam isə fərqli yolları görür
və özü seçim edir.

***Əbu Turxan***

Müdrikliyin həddi var, axmaqlıq isə hüdudsuzdur.

***Y.Raynis***

Böyük maneəyə rast gələndə
necə olursa-olsun onu dəf etmək əzmi dahilikdən deyil,
tərslikdən xəbər verir.

***Əbu Turxan***

Ən müdrik adamın da
nəyi isə öyrənməyə ehtiyacı var.

***Santayana***

Müdriklik təcrübənin qızıdır.

***Leonardo da Vinçi***

Sadəlik, yaxşılıq və dürüstlük
olmayan yerdə böyüklük yoxdur.

***L.N.Tolstoy***

Yalnız böyük insanların böyük qüsurları ola bilər.

***Laroşfuko***

Hər bir uşaq müəyyən mənada
dahidir və hər bir dahi müəyyən qədər uşaqdır.

***Şopenhauer***

Böyük insanlar çox vaxt
böyük əməllərinə görə deyil, buraxdıqları
səhvlərə görə xatırlanırlar.

***Volter***

Qabiliyyətli adam işləyir, dahi yaradır.

***R.Şuman***

Müxtəlif müdriklərin
eyni mövzuda söylədiyi fikirləri bir araya gətirəndə
həmin mövzunun bütöv mənzərəsi yaranır.

***Əbu Turxan***

Dahi insanların dili
təbiətin özünün dili qədər sadədir.

***Vovenarq***

Aktyorlar az təriflənməkdən,
əsl insanlar – az sevilməkdən məhv olurlar.

***Nitsşe***

Məşhur adam olmaq xoşbəxtlik,
faydalı adam olmaq isə insanlıq borcudur.

***Hüqo***

Həmişə qəhrəman ola bilməzsən,
amma həmişə insan olaraq qalmaq olar.

***Göte***

Hikmətin açarı kitab
səhifələrində deyil. Kim hansı isə bir fikirdən
həyatın sirlərinə doğru gedirsə, öz qəlbində
onların çeşməsini tapır.

***Göte***

Dünya binasını qoyandan bəri,
De, hansı dahinin xəyal şəhpəri
Ucala bilmişdir barı bir kərə
Ana qəlbindəki sonsuz göylərə?

***Səməd Vurğun***

Müdriklik çox olan yerdə kədər də çox olur.

***Süleyman peyğəmbər***

Ən nadir mərdlik – fikir mərdliyidir.

***A.Frans***

Zəka hissləri maarifləndirir.

***R.Rollan***

Çoxbilmişlik nadanlığın ən pis növüdür.

***Lixtenberq***

Müdriklik kitab oxumaqla deyil,
insanı oxumaqla əldə edilir.

***Hobbs***

Dahilər öz kəşfləri ilə fikir qəliblərini dağıdır,
alimlər onlara yeni qəlib düzəldirlər.

***Əbu Turxan***

# *Zəka, ağıl, hiss*

*Hiss və ağıl həyat gəmisinin*
*yelkəni və sükanı kimidir; biri hərəkətə gətirir,*
*o biri istiqamətləndirir.*

***Cübran***

Qəlb kor olduqdan sonra
gözün görməsindən nə fayda?!

***Hz. Əli***

Ağıl olan yerdə zora ehtiyac yoxdur.

***Heydər Əliyev***

Ağıl çatışmayan yerdə heç nə çatışmır.

***Qalifaks***

Əqli dərk hissi dərkdən
daha güclüdür, çünki hisslər şeylərin ancaq
xarici ölçülərini, əql isə həm xarici, həm də
daxili ölçülərini əks etdirir.

***Ş.Y.Sührəvərdi***

İnsanın başı qatışıq bir aləmdir.
Hansı hissənin işıqlanması işığın hansı tərəfdən düşməsindən asılıdır.

***Əbu Turxan***

Ağıl gücə çevrilər, güc ağıla çevrilə bilməz.

***Əbu Turxan***

Ağıl iki cürdür:
biri sonradan qazanılan ağıl, biri isə fitrətdən gələn ağıl.

***Əbu Turxan***

Ağıl başda olanda bədən də özünü ağıllı aparır.

***Əbu Turxan***

Ağıl zorun qarşısını kəsmək üçün yox,
onun bilmədiyi yolla getmək üçündür.

***Əbu Turxan***

Ağıl artdıqca instinkt zəifləyir.

***Əbu Turxan***

Ağlı olanın yolu güclü olanın
yolu ilə kəsişmir, çünki o həmişə fərqli
yollar seçə bilir.

***Əbu Turxan***

Yaxşı ağıl hələ azdır,
əsas məsələ onu yaxşı tətbiq etməkdədir.

***Dekart***

Ağıllı adam öz ağlından,
daha ağıllı adam isə başqalarının
ağlından yararlanırlar.

***B.Şou***

Ağıla nə işlə məşğul olacağını
könül öyrədir. Könül kamilləşməsə,
ağıl şər işlərlə məşğul olar.

***Oqtay Sinanoğlu***

Gün işığı yarasanın
gözünü qamaşdırdığı kimi, açıq-aşkar
həqiqətlər də ağılı pərdələyir.

***Aristotel***

Uşaqlarınıza ən dəyərli töhfəniz
ağıldır, qalanını özləri də əldə eləyə bilərlər.

***Kant***

Ağıl dişi hamıda çıxır,
amma ağıl gözü hamıda açılmır.

***Əbu Turxan***

Ağıl alovlanmağa başlayanda könül olur.

***Məhəmməd İqbal***

Sən ağıl tüfəngini
doldur, çaxmaq özü işə düşəcək.

***Əmin ər-Reyhani***

Ehtirasın hakimiyyəti zəiflədikcə,
əqlin meydanı genişlənir.

***Əbu Turxan***

Hiss – aşkarlanmamış fikirdir.
Fikir sıxlaşaraq forma almış hissdir.

***Əbu Turxan***

Bəd fikir hələ hissə
çevrilməmiş və bədənə hakim kəsilməmiş, hələ
fikir halında qarşısı alınmalıdır.

***Əbu Turxan***

Fikirlərə hakim olan mala-mülkə də hakimdir,
çünki hamını o idarə edir.

***Əbu Turxan***

Nə haqda fikirləşməkdə
diqqətli olun; bu günün düşüncələri şüuraltına
keçir və sabahkı həyata yön verir.

***Əbu Turxan***

Düşüncəni parlaq və cazibədar
formaya salmaq onu kiçildir.

***Cəmil Meriç***

Fikir ümmün kimidir;
bir fikrin sahilinə çatmamış,
başqa bir fikrin dalğasında yeni səyahət başlanır.

***Əbu Turxan***

Düşüncə təzadları ilə bütündür.

***Cəmil Meriç***

Qəlblərə hakim olanın
mala-mülkə zatən ehtiyacı yoxdur.

***Əbu Turxan***

Cismani həyatın dalğalarında
feyz alan fikir dəryasına baş vurunca qərq olar.

***Əbu Turxan***

Çiy fikir söyləmək çılpaq gəzmək kimi bir şeydir.

***Əbu Turxan***

Fikir nə qədər sadə olsa,
o qədər yaxşıdır, artıq bəzək-düzək onu ağırlaşdırır.

***Əbu Turxan***

Zəkaya qanad yox, qurğuşun
bağlamaq lazımdır ki, onun sıçrayış və uçuşunun
qarşısını almaq mümkün olsun.

***F.Bekon***

Fikir üçün libas auditoriyaya uyğun seçilməlidir.

***Tur Xander***

Çılpaq fikir darıxdırıcı, çılpaq duyğu utandırıcıdır.

***Əbu Turxan***

Fikirlər də bəzən meyvə
kimi ağacdan yetişməmiş tökülür.

***Vitqenşteyn***

Vaxtından əvvəl ağacdan
qoparılmış meyvə nə qədər saxlasan da yetişməz.

***Mövlana***

Duyğu əqlin, əql ruhun əsiridir.
Ruh əqlin əlini açınca, əvvəl sənə hakim olan
duyğu sənin tabeçiliyinə keçər.

***Mövlana***

Təfəkkür öz qanunlarını
təbiətdən almır, onları təbiətə şamil edir.

***Kant***

Fikir də ancaq münbit mühitdə cücərir.

***Əbu Turxan***

Duyğu ruha ağıldan tez yol tapır.

***Mövlana***

Ruhun ruhla təmasa ehtiyacı var.

***Əbu Turxan***

Fikirləri yox, fikirləşməyi öyrənmək lazımdır.

***Kant***

Düşünmək – öz-özünlə
danışmaq, özün-özünü eşitmək deməkdir...

***Kant***

Gerçək olan hər şey ağlabatandır,
ağlabatan hər şey gerçəkdir.

***Hegel***

Ağıla fikir gələr, başa hadisə.

***Əbu Turxan***

Fikir yalnız özünü doğuranda
özünü tapır. Və yalnız özünü tapanda
mövcuddur və gerçəkdir.

***Hegel***

Zəka insana onun əsl
təyinatını, həyatının mənasını açır.

***Hegel***

"Ağlabatan hər şey gerçəkdir" fikri
– qadın düşüncəsini,
"gerçək olan hər şey ağlabatandır" fikri
– kişi düşüncəsini əks etdirir.

***Tur Xander***

Fikir hələ fikir səviyyəsinə
çatana qədər hiss halında olur.

***K.S.Stanislavski***

Təəssüf ki, fikrin ən qanadlı
məqamı ilə ən ləngərli məqamı ömrün müxtəlif
dövrlərinə təsadüf edir.

***Əbu Turxan***

Bariz şəkildə üzə çıxan
çılpaq fikir emosional yaşantının ahəngini pozur.

***Əbu Turxan***

Ağıla gələn başa gələr.

***Atalar sözü***

Fikir dünyasının
öz ahəngi, öz ritmi, öz melodiyası var.

***Əbu Turxan***

Fikrin məntiqi ilə həyatın
məntiqi heç də həmişə üst-üstə düşmür.

***Əbu Turxan***

Fikrin haradadırsa, özün də oradasan.

***Əbu Turxan***

Göz üçün işıqlı və qaranlıq sahələr
olduğu kimi, zəka üçün də işıqlı və
qaranlıq sahələr vardır.

***Əbu Turxan***

Duyğu uzaq məsafələrə
ancaq fikrin qanadlarında gedə bilir.

***Əbu Turxan***

Ən müxtəlif fikirlər halqalar
kimi bir-birinə calanır və tamlıq yaradır:
bir də görürsən, biz özümüz də özümüz yaratdığımız
bu dünyaya düşmüş oluruq.

***Emerson***

Zəka o zaman bizi idarə edir ki,
faktı düşüncələrimizin predmetinə çeviririk.

***Emerson***

Könülün hökmü altında olan
ağıl – ilahi; hökmü altında olmayan
ağıl isə – şeytanidir.

***Məhəmməd İqbal***

Düşündüyünü həmişə deməyə
borclu deyilsən, ancaq borcundur ki, dediyini
hər vaxt düşünəsən.

***Monten***

Əqlin səsi gur deyil,
ancaq inadkardır və eşidilməyənəcən də susmaz.

***Freyd***

Tənbəlliyin ən çox yayılmış növü fikir tənbəlliyidir.

***Əbu Turxan***

Düşüncə də məşq tələb edir.
Düşünməyə-düşünməyə insan düşüncəsizləşir.

***Əbu Turxan***

Fikri söyləyərkən adamların
xoşuna gəlib-gəlməyəcəyini düşünməyin.

***Cəmil Meriç***

Düşünməmək üçün o qədər şeylər düşünülüb ki...

***K.Çapek***

Məftunluq ürəyin yerində
olduğuna, məftunluqdan xilas ola bilməmək əqlin
yerində olmadığına dəlalət edir.

***Əbu Turxan***

Hafizə yeganə meyar
olanda təxəyyül heçə endirilmiş olur.

***Tur Xander***

Beynimiz qəbul eləyə bilsin
deyə gərək əvvəl ürəyimizlə inanaq.

***U.Ceyms***

Ən geniş yayılmış inam – əqlə inamdır.

***Əbu Turxan***

Qəlbi nurlandıran
sevgi, beyni nurlandıran sezgidir.

***Əbu Turxan***

Bizə könlümüz ağlımızdan daha yaxındır.

***Göte***

Şərqdə ağıl da hiss kimi
ancaq yaxın məsafəni qət edir; uzağa
getməyə nəfəsi çatmır.

***Əbu Turxan***

Şərqdə ayrılıqda ağıl da var,
hövsələ də, amma ağlın hövsələsi yoxdur.

***Əbu Turxan***

Ağıl ürəyin kölgəsidir.

***Eynəlqüzat Miyanəci***

Ağıl da, qəlb də eşq atəşinin qığılcımlarıdır.

***Məhəmməd İqbal***

Ancaq hadisələrin dinamikası
azalanda düşüncələr dərinə getməyə macal tapır.

***Əbu Turxan***

Viruslardan daha qorxulusu
immunitetin yoxluğudur.

***Tur Xander***

Hikmət sirdaş olub qala biləydi,
Zəngli saat kimi çala biləydi,
Gen gündə Gün kimi aydın olanı
Məqamda yadıma sala biləydi.

***Əbu Turxan***

Vəcd şimşək kimidir.
Ani olaraq bütün qaranlıqları yox edir.

***Əbu Turxan***

Özünü tapmaq üçün
əvvəlcə özünü itirmək lazımdır.

***Əbu Turxan***

Bəsirət gözü ariflərlə ünsiyyətdə açılır.

***Əbu Turxan***

Dənizdən də böyük olub onu
ehtiva etmək, onu içinə almaq, içində əritmək,
o tayı görmək istəyi – bir cür duyğudur,
dənizdə ərimək, itmək, onun damlası olmaq
istəyi – başqa cür duyğudur.
Hərəsinin öz gözəlliyi var.

***Əbu Turxan***

Cəsur fikirlər ön
cəbhədəki piyadalar kimidir, onlar ölür, amma
qələbəni təmin edirlər.

***Göte***

Zamanı çatan bir fikrin
gücünə heç ordu da tab gətirə bilməz.

***Hüqo***

İstəklərimizi vaciblik
dərəcəsinə görə yerləşdirən ürək, onlara
rəhbərlik edən isə ağıldır.

***Vovenarq***

Fikir nə qədər dəyərlidirsə,
onu gerçəkləşdirmək də bir o qədər çətindir.

***Balasaqunlu Yusif***

Mənim fikir dünyam
genişdir, arzularım isə daha genişdir.

***Əmin ər-Reyhani***

Fikrin əsl müəllifi onu
ilk dəfə deyən yox, onu ən gözəl deyəndir.

***Əbu Turxan***

Şamını gündüz yandıran gecə qaranlıqda qalar.

***Sədi Şirazi***

İnsan fikrin gücü ilə təbiət
qüvvələrinə qalib gələ bilər və fikrin gücündən də üstün
bir gücü – sevginin gücünü tapa bilər.

***Əmin ər-Reyhani***

Bir yerə girməzdən
əvvəl oradan necə çıxacağını düşün.

***Sədi Şirazi***

Qaranlığı günahlandırmaqdansa, bir şam yandır.

***Konfutsi***

Fikir – uzun gecənin
qaranlığında ani bir parıltıdır. Amma
bu parıltı hər şeydir.

***Puankare***

Həyat məbədinin bünövrəsi
və sütunları ağıldan tikilməlidir ki, möhkəm olsun.
Arakəsmələr isə hisslərin öhdəsinə buraxıla bilər ki,
rahat nəfəs almaq mümkün olsun.

***Əbu Turxan***

Ağlın qələbəsi – hissin,
hissin qələbəsi – ağlın məğlubiyyətidir.

***Əbu Turxan***

İnsan cismən bir,
fikrən başqa zaman və məkanda ola bilər.

***Əbu Turxan***

Açıq şey gözün, örtülü şey fikrin diqqətini çəkir.

***Əbu Turxan***

Şərqdə "ürəkdən yanmaq",
Qərbdə "ürəkdən düşünmək" ənənəsi var.

***Əbu Turxan***

Hər dəfə fikirləşmək
üçün daxili yüksəliş keçirmək zərurəti geniş kütləni
fikir tənbəlliyinə sürükləyir.

***Əbu Turxan***

Məntiq duyğularım sərhədidir.

***Əbu Turxan***

İki fərqli iradə növü var:
xarici iradə – əməli, daxili iradə isə – düşüncəni
hərəkətə gətirir. Amma onlar nadir hallarda
bir yerdə (eyni adamda) olurlar.

***Əbu Turxan***

Fikir məntiq qəlibindən
çıxıb azad nəfəs alanda duyğulanır və bir düşüncə
hadisəsindən bir könül hadisəsinə çevrilir.

***Əbu Turxan***

Sonsuzluğu, əbədiyyəti məntiqlə
dərk etmək mümkün olmadığı kimi, duyğu ilə də
ehtiva etmək mümkün deyil.

***Əbu Turxan***

Yuxuda hisslər daha canlı olur,
çünki cismani yükdən azaddır.

***Əbu Turxan***

Əqlin qüdrəti fikrin müəyyən
istiqamətdə sürəkliliyində özünü göstərir.

***Nyuton***

Fikir cəmiyyətə çıxan kimi
sahibini unudur: kim onu daha yaxşı mənimsəyərsə,
– onun olur.

***Əbu Turxan***

Sahibsiz fikrə sahib çıxan çox olur.

***Əbu Turxan***

Şüur ruhun bu dünya ilə bağlantısıdır.

***Əbu Turxan***

İdrakı rəmz edib bir gül sandılar,
Aqil olanları bülbül sandılar,
Vaxt keçdi, rəmz itdi, sonra gələnlər,
Təkcə bülbül ilə gülü andılar.

***Əbu Turxan***

Fikir cövhərini odda yapmasan,
Soyuq düşüncədən şəfqət sönəcək.
Sevgi atəşinə hikmət qatmasan,
Kərəmlər yanaraq külə dönəcək.

***Əbu Turxan***

Sümük, ət və qan ancaq
fövqəladə duyğular onları hərəkətə gətirəndə
fövqəladə qəhrəmanlıq göstərə bilir.

***Nüaymə***

Qüvvət üstündə varsa əqli-səlim
Sana həp kainat olur təslim!

***Cavid***

Olmazmı qılıncda ağıl tədbiri
Ağılda bir qılınc kəsəri ola?

***Səməd Vurğun***

Dolu başa nəyi isə danışmağın
xeyri yoxdur; o daha heç kimi dinləməyəcəkdir.

***Əbu Turxan***

Hamı eyni cür düşünürsə,
deməli, ümumiyyətlə düşünmürlər.

***Norbert Hinske***

Çox şeyi demək istəyən
öz fikirlərini qısa ifadə etməlidir.

***Norbert Hinske***

Dəli quyuya bir daş atdı,
min ağıllı yığıldı, onu çıxara bilmədi.

***Atalar sözü***

Geyimə görə qarşılayar, ağıla görə yola salarlar.

***Atalar sözü***

Ağılsız başın əziyyətini ayaq çəkər.

***Atalar sözü***

Abrını alıb, dirilik suyu versələr,
ağıllı adam onu almaz, çünki zillətlə yaşamaqdansa,
izzətlə ölmək yaxşıdır.

***Atalar sözü***

Ağıllı bildiyinin hamısını danışmağa
çalışmır, ağılsız isə bilmədiklərini də danışır.

***El hikməti***

# *Dil, nitq, söz*

*...Gözəl söz kökü yerdə möhkəm olub*
*budaqları göyə ucalan gözəl bir ağac kimidir...*
***Quran 14/24***

İnsan öz dilinin altında gizlənmişdir.

***Hz. Əli***

Dil insanı dəyərləndirmək üçün vasitədir.

***Hz. Əli***

Danış ki, səni görüm.

***Sokrat***

Birinə elə bir söz söylə ki,
ya yaşat, ya da öldür; amma əsla yaralı buraxma.

***Şəms Təbrizi***

Öz ana dilini bilməyənlər şikəst adamlardır!

***Heydər Əliyev***

Hər bir xalqın milliliyini,
mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən
onun dilidir.

***Heydər Əliyev***

Hər bir xalq öz dili ilə yaranır.
Ancaq xalqın dilini yaşatmaq, inkişaf etdirmək
və dünya mədəniyyəti səviyyəsinə qaldırmaq
xalqın qabaqcıl adamlarının, elm, bilik
xadimlərinin fəaliyyəti nəticəsində
mümkün olur.

***Heydər Əliyev***

İnsan dünyası üç təməl
üzərində qərar tutur: söz, zəka və əməl.

***Əbu Turxan***

Dil mədəniyyətlə birgə boy atır.

***A.N.Tolstoy***

Bir millətin lisanı
mövcudiyyətinin ən parlaq bürhanıdır.

***Cavid***

İnsanlar danışmağı öyrənirlər,
halbuki əsas elm nə vaxt və necə susmaq elmidir.

***L.N.Tolstoy***

Poeziya qafiyəyə, ahəngə, ritmə
salınmış sözlərdən daha çox, sözlərlə ifadə
olunmuş ritm və ya ahəngdir. Hətta belə demək
mümkündürsə, sözlərlə çəkilmiş tablo və ya
sözlərlə ritmlənmiş musiqidir.

***Əbu Turxan***

Dil xalqın ruhunun təzahürüdür;
dil onun ruhu, ruh isə onun dilidir.

***Humboldt***

Yaxşı danışmağı yaxşı yazan
müəllifləri oxumaqla öyrənmək olar.

***Volter***

Bütün böyük sənətkarlar
əslində həmişə eyni sualları qoyurlar; lakin hərə
öz dövrünün dilində.

***Əbu Turxan***

Kim özgə dili ilə tanış deyilsə,
öz dili haqqında da heç nə bilmir.

***Göte***

Nəqli cümlə yer hadisələrini,
əqli cümlə göy hadisələrini ifadə edir.

***Əbu Turxan***

Şifahi nitq dönməzdir, – bu onun qismətidir.

***Rolan Bart***

Hansı dildə deyil,
nə barədə oxuyub-yazmaq önəmlidir.

***Əbu Turxan***

Dil o zaman inkişaf edir ki,
çağdaş düşüncə mövcud dil qəlibinə sığmır.

***Əbu Turxan***

Dil fikri o zaman daha yaxşı
ifadə edə bilir ki, onu öz ahənginə uyğunlaşdıra bilir.

***Əbu Turxan***

Dil keçmiş nəsillərin
düşüncəsinə biçilmiş libasdır. O, indiki nəslə
dar da gələ bilər, gen də.

***Əbu Turxan***

Dil nə qədər böyük meydan
aça bilsə, fikir də özünü o qədər azad hiss edər.

***Əbu Turxan***

Sözlər yarpaqlara bənzəyir;
çoxlu yarpağı olan ağac az bəhrə verir.

***Aleksandr Pop***

Söz gözəl olursa-olsun nə qədər,
Pis əda o sözü tamam məhv edər.

***Nizami***

Nitqi çox bəzəsən, məqsəddən uzaq düşərsən.

***Mövlana***

Sözün formasına aludə olanda məna kölgədə qalır.

***Əbu Turxan***

Sözün şeriyyəti
fikrin şeriyyətinə xidmət etməlidir.

***Əbu Turxan***

Gözəl ifadələr gözəl fikri
bəzəyir və qoruyub saxlayır.

***Hüqo***

Fikrin aydınlığı ilə
ifadənin aydınlığı adətən bir yerdə olur.

***T.Makoley***

Deyilişin bənzərliyi
fikrin də bənzərliyinə dəlalət etmir.

***Əbu Turxan***

Sözlərdə ehtiyatlı olmaq
bəlağətli nitqdən daha üstündür.

***F.Bekon***

Dolaşıq danışmağı hamı,
aydın danışmağı isə çox az adam bacarır.

***Qaliley***

Gözəl sözlərin arxasında
çox çirkin əməllər, əzəmətli görkəmin arxasında
miskin bir qəlb gizlənə bilər.

***Ezop***

Ən gözəl fikir də
pis ifadə edildikdə qiymətini itirir.

***Volter***

Gözəl danışan natiqin çox danışdığı hiss olunmur.

***J.Renar***

Natiqliyin əsas şərti
nitqi vaxtında və nida ilə bitirməkdir.

***Əbu Turxan***

Təzə bir söz demək artıq deyilmiş
sözləri bir-biri ilə uzlaşdırmaqdan daha asandır.

***Vovenarq***

Dil təfəkkürün qəlibidir.

***Əbu Turxan***

Gərək söz meydanı gen olsun, müdam,
Atını dördnala səyirtsin ilham.

***Nizami***

Dilin imkanları
məhdud olanda təfəkkürə də çəpər çəkir.

***Əbu Turxan***

Dil də torpaq kimidir;
münbit olmasa, fikir cücərməz.

***Əbu Turxan***

Sözlər fikirlərimizin qiyafətləridir.

***El hikməti***

Söz sədəfdir, fikir – mirvari.

***Əbu Turxan***

Fəlsəfi yaradıcılıqda iki tərəf
iştirak edir: filosof və dil; ikisindən biri zəif olanda,
yeni fikir doğula bilmir.

***Əbu Turxan***

Müxtəlif dilləri
ortaq məxrəcə gətirən məntiqdir.

***Əbu Turxan***

Böyük fəlsəfələr ancaq
böyük dillərin çanağında yoğrulub yapıla bilər.

***Əbu Turxan***

Hər dilin yaddaşında bir fəlsəfə
yatır; buna milli-fəlsəfi fikir deyilir.

***Əbu Turxan***

Ən mahir müəllif də yetkin
olmayan bir dildə yetkin əsər yaza bilməz.

***Əbu Turxan***

Yaxşı yorumçu bəzən
müəllifin demək istədiklərindən daha dərin
mənalar üzə çıxara bilir.

***Əbu Turxan***

Hər kəs yalnız başa düşdüyünü eşidir.

***Plavt***

Müəyyən mənanı ifadə etmək
üçün dəvət olunan hər bir söz özü ilə neçə-neçə dəvət
olunmamış qonaqlar gətirir.

***Əbu Turxan***

Dediklərin ancaq qarşıdakının anlaya bildiyi qədərdir.

***Mövlana***

Başqalarının sözlərini təkrar
etmək hələ onların mənasını bilmək deyil.

***Mövlana***

Pozğun qulaqla eşidiləndə
ən gözəl sözlər də masqara ilə qarşılanır.

***Göte***

Kar könlündəkini anlayar.

***Atalar sözü***

Sözü kütlənin səviyyəsinə
endirənlər daha tez populyarlaşırlar.

***Əbu Turxan***

Aşıq gördüyünü çağırar.

***Atalar sözü***

Dil – insanlar arasında,
elm – insanla təbiət arasında ünsiyyət vasitəsidir.

***Əbu Turxan***

Dahi insanların dili
təbiətin özünün dili qədər sadədir.

***Vovenarq***

Tək özün danışsan həmişə haqlı olacaqsan.

***Balzak***

Elə danış ki, başa düşməyə bilməsinlər.

***Kvintilian***

Bəzən sükut – güclü haraydan daha təsirlidir.

***Siseron***

Çox danışana ancaq lal həsəd aparır.

***Cübran***

Başqasını anlamaq istəyirsənsə,
onun nə dediyini yox, nə demədiyini eşit.

***Cübran***

Ağıllı danışmaq çətindir,
ağılla susmaq isə ondan da çətindir.

***Kristian Bouvi***

Ucadan danışmaq lazımdır ki,
səni eşitsinlər, astadan danışmaq lazımdır ki,
sənə qulaq assınlar.

***Pol Klodel***

Az bilib çox danışan
bədxərclik edən yoxsula oxşayır.

***Napoleon***

Yerində danışmaq və yerində
susmaq böyük qabiliyyət tələb edir.

***Sokrat***

Deməyə sözü olmayan hamıdan çox danışar.

***L.N.Tolstoy***

Heç vaxt demə ki, bilirsən,
amma nə danışdığını həmişə bil.

***Klavdiy***

Heç vaxt fikirləşmədən danışma.

***Protaqor***

Fani sözlərlə əbədi şeyləri ifadə et!

***Lukretsi***

Dilin bəlasıdır uzunçu olmaq
Ariflər işidir sükuta dalmaq.

***Nizami***

Dil oddan da pis yandırır.

***Kont***

Hikmətin kökü qəlbdə, meyvəsi dildədir.

***Ptolemey***

Ən gözəl nitq ən qısa nitqdir.

***Əbu Turxan***

Əsl siyasətçi susaraq nə isə deməyi və
danışaraq heç nə deməməyi bacarmalıdır.

***Əbu Turxan***

Susmağın ağlından xəbər verməsə də,
axmaq olmadığından xəbər verir.

***Buast***

Susmaq dözülməsi çox ağır olan bir cavabdır.

***Çesterton***

Ləyaqətli adamla danışmamaq adamı,
ləyaqətsiz adamla danışmaq isə sözləri itirməkdir.

***Konfutsi***

Yersiz danışmaq axmaqlıq olduğu kimi,
yeri gələndə danışmamaq da axmaqlıqdır.

***Sədi Şirazi***

İçimizdə söz dalğası
qalxanda da, dərinliklərimiz sükut içində olur.

***Cübran***

Düşünmədən danışanın cəzası
sonradan düşünməyə məhkum olmaqdır.

***Əbdülhaq Şinasi Hisar***

Dil heç nədən utanmayanda, hamı utanmış olur.

***Russo***

Hərzə sualın mərzə cavabı olar.

***Atalar sözü***

Uşaqlarına susmağı öyrət,
danışmağı onlar özü də öyrənə bilər.

***B.Franklin***

Şöhrətpərəst adamlardan diplomat çıxmaz:
onlar susmağı bacarmırlar.

***Vovenarq***

Qəlb nə ilə doluysa,
dodaqlardan süzülüb gələn də odur.

***Göte***

İdrak edə bilən üçün
bu yerlərin-göylərin hamısı sözdür.

***Mövlana***

Ağıl əmr edəni dil bəyan edər.

***Xaqani***

Ürək hisslərlə dolu
olanda söhbət də maraqlı olur.

***Vovenarq***

Söz gücsüz olduğu yerdə musiqi başlayır.

***Vaqner***

Az danış, düz danış.

***Atalar sözü***

Söz vaxtına çəkər.

***Atalar sözü***

Sözün düzünü zarafatda deyərlər.

***Atalar sözü***

“Ho” var, dağa qaldırar,
“ho” var, dağdan endirər.

***Atalar sözü***

İstədiyini danışan, istəmədiyini eşidər.

***Atalar sözü***

Söz var el içində, söz var ev içində.

***Atalar sözü***

Söz danışıqdan keçər.

***Atalar sözü***

Söz vermək asandır, yerinə yetirmək çətin.

***Atalar sözü***

Dünyada ən acı və ən şirin şey dildir.

***Atalar sözü***

İnsan başqaları ilə az, özü ilə çox danışmalıdır.

***Danimarka atalar sözü***

Söz götürənin, yer oturanındır.

***Atalar sözü***

Söz sözə söykənir.

***Atalar sözü***

Qılınc yarası sağalar, söz yarası sağalmaz.

***Atalar sözü***

# *Ədəbiyyat*
# *və*
# *incəsənət*

Şair – xalqın yaradıcı gücünün
ifadəçisi, ruh aləmində baş verənləri
əql dünyasına ötürən, fikir dünyasında baş verənləri
bilik xəzinəsinə toplayan bir bələdçidir.

***C.Cübran***

Yazılan əsəri hamı oxuya bilər
– başa düşən də, düşməyən də. Əsər kimlə
danışmağın lazım olduğunu, kimlə danışmağın
lazım olmadığını bilmir. Ona qarşı etinasızlıq və ya
haqsızlıq edəndə atasının köməyinə ehtiyacı olur,
özü isə nə müdafiə olunmağı, nə də özünə
köməklik etməyi bacarmır.

***Sokrat***

İnsan yaradıcılığı təbiətin təqlididir.

***Hobbs***

İnsanı aşağı çəkən qüvvələr
sərvət və şəhvət, insanı ucaldan yaradıcılıqdır.

***Əbu Turxan***

Sənətkar ancaq müəyyən
bir məqama yüksələrkən yarada bilir.

***Əbu Turxan***

İncəsənət bütövdür,
o yalnız Şərqə, yaxud yalnız Qərbə aid ola bilməz.

***Uitmen***

Yaradıcı əql məhəbbət kontekstində ortaya çıxır.

***Əbu Turxan***

Yaradıcılıq sənətkardan,
sənətkar isə yaradıcılıqdan qaynaqlanır.

***Haydegger***

Xəyal insan yaradıcılığının
müqəddiməsi, yaradıcı aktın başlanğıcıdır.

***Mejelaytis***

İnsan beyni yaradıcılıq aktını
həyata keçirən kimi artıq heç kimə və heç nəyə bu
prosesin qarşısını almağa imkan verməz.

***Toynbi***

Həyatın bütün sevinci yaradıcılıqdadır.

***R.Rollan***

Bizim yaradıcılığımız dünyanın
Allah tərəfindən yaradılması prosesində kiçik
variasiyalardan ibarətdir.

***R.Taqor***

Sənət insanın təbiəti, təbiət – Allahın sənətidir.

***Beyli***

Sənət həmsöhbətin susduğu dialoqdur.

***Qriqori Landau***

Bütün sənət növləri
məhəbbət və ağlın bu və ya digər nisbətdə
birləşməsindən yaranır.

***Əbu Turxan***

Sənətdə yaradıcılıq prosesi
o dərəcədə fərdidir ki, həmmüəllif
olmaq mümkün deyil.

***Əbu Turxan***

Hər bir sənət əsəri bütövlüyün
və vahidin təcəssümüdür. İki əsər yanaşı olanda
bir-birinə kölgə salır.

***Əbu Turxan***

Sənətin missiyası ilahi gözəlliyi
onun təzahürlərində görə bilməkdir.

***Əbu Turxan***

Təbiət incəsənəti onun əzəli
yaratdıqlarının gözəlliklərindən vəcdə gəlmiş
insanın iradəsi ilə yaradır.

***Emerson***

Yaradıcı fəaliyyət valideynlikdən
daha uca, daha şərəflidir. Belə ki, bu halda passiv
ideyanın bölünməsi deyil, canlı ideyanın
təcəssümü ilə rastlaşırıq.

***Əbu Turxan***

Sənətdə təsvir olunan
səma deyil, çay deyil, dəniz deyil…
Təsvir olunan qəlbin ənginliyidir.

***Əbu Turxan***

İnsan cisimlərin özündə
olmayan yeni bir şey yarada bilməz.

***Əbu Turxan***

Yaradıcılıq prosesi bu dünyada
öncə gizli şəkildə olanların aşkarlanmasıdır.

***Əbu Turxan***

Həyəcanlanmış atom öz
artıq enerjisini şüalandıraraq yenidən normal
vəziyyətə keçdiyi kimi, ilhamlanmış sənətkar da bu
ilhamın, hiss-həyəcanın daşıdığı enerjini öz
yaradıcılığı ilə «şüalandıraraq»
«normal" vəziyyətə keçir.

***Tur Xander***

Tarixdə qalacaq yalnız yaradan.

***Səməd Vurğun***

Əsl sənət hiss və duyğunu
necə yaranıbsa, eləcə – hələ öz təravətini
itirmədən, öz bakirəliyində təqdim edir.

***Əbu Turxan***

Sənətkar insanları öz daxilinə
yönəldir və qəlbin hamı üçün ümumi olan sirlərini
insanlara açıb göstərir.

***L.N.Tolstoy***

Sevgi ilə məharət
bir araya gələndə, sənət incisi yaranar.

***L.N.Tolstoy***

Bəzi insanlar incəsənəti başa düşür,
bəziləri hiss edir, bəziləri isə həm başa düşür,
həm də hiss edir.

***Holley***

Sənət məmləkətində bütün
məbədlər unikaldır; onlar heç vaxt bir-birinin
üzərinə toplanmır.

***Əbu Turxan***

Hər bir sənət abidəsi canlıdır.
Onlar üst-üstə toplansaydı, altda qalanlar
nəfəs ala bilməz.

***Əbu Turxan***

Əsl sənətkarlıq üzdə sadə
görünənin alt qatdakı dərin mənasını üzə
çıxarmaq məharətidir.

***Əbu Turxan***

Sənətkar həqiqətlə
gözəlliyi birləşdirməyi bacarmalıdır.

***Feyxtvanqer***

Sənətkarın öz əsərində iştirakı
Tanrının kainatda mövcudluğu kimi olmalıdır
– o, hər şeyi görməli və gözə görünməməlidir.

***Flober***

Həqiqi sənətkar təkcə “başının ağlı” ilə deyil,
həm də “ürəyin ağlı” ilə yaşayır.

***L.N.Tolstoy***

Ürəksiz yaranan hansı bir əsər
Yadigar qalmışdır sabahkı günə.

***Səməd Vurğun***

Sənət təbiətdən sonsuzluğa atılan addımdır.

***Cübran***

Həqiqi sənət əsəri qarşısında
zaman acizdir.

***A.Serov***

Bədii obraz ölçü,
kəmiyyət hüdudları ilə məhdudlaşmır.

***Əbu Turxan***

İncəsənət – satılası və alınası
mümkün olmayan ali Ruhdur.

***Cübran***

Sənət ehtiyacdan
yaranır və var-dövlət içində boğulub ölür.

***J.Sand***

Sənət xeyirlə şəri fərqləndirmək,
yaxşını tanımaq vasitəsidir.

***L.N.Tolstoy***

Sənət oxuculara, seyrçilərə və dinləyicilərə
həzzi-mənəvi, həyəcani-bədii təmin etməkdir.

***Cəfər Cabbarlı***

İncəsənət "Mən"dirsə, elm "Biz"ik.

***Bernar***

Sənət insanı həm ağıl azlığı,
həm də ağıl artıqlığı bəlasından qoruyur.

***Xudu Məmmədov***

Duyğular sənətdə,
ağıl – elmdə, ruh – fəlsəfədə özünü ifadə edir.

***Əbu Turxan***

Elm, bilik sənətkara ağlın
gözləri ilə görünən aləmin üfüqlərini açır.

***Xudu Məmmədov***

Elm və sənət qoşa qanaddır.

***Xudu Məmmədov***

Elm əqlin hafizəsidirsə,
sənət hissələrin hafizəsidir.

***V.Solouxin***

Elm adamlarının inkişafı
pillə-pillə, sənət adamlarının inkişafı isə
birdən-birə və ani baş verir.

***Hüqo***

Sınaq-səhv metodu elm üçündür.
Sənət əsərləri sınaq-səhv metodu ilə yaradıla bilməz,
çünki qəlblərə ünvanlanmışdır.

***Əbu Turxan***

Əsl sənətkar ancaq demək
istədiyini deyə bilәndir. Amma əksər hallarda
əsərdə müəllifin iradəsindən asılı olmayan
çoxlu sayda yan-yörə var.

***Əbu Turxan***

Sənətkar həmişə öz ailəsi və dostları
üçün yaddır, öz vətənində yaddır, ümumiyyətlə
bütün bu dünyada yaddır.

***Cübran***

Sənət əsəri sənətkarın yaradıcı
təxəyyülünü hər dəfə yenidən canlandırmaqla
zamanlar arasında virtual rabitə yaradır.

***Tur Xander***

Demək istədiyini çoxları
deyə bilir. Ən böyük sənətkarlıq demək istədiyindən
başqa bir şey deməməkdir.

***Əbu Turxan***

Səhifəni axıra qədər doldurmağa
çalışmayın, oxucu üçün də boşluqlar qalmalıdır.

***Əbu Turxan***

Bütün sənətkarlar ictimaiyyətə
yaradıcılıq prosesini deyil, onun son
məhsulunu çatdırırlar.

***Əbu Turxan***

Həyat fəlsəfəsinə gedən
ən geniş yol ədəbiyyatdan keçir.

***Əbu Turxan***

Ədəbiyyat – əbədiyyəti ana, anı əbədiyyətə çevirir.

***Əbu Turxan***

Ədəbiyyat xalqın maddiləşmiş yaddaşıdır.

***U.Folkner***

Ədəbiyyat millətdəki
əhvali-ruhiyyənin inikası deməkdir.

***Cavid***

Ədəbiyyat xalqın şüurudur,
onun mənəvi həyatının diriliyidir.

***V.Q.Belinski***

Elmi ədəbiyyat insanları
nadanlıqdan, bədii ədəbiyyat isə kobudluq və
bayağılıqdan xilas edir.

***N.Q.Çernışevski***

Milləti ədəbiyyat yaradır.

***U.Folkner***

Ədəbiyyat dünyanı
insan qəlbinin işığı ilə nurlandırdı.

***R.Taqor***

Çox böyük tarix lazımdır ki,
bir az ədəbiyyat alınsın.

***H.Ceyms***

Poeziya fəlsəfəyə tarixdən daha yaxındır.

***Aristotel***

Poeziya – sevinc,
ağrı, təəccüb və bir az da lüğətdən
götürülmüş sözlərin axınıdır.

***Cübran***

Əsl yazıçı xalqı qaranlıq
dünyadan aydınlığa aparan insan olmalıdır.

***Ömər Xəyyam***

Poeziya – sadəcə gözəl
söylənmiş bir fikir deyil. O qanayan yaranın
və ya gülümsəyən dodaqların nəğməsidir.

***Cübran***

Kim özündə yazıçılığa
bir qabiliyyət hiss edirsə, deməli, söz musiqisinə,
sadəlik sənətinə və sevgi sehrinə malikdir.

***Cübran***

Poeziyada sözün çalarları olar, elmdə – yox.

***Əbu Turxan***

Poeziya "ən yaxşı sözlərin
ən yaxşı düzümü" deyil, poeziya dilin
ali mövcudluq formasıdır.

***İosif Brodski***

Neçə-neçə yazıçı öz dövrlərində
və mühitlərində böyük tənqidçinin olmaması
üzündən əks əlaqəyə girib təkan ala bilməmiş,
potensialı açılmamışdır.

***Tur Xander***

Şeir bir ürəyin döyüntüsü,
bir ruh həyəcanı və göz yaşıdır.

***Əbdülfəttah Şahin***

Şeir gizli sözlərin bəyan edilməsinin bir növüdür.

***Hüqo***

Tarix hadisələrin
romanı, roman isə duyğuların tarixidir.

***Helvetsi***

Şerlə romanın nisbəti
bulaqla dənizin nisbəti kimidir. Birinin
hikməti səmimiliyində, o birinin
hikməti ənginliyindədir.

***Əbu Turxan***

Şair uzaq fəlsəfə dağından
camaata sovqat gətirən Simurq quşudur.

***Əbu Turxan***

Şairə ilham sözün közünü üfürmək üçün lazımdır.

***Əbu Turxan***

Şairlər öz dövrünün
sərvətindən gələcəyə ərməğanı durna qatarı ilə,
alimlər – elm qatarı ilə göndərirlər.

***Əbu Turxan***

Poeziya quş kimidir:
tərlan kimi süzənlər; qartal kimi zirvəyə qalxanlar;
hətta çəyirtkə kimi tullananlar da var.

***Əbu Turxan***

Aydın yazanların oxucuları,
qaranlıq yazanların şərhçiləri var.

***Kamyu***

Poeziya göylərin ab-havasını
yerə ərmağan gətirmək, yeri qanadlandırmaq,
canlandırmaq, ona uçuş əzmi vermək üçündür.

***Əbu Turxan***

Poeziya – ürəkləri məftun
edən müdriklikdir. Müdriklik isə fikir himnini
ifa edən poeziyadır.

***Cübran***

Poeziya qanadlarında yüksəyə
qalxmaq olar, amma uzağa getmək olmaz.

***Əbu Turxan***

Poeziya varlığın sözlə yaradılmasıdır.

***Haydegger***

Ədəbiyyatın vəzifəsi
hadisələri ideyaya çevirməkdir.

***Santayana***

Elmi təfəkkürdə həmişə poeziya ünsürü olur.

***Eynşteyn***

Hər bir bilik sahəsində sonsuz poeziya aləmi vardır.

***K.Q.Paustovski***

Ürəkdə doğulan bir hiss
şeir libasına bürünməklə üzə çıxmağa çalışır.

***R.Taqor***

Şairin qabiliyyəti və istedadı

xaosdan harmoniya yaratmaqdır.

***A.Blok***

Poetik təb də bir atım
barıt kimidir. Tez alışır, tez sönür.

***Tur Xander***

Şairə ilhamdan maya gərəkdir.

***Müşviq***

Həyatın nəsrlə yazdığını mən nəzmlə vəsf edirəm.

***Cübran***

Böyük şair – bizim
sükutumuzu ifadə edə bilən şairdir.

***Cübran***

Şair həqiqəti sübut etmir, o onu göstərir.

***V.Q.Belinski***

Qanadsız bir quşdur xülyasız şeir.

***Müşviq***

Yaxşı roman öz qəhrəmanı
haqqında, pis roman isə – öz müəllifi
haqqında həqiqəti söyləyir.

***Çesterton***

Hər müəllif sanki öz ömrünü
uzatmaq, hətta əbədiyyətə qovuşmaq üçün yazır;
yaxşı əsər müəllifinə (sağlığında ikən) ölməzlik gətirir,
pis əsər ölməzlik ümidini öldürür.

***Əbu Turxan***

Ölü doğan müəllif nə vaxtsa
dünyaya diri övlad gətirə bilsə, əvvəl ölənlər də dirilər.

***Əbu Turxan***

Bədii əsərin gücü nə vaxtsa
bir nəfər tərəfindən yaşanmış duyğunun
minlərlə adam tərəfindən dönə-dönə
yenidən yaşanmasındadır.

***Əbu Turxan***

Bədii əsərdə sözlər üçün
darısqallıq, fikir üçün genişlik var.

***M.Qorki***

Klassiklər keçmişlə bu gün arasında körpüdürlər.

***Əbu Turxan***

Klassiklər müxtəlif xalqları
və millətləri bir araya gətirən ümumbəşəri
məbədin sütunlarıdır.

***Əbu Turxan***

Klassik oxucu sənətkarın
yazdığını onun özündən daha yaxşı
başa düşə biləndir.

***Əbu Turxan***

Şeir xoş bir təbəssümdən,
ya da göz yaşlarından yaranır.

***Rəsul Həmzətov***

Nəsr uzağa, poeziya isə zirvələrə uçur.

***Rəsul Həmzətov***

Nəsrdə poeziya xörəyin duzu kimidir.

***Rəsul Həmzətov***

İndiki şairlər öz
mürəkkəblərinə həddən çox su qatırlar.

***Göte***

Yaxşı tənqidçi əsərdə sənətkarın
özünün demək istəmədiklərini də aşkar edir.

***Əbu Turxan***

Hər bir əsər müəllif ideyasından daha zəngindir.

***Əbu Turxan***

Ən kamil əsər ideyaya adekvat olan əsərdir.

***Tur Xander***

Müəllifi tənqid etmək asan, dəyərləndirmək çətindir.

***Vovenarq***

Rəssamın orijinallığı
xəyalında yaratdığı ideyada, sənətkarlığı
isə by ideyanı kətana köçürmək
məharətində üzə çıxır.

***Əbu Turxan***

Tənqidçi fəlsəfi hazırlıq
səviyyəsinə görə yazıçıdan yüksəkdə durmasa,
əsərin həqiqi qiymətini verə bilməz.

***Əbu Turxan***

Ötən əsrlərin yazıçısı ilə söhbət
etmək səyahət etmək kimi bir şeydir.

***Dekart***

Böyük şəxsiyyətlər haqqında
yazanda adam özü onların səviyyəsinə qalxmır,
əksinə, onları öz səviyyəsinə uyğunlaşdırır.

***Əbu Turxan***

Önəmli o deyil nə haqqında
və ya kimin haqqında yazılıb, önəmli
odur ki, kim yazıb!

***Əbu Turxan***

Ən gerçək portret dahilərin
yazılarında üzə çıxır. Onlar heç kimin
görmədiklərini üzə çıxara bilirlər.

***Əbu Turxan***

O xalqlar tarixdə daha düzgün
mövqe tuta bilir ki, onlar başqalarının tarixindən
də dərs almağı bacarırlar. Bu dərs isə
daha çox dərəcədə bədii ədəbiyyat
vasitəsilə mənimsənilir.

***Nüaymə***

Bəzən böyük həyat üçün yaranmış
insanların ömrü kiçik və yeknəsəq səhnələrdə keçir.
Bu halda onlar öz mənəvi ehtiyaclarını ancaq ədəbi
qəhrəmanların həyatında tapa bilirlər.

***Əbu Turxan***

Bir ölkədə şair nə qədər çoxdursa,
həmin ölkə düşüncə baxımından o qədər geridir.
İnsanlar və millətlər yaşlandıqca şerin
yerinə nəsr keçər.

***Cəmil Meriç***

Şairlər və qəhrəmanlar
bir tayfadır. Onların arasındakı fərq ideya
və əməl arasındakı fərq kimidir. Qəhrəmanlar
şairlərin seyr etdiklərini həyata keçirirlər.

***Lamartin***

Hər bir uşaq dahi rəssamdır.
Çətinlik ondadır ki, uşaqlıq dövründən çıxandan
sonra da rəssam kimi qalsın.

***Pikasso***

Eyni alətin çoxlu sayda olmasından
ən yaxşı halda sinxronluq yarana bilər. Yeni keyfiyyət
ancaq simfonikliyin məhsulu ola bilər.

***Tur Xander***

Böyük qəhrəmanlıq poeziyasının
yaranması üçün bizə qəhrəman oxucular
lazımdır – auditoriya qəhrəmanlığa
susamış olmalıdır.

***Uitmen***

Əsərlər zəhərli, əxlaqsız,
kefşək bir mövzu təqib edərsə, gec-tez bütün
oxucularını da zəhərləmiş olar.

***Cavid***

Hər bir mədəniyyətin öz ruhu vardır.

***Şpenqler***

Qılıncla ölkə tutmaq asandır,
qələmsiz onu əldə saxlamaq çətindir.

***Balasaqunlu Yusif***

Qısa və aydın yazmaq
səmimi və xeyirxah olmaq qədər çətindir.

***Uilyam Sommerset Moem***

Mədəniyyətlər də öz aralarında
məsafəyə ehtiyac duyur.

***Levi-Stross***

Musiqi ruhun qidasıdır.

***Əbu Turxan***

Nə qədər ki, siyasət mədəniyyətə müxalifdir,
yazıçı da siyasətə müxalif olacaq.

***M.Bulqakov***

Dinsizlik ilə kəsb olunan bir mədəniyyət...
Vəhşiyyətin ən qorxulu səhrası deyilmi?!

***M.Ə.Sabir***

Musiqi səbəbsiz
kədərləndirmək və sevindirmək sənətidir.

***Tadeuş Kotarbinski***

Söz gücsüz olduğu yerdə musiqi başlayır.

***Vaqner***

Musiqi fikrə qanad verir.

***Nitsşe***

Musiqi can verir ruha əzəldən,
Musiqi qəlb alır min bir gözəldən.

***Səməd Vurğun***

Müğənni ürəkdən oxuyanda, özünü oxuyur.

***Mənsum İbrahimov***

Qələm yazanı qılınc poza bilməz.

***Atalar sözü***

# *Azadlıq, haqq, ədalət*

*Heç kimin haqqında bir*
*haqsızlıq edilməz.*
***Quran 23/62***

...Haqq sözü(nü) Allah deyər,
adamları haqq yoluna yönəldər.

***Quran 33/4***

Həqiqi azad adam
həmişə ölməyə hazır olan adamdır.

***Diogen***

Azadlıq dərk olunmuş zərurətdir.

***Spinoza***

Milli azadlığa nail olmaq
üçün milli oyanış, milli dirçəliş, milli ruhun
canlanması lazımdır.

***Heydər Əliyev***

Azadlıq və istiqlaliyyət hər bir xalqın
milli sərvətidir.

***Heydər Əliyev***

Zərurət bizi seçim
etmək çətinliyindən azad edir.

***Vovenarq***

Zərurət alt qatda incə
quruluşla yazılanların üst qatdakı həyata
daxildən müdaxiləsidir.

***Əbu Turxan***

Həddini özü məhdudlaşdıranın
imkanı böyük olar.

***Əbu Turxan***

İddialı adam azad
ola bilməz, çünki o, öz iddialarının əsiridir.

***Əbu Turxan***

Azad olmaq – özün kimi olmaq deməkdir.

***Jan-Pol Sartr***

İnsanın simasını müəyyənləşdirən
onun azadlığı yox, bu azadlığa özünün qoyduğu
məhdudiyyətlərdir.

***Əbu Turxan***

Özünü tapa bilmək üçün
əvvəlcə kənar təsirlərdən azad olmaq lazımdır.

***Əbu Turxan***

Bəzən insan özünün
qoyduğu qaydaların da quluna çevrilir.

***Əbu Turxan***

İnsan həmişə yeniliyə can atır.
Lakin yeniliyə qarşı ənənəçilikdən doğan daxili
müqavimət hissi də olur. Müqavimət həddindən
artıq olanda – durğunluq, zəif olanda
– özbaşınalıq yaranır.

***Əbu Turxan***

Verilmiş azadlıq dərəcəsindən yetərincə
faydalana bilməyəndə məcburiyyət ortaya çıxır.

***Əbu Turxan***

Məhrumiyyətlərsiz qələbə yoxdur.

***Əbu Turxan***

Ancaq azadlığın bir qismindən
könüllü imtina edənlər azad ola bilərlər.

***Əbu Turxan***

Bu dünyada yalnız dünyanın
bir hissəsindən imtina etməklə
yaşamaq mümkündür.

***Kamyu***

İnsan dünya ilə tərəf-müqabil
ola bilmək üçün öncə bu dünyanın təsirlərindən
azad olmalıdır.

***Əbu Turxan***

İki azad adam bir yerdə azad ola bilməz.

***Əbu Turxan***

İki qoçun başı bir qazanda qaynamaz.

***Atalar sözü***

Artıq yükdən azad
olmadan yüksəlmək mümkün deyil.

***Əbu Turxan***

Arzularına sərhəd qoymayan insan azad ola bilməz.

***Epiktet***

Özünü hisslərin ixtiyarına
buraxmaq vəhşi azadlığın əlamətidirsə, hissləri
cilovlamaq şəxsiyyət azadlığının əlamətidir.

***Əbu Turxan***

İddiası böyük olanların nəyə nail
olacaqları hələ bəlli deyil, amma bəri başdan
azadlıqlarını iddialarına qurban verirlər.

***Əbu Turxan***

Ən çətin əldə olunan azadlıq
insanın öz keçmişindən azad olmasıdır.

***Əbu Turxan***

Fikir azadlığı olmadan heç bir azadlıq ola bilməz.

***Volter***

Vərdişləriniz nə qədər çox olsa,
azadlığınız da bir o qədər az olar.

***Kant***

İstəkləri məhdudlaşdırmağın ən böyük
bəhrəsi azadlıqdır.

***Epikür***

İnsan öz istəkləri ilə buxovlanır,
bilikləri ilə azad olur.

***Əbu Turxan***

Dünyada insan düşüncəsi
qədər azad olan ikinci bir şey yoxdur.

***D.Yum***

Azadlıq ifrat dərəcəsinə
çatdıqda özbaşınalığa çevrilir.

***A.Bakıxanov***

İnsanlıq olan yerdə hürriyyət olur.

***M.Ə.Sabir***

Dünyanın içində ola-ola
dünyadan azad olmaq ən böyük məharətdir.

***Məhəmməd İqbal***

Azadlığa təzyiq göstərməklə
ona meyli daha da gücləndirmiş oluruq.

***L.N.Tolstoy***

Xarakter insanın azadlığı
üçün təbii qəfəsdir; hər bir insan ancaq bu qəfəs
çərçivəsində yaşaya bilər.

***Əbu Turxan***

Azadlıq sevgilimiz kimidir;
bir dəfə aldatdınmı, bir də çətin dönər ...

***Nazim Hikmət***

Ancaq hansı isə bir ideya işığında
nizamlananda, bu həyatdan baş çıxarmaq
və azad yaşamaq mümkün olur. Əks təqdirdə insanı
qaranlıqda vurnuxmaq aqibəti gözləyir.

***Əbu Turxan***

Ruhu azad olanlar əbədiyyətin bir parçalarıdır.

***Əbu Turxan***

Azadlığın ən böyük düşməni
beyindən çıxmayan fikirdir, çünki o, insana
daxildən hakim olur.

***Əbu Turxan***

Birinin tam azad olması
üçün hamının kölə olması lazım gəlir.

***Əbu Turxan***

Hamı azad olanda heç kim azad olmur.

***Əbu Turxan***

Bir ölçü gözləyərək yaratmışıq hər şeyi.

***Quran 54/49***

Ədalət yer üzündə Allahın tərəzisidir.

***Hz. Əbu Bəkr***

Ədalətsizliklə ədaləti bərpa etmək olmaz.

***Heydər Əliyev***

Ədalət yolu abadlığa aparır,
amma yolun özü çox vaxt daşlı-kəsəkli olur.

***Əbu Turxan***

Ədalət kainatın ruhudur.

***Ömər Xəyyam***

Haqsızlığın ilk qurbanları haqq adamları olur.

***Əbu Turxan***

Haqq ədalətdən, ədalət mərhəmətdən yüksəkdir.

***Əbu Turxan***

Bəzən qan izinin kəsilməsi
naminə də öncə qan tökmək lazım gəlir.

***Əbu Turxan***

"Kim güclüdürsə, o, haqlıdır"
fəlsəfəsi ilə "kim haqlıdırsa, o, güclüdür" fəlsəfəsi
iki əks qütbdür. Gerçək həyat
bu qütblərin arasındadır.

***Əbu Turxan***

İti qılınc korş qılıncdan daha mərhəmətlidir.

***Əbu Turxan***

Ədalətli müharibə
təhqiramiz sülhdən yaxşıdır.

***Əbu Turxan***

Kəssə hər kim tökülən qan izini,
Qurtaran dahi odur yer üzünü.

***Cavid***

Haqqın qoruna bilməsi üçün hərbə
hazır olmaq lazımdır.

***Əbu Turxan***

Məmləkətlər qılıncla
alınır, lakin ədalətlə mühafizə edilir.

***Əmir Teymur***

Ədaləti çox sevsək də,
ədalətli insanları o qədər də sevmirik.

***Jozef Roux***

Ədalətsiz rejimi ədalətlə yıxmaq lazımdır.

***M.Qandi***

Zülmün topu var, gülləsi var, qələsi varsa,
Haqqın da bükülməz qolu, dönməz üzü vardır.

***Tofiq Fikrət***

Gücə söykənməyən ədalət aciz,
ədalətə söykənməyən güc isə zalımdır.

***Paskal***

Haqq yolunun nişangahı
ağlın gücü yox, qəlbin təmizliyidir.

***Əbu Turxan***

Ədalətsizlik – mərdin ibadət
məqamında namərdin əlinə qılınc verməkdir.

***Əbu Turxan***

Şərin qələbəsi əslində məğlubiyyətdir:
xeyirin məğlubiyyəti!

***Əbu Turxan***

Deyirlər "qalibləri mühakimə etmirlər".
Görünür, ona görə ki, mühakimə etməli olanlar
artıq susdurulmuş olur.

***Əbu Turxan***

Bir insan barəsində yol
verilmiş ədalətsizlik hamı üçün hədədir.

***Monteskyö***

Hamıya eyni gözlə bax ki,
böyüyü böyük, kiçiyi kiçik görəsən.

***Əbu Turxan***

Haqqın qulu hürr insandır.

***Məhəmməd İqbal***

Ancaq qarşısında məsuliyyət
daşıdığın adama xəyanət etmək olar.

***Əbu Turxan***

Xəyanət insanın öz öhdəliklərini "unutmasıdır".

***Əbu Turxan***

Xəyanət andın pozulmasıdır.

***Əbu Turxan***

Hər kəsin aşkarda and içmədən
də üzərinə götürdüyü andlar var, Vətən borcu
və insanlıq borcu var.

***Əbu Turxan***

İcbari şəraitdə içilən andın
mənəvi gücü yoxdur və məcburiyyət qalxandan
sonra ondan azad olmamaq sadəcə
kişiliyin imitasiyasıdır.

***Tur Xander***

Hüququn ən qəddar düşməni imtiyazdır.

***M.Ebner-Eşenbax***

Qanun əmrdən onun amiranəliyini,
əmr isə qanundan onun labüdlüyünü götürür.

***Berqson***

Adətlərə arxalanmayan qanunlar zəif olur.

***Siseron***

Hakim – danışan qanun, qanun isə – lal hakimdir.

***Siseron***

Pis qanunlar zülmün ən pis növüdür.

***E.Berk***

Qanunlar hörümçək toru kimidir:
iri milçəklər ondan keçir, xırdaları isə ilişib qalırlar.

***Monteskyö***

Qanun güclüdür, ehtiyacsa ondan da güclü.

***Göte***

Gücün kimin tərəfində olmasının
mənim üçün əhəmiyyəti yoxdur; əhəmiyyətli olan
odur ki, haqq kimin tərəfindədir.

***Hüqo***

Bütün ədalətsizliklər arasında
ən dözülməzi qanun adı altında
törədilən ədalətsizlikdir.

***Aristotel***

Ədalətsizliyin üç növü var:
adi zorakılıq, qanun adıyla pərdələnən zorakılıq,
bir də qanunun öz qəddarlığı.

***F.Bekon***

El gözü tərəzidir.

***Atalar sözü***

Haqq nazilər, üzülməz.

***Atalar sözü***

Qoyunu qoyun, keçini keçi ayağından asarlar.

***Atalar sözü***

Qurda rəhm etmək quzunu bada verməkdir.

***El hikməti***

Zalıma rəhm etmək məzluma zülm etməkdir.

***Atalar sözü***

Nə əkərsən, onu biçərsən.

***Atalar sözü***

Yamanlara yaxşılıq etmək,
yaxşıların haqqında pislik etmək kimidir.

***A.Bakıxanov***

Nə tökərsən aşına, o da çıxar qaşığına.

***Atalar sözü***

Qanı qanla yumazlar.

***Atalar sözü***

“Öz gözündə kərəni görmür, özgə gözündə tük axtarır”.

***Atalar sözü***

Köhnə bazara təzə nırx qoymaq olmaz.

***Atalar sözü***

# *Həqiqət və bilik*

*Qalib gələcəkmi cahanda kamal?!*
***Səməd Vurğun***

Bir gerçəyi müdafiəyə
qalxarkən, ona əvvəlcə özümüz inanmalıyıq, sonra
başqalarını inandırmağa çalışmalıyıq.

***Hz. Əli***

Cəmiyyətin gələcək
tərəqqisi indi gənclərimizə nəyi və necə
öyrətməyimizdən asılıdır.

***Heydər Əliyev***

Tənqid həmişə işə kömək edir.

***Heydər Əliyev***

Şübhə mənə bilik qədər həzz verir.

***Dante***

Kimin ki, həm zikri, həm biliyi var,
o, həqiqətən, Nirvanaya yaxındır.

***Dhammapada***

Kim ki bilir, axtarmasına
ehtiyac yoxdur, çünki o artıq bilir.
Amma kim ki, bilmir, onun da axtarması
mümkün deyil, çünki nə axtardığını bilmir.

***Sokrat***

Bilmədiklərimi onsuz da
bilmirəm, bildiklərimə də şübhə ilə yanaşıram.

***Sekst Empirik***

Həqiqətin alovu onu aparanın əlini tez-tez yandırır.

***Dante***

Ayna özünü görə bilsəydi, başqalarına baxmazdı.

***Əbu Turxan***

Mərifət nuru şübhədən parlar.

***Cavid***

Platon mənim üçün əzizdir,
amma həqiqət ondan da əzizdir.

***Aristotel***

Gur işıqlar özündən zəifləri qəhr edir.

***Ş.Y. Sührəvərdi***

Elm bizə vasitələrlə çatır, həqiqət isə - vasitəsiz.

***Şibli***

Gözü nur, nuru göz zinətləndirir.

***Nizami***

Elə əks biliklər var ki,
bir-biri ilə qarşılaşdırılanda çaxmaq daşı
kimi qığılcım yaradır və bu qığılcımın işığında
tamamilə yeni biliklər görünür.

***Əbu Turxan***

Həqiqət almaz kimidir:
qaranlıqda daha çox parıldayır.

***F.Bekon***

Bir həqiqət o birini aydınladır.

***Cordano Bruno***

Almazı ancaq almaz cilalaya bilər.
***Heyne***

Hər bir varlıq ətrafa öz
zahiri, səthi ilə təqdim olunur. Təmələ
yaxınlaşdıqca aydınlıq itir.

***Əbu Turxan***

Ağ lövhə üzərində qara rənglə,
qara lövhə üzərində ağ rənglə yazırlar.

***Əbu Turxan***

Fəlsəfi sistemlərin ən böyük
naqisliyi daltonizmdir. Dünyanı ancaq ağ və
qara rəngdə görənlər reallığa nə qədər yaxınlaşırlarsa,
ancaq varlıq və yoxluqdan, xeyir və şərdən,
həqiqət və yalandan çıxış edərək bu kənar
hallar arasındakı rəngarəngliyi görməyənlər
də reallığı o qədər mənimsəyirlər.

***Əbu Turxan***

Səth xarici mühitlə təmasda
cilalanır, işıqlanır; iç qat içəridə – qaranlıqda qalır,
ta-a o vaxta qədər ki, güclü bir şüa səthdən
keçib dərin qatlara nüfuz etsin.

***Əbu Turxan***

Formal məntiq fəlsəfi daltonizmdir.

***Tur Xander***

Məntiq ancaq strukturu açır,
daxili məzmuna tətbiq oluna bilmir.

***Əbu Turxan***

Məlum fəlsəfi metaforaya görə
həqiqəti görə bilməyənlər kor hesab olurlar;
amma əslində "görənlərin" də böyük
əksəriyyəti daltonikdir.

***Əbu Turxan***

Mavi şüşədən baxanda
hətta Günəş də mavi görünür.

***Mövlana***

Həqiqəti söyləmək yox, başa salmaq çətindir.

***Mövlana***

Həqiqəti ört-basdır etmək olar,
amma o, gec-tez üzə çıxacaq.

***Əbu Turxan***

Bil ki, həqiqət
Üzdə zərifdirsə, dərində azman,
Son sözü düz sözə verəcək zaman!

***Əbu Turxan***

Haqqa çatmağın yolu haqq aşiqliyindən keçir.

***Əbu Turxan***

Uşaqlar yeriməyi yıxıla-yıxıla
öyrəndiyi kimi, adamlar da həqiqətin yolunu
yanıla-yanıla tapırlar.

***Əbu Tuxan***

Haraya üzəcəyini bilmirsənsə,
üzməyi də bilməsən yaxşıdır.

***Əbu Turxan***

Bir suala cavab
axtararkən yüz yeni sual ortaya çıxır.

***Əbu Turxan***

Hamı ağılla anlamağa çalışır.
Həqiqət isə ancaq ürəklə anlayanda üzə çıxır.

***Əbu Turxan***

Həqiqətin bəzənməyə ehtiyacı yoxdur;
onun öz çöhrəsi hər cür bəzəkdən daha gözəldir.

***Əbu Turxan***

Həqiqət və xeyir doğma
tellərlə ancaq gözəllikdə birləşir.

***Hegel***

Yalnız həqiqət gözəldir;
sevilməyə də bir tək o layiqdir.

***Nikola Bualo***

Həqiqət eşqdə nazil olsa da,
Hərf və məna libasına büründü.

***Ənvar Qasimi***

Qaranlığa uyğunlaşan göz zəif işıqda da görür.

***Əbu Turxan***

Görünməzlik şeyin yoxluğuna
deyil, işığın azlığına dəlalət edir.

***Əbu Turxan***

İti bucaq ona görə itidir ki, düz düzün daxilindədir.

***Əbu Turxan***

Kor bucaq düzə çatdığı
məqamı görməyib ondan o tərəfə keçir.

***Əbu Turxan***

Qaranlıqların bətnində böyük güc
potensialı var və o özünü ancaq işıqla
təmasda biruzə verir.

***Əbu Turxan***

Qaranlıq quru ağac kimidir,
qığılcım ancaq onun hesabına oda çevrilir.

***Əbu Turxan***

Qaranlığı qınamaq olmaz;
o, işıqsızlıqdan xəcalət çəkdiyi üçün üzü qaradır.

***Əbu Turxan***

Kürənin görünən tərəfi
onun səthidir, yəni mərkəzdən ən uzaq nöqtələrdir.
Ən mərkəzi nöqtə isə onun həm də ən qaranlıq
və məchul nöqtəsi olur.

***Əbu Turxan***

İdrak – dünyanın mübhəmlərini
əqlin işığında görmək cəhdidir.

***Əbu Turxan***

İki cür qaranlıq var:
artıq yanıb külə dönmüşlərin qaranlığı,
bir də hələ heç yanmağa başlamayanların qaranlığı!
İkinci qaranlıq əslində potensial işıqdır.

***Əbu Turxan***

Hər qaranlıqda çırpınır bir nur,
Hər həqiqətdə bir xəyal uyuyur.

***Cavid***

Biz işığı görmürük,
işıq qaranlığın bətnindəkiləri görməkdə
bizə yardımçı olur.

***Əbu Turxan***

Qoy kül olum yana-yana...
Mən yanmasam, sən yanmasan, biz yanmasaq,
Necə çıxar qaranlıqlar aydınlığa?!

***Nazim Hikmət***

Biz çiçək əkirik, amma
içərisində alaq otları da bitir. Ən çətini
alaqlarsız əkə bilməkdir.

***Əbu Turxan***

Bir var əkəndən sonra
alaqları təmizləyəsən, bir də var elə əkəsən ki,
ümumiyyətlə alaq çıxmaya.

***Əbu Turxan***

Şərqdə idrakın işığı eşq
işığının kölgəsində qalır, Qərbdə – əksinə.

***Əbu Turxan***

Üzə çıxan adətən nəticə olur,
bu nəticəyə gətirən səbəblər isə yolun
qaranlıqlarında qalır.

***Əbu Turxan***

Başlanğıc sonda aydınlaşır.

***Əbu Turxan***

Bütün yarımçıqlar hansı isə bütövün yarımçıqlarıdır.

***Əbu Turxan***

Yarımçığın üstünü doldurmaqla
bütöv yaranmaz. Yarımhəqiqətdən imtina etmədən
bütöv həqiqətə çatmaq mümkün deyil.

***Əbu Turxan***

Bəzən adam özü də içində
kök atmış gizli suallardan ancaq cavab bəlli
olandan sonra xəbər tutur.

***Əbu Turxan***

Faktlar çoxdur, həqiqətsə - bir.

***R.Taqor***

Yaddaş ona görə lazımdır ki,
işıqda gördüklərin qaranlıqda sənə yol göstərsin.

***Əbu Turxan***

Cavabı ümidsiz görünən
suallardan hamı qaçmağa çalışır – məqsədə
ən inadkar olanlar çatır.

***Əbu Turxan***

İnsan öz fərziyyələrinin əsirinə çevrilməməlidir.

***Əbu Turxan***

Hipotez tordur: kim onu atırsa, balığı da o tutur.

***Novalis***

Hadisə ilə həqiqətin
nisbəti ağlın ruha nisbəti kimidir.

***Demokrit***

Həqiqətin məkanı birdir.
Amma bizim məkanlarımız fərqli olduğundan
həqiqətə aparan yollar da fərqlidir.

***Əbu Turxan***

Eyni vaxtda həm yaxını,
həm də uzağı görmək olmaz; gözlər cismani
həyat üçün qapanmasa, ilahi
hikmətlər üçün açılmaz.

***Əbu Turxan***

Nəzərlərini çox uzağa
dikənlər yaxını görə bilmirlər.

***Əbu Turxan***

Həqiqət bidət kimi doğulur, ehkam kimi ölür.

***Hegel***

İstənilən elmi həqiqət
üç mərhələdən keçir. Birinci mərhələdə
– “bu ola bilməz”, ikinci mərhələdə – “bu ola bilər”,
üçüncü mərhələdə “bunu hamı bilir” deyirlər.

***Rezerford***

Biz iki nəfər olmalıyıq ki,
həqiqəti kəşf edək: biri – onu bəyan etmək,
digəri – onu dərk etmək üçün.

***Cübran***

İnsanın zülmət gecədə
gizlicə gördüyü bir iş gün işığında onu ələ verir.

***Cübran***

Həqiqi olan sakitdir, süni olan isə dilli-dilavər.

***Cübran***

Sən arxası günəşə
dayananda, ancaq öz kölgəni görürsən.

***Cübran***

Təbiət boşluqları sevmir:
insanlar da həqiqəti bilməyəndə, boşluqları
uydurmalarla doldururlar.

***B.Şou***

Ən təhlükəli yanlışlıq
həqiqətə oxşayan yanlışlıqdır.

***A.Amiyel***

Bəzən həqiqəti tuta bilmək
üçün tilovun qarmağına yalan bağlamaq lazım gəlir.

***Şekspir***

Təlimlər pəncərə şüşəsinə bənzəyir.
Biz həqiqəti onun arxasından görürük və elə o da
bizi həqiqətdən aralayır.

***Cübran***

Bilməməyindən qorxma,
yanlış bilməyindən qorx, çünki bütün
fəlakətlər onun üzündən baş verir.

***L.N.Tolstoy***

Yanlışların üzünə qapı
bağlananda həqiqət də bayırda qalır.

***R.Taqor***

Qılıncın öz daxili həqiqəti yoxdur.

***N.Q.Çernışevski***

Biz həqiqətə gülürük, həqiqət bizi ağlayır.

***M.Hadi***

Yanlış fikri aydın
ifadə etsən, o, özü özünü təkzib edəcək.

***Vovenarq***

Yer üzündə ən uzunömürlü şey həqiqətdir.

***Vovenarq***

İki şəxs şablondan kənar eyni
bir ideyanı bir-birindən asılı olmadan irəli sürürsə,
deməli, bu ideya həqiqətdir.

***Bor***

Böhtandan da qorxulu silah var:
bu silah həqiqətdir.

***Taleyran***

Gücü düzgün yönəldə
bilmək üçün öncə həqiqətə yiyələnmək lazımdır.

***Əbu Turxan***

Məhəbbətdir işıq saçan, onsuz aləm bir zülmətdir,
Zülmətdə gördüklərin, sanma ki, bir həqiqətdir.

***Əbu Turxan***

İnsan həqiqətə qovuşanda mənən saflaşır.

***Əbu Turxan***

Böyük həqiqətləri görə bilmək
üçün qəlbin alışıb-yanması, ətrafı nurlandırması
tələb olunur.

***Əbu Turxan***

Yeməyi bölüşəndə azalır, biliyi bölüşəndə – artır.

***Əbu Turxan***

İnsanın biliyi artdıqca, narahatlığı da artır.

***Göte***

İki cür mürşid var:
öz yolunu mənə təlqin edən və mənim öz yolumu
tapmaqda yardımçı olan.

***Əbu Turxan***

Mən-ə gedən yolu göstər,
Mən-dən gedən yolu özüm seçərəm.

***Əbu Turxan***

Səmimi adamlar həqiqət görüntüsünə aldanırlar.

***Horatsi***

Yalana oxşayan həqiqət
həqiqətə oxşayan yalandan daha təhlükəli ola bilər.

***Qabusnamə***

İnsan özünü həqiqətin zirvəsinə
qaldırmaq əvəzinə, həqiqəti öz səviyyəsinə endirir.

***Rene Qenon***

Həqiqəti mənimsəyən də
bu həqiqəti söyləyən kimi dəyərli insandır.

***Cübran***

Bilik düz tətbiq olunanda
xeyir, səhv tətbiq olunanda ziyan verir.

***Sokrat***

Çox şeyi bilmək ağıl öyrətmir.

***Heraklit***

Bütün insanların mənşəyi eynidir;
onları ancaq bilik fərqləndirir.

***Balasaqunlu Yusif***

Bütün dünya bədəndir; bilik candır.

***Mövlana***

Bir şeyi olmadığı yerdə
axtarmaq onu axtarmamaq deməkdir.

***Mövlana***

Qabınız kiçikdirsə,
dəryanı günahlandırmağa haqqınız yoxdur.

***Mövlana***

Anlamadığın şeyə sahib ola bilməzsən.

***Göte***

İnsanların ən çox inandıqları şeylər
ən az anladıqlarıdır.

***Monten***

"Əsli-nəcabəti" bəlli olmayan
yeni biliyi heç bir nüfuzlu elmi təlim öz
ailəsinə qəbul etmək istəmir.

***Əbu Turxan***

Bilik iradənin quludur.

***Əbu Turxan***

Biliyin "iç üzü" biliklər
sisteminə daxil olanda məlum olur.

***Əbu Turxan***

Əgər biliklər qaydaya
salınmayıbsa, nə qədər çox bilsən, təfəkkür
o qədər zəif olacaqdır.

***Spenser***

Yeni bilik daxil olduğu
sistemdə təməl kimi qəbul olunmuş ənənəvi
biliklərlə dil tapa bilmirsə, sistem onu ya
kənarlaşdırır,ya da özü dağılır; ən məqbul
yol isə dili dəyişməkdir.

***Tur Xander***

Yaddaş da anbar kimidir;
qoyduğunu sonra tapmaq istəyirsənsə, gərək müəyyən
qayda əsasında qoyasan.

***Əbu Turxan***

Hafizə iki cür olur:
hadisələrin ayrı-ayrılıqda yadda saxlanması
və ancaq qaydaların, ümumi prinsiplərin
yadda saxlanması. İkinci olanda
birinciyə ehtiyac qalmır.

***Əbu Turxan***

Bir neçə prinsipi bilmək
yüzlərlə faktı bilməməyi əvəz edə bilir.

***Helvetsi***

Bilik ancaq o zaman həqiqi
bilikdir ki, hafizə yox, düşüncə gücünə əldə edilmişdir.

***L.N.Tolstoy***

Adamlar öz ixtisaslarına aid
mövzuda ehtiyatla danışır. Bilmədikləri mövzularda
isə daha ürəkli olurlar və onlara elə gəlir ki,
bu – fəlsəfədir.

***Əbu Turxan***

Bildiyin şeydən qorxma, bilmədiklərindən qorx.

***Əbu Turxan***

Başqasından alınan biliyin
ancaq özünü istifadə etmək olar; toxumluğa
yaramaz. Cücərə bilməsi üçün biliklər
hər dəfə yenidən kəşf olunmalıdır.

***Əbu Turxan***

Tələbəyə bilmədiklərinə görə yox,
bildiyini necə bildiyinə görə qiymət
vermək lazımdır.

***Tur Xander***

Bilik məqsəd deyil, alətdir.

***L.N. Tolstoy***

Bilik gücdür.

***F.Bekon***

Bilik alimlərin ümumi sərvətidir.

***İbn Xəldun***

Əsl bilik – bildiyin şeyi
bildiyini, bilmədiyin şeyi isə bilmədiyini bilməkdir.

***Konfutsi***

Nə haqda isə heç nə bilməmək
qəbahət deyil, pis mənimsənilmiş bilik daha pisdir.

***Platon***

Hər şeyi bilmək istəyi
adamı bütün sahələrdə yarımçıq edər.

***Demokrit***

Yarımçıq bilinən hər nə ki var, bilgiyə əngəl olur.

***Göte***

Çox şey öyrənə bilməyin sirri
– əvvəlcə az şey öyrənməkdən başlamaqdır.

***Lokk***

Hamı bilir ki, bu şey ola bilməz.
Amma bu şeyin ola bilmədiyini bilməyən bir nəfər tapılır
və həmin şeyi kəşf edir.

***Eynşteyn***

Biliksizlikdən utancaqlıq yaranır,
çoxbilmişlikdən – utanmazlıq.

***Əbu Turxan***

Lazım olanı bilmək çox bilməkdən daha vacibdir.

***Russo***

Şeylərin faktiki necə olduğunu bilənlər təcrübəli, şeylərin əslində necə olmalı olduğunu bilənlər ağıllı, bu dəyişikliyi həyata keçirməyin yollarını bilənlər isə müdrikdirlər.

***Didro***

Biliyə üç yol aparır:
ən asanı – təqlid, ən çətini – təcrübə,
ən şərəflisi – düşüncədir.

***Konfutsi***

Bir şeyi dərk etmək – sadəcə
onun özünü deyil, həm də bu şeydə təcəlli edən
Mütləqi görməkdir.

***Mənsur Həllac***

Cahilliyin üç növü var:
heç nə bilməmək, hamının bildiyi şeyi pis bilmək,
lazım olmayan şeyi bilmək.

***Düklo***

Hər dəfə biz hadisələrə
təkcə başqa tərəfdən yox, həm də başqa
gözlə baxırıq – buna görə də bizə elə gəlir ki,
onlar dəyişiblər.

***Paskal***

Fəlsəfi diskussiyada daha çox
qazanan məğlub olandır, çünki o,
biliklərini artırmış olur.

***Epikür***

Sual da, cavab da bilikdən doğulur.

***Mövlana***

İnsanlar adətən onlara
məlum olan şeylərin təbiəti haqqında
düşünmürlər. Həddindən artıq orijinal zəka
tələb olunur ki, özlüyündə aydın olan şeyi
təhlil etməyə başlasın.

***Uaythed***

Bildiklərinə əməl etməyən
adam əlində çıraq gəzdirən kora bənzər.

***Sədi Şirazi***

Ehtiyac əməyi, əmək biliyi doğurmuşdur.

***Balzak***

Çox pulu olan, lakin ondan
istifadə etməyi bacarmayan adamlar olduğu kimi,
çox biliyi olan, lakin onu düzgün yönəldə
bilməyənlər də var.

***Əbu Turxan***

Biliyin ağası olmaq
üçün zəhmətin köləsi olmaq lazımdır.

***Balzak***

Ağıl-kamal verdi sənə yaradan,
Çalışıb hər sirri öyrən hər zaman.

***Marağalı Əvhədi***

Mənim biliklərim bədbin, inamım – nikbindir.

***A.Şveyser***

Mən bir çox şeyi müəllimlərimdən,
bundan daha çox isə şagirdlərimdən öyrəndim.

***Konfutsi***

Pis müəllim biliyin özünü,
yaxşı müəllim onu tapmağı öyrədir.

***Disterveq***

Oxumaq insana bilik,
söhbət – hazırcavablıq, yazmaq vərdişi
isə dəqiqlik aşılayır.

***F.Bekon***

Tamı mənimsəmək heç də
o demək deyil ki, hissəni də mənimsəmişik.

***Aristotel***

Bildiyini bilənin arxasınca gedin,
Bildiyini bilməyəni oyandırın,
Bilmədiyini bilənə öyrədin,
Bilmədiyini bilməyəndən qaçın.

***Konfutsi***

Bütün hissələri mənimsəyib
bütövdən xəbərsiz qalmaq mümkündür.

***Əbu Turxan***

Sonlu olan heç vaxt
sonsuz olanı qavraya bilməyəcəkdir.

***Yunq***

Bilikdən daha zəngin xəzinə,
pis xasiyyətdən daha rəzil düşmən ola bilməz.

***Sokrat***

O şey ki, bizlərə lap aşikardır
Orda gizli bir xəzinə vardır.

***Nizami***

Dünyada məqamı bilməyən bir kəs
Pərdəli yolları düz gedə bilməz.

***Nizami***

Dad yarımçıq əlindən.
***Atalar sözü***.

# *Elm,*
# *təhsil, kitab*

*Dünyanı istəyən elmə sarılsın,*
*axirəti istəyən yenə elmə sarılsın.*
***Hz.Məhəmməd***

Elmlər insan ruhunun gözünü
təmizləyir və yenidən açır. Ruhun gözü min dənə
adi gözdən önəmlidir, çünki ancaq onun köməyi ilə
həqiqəti görmək mümkündür.

***Platon***

Elm bir nur, cəhl zülmətdir.

***Şəbustəri***

Niyyət elm ilə əməl arasında bir vasitədir.

***N.Tusi***

Nursuz göz kimidir elmsiz ürək.

***Marağalı Əvhədi***

Qüvvət elmdədir, başqa cür heç kəs
Heç kəsə üstünlük eyləyə bilməz.

***Nizami***

Təsadüfi kəşfləri
yalnız hazırlığı olan insanlar edir.

***Paskal***

Riyaziyyat insan ruhunun divanəliyidir.

***Uaythed***

Tənliklərin gözəlliyi onların
eksperimentə uyğun gəlməsindən daha önəmlidir.

***Dirak***

Elm təşkilatlanmış bilikdir.

***Spenser***

Elm bizim hissi təcrübəmizin
xaotik müxtəlifliyinin hansı isə vahid təfəkkür
sisteminə uyğunlaşdırılmasıdır.

***Eynşteyn***

Elm hər dildə birdir.

***Cavid***

Şərafətli elm heç bir millətin
malı deyil, kim ona yiyələnsə, onundur.

***Cəlaləddin Əfqani***

Bağlı bir qapıya açar axtarsan,
Ancaq alimlərdə axtar, taparsan.

***Nizami***

Alim bank xəzinədarına oxşayır:
onun əlində böyük xəzinələrin açarı var, amma
bu xəzinələr onun deyil.

***L.Berne***

Cəmiyyət həmişə cavan qalır, elm isə qocalır.

***Delbryuk***

Tələbələrinə elm arzusu
aşılamayan bir müəllim soyuq dəmiri
döyən dəmirçi kimidir.

***Horas Mann***

Elm bir müharibə meydanını xatırladır.
Yaradıcı alimlər ön cəbhədə olur və əsl döyüş də burada gedir. Arxa cəbhədə olanların vəzifəsi öndəkiləri silah-sursat və azuqə ilə təmin etmək, tutulmuş ərazilərdə səliqə-sahman yaratmaqdır.

***Əbu Turxan***

Əgər mən başqalarından daha uzaqları görə bilmişəmsə, onda bu, yalnız nəhənglərin çiyinlərində durduğuma görə mümkün olmuşdur.

***Nyuton***

Elmdə heç bir ideya ehkam deyil; hər bir adam ən məşhur alimin ən çox yayılmış ideyasını da istənilən vaxt yenidən yoxlamaq səlahiyyətinə malikdir.

***Əbu Turxan***

Elm neçə əsrlər ərzində hamılıqla tikilən möhtəşəm bir məbəddir ki, onun hər bir daşını qoymaq bir çox alimlərə bütün ömrü müqabilində müyəssər olmuşdur.

***Puankare***

Elm əvvəlcədən yazılmış kitabdır.
Və alimlər onu yazmağa deyil, oxumağa
çalışmalıdırlar.

***Əbu Turxan***

Əsərləri olmayan alim
meyvə gətirməyən ağaca bənzəyir.

***Sədi Şirazi***

Elm ideyalar dramıdır.

***Eynşteyn***

Dünyanın hər yerində həqiqi
hökmdar olan elm vaxtaşırı öz paytaxtını
dəyişmiş, gah Şərqdən Qərbə, gah da
Qərbdən Şərqə köçmüşdür.

***Cəlaləddin Əfqani***

Elmi biliklər üst-üstə yığılarkən
bəzən ən qiymətliləri altda qalır, onları tapıb
yenidən üzə çıxarmaq üçün hərdən bütün sistemi
dağıdıb yenidən qurmaq lazım gəlir.

***Əbu Turxan***

Bütöv elm kontekstinə
salınmamış ayrıca bir ideya, nə qədər dərin olsa belə,
hələ elmi bilik sayıla bilməz.

***Əbu Turxan***

Alimlərin ruhu elm məbədində əbədi həyata qovuşur.

***Əbu Turxan***

İnsanlar uzun müddət
misi qızıla çevirmək arzusunda olublar.
İndi elm misi elə şeylərə çevirir ki,
qızıl ona həsəd aparır.

***Tur Xander***

Elm yolu bumeranqı xatırladır,
nə qədər uzağa getsə də, yenə ilkin əsaslara qayıdırsan.

***Tur Xander***

Elm yarandıqdan sonra hər şey
zaman-zaman onun qiyafətinə bürünüb
səliqə-sahman tapdı və günlərin birində o özünə də öz
donluğundan paltar biçmək fikrinə düşdü:
elm haqqında elm yarandı.

***Tur Xander***

Əvvəllər elmin sərhədləri
olan yer indi onun mərkəzidir.

***Lixtenberq***

Elmin hüdudları üfüqü
xatırladır: nə qədər çox yaxınlaşırsansa,
o qədər çox uzağa çəkilir.

***Buast***

Təbiət özü ahəng və gözəllik
prinsipləri ilə qurulubsa, onu öyrənən elm də bu
prinsiplərə sadiq qalmalıdır.

***Əbu Turxan***

Elm Təbiət kitabını oxuyur
və öyrəndiklərini təbiətin öz üzərində
sınaqdan keçirir.

***Əbu Turxan***

Nəzəriyyə elmin ruhu,
təcrübə – bədənidir. Nəzəriyyəsiz fikir dənizində
və faktın meşəsində asanlıqla azmaq olar.

***D.İ. Mendeleyev***

Ruhun sirləri təbiət
elmlərinin metodları ilə açılmalıdır.

***Husserl***

Fakt təsvir məqamında olan hadisədir.

***Dante***

Hər bir dəqiq elm təxminlərə söykənir.

***Rassel***

Xəyal qanadlarında uçan
elm möcüzələr yaratmağa qadirdir.

***Faradey***

Bir vaxt gələcəkdir ki, elm xəyalı qabaqlayacaq.

***Jül Vern***

Elm bütün nailiyyətlərinə görə xəyala borcludur.

***Emerson***

Ancaq təxəyyülün oyatdıqlarını öyrənmək olar.

***Başlyar***

İndi artıq isbat olunmuş şeylər
əvvəlcə ancaq təxəyyüldə mövcud olmuşdu.

***Bleyk***

Elmdə irəli gedib mənəviyyatda
geridə qalan insan son nəticədə irəli yox, geriyə gedir.

***Aristotel***

Elmin mənəvi siması
onun kimin əlində olmasından asılıdır.

***Əbu Turxan***

Elmə xilaskar kimi baxmaq
robotdan mərhəmət diləmək kimi bir şeydir.

***Tur Xander***

Müasir insan elmin qanadlarında
elə uzaqlara uçmuşdur ki, özündən ayrı düşmüşdür.

***Tur Xander***

Elm dünyanı öyrənməyə kömək edir,
amma yaxşı yaşaya bilmək ayrı hikmətdir.

***Labryuer***

Elmin dəyirmanına su tökənlər
bəzən bu dəyirmanın kimin üçün üyütdüyünün
fərqində olmurlar.

***Əbu Turxan***

Ancaq elm bəşəriyyəti həqiqətə,
ədalətə və xoşbəxtliyə apara bilər.

***Emil Zolya***

Problemin düzgün qoyuluşu onun həllinin yarısıdır.

***Əbu Turxan***

Alim düzgün cavabları
verən yox, düzgün sualları qoyandır.

***Levi-Stross***

Hər hansı bir elmin açarı sual işarəsidir.

***Balzak***

Alim üçün yaddan çıxarmağı bacarmaq
yadda saxlamağı bacarmaqdan daha vacibdir.

***Xudu Məmmədov***

“Elmi biliklərin əsasında əməli
fəaliyyət dayanır”.

***Qədim dövrün balladası***

“Əməli fəaliyyətin əsasında
elmi bilik dayanır”.

***Yeni dövrün balladası***

Elm və sənət qoşa qanaddır.

***Xudu Məmmədov***

Kim ki, elm öyrənib
tətbiq etmir, yeri əkib becərən, amma
məhsulundan istifadə etməyən
adama bənzəyir.

***Nəvai***

Elmsiz praktikaya aludə olan
adam gəmini sükansız və kompassız idarə etmək
istəyən kapitana bənzər; o, hara
üzdüyünü özü də bilməz.

***Leonardo da Vinçi***

Nadanlar elmə həqarətlə baxır,
savadsızlar ona heyran olur, müdriklər isə
ondan bəhrələnirlər.

***F.Bekon***

Ləzzətlə yemədiyin yemək
usandırıcı olduğu kimi, ehtirasla məşğul
olmadığın elm də hafizəni korlayır: o, udduğunu
mənimsəmək iqtidarında olmur.

***Leonardo da Vinçi***

Fitri ağıl hər hansı bir təhsili
əvəz edə bilər, amma heç bir təhsil fitri ağlı
əvəz edə bilməz.

***Şopenhauer***

İnsanlar təhsil üçün yox,
təhsil insanlar üçündür və o, insanların konkret
ehtiyaclarına uyğunlaşdırılmalıdır.

***Əbu Turxan***

Açılan hər məktəb
bir həbsxananın bağlanması deməkdir.

***Hüqo***

Bütün ölkələr üçün vahid universitet
modeli ola bilməz. Hər bir universitet öz ölkəsinin
ictimai həyatının üzvi hissəsi
kimi formalaşmalıdır.

***R.Taqor***

Tərbiyə – nəfslə, təhsil – biliklə
bağlıdır. İnsan yetkinləşdikcə bu iki proses
bir-birini tamamlayır.

***Hüqo***

Hər kitab özü bir xəzinə
olmaqla yanaşı, həm də neçə-neçə
başqa xəzinələrə açardır..

***Əbu Turxan***

Bütün elmlərin bünövrəsi təhsillə qoyulur.

***Əbu Turxan***

Elm adamlarının qiymətini
bilməyən, onlara layiq olduqları mükafatı
verməyən ölkələr inkişaf edəcəklərinə
ümid bəsləməsinlər.

***Volter***

Heç bir millət qılınc və tüfənglə
qabağa getməyibdir. Ancaq elmin gücünə
tərəqqi etmək mümkündür.

***Nəriman Nərimanov***

Tərbiyə də ancaq elmin gücü ilə olur.

***Nəriman Nərimanov***

Elm inkişafın ön cəbhəsidir,
mədəniyyət isə onun ictimai həyatda buraxdığı izdir.

***Əbu Turxan***

Elmi təfəkkürdə həmişə poeziya elementi olur.

***Eynşteyn***

Az pulla böyük sərvət
əldə etmək istəyirsənsə, – kitab al!

***Tur Xander***

Planınız 1 illikdirsə – düyü əkin,
10 illikdirsə – ağac əkin, 100 illikdirsə – insanlara
təhsil verin.

***Çin atalar sözü***

Ən yaxşı kitab sənin qəlbini vərəqləyən kitabdır.

***Əbu Turxan***

Ordu torpaqları, kitab könülləri fəth edir.

***Əbu Turxan***

İdmanın bədənə
göstərdiyi təsiri kitab beyinə göstərir.

***E. Hant***

Kitabı müəllif,
onun aqibətini isə cəmiyyət yaradır.

***Hüqo***

Bir mədəniyyəti yox eləmək
üçün kitabları yandırmağa gərək yoxdur.
Oxumağın qarşısını alın, yetər.

***R.Bredberi***

Yalnız qəlbimizdəki suallara
cavab verən şeyləri oxumaq lazımdır.

***L.N.Tolstoy***

İki dəfə oxunmağa layiq
olmayan kitabı heç bir dəfə də oxumağa dəyməz.

***K.Veber***

Kitab bir nəslin digər nəslə mənəvi vəsiyyətidir.

***A.İ.Gertsen***

Kitablar bizi ötən əsrlərin varisi edir.

***Nəcəf bəy Vəzirov***

Kitablar qocalıqda ən yaxşı dost,
cavanlıqda ən yaxşı rəhbərdirlər.

***Smayls***

Pis kitab da bizi pis yoldaşlar kimi korlayır.

***Fildinq***

Yaxşı ki, cahillər kitab oxumurlar.
Yoxsa kitab nüfuzdan düşərdi.

***Mövlana***

# *İş və əməl*

*"Gördüyü işə görədir*
*hər kəsin öz qazancı"*
***Quran 2/2***

Hər hansı iş hərəkətsizlikdən yaxşıdır.

***Demokrit***

Hərəkətlər qabiliyyətlərə gətirir.

***Ş.Y. Sührəvərdi***

Əmlaka bağlılıq adətən bu əmlakı öz zəhməti ilə qazanmayanlarda olur.

***Platon***

İş həyatdan zövq almağın ən yaxşı üsuludur.

***Kant***

İlk başlanğıc əməldir, işdir.

***Göte***

İşləməyən dişləməz.

***Atalar sözü***

Kölgədə bitən ağacın kölgəsi olmaz.

***Atalar sözü***

İş bədənin cövhəridir.

***Atalar sözü***

Cürət edə bilməməyimizin
səbəbi işlərin çətinliyi deyil. Sadəcə, cürət edə
bilmədiyimiz üçün işlər çətin olur.

***Seneka***

Gücün çatan işdən yapış.

***Atalar sözü***

Torpaq becərənin, iş bacaranındır.

***Atalar sözü***

Boş oturmaqdansa, boşuna işləmək yaxşıdır.

***Atalar sözü***

İşlənməyən dəmir paslanar.

***Atalar sözü***

Sözü işə çevirmək,
işi sözə çevirməkdən qat-qat çətindir.

***M.Qorki***

"Halva-halva" deməklə ağız şirin olmaz.

***Atalar sözü***

Ehtiyac əməyi, əmək biliyi doğurmuşdur.

***Balzak***

İş ilə öyüd verən söz ilə öyüd verəndən yaxşıdır.

***Mövlana***

Əlindən iş gəlməyinin başına iş gələr.

***Əbu Turxan***

Əlindən iş gələn – iş görür,
iş gəlməyən – başqalarını öyrədir.

***B.Şou***

Heç bir işlə məşğul olmayan
insanın həmişə çoxlu köməkçiləri olur.

***L.N.Tolstoy***

Yarımçıq iş heç iş görməməkdən daha pisdir.

***Əbu Turxan***

Yarımçıqlar toplana bilmir.

***Əbu Turxan***

Bir bütöv iş yüz yarımçıqdan üstündür.

***Əbu Turxan***

Böyük iş kiçik işlərin toplanmasından
yaranmır. Böyük iş üçün böyük ideya lazımdır.

***Əbu Turxan***

Nəhəng işlər nəhəng vasitələrlə həyata keçirilir.

***A.İ.Gertsen***

Böyük işləri vəd vermədən həyata keçirin.

***Pifaqor***

Çətin iş vaxtında etmədiyimiz
asan işlərin üst-üstə yığılması ilə meydana gəlir.

***Russo***

Böyük məqsədə çata bilmək
üçün kiçik məqsədlərdən imtina etməyi
bacarmaq lazımdır.

***Əbu Turxan***

Məqsədə gedən yolda çox qurbanlar vermək olar;
məqsədin özündən başqa!

***Əbu Turxan***

Kiçik planlar böyük planlardan
kənarda yox, onların tərkib hissəsi kimi qurulmalıdır.

***Əbu Turxan***

Kiçik işlərdə həddən artıq
canfəşanlıq edənlər böyük işlərə yaramırlar.

***Laroşfuko***

Çalışmayana Allah da yardım etməz.

***Sofokl***

İnsan özünə əyləncə və məşğuliyyət
tapa bilməyəndə, başqalarını əyləndirməyə başlayır.

***Vovenarq***

Ən ləng insan da, əgər məqsədli iş
görürsə, məqsədsiz dolaşan insandan daha cəld gedir.

***Lessinq***

Məqsədə yalnız o zaman çatmaq olar
ki, vasitənin canına məqsədin öz təbiəti işləmiş olsun.

***Lassal***

Gözüaçıq olmayan insanlar məqsədə
çatmayan yox, ondan yan keçən insanlardır.

***Laroşfuko***

Məqsəd yoxdursa, heç nə edə bilməzsən.
Məqsəd dəyərsizdirsə, böyük bir iş görə bilməzsən.

***Didro***

Başlama, başladınsa, başa çatdır.

***Əbu Turxan***

İnsan özünü bir işə tamamilə
həsr etdikdə Allah da ona yardım edər.

***Göte***

Eyni nəticəyə müxtəlif yollarla
gəlmək olar. Məharət bu yolların ən qısasını
seçə bilməkdədir.

***Əbu Turxan***

İşə başlamaq işin yarısıdır.

***Atalar sözü***

Hər hansı bir məqsədə ciddi
can atmaq ona nail olmağın yarısıdır.

***Humboldt***

İnsan işlərini tamamlamaq barədə
dara düşəndə yox, genişlikdə düşünməlidir.

***Əbu Turxan***

Əgər səhv etməsəydim, çox az iş görə bilərdim.

***Qabriel Marsel***

Kamil bir palançı olsa da insan,
Yaxşıdır yarımçıq yüz papaqçıdan.

***Nizami***

Səhv etməkdən qorxan heç bir işə başlaya bilməz.

***Əbu Turxan***

Məsləhətli don gen olar.

***Atalar sözü***

Yalnız uduzulmuş hesab
etdiyin işi qəti olaraq uduzursan.

***A.Frans***

Bu gün keçmiş nəsillərin gördükləri
böyük işlər əvvəllər bir insanın ağlında
gizli yaranan bir fikir olub.

***Cübran***

Hər ümidsiz işdə xeyli ümid var,
Qaranlıq gecədən ağ səhər doğar.

***Nizami***

Yüz ölç, bir biç.

***Atalar sözü***

Bəsləsən atlas olaq tut yarpağından.

***Nizami***

Torpağa mərhəmət xeyirdir, inan
Lütf etsən gül verər, zülm etsən – tikan.

***Nizami***

Bağa baxarsan bağ olar, baxmazsan – dağ olar.

***Atalar sözü***

Alın yazısını ancaq alın təri ilə yumaq mümkündür.

***Cübran***

Ən şirin meyvə öz zəhmətimizin meyvəsidir.

***Vovenarq***

Düşüncə və zəhmətin barı tez yetişmir.

***Vovenarq***

Tənbəllər həmişə nə isə etmək niyyətində olurlar.

***Vovenarq***

Zərif ağ ipək qara işlərdən (toxunuşdan) yaranır.

***Mənsur Həllac***

İş iki gözlə görülməlidir;
biri "ayağın altını seçməli", o biri həmişə
hədəfə baxmalıdır.

***Əbu Turxan***

İş bekarçılıqdan gələn nöqsanları aradan qaldırır.

***Seneka***

İşgüzar adamlar işdən çox, işsizlikdən yorulurlar.

***Vovenarq***

Çörəyi ver çörəkçiyə, birini də üstəlik.

***Atalar sözü***

Əlinə tikan batmadan qızıl gül toplaya bilməzsən.

***B.Franklin***

Müxtəlif yollarla gedən
insanlar bir yerdə işləyə bilməzlər.

***Konfutsi***

Ruzi yalnız elmlə əldə edilsəydi,
cahildən pis yaşayan olmazdı.

***Sədi Şirazi***

Kiçik işlərdə də böyük olmaq lazımdır.

***A.Morua***

Səbr və zaman
güc və ehtirasdan daha böyük işlər görür.

***Lafonten***

Səbr ilə yaranar hər böyük zəfər.

***Səməd Vurğun***

Asta gedən usta gedər.

***Atalar sözü***

Tələsən tərsə düşər.

***Atalar sözü***

Öküzün gücü
böyürməsinə görə yox, iş vaxtı üzə çıxır.

***Rəsul Həmzətov***

Ümid üzülməsə, hər iş çözülər.

***Atalar sözü***

Dünyada heç bir
böyük iş ehtirassız görülə bilməz.

***Hegel***

Heyrətlənmək üçün bir an kifayətdir;
heyrətamiz bir iş görmək üçün isə illər lazımdır.

***Helvetsi***

Ən böyük çətinliklər
onları gözləmədiyimiz yerdən çıxır.

***Göte***

Mən işləməyi özüm üçün həm də əyləncə sayıram.

***Edison***

Hər işin canı axıra çatdırılmağındadır.

***Çingiz xan***

Öz eləyə biləcəkləri işi
bizim görməyimizlə adamlara yardımçı ola bilmərik.

***Linkoln***

Ən pis memar ən yaxşı arıdan
onunla fərqlənir ki, mumdan pətək hazırlamamışdan
öncə o onu öz beynində artıq hazırlayıb.

***K.Marks***

Hədəfə yaxınlaşdıqca çətinliklər artar.

***Göte***

Bizdən qabaqdadır avropalılar,
İşi iş bilənə tapşırır onlar.

***Şəhriyar***

Darıxma iş görünsə bir qaranlıq quyuda
Çünki qaranlıqdadır o dirilik suyu da.

***Sədi Şirazi***

Örkən nə qədər uzun olsa,
yenə doğanaqdan keçər.

***Atalar sözü***

Düzgün yol məqsədə çatmaq üçün ən yaxın yoldur.

***N.Tusi***

Su bardağı suda sınar.

***Atalar sözü***

Balıq vermə, balıq tutmağı öyrət.

***Atalar sözü***

Tək əldən səs çıxmaz.

***Atalar sözü***

İş görənlə iş gördürən yarıdır.

***Atalar sözü***

Uşağı buyur, dalınca yüyür.

***Atalar sözü***

Sən ağa, mən ağa, inəkləri kim sağa.

***Atalar sözü***

# *Güclü-zəif, aqil-cahil*

*Allah hər kəsə ancaq*
*daşıya biləcəyi qədər yük verir.*
***Quran 23/62***

Hikmətlə tənzimlənməyən kobud qüvvə
öz məxsusi ağırlığı altında məhvə məhkumdur.

***Horatsi***

Ağıl olan yerdə zora ehtiyac yoxdur.

***Heydər Əliyev***

Özündən daha qaba gücə
rast gəlməyincə ağıl yada düşmür.

***Əbu Turxan***

Özünü ələ almağı bacaran insan hamıdan güclüdür.

***Seneka***

Cəsarət təhlükə qarşısında
ağıl və zəkadan istifadə edə bilməkdir.

***Platon***

Bəzən sığınacaqların özü
ən böyük təhlükəyə çevrilir.

***Əbu Turxan***

Ağıl qüvvət üçün sükandır.

***Əbu Turxan***

Zoru düzgün dəyərləndirəndə,
onu zərərsizləşdirmək də asan olur.

***Əbu Turxan***

Zəif iradələr güclü iradənin təsir dairəsinə
düşəndə tərksilah olur və insan öz simasını itirir.

***Əbu Turxan***

Kim ki, öz biliyindən, bacarığından
artıq iddialar edir, o həmişə məğlub olur.

***Heydər Əliyev***

Ən güclü insan da mühitin təsirlərinə məruz qalır.

***Əbu Turxan***

Əlində yumşalsa dəmir, bunu bil,
Tədbirlə yumşalar, hiddətlə deyil.

***Nizami***

Qüdrətli olmaq zəifi öz səviyyənə qaldıra bilməkdir.

***R.Taqor***

Əl vurma gücün çatmayan daşa,
Qaldıra bilməzsən zora düşərsən.

***Aşıq Ələsgər***

Kəşfiyyat yaxşı işləməyəndə
düşmən gücündən xəbərsiz olursan. Amma ən pisi öz
gücünü düzgün dəyərləndirə bilməməkdir.

***Əbu Turxan***

Dünyanın ən böyük qorxağı
olduğumu etiraf edirəm, çünki pis bir iş görməyə
cəsarət edə bilmirəm.

***Ksenofont***

Çox vaxt gücsüzlüyü və süstlüyü səbr zənn edirlər.

***L.Habbard***

Zavallı olmaq kimə isə haqq qazandıra bilməz;
zəhmət çəkib güclü olmaq lazımdır.

***Əbu Turxan***

Savaş zamanı
döyüşənlərdən daha çox qaçanlar ölür.

***Selma Lagerlöf***

Cəsuru qorxudan boş güllə
ən böyük qorxağı qorxutmaya da bilər.

***Nitsşe***

Silah zəiflə güclü arasında fərqi aradan götürür.

***Əbu Turxan***

Mərd adam şikayət etmədən
əzab çəkir, zəif adam isə, əksinə,
əzab çəkmədən şikayətlənir.

***Ömər Xəyyam***

Böyük ruhlar iztirablarına səssiz şəkildə dözürlər.

***Şiller***

Uçuruma uzun müddət baxsan,
o uçurum sənin içindən baxar.

***Nitsşe***

Problemə kifayət qədər
qapılsaq gec-tez özümüzü bu problemin
bir hissəsi kimi görəcəyik.

***Duçarma aksiomu***

Daha mürəkkəb olan daha kövrək olur.

***Əbu Turxan***

Güclü ehtiraslar altında
çox vaxt zəif iradə gizlənmiş olur.

***V.O.Klüçevski***

Əsl qalib yüz dəfə qalib gələn yox,
axırıncı qalib gələndir.

***Əbu Turxan***

Güclülərin nikbin olmağa haqqı var.

***Q.Mann***

Ən böyük iradə özünü
yenidən yaratmaq əzmində təzahür edir.

***Əbu Turxan***

Nə zaman ki, zəifliklərimizi
bilirik, artıq bizə onlardan ziyan gəlməz.

***Lixtenberq***

Zəiflər heç vaxt bağışlamır.

***M.Qandi***

Ruhlar güclü olanda idarə edir,
zəif olanda isə onları başqaları yönəldir.

***Cübran***

Güc qaranlıqda qorxunc görünür;
onun nəcabəti ancaq xidmət etdiyi amalın
işığında üzə çıxır.

***Əbu Turxan***

Zəiflərin faciəsi üçün güclülər məsuliyyət daşıyır.

***Əbu Turxan***

El gücü – sel gücü!

***Atalar sözü***

İgid odur, hər əzaba qatlana,
İgid odur, atdan düşə atlana.

***Atalar sözü***

Ehtiyat igidin yaraşığıdır.

***Atalar sözü***

Yaş olma, – sıxarlar, quru olma, - sındırarlar.

***Atalar sözü***

Yetənə yetir, yetməyənə daş atır.

***Atalar sözü***

Ağıllılar axmaqlardan daha çox öyrənir,
nəinki axmaqlar ağıllılardan.

***Böyük Katon***

Cahillər çoxalan zaman ariflər qərib olur.

***Hz.Əli***

Axmaq – insanların onu yaxşı tanımadıqlarından, ağıllı isə, əksinə, özünün insanları tanımadığından şikayətlənir.

***Konfutsi***

Qızıl yüyən yabını köhlən etməz.

***Seneka***

Nadanlıq qürurla birləşdikdə təhlükəli olur.

***Aristotel***

Axmaq adam sussa yaxşıdır.
Amma o, bunu bilsəydi, axmaq olmazdı.

***Sədi Şirazi***

Ağıllı adamın axmaq qarşısında susması təəccüblü deyil, çünki nağara səsi tar səsinə, sarımsaq iyi ənbər qoxusuna həmişə üstün gəlir.

***Sədi Şirazi***

Nadanın ağıllıya nifrəti daha çoxdur,
nəinki ağıllının nadana.

***Sədi Şirazi***

Hikmət və nadanlıq
insan zəkasının iki nəhayətsiz qütbüdür.

***Əbu Turxan***

Ağıllı öyrənməyi, axmaq isə öyrətməyi xoşlayır.

***A.P.Çexov***

Özünün axmaq olduğunu bilən insan
artıq o qədər də axmaq deyil. Tənbəl isə tənbəl olduğunu
bilə bilər, ondan şikayətlənər, amma
yenə tənbəl olaraq qalar.

***J.Renar***

Başqasının sirrini vermək satqınlıq,
özünün sirrini vermək isə axmaqlıqdır.

***Volter***

İnsan nə qədər az düşünürsə, o qədər çox danışır.

***Monteskyö***

Sivilizasiyanın ən böyük xidməti
insana düşünməyi öyrətməkdir.

***Edison***

Ağıllı adam axmaqlıq edərsə,
onda bu, hər halda çox böyük axmaqlıq olar.

***Göte***

Ağıllı hərəkət etmək üçün təkcə ağıl azdır.

***F.M.Dostoyevski***

Heç nəyə heyrətlənməmək ağıl yox,
axmaqlıq əlamətidir.

***F.M.Dostoyevski***

Axmaqlar özlərini ağıllılar sırasına aid etməsəydilər,
ağıllı adamlar tənha olardılar.

***Vovenarq***

Axmağa məsləhət vermək
kora güzgü vermək kimi bir şeydir.

***İ.Müller***

Axmaq öndə dayanır ki,
hamı onu görə bilsin, ağıllı həmişə arxada
dayanır ki, hamını görə bilsin.

***S.Karmen***

Görünür, insan dünyasında
ən ədalətlə paylanmış nemət ağıldır. Çünki heç
kəs öz ağlından gileylənmir.

***Monteqyu***

Bu dünyada sevinc və pərişanlıq iç-içədir.
Sadəlövh adamlar bunların gah birini, gah da o
birini görürlər. Aqillər isə həyatın
hər iki üzünü görürlər.

***Əbu Turxan***

Cahilliyin üç növu var:
heç nə bilməmək, hamının bildiyi şeyi pis bilmək,
heç bilmək lazım olmayan şeyi bilmək.

***Düklo***

Axmaqlara veriləcək cavab sükutdur.

***Mövlana***

Nadanın savadlı adama nisbətdə
böyük üstünlüyü var: o həmişə özündən razıdır.

***Napoleon***

Ağıl sonradan ah çəkmək
üçün deyil; düşünüb tədbir görmək üçündür.

***Mövlana***

Ağıllıdan gələn cəfa cahillərin vəfasından yaxşıdır.

***Mövlana***

Cahilin sonda görəcəyi şeyi ağıllılar öncədən görür.

***Mövlana***

Elə uğursuz vəziyyət yoxdur ki,
ağıllı ondan nəsə bir xeyir götürməsin, elə
uğurlu durum yoxdur ki, axmaq onu
öz əleyhinə çevirməsin.

***Laroşfuko***

Olmasaydı sarsaqlar, ac qalardı yaltaqlar.

***M.Ə.Sabir***

Ayağı yerdə olmaq ayıb deyil,
ayıb – başını yerdə qoyub ayağı ilə
göyə çıxmaq cəhdidir.

***Əbu Turxan***

Bəziləri Günəşin işığında
dünyaya baxmaq əvəzinə, gözlərini Günəşin
özünə zilləyib kor olur.

***Əbu Turxan***

Çəkicdən başqa heç nəyi
olmayanın gözləri hər yerdə ancaq mismar görər.

***Hüqo***

Naşı ox dosta dəyər.

***Əbu Turxan***

Yetənə yetir, yetməyənə daş atır.

***Atalar sözü***

Ağlı gödək olanın dili uzun olar.

***Aristofan***

Nadanın qulaqlarında
ən canlı nitq də yuxuya gedir.

***Şekspir***

Boş çəllək danqıldayar.

***Atalar sözü***

# *Ruh və bədən*

Əldən getməyincə dəyərini
anlaya bilməyəcəyimiz iki şey var:
sağlamlıq və gənclik.

***Hz. Əli***

Bədən nəfsi deyil,
nəfs bədəni idarə edir.

***Ş.Y. Sührəvərdi***

Nəfs bədənin sükanıdır.

***Ş.Y. Sührəvərdi***

Şüur nəfsin özünü ələ almasıdır.

***Berqson***

Özünü nəfsin ixtiyarına
buraxanlar – ağıla, ancaq ağılla yaşayanlar
isə özünə xəyanət edir.

***Əbu Turxan***

Ehtiras ağlı üstələyəndə
dünyada qlobal istiləşmə baş verir.

***Tur Xander***

Mütləqi də, mahiyyəti də,
sonsuzluğu və əbədiyyəti də insan ancaq ruhunun
ənginliyində tapa bilər.

***Əbu Turxan***

Qüdrət əqllə ruhun ittifaqındadır;
ayrılıqda əql ağıla, ruh – ehtirasa çevrilir.

***Əbu Turxan***

Bədənlə birləşəndə ruh əqldən
ayrılmış olur; bu məqamda əql insanı
tərk etməsə,yenidən əlini uzadıb ruhu öz
məqamına qaldıra bilər.

***Əbu Turxan***

Ruh sanki alternativ ruhlar sistemidir.
İnsan onların matrisasıdır.

***Tur Xander***

Ruhun əqldən ayrılması iki cür
ola bilər: birincisi, ruh göylərə yüksəlir və
öz ilahi mənşəyinə qayıdır; ikincisi, yerə enir və
bədənlə onu bağlayan məqamda qərar tutur.

***Əbu Turxan***

Hərənin öz əqli olmur; əql universaldır,
sadəcə kim onun qanadlarında daha uzağa uça bilirsə,
o da yeni biliklər fəth edir.

***Əbu Turxan***

İnsan bədəni dünyanın,
kainatın bir zərrəsi olduğu halda, insan ruhu dünyanı,
kainatı ehtiva etmək qüdrətindədir!

***Əbu Turxan***

İnsanın ruhun iki qütbü arasında
hansı məqamda qərar tutması əqldən asılı olur.

***Əbu Turxan***

Nəfs instinktdən başlayır, əqldə bitir.

***Tur Xander***

Əqlə yiyələnmək yox,
əql vasitəsilə biliklərə yiyələnmək lazımdır.

***Əbu Turxan***

Ruhun sabitliyi ancaq
ağıl ilə nəfsin müvazinəti sayəsində mümkün olur.

***Əbu Turxan***

Bəsirət gözü açılana qədər
insan dünyanı bədənin gözü ilə dərk etməyə çalışır.

***Əbu Turxan***

Bədəni öldürənlərdən çox,
ruhu öldürənlərdən qorxun.

***Platon***

Ruhu yenməyin ən asan
yolu nəfsə meydan açmaqdır.

***Əbu Turxan***

Bədən ən sədaqətli dostdur;
hətta biz ona zülm edəndə də, o bizi tərk etmir,
ta-a biz onu tərk edənədək.

***Əbu Turxan***

Bədən ruhsuz qalanda
ayrılığa dözməyib xiffətdən çürüyür.

***Əbu Turxan***

Ruhun təntənəsi
bədənin inkarı üzərində qurulmamalıdır.

***Əbu Turxan***

Öz ruhunun dərinliklərinə baş vur
ki, o zaman hər gün yeni üfüqlər açacaq, ayaq
dəyməmiş torpaqlar, dumduru çaylar, hələ heç
kimin görmədiyi səmalar, yeni ulduzlar,
yeni kəhkəşanlar kəşf edəcəksən.

***M.Unamuno***

Öz ruhumuzla başqalarını canlandırmaq
onlara sahib olmaq deməkdir.

***M. Unamuno***

Könüllərin birləşmək əzmi
insani mahiyyətin, bədənlərin birləşmək istəyi isə
heyvani başlanğıcın əlamətidir.

***Əbu Turxan***

Ruh nə qədər çox verirsə, o qədər zəngin olur.

***M.Unamuno***

Yaşadığımız həyatda söz sahibi
olmaq istəyiriksə, ruhani yaşantıların enerjisi
həyatımıza cəlb olunan ictimai mühiti işıqlandırmaq
və canlandırmaq üçün yetərli olmalıdır.

***Tur Xander***

Hər bir həzzin ən sevincli
məqamı qurtaranda üzə çıxır.

***Seneka***

Həmişə həzz almaq həzz almamaq kimidir.

***Volter***

Həzz almaq ümidi həzzin özü qədər xoşdur.

***Şekspir***

Bəzən bir dəqiqəlik həzz
ömürlük iztirabların səbəbi olur.

***Viland***

Həzm olunmayan yemək onu yeyən adamı yeyir.

***Əbül Fərəc***

İnsan yediyinin hesabına yox,
həzm etdiyinin hesabına yaşayır. Bu qayda həm ağıla,
həm də bədənə aiddir.

***B.Franklin***

Ləzzətlə yemədiyin yemək usandırıcı
olduğu kimi, ehtirasla məşğul olmadığın
elm də hafizəni korlayır: o udduğunu
mənimsəmək iqtidarında olmur.

***Leonardo da Vinçi***

İstəklər əhvaldan və şəraitdən
asılı olaraq dəyişir. Məqsəd isə ağıla əsaslandığı
üçün sabit qalır. Ona çatmaq üçün isə neçə-neçə
istəklərdən imtina etmək lazım gəlir.

***Əbu Turxan***

Nəfsi bir dəfə boğmaq asandır,
amma o, səni zəif məqamda yaxalayana qədər
hər dəfə yenidən qayıdır.

***Əbu Turxan***

Ehtiras – yelkənli gəmini
hərəkətə gətirən külək kimidir, hərdən
gəmini batıra bilər, amma onsuz
üzmək də mümkün deyil.

***Volter***

Ehtirasını idarə et, yoxsa o səni idarə edər.

***Epiktet***

Güclü ehtiras o vaxta qədər faydalıdır
ki, insan onu idarə etmək əzmində olsun; nəzarətdən
çıxanda onun ilk qurbanı insan özü olur.

***Əbu Turxan***

Ehtiras ona görə yaradıcılığın
mənbəyidir ki, ruh ilə bədən ehtiras
məqamında birləşir.

***Əbu Turxan***

İradə zəif olanda,
ağıl başqasının qulluqçusuna çevrilir.

***Əbu Turxan***

Öz iradənin ağası, öz vicdanının qulu ol!

***Mariya Ebner-Eşenbax***

Məgər ruhunuzu oxşayan bu ud
həmin o ağac deyilmi ki, əvvəlcə bıçaqla oyulub?!

***Əmin ər-Reyhani***

Ehtiras – bədənin ruha,
ruhun bədənə çevrilmək əzmidir.

***Əbu Turxan***

Ən qorxulu qəzəb səbirli adamın qəzəbidir.

***Con Drayden***

Qəzəbin alovu ilk əvvəl
sahibini yandırar. Sonrakı qığılcımı düşmənə
ya çata, ya çatmaya...

***Linkoln***

İnsanı onun cəsədində axtaranlar
alovun nişanələrini küldə axtaranlar kimidir.

***Əbu Turxan***

Bütün ömür boyu ruh yandıqca
səpələnir, paylanır və onun qığılcımları
münbit mühitlərə düşərək neçə-neçə yeni
həyatların başlanğıcına çevrilir.

***Əbu Turxan***

Təqva qədər əsrarəngiz bir duyğu yoxdur.

***Əbu Turxan***

Fəzilət ruhun sağlamlığı, sağlamlıq
bədənin fəzilətidir.

***Prudon***

Sağlam bədəndə sağlam ruh olar.

***El hikməti***

Sağlamlıq təvazökardır,
xəstəlik isə özünü tez biruzə verir.

***Əbu Turxan***

Ən pis xəstəlik
“qorxaq” xəstəlikdir; həkimi görəndə gizlənir.

***Əbu Turxan***

Qüvvətli ruh zəifləmiş bədəni xilas edir.

***Hippokrat***

Könül xoşluğu
bədənin daha yaxşı vəziyyəti üçün şərtdir.

***Platon***

Sağalmağın şərtlərindən biri sağalmaq istəməkdir.

***Seneka***

Ehtiras damla-damla toplanır
və əgər damla ikən uzaq dura bilməsən, selə çevriləndə
qarşısında durmaq çətin olur.

***Əbu Turxan***

O qədər çox yemə ağırlıq etsin,
O qədər ac qalma, can əldən getsin.

***Sədi Şirazi***

Mədə çox dolanda ürəyi sıxışdırır.

***Əbu Turxan***

Maddi dünyanın «sifarişlərinə» həddindən artıq aludə olanda insan öz ruhani başlanğıcını unudur.

***Əbu Turxan***

Hirs gələr – göz qızarar, hirs gedər – üz qızarar.

***Atalar sözü***

Hirsli başda ağıl olmaz.

***Atalar sözü***

# *Var-dövlət*

*Dünya malı dünyada qalacaq.*
***Atalar sözü***

Sahib olduğundan artıq
bir şey istəməyən insan zəngindir.

***Siseron***

İnsanın ən böyük varı –
özünün var olmasıdır.

***Əbu Turxan***

Kasıb o kəs deyil ki, onun az şeyi var.
Kasıb o kəsdir ki, malik olduğundan artıq şey istəyir.

***Seneka***

Zəngin o adamdır
ki, nəyi varsa, onunla kifayətlənir.

***Bar-Ebrey***

Xəsis öz sərvətinin
ağası deyil, sərvət onun ağasıdır.

***Bion***

Qəlbində var-dövlətini itirməyə
hazır olmayan insana bu var-dövlət heç vaxt
sevinc gətirməyəcəkdir.

***Seneka***

Xəsis adam kasıb yaşayır ki, öləndə varlı ölsün.

***Helvetsi***

Bu günün israfçısı sabahın dilənçisidir.

***Sokrat***

Xəsis həmişə ehtiyac içində yaşayır.

***Horatsi***

Var-dövlət –
Haqq yolunda xərclənəndə fəzilətə,
əks halda rəzalətə vəsilə olur.

***Əbu Turxan***

Könlü açıq olanların əlləri də açıq olur.

***Mövlana***

Acgöz adam dünyaya sahib
olsa da, gözü yenə onda-bundadır.

***Balasaqunlu Yusif***

Pulun çoxluğu gözün toxluğuna dəlalət eləmir.

***Tur Xander***

Müəyyən bir həddə çatanda pul
öz sahibini də satın alır.

***Əbu Turxan***

Əgər pulun dəyərini bilmək istəyirsənsə,
get birindən borc istə.

***B. Franklin***

"Pul hər şeydir" deyən
adam pul üçün hər şeyə gedər.

***B. Franklin***

Yoxsulluğun qüruru olmur,
çünki boş torbanı dik qoymaq olmaz.

***Düma***

Çox zəngin adam harın ola bilər,
qürurlu ola bilməz, çünki var-dövlətini itirmək qorxusu
qürurlu olmağa imkan vermir.

***Əbu Turxan***

Var-dövlət çox olduqca,
onun fövqünə qalxmaq üçün daha böyük ruhani
enerji tələb olunur.
Günlərin bir günü ruh daha varlığın ağırlığını,
cazibə gücünü dəf edə bilmir və insan öz
var-dövlətinin içində itib batır.

***Əbu Turxan***

Oğru varlını, varlı isə yoxsulu soyur.

***B. Şou***

Pul ağıllı adam üçün vasitə,
axmaqlar üçünsə məqsəddir.

***Adrian Dekursel***

Pulun öldürdüyü ruh
qılıncın öldürdüyü bədəndən çoxdur.

***V. Skott***

Ancaq ruh taxtdan salınanda pul hakim ola bilər.

***Əbu Turxan***

Pul qazanmaq qabiliyyət tələb edirsə, onu düzgün
xərcləmək ikiqat qabiliyyət və mədəniyyət tələb edir.

***Əbu Turxan***

Özü qazanmayan var-dövlətin qədrini bilməz.

***El hikməti***

Pul şərab kimidir.
Müəyyən həddə qədər adamı hala gətirir,
bir az ondan artıq olanda cuşa gətirir,
lap artıq olanda isə huşunu başından alır.

***Əbu Turxan***

Puldan da vacib şeylər var,
amma pulsuz bu şeyləri əldə edə bilməzsən.

***Merime***

Pul da silah kimi ağıllı adamda
olanda onu qoruyur, naqis adamda olanda həm özü,
həm də ətraf üçün təhlükəyə çevrilir.

***Əbu Turxan***

Əgər insan pulun hər şeyə qadir
olduğunu söyləyirsə, onda bilin: onun pulu yoxdur,
heç vaxt da olmayıb.

***E. Hau***

Var-dövlət və şöhrət dəniz suyu kimidir:
içdikcə, yanğı daha da artır.

***Şopenhauer***

Bizim başqalarına verdiyimiz
bizi özümüz özümüzə verdiyimizdən daha da
çox zənginləşdirir.

***Şarl Quno***

İnsanlar adətən malik olduqlarından
həzz almaq əvəzinə, malik olmadıqlarından danışırlar.

***V.Q. Belinski***

Artıq tamah daş yarar, daş qayıdıb baş yarar.

***Atalar sözü***

Niyə insanlar kasıb olduqlarına
görə utanırlar, varlı olduqlarına görə – yox?!

***F. Ranevskaya***

Var-dövlət insanlara bəzən
onu itirmək qorxusundan başqa heç nə vermir.

***Rivarol***

Ataların var-dövləti
çox vaxt övladlara bədbəxtlik gətirir.

***Cübran***

İnsanın yığdığı var-dövlətdən
faydalana bilməməsinin səbəbi elə onun varlanmasına
imkan açan qabiliyyətlərdir.

***Rivarol***

Pul – yaxşı nökər, pis ağadır.

***F.Bekon***

İnsanlar üç cürdür:
pulun köləsi olanlar, pulun dostu olanlar
və pulun ağası olanlar.

***Karneqi***

Malik olduğun pul sənə azadlıq verir,
dalınca qaçdığın pul – səni kölə edir.

***Russo***

Cəmiyyət o zaman çiçəklənər ki,
onun zənginləri maarifpərvər olsun.

***Əbu Turxan***

Süleyman mülkünü axtarma ki, o, hardadır
Mülk elə həmin mülkdür, bəs Süleyman hardadır?

***Nizami***

Mal sahibi, mülk sahibi,
Hanı bunun ilk sahibi.
Mal da yalan, mülk də yalan,
Al bir az da sən oyalan.

***Yunus İmrə***

Çörəyim artdıqca əksildim haman
Yoxsulluq yaxşıdır sail olmaqdan.

***Sədi Şirazi***

Pul əl çirkidir.

***Atalar sözü***

Pul pul gətirər.

***Atalar sözü***

Yellə gələn sellə gedər.

***Atalar sözü***

Çox yemək insanı az yeməkdən də qoyar.

***Atalar sözü***

Haram yolla qazanılan harama sərf olunar.

***Atalar sözü***

Yaxşı oğul ata malını neylər,
pis oğul ata malını neylər!

***Atalar sözü***

Kasıb çıxarını bilsə, geydiyi atlas olar.

***Atalar sözü***

Toxun acdan xəbəri olmaz.

***Atalar sözü***

Ac toyuq yuxusunda darı görər.

***Atalar sözü***

Tamarzıdan al, dadanmışa ver.

***Atalar sözü***

Tamahkara dünyanı da versən, doymaz.

***Sədi Şirazi***

Dama-dama göl olar, dada-dada heç olar.

***Atalar sözü***

Varlığa nə darlıq.

***Atalar sözü***

Qarının toxluğu müvəqqəti, gözün toxluğu daimidir.

***Əbu Turxan***

Hərə ayağını öz yorğanına görə uzatmalıdır.

***Atalar sözü***

Kor nə istər, iki göz, biri əyri, biri düz.

***Atalar sözü***

# *Mündəricat*

***Ön söz*** ........ 3
*Giriş əvəzi:* ***Dildə yatan fəlsəfə*** ........ 7
***İnsan*** ........ 33
***Xoşbəxtlik*** ........ 47
***Mənəviyyat*** ........ 59
***Din, inam, iman*** ........ 93
***Yer, göy, dünya*** ........ 109
***Zaman-məkan*** ........ 133
***Tale, həyat və ölüm*** ........ 145
***Gözəllik*** ........ 179
***Məhəbbət*** ........ 193
***Ailə, qadın, kişi*** ........ 235
***Dostluq*** ........ 249
***Tarix, cəmiyyət, şəxsiyyət*** ........ 263
***Dövlət, millət, vətən*** ........ 285
***İdeya, hikmət, fəlsəfə*** ........ 309
***Ziyalılıq, müdriklik, dahilik*** ........ 333
***Zəka, ağıl, hiss*** ........ 359
***Dil, nitq, söz*** ........ 383
***Ədəbiyyat və incəsənət*** ........ 403
***Azadlıq, haqq, ədalət*** ........ 431
***Həqiqət və bilik*** ........ 449
***Elm, təhsil, kitab*** ........ 479
***İş və əməl*** ........ 497
***Güclü-zəif, aqil-cahil*** ........ 513
***Ruh və bədən*** ........ 529
***Var-dövlət*** ........ 543

# *Aforizmlər: seçilmişlərdən seçilmişlər*

**Prof. Dr. Səlahəddin Xəlilovun təqdimatında**